**MƏHƏRRƏM MƏMMƏDOV**

# III RESPUBLİKA: MİLLİ İNKİŞAF MODELİ VƏ STRATEGİYASI

BAKI - 2008

# III RESPUBLİKA: MİLLİ İNKİŞAF MODELİ VƏ STRATEGİYASI


Baş məsləhətçi: **Ziya Məmmədov,**
Nəqliyyat naziri

Elmi redaktorlar: t.e.d., prof. **Seyfəddin Qəndilov**,
f.e.n. **Novruz Məmmədov**

Elmi məsləhətçilər: s.e.n.**Aydın Mirzəzadə**,
Milli Məclisin deputatı t.e.n.
**Lətifə Məmmədova**,
**Məlahət Həsənova,**
Milli Məclisin deputatı

Buraxılışa məsul: **Günay Hacıyeva**

Redaktor: **Vüqar Hümbətov**
"Parlament" qəzetinin
baş redaktoru


Kitabda Prezident İlham Əliyevin prezidentlik fəaliyyətini əhatə edən, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə dinamik inkişafın təmin olunması, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı görülən geniş miqyaslı işlər öz əksini tapmışdır.

Kitaba habelə nəqliyyatın bütün sahələri üzrə dinamik inkişaf, yol infrastrukturu üzrə nəzərdə tutulmuş işlərin icrası, III Azərbaycan Respublikasının milli inkişaf modeli daxil edilmişdir.

Burada Azərbaycan dövlətinin mübarizələrdə möhkəmlənməsi, hüquqi, demokratik, unitar dövlətin yaranma və möhkəmlənmə prosesində Ümummilli lider Heydər Əliyevin əvəzolunmaz rolu təhlil edilir. Onun seçdiyi yolun konseptual zənginliyi açıqlanmaqla yanaşı onun milli dövlətçilik konsepsiyasının yaradılmasında, müstəqil Azərbaycanın formalaşmasında müstəsna xidmətləri geniş açıqlanır.


$\frac{4702000000}{N-098-2007}$ ***Qrifli nəşr***



© **«Məmmədov»**

*"Neft sektorundan sonra nəqliyyat*
*ölkə üçün ən mühüm sahədir və burada*
*inkişaf perspektivləri çox gözəldir.Biz*
*bütün imkanlarımızdan istifadəedərək*
*nəqliyyat sektorunu daha sürətlə inkişaf*
*etdirəcəyik. Azərbaycan Şərq-Qərb və Şimal-*
*Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata*
*keçirilməsində fəal rol oynayır. Gələcəkdə*
*tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı*
*mövqelərimiz daha da güclənəcəkdir".*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Mən bu dünyada istədiyimiz məqsədə - enerji təhlükəsizliyinə nail olmaqda Prezident İlham Əliyevin və onun hökumətinin mövqeyinə görə minnətdaram. Azərbaycanın oynayacağı rol olduqca vacibdir... Biz zəruri məsələlər haqqında fikir mübadiləsi apardıq və vurğuladıq ki, belə müasir müsəlman ölkəsi və vətəndaşlarının qayğısına qalır və bilir ki, demokratiya gələcəyin əsasını təşkil edir. Cənab Prezident, mən Sizin rəhbərliyinizi yüksək qiymətləndirirəm.

**Corc BUŞ.**
**ABŞ prezidenti.**

Son illər Azərbaycan Respablikasının sosial-iqtisadi və siyasi həyatın müxtəlif sahələrində qazandığı uğurlar Azərbaycan rəhbərliyinin seçdiyi və ümummilli dəstək almış, ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına əsası olmuş xəttin düzgünlüyünü göstərir.

**Vladimir PUTİN.**
**Rusiya Federasiyasının Baş naziri.**

Uğurla aparılan xarici və daxili siyasət sayəsində bu gün Azərbaycan beynəlxalq aləmdə yüksək nüfuza malikdir, sabitlik və firavanlıq ölkəsi kimi təsdiqlənir, müstəqilliyin və demokralik dəyişikliklərin möhkəmləndirilməsi yolu ilə inamla gedir. Dövlətlərimiz arasındakı qardaşcasına dostluğun və əməkdaşlığın inkişafına Sizin şəxsi töhfənizi yüksək qiymətləndirir, bu yaxınlarda Bakıya səfərim zamanı konstruktiv və açıq dialoqa görə sizə ürəkdən minnətdarlığımı bildirirəm. Bu səfər ikitərəfli əlaqələrin, beynəlxalq siyasətin və regional əməkdaşlığın ümdə məsələlərində Ukrayna ilə Azərbaycanın mövqelərinin yaxınlığını təsdiq etdi.

**Viktor YUŞŞENKO.**
**Ukrayna prezidenti.**

Türkiyə üçün mühüm olan Azərbaycan dövlətinin sabitlik şəraitində inkişaf etməsi, güclənməsi və Qafqaz regionunda layiq olduğu yeri tutması, Azərbaycan xalqının isə bəşəri dəyərləri mənimsəmiş demokratik, dünyəvi, insan haqlarına hörmət edilən bir ölkədə yaşamasıdır. Bu baxımdan demokratik dəyərlərə əhəmiyyət verən, islahat tərəfdarı kimi tanınan Azərbaycan dövlətinin başçısı hörmətli Prezident İlham Əliyevin ölkənin inkişafı uğrunda atdığı addımları və çəkdiyi zəhməti təqdirlə qarşılaşdığımızı bildirmək istəyirəm.

**Rəcəb Təyyub ƏRDOĞAN.**
**Türkiyə Cümhuriyyətinin Baş naziri.**

# Nəqliyyat sektoru dinamik sürətlə inkişaf edir

Bu gün Azərbaycanda möhtərəm Prezident cənab İlham Əliyevin gərgin əməyi və yorulmaz fəaliyyəti sayəsində dinamik inkişafa, tərəqqiyə, davamlı sabitliyə və yüksəlişə aparan Heydər Əliyev strateji siyasi kursu layiqincə davam etdirılır və bu yorulmaz fəaliyyət ölkə iqtisadiyyatının, o cümlədən yol-nəqliyyat kompleksinin dinamik inkişafı üçün də böyük imkanlar yaradır. İndi Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin, o cümlədən də nəqliyyatın inkişafı üçün kifayət qədər münbit şərait var. "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır. Gələcəkdə tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir". Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu kəlamları ölkədə nəqliyyat sisteminə göstərilən böyük diqqətin bariz nümunəsidir. İqtisadi tərəqqisinə görə nəinki MDB-də, hətta dünyada lider dövlətlərdən olan Azərbaycan bu nəticəni məhz ölkə başçısın düzgün və düşünülmüş siyasi-iqtisadi kursunun sayəsində qazanıb. Ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi olan regionların sosial-iqtisadi inkişafı çərçivəsində Nəqliyyat Nazirliyi son bir neçə ildə, o cümlədən 2007-ci il ərzində xeyli iş görüb. Ölkənin prioritet sahələrindən biri olan nəqliyyat sektorunda ötən ildə mühüm işlər həyata keçirilib, nəqliyyatın bütün sahələrində - mülki, hava, su, dəmir yolları və avtomobil nəqliyyatında, avtomobil yollarının tikintisində və yenidən qurulması istiqamətində işlər mütəmadi olaraq həyata keçirılır. Bu barədə bir qədər ətraflı..

2007-ci il ərzində bütün növ nəqliyyat vasitələri ilə 161,9 milyon ton, əvvəlki ilə nisbətən 11,2 faiz çox yük daşınmışdır. Sərnişin daşınması 6,7 faiz artaraq 1134,0 milyon nəfər təşkil etmişdir. Yüklərin 27,6 milyon tonu dəmir yolu, 10,1 milyon tonu su, 78,6 milyon tonu avtomobil nəqliyyatı, 45,6 milyon tonu isə boru kəmərləri vasitəsilə daşınmışdır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və yükləmə-boşaltma işləri həyata keçirilən digər müəssisələr tərəfindən 5,4 milyon ton yükləmə-boşaltma əməliyyatları yerinə yetirılmış, aşırılmış tranzit yüklərinin həcmi 4,7 milyon tona bərabər olmuşdur. Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi üzrə 46,4 milyon ton yük, o cümlədən 10,7 milyon ton tranzit yük daşınmışdır.

Sərnişinlərin 955,6 milyon nəfəri avtomobil, 6,8 milyon nəfəri dəmir yolu, 1,6

milyon nəfəri hava nəqliyyatı vasitəsilə daşınmışdır.

Ötən dövr ərzində bütün növ nəqliyyat infrastrukturlarının davamlı və təhlükəsiz fəaliyyətinin təmin olunması, istismar işinin səmərəli təşkili üçün təsirli tədbirlər həyata keçirılmışdir.

## Dəmir yolu nəqliyyatı

Bu sahənin inkişafına yönəldilmiş investisiyaların həcmi 13,0 mln. manata bərabər olmuş, 7 ədəd lokomotiv alınmış, 7,3 km dəmir yolu xətti, 12 ədəd lokomotiv, 800 ədod yük vaqonu, 61 ədəd sərnişin vaqonu əsaslı təmir olunmuş, 4800 ədəd yük vaqonu və 347 ədəd sərnişin vaqonu depo təmirindən keçirılmışdir. Zire-Pirallahı dəmir yolu sahəsində dəniz sularından mühafizə səddi tikilmiş, Araz çayı üzərindəki dəmir yolu körpüsündə yenidənqurma işləri yekunlaşdırmaq üzrədir.

Ötən dövrdə Bakı-Minvodı istiqamətində yeni sərnişin qatarı xəttə buraxılmışdır.

## Hava nəqliyyatı

Sərnişin daşınması 16,7 faiz, dövriyyəsi isə 20,0 faiz artmış və müvafiq olaraq 1,6 milyon sərnişin, 1,02 milyard sərnişin.km təşkil etmişdir.

Heydər Əliyev Beynəlxalq Hava Limanında sərnişinlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir mehmanxana kompleks və avtomobil üçün dayanacaq istifadəyə verılmış, 2 ədəd ATR tipli təyyarə alınmış, Zaqatala və Lənkəran hava limanlarının tikintisin başlanılmış və müvafiq olaraq 2008-ci ilin may və sentyabr aylarında islismara verilməsi nəzərdə tutulmuşdıır.

Növbəti 2008-ci ilin oktyabr ayınadək 4 ədəd ATR tipli təyyarələrin alınması, Heydər Əliyev Beynəlxalq və Zabrat hava limanlarının aviasiya-texniki bazalarının, sərnişin və uçuş heyəti üçün qida məhsullarının hazırlanacağı binanın, Zabrat Hava Limanında uçuş-enmə zolağının, yönəldici yolun və perronun tikintisi nəzərdə tutulmuşdur. Həyata keçirilməsi nəzərdə tutulan bu tədbirlərə 200,0 milyon manat həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulur.

## Avtomobil nəqliyyatı və avtomobil yolları

01 fevral 2006-cı il tarixli 1255 nömrəli Prezident sərəncamıyla təsdiq edilmiş “Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı”nına uyğun olaraq, Bakı şəhərində sərnişin daşımalarının təşkili, idarə olunması və tənzimlənməsi ilə əlaqədar mərhələli işlərin görülməsi davam etdirılmışdir.

İlk növbədə, sərnişin nəqliyyatı vasitələrinin təhlükəsiz, texniki və ekoloji normalara uyğun istismarının təmin olunması, avtobus dayanacaqlarının yeniləşdirilməsi, taksi dayanacaq yerlərinin yaradılması və şəhər sərnişin nəqliyyatı parkının iri tutumlu avtobuslar hesabına yeniləşdirilməsi ilə bağlı tədbirlər görülmüşdür.

Bu il ərzində respublikaya 93 ədəd iri və 140 ədəd orta tutumlu avtobuslar gətirilərək istismara buraxılmışdır.

Yük və sərnişin daşınmalarına 927 lisenziya verılmış, 387 min avtonəqliyyat vasitəsi vergiyə cəlb olunaraq büdcəyə 6,3 milyon manat vəsait ödənilmişdir.

İl ərzində Bakı Beynəlxalq Avtovağzalının tikintisi intensiv olaraq davam etdirılmışdir.

Blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası əhalisinin Azərbaycanın digər bölgələri ilə əlaqələrinin yaxşılaşdırılması və hava limanında sərnişinlərin sıxlığının aradan qaldırılması məqsədilə İran İslam Respublikası və Azərbaycan Respublikası arasında "Bakı-Naxçıvan-Bakı" avtobus marşrutunun açılması ilə bağlı imzalanmış memorandumun icrası təmin edilərək, bu xətt üzrə 2007-ci il 08 noyabr tarixindən sərnişin daşımalarının həyata keçirilməsi reallaşmışdır.

"Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı"nda yol infrastrukturu üzrə nəzərdə tutulmuş işlərin icrası ilə bağlı olaraq hesabat dövründə yol qovşaqlarının və piyada keçidlərinin inşası davam eldirılmış və 150 milyon manatlıq iş həcmi yerinə yetirılmışdir. 2007-ci il ərzində 4 ədəd yol ötürücüsü və 4 ədəd piyada keçidi tikilərək istifadəyə verılmışdir. Nəticədə, bu obyektlərin yerləşdiyi ərazilərdə nəqliyyatın hərəkəti asanlaşmış, hərəkətin və piyadaların təhlükəsizliyi təmin edilmişdir. Hazırda "Əzizbəyov metrostansiyası dairəsindəki yol ötürücüsündə son tamamlama işləri yekunlaşdırılmaq üzrədir.

"Əzizbəyov metrostansiyası dairəsindən Heydər Əliyev Hava Limanına qədər (14 km) avtomobil yolunda layihə üzrə tikinti işləri uğurla davam etdirılır.

Ümumi uzunluğu 43,9 km olan Xırdalan dairəvi-Binəqədi-Balaxanı avtomobil yolu təmir olunmuş, 6 zolaqlı Zığ-Binə və Bilgəh-Pirşağı avtomobil yollarının tikintisinə başlanılmışdır.

Respublikanın 3 magistral yolunu birləşdirən, uzunluğu 21,5 km olan "Bakı-dairəvi avtomobil yolu"nun inşaat işləri də yerinə yetirilməkdədir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və ölkə Prezidentinin regionlara səfərləri zamanı bölgələrin inkişafı və əhalinin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarının icrası olaraq respublika əhəmiyyətli və rayonlararası avtomobil yollarında yenidənqurma işləri

davam etdirılmışdir.

2007-ci il ərzində 651 km şəhər, rayon, kənd və qəsəbələrarası avtomobil yolu əsaslı və orta təmir olunmuşdur. Ümumi istifadədə olan avtomobil yollarının təmiri və saxlanmasına 130 milyon manat vəsait sərf olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə çoxdur. Avtomobil yollarının yenidən qurulması və tikintisinə bütövlükdə investisiya qoyuluşlarının məbləği 2007-ci il ərzində 586 milyon manat təşkil etmişdir. O cümlədən, dövlət büdcəsi hesabına investisiya qoyuluşlarının həcmi 276 milyon manata bərabər olmuşdur ki, bu da 2006-cı ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə artıqdır.

İsmayıllı rayonu Lahıc kəndinin ərazisində Girdimançay üzərində körpü və seldən mühafizə qurğularının, Qazax rayonunda Xramçay, Xaçmaz rayonunda Qudyalçay, Balakən rayonunda Mazımçay, Oğuz rayonunda Qala çayı (Filfılі) və Qəbələ rayonu ərazisində Qaraçay üzərində körpülərin tikintisi başa çatdırılmışdır. Quba rayonunda Vəlvələçay, Zaqatala şəhərində Talaçay, Şəki rayonu ərazisində Şinçayı və Qax rayonu ərazisində Kürmükçay üzərində körpülərin tikintisinə başlanılmışdır.

Bakı-Quba avtomobil yolunu tikintisi və yenidənqurulması işləri davam etdirilmiş, Bakı-Şamaxı-Muğanlı avtomobil yolunda podratçı tərəfindən səfərbərlik işləri görülür.

Ələt-Astara avtomobil yolunun ilk 22 kilometrlik hissəsində tikinti işləri davam etdirılır, magistralın qalan hissəsi üzrə podratçının seçimi aparılır. Burada və hazırda yenidən qurulan bütün digər magistralların layihələndirilməsində yolların optimallaşdırılması və iri yaşayış məntəqələrindən kənarlaşdırılması təmin olunur.

Bakı-Qazax avtomobil yolunun Hacıqabul-Kürdəmir hissəsinin 75 km-i yenidən quruların istismara verılmışdir. Bu magistralın Ucar-Yevlax (53 km), Kürdəmir və Tovuz dairəvi avtomobil yolları hissələrində tikinti işləri davam etdirılır. Kürdəmir-Ucar (46,2 km), Yevlax-Gəncə (88,8 km) və Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi (38 km) hissələrinin yenidən qurulması ilə bağlı məsləhətçi və podratçı firmalar seçilmiş və tikintiyə başlanılması məqsədilə səfərbərlik işləri aparılır.

Quba-İspik-Xınalıq avtomobil yolunun tikintisində mövsümlə bağlı olaraq təxirə salınmış son qat asfalt örtüyünün çəkilişi tamamlanmışdır.

Magistral yol layihələrindəıı əlavə, respublikanın 2500 km uzunluğunda rayonlararası yolları üzrə 52 layihənin Texniki İqtisadi Əsaslandırılması və 547 km yol üçün 13 işçi layihə hazırlanmışdır.

Göründüyü kimi, Azərbaycan Respıublikası Nazirlər Kabinetinin 2007-ci il 16 mart tarixində Milli Məclisdə 2006-cı ilin yekunları ilə bağlı hesabatın müzakirəsi zamanı avtomobil yolları şəbəkəsinin, o cümlədən Bakı şəhər yollarının abadlaşdırılması və müasir avtomobil dayanacaqlarının quraşdırılması ilə bağlı millət vəkilləri tərəfindən səslənən iradların da aradan qaldırılması qismən təmin olunmuş və bu işlər davam etdirılır.

Proqram təyinatlı sənədlərin hazırlanması istiqamətində "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası olaraq "Azərbaycan Respublikasının Vahid Dövlət Nəqliyyat Siyasəti Konsepsiyası"nın və "Azərbaycan Respublikasının Nəqliyyat Sisteminin İnkişafı Strategiyası"nın layihələri hazırlanmışdır.

Beynəlxalq nəqliyyat sisteminə inteqrasiya, Avrasiya məkanında əməkdaşlığın genişləndirilməsi məqsədilə BMT-nin komissiyaları, Avropa İttifaqı, MDB, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Nəqliyyat Nazirləri Konfransı, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU), Beynəlxalq Aviasiya Təşkilatı (İKAO), Beynəlxalq Dəniz Təşkilatı (İMO), Dəmir Yolların Əməkdaşlıq Təşkilatları (OS.TD və MS.ID) ilə əməkdaşlıq davam etdirılmış, ölkəmizin sədrlik etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatı Tranzit Əlaqələndirmə Şurasının və GUAM Nəqliyyat Komitəsinin Bakıda növbəti toplantıları keçirılmışdir.

2007-ci il ərzində nəqliyyat sahəsində 16 ikitərəfli və çoxtərəfli saziş və memorandum imzalamışdır. Bunlardan beşi (Gürcüstan, Koreya Respublikası, Tacikistan Respublikası, Türkiyə Respublikası) dəmiryolu nəqliyyatı sahəsinə, dördü (Birləşmiş Ərəb Əmirlikləri, İordaniya Haşimilər Krallığı, İsveçrə Federal Şurası, Tacikistan Respublikası) avtomobil nəqliyyatı sahəsinə, biri (Koreya Respublikası) su nəqlliyatı sahəsinə, biri (Tacikistan Respublikası) hava nəqliyyatı sahəsinə və beşi (Gürcüstan, İran İslam Respublikası, Koreya Respublikası, Moldova Respublikası, Ukrayna Respublikası) nəqliyyat sahəsində əməkdaşlığa aiddir.

Azərbaycan Respublikasının nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasının sürətləndirilməsi ölkədə daha effektiv nəqliyyat sisteminin yaradılmasının, irimiqyaslı regional layihələrin həyata keçirilməsinin, mövcud problemlərin həllinin vacibliyini ön plana çəkir.

Bu istiqamətdə son iki il ərzində aparılmış intensiv danışıqların və keçirilən görüşlərin nəticəsi olaraq, regionda çox böyük və tarixi əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Gürcüstan hissəsinin 2007-ci ilin noyabr ayından tikintisinə başlanılmış, Türkiyə ərazisində tikinti işlərini aparacaq

podratçı şirkət müəyyənləşdirilmiş və tikinti işlərinə yaxın günlərdə başlanılması nəzərdə tutulmuşdur.

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli sərəncamının icrası olaraq, "Azərbaycan Dövlət Dəmir Yolunun 2008-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın layihəsi işlənib hazırlanmışdır. Bu proqramın həyata keçirilməsi dəmir yollarında artan yük həcminin daşınması və Şərq-Qərb" nəqliyyat dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən səsində dəmir yolu infrastrukturunun yenidən qurulması ilə yanaşı, dəhlizin rəqabət qabiliyyətinin gücləndirilməsinə, yüklərin çatdırılma müddətinin azaldılmasına və hərəkətin təhlükəsizliyinin təmin olunmasına xidmət edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2443 nömrəli sərəncamına müvafiq olaraq "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizinin kəsişməsində, rcspublikanın əsas dəmir yolu və avtomobil yollarına birbaşa çıxışı olan ərazidə yeni Dəniz Ticarət Limanının inşası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Bu limanın tikintisi ölkəmiz və region üçün böyük əhəmiyyətə malik olan, keyfiyyətcə nəhəng nəqliyyat qovşağının yaradılmasına və gələcəkdə burada azad iqtisadi zonanın və logistik idarəetmə sisteminin formalaşmasına şərait yaradacaqdır.

Yeni limanın tikintisi ilə bağlı təhlillər aparılmış, akvatoriyada tədqiqat işlərinə başlanılmışdır. Texniki İqtisadi Əsaslandırma başa çatdırılmış, rəy və təkliflərin bildirilməsi üçün müvafiq dövlət orqanlarına təqdim olunmuşdur. Bakı şəhərində sərnişin nəqliyyatının hərəkətinin tənzimlənməsi və idarə olunması məqsədilə "Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin yaradılması" haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 noyabr tarixli 2469 nömrəli sərəncamına əsasən müvafiq işlərin aparılmasına başlanılmış, ilkin tədqiqat işləri artıq yekunlaşdırılmışdır. Bununla yanaşı, Bakı şəhərində əlavə olaraq 11 ədəd yol qovşağı. 10 ədəd piyada keçidi və 13 ədəd çoxmərtəbəli avtomobil dayanacağının tikintisini nəzərdə tutan və 2008-2010-cu illəri əhatə edən "Tədbirlər Planı"nın layihəsi işlənib hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Respublikanın nəqliyyat sektorunda 2007-ci ildə əldə edilmiş nailiyyətlərin daha da genişləndirilməsi və nəzərdə tutulan irimiqyaslı layihələrin həyata keçirilməsi istiqamətində işlər növbəti illərdə də davam etdiriləcəkdir. Cənab İlham Əliyev yol-nəqliyyat sistemindəki problemlərin kompleks həlli, bu sahədə həyata

keçirilən işlərin səmərəliliyinin artırılması, habelə idarəetmənin təkmilləşdirilməsi istiqamətində də bir sıra addımlar atmışdır. Dövlət başçısı 12 oktyabr 2006-cı il tarixdə "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil Yolları" Meqsədli Büdcə Fondunun yaradılması haqqında" sərəncam imzalamışdır. Sərəncamda vurğulayır ki, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının təmin olunmasında, o cümlədən regionlarda sahibkarlığın daha geniş yayılmasında və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasında müasir tipli yolların əhəmiyyəti çox böyükdür. Bu məqsədlə son illər ölkədə dövlət büdcəsinin vəsaiti və beynəlxalq maliyyə-kredit təşkilatlarından cəlb olunan kredit hesabına mövcud avtomobil yollarının yenidən qurulması və yenilərinin tikintisi sahəsində genişmiqyaslı işlər həyata keçirılır. "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun yaradılması isə bıı sahədə görülən işlərin sürətləndirilməsini, avtomobil yolları şəbəkəsinin səmərəli istismarını və qənaətbəxş vəziyyətdə saxlanılmasını təmin etmək məqsədi daşıyır.

Azərbaycan Prezidentinin 22 fevral 2007-ci il tarixli sərəncamına görə isə Nəqliyyat Nazirliyinin "Yolnəqliyyalservis" Departamenti Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilati-hüquqi forması dəyişdirilərək, nazirliyin tabeliyində "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Sərəncama əsasən, "Azəryolservis" ölkənin avtomobil yolu təsərrüfatı sahəsində xidmətlər göstərən, ümumi istifadədə olan avtomobil yollarının, körpülərin, tunellərin və digər təyinatlı yol qurğularının istismarı, bərpası, yenidən qurulması və tikilməsi, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işləri yerinə yetirən, səhmləri dövlətə məxsus səhmdar cəmiyyətdir. Sərəncamla Bakı şəhərində, habelə ölkənin digər şəhərlərində və rayon mərkəzlərində yerləşən avtomobil yollarının, prospektlerin və küçələrin idarə olunması, təmiri və vəziyyətinə nəzarətin həyata keçirilməsi üçün Nəqliyyat Nazirliyinin balansına verılmışdir. Sərəncama əsasən, Bakı şəhərində, habelə ölkənin digər şəhərlərində və rayon mərkəzlərində yerləşən avtomobil yollarının, prospektlərin və küçələrin saxlanılması və təmiri ilə əlaqədar istehsalat bazalarının, obyektlərin, həmçinin idarə, müəssisə və təşkilatların, Bakı Şəhər İcra Hakimiyyəlinin və müvafiq şəhər və rayon icra hakimiyyəti orqanlarının balansında olan əmlakının siyahısı müəyyən edilərək "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin balansına verılmışdir.

Ümumilikdə, dövlət başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində "Azəryolservis" Səhmdar Cəmiyyətində iş yerlərinin sayı 3000-dən 10000-dək yüksəlmişdir.

Azərbaycan Prezidentinin birbaşa nəzarəti altında həyata keçirilən tədbirlər nəticəsində şəhərimizin siması getdikcə dəyişir, paytaxı öz görkəmi ilə göz oxşayır. Ötən il açılışında cənab İlham Əliyevin də iştirak etdiyi bir sıra körpülər və yol ötürücüləri, o cümlədən yeraltı piyada keçidləri vətəndaşların firavanlığım təmin edir, onlara rahatlıq, mənəvi zövq verir. Qısa zamanda müasir standartlara uyğun tikilərək istifadəyə verılmış körpü və yeraltı keçidlər Bakının nəqliyyat sistemini təkmilləşdirir, tıxac problemini aradan qaldırır.

Aparılan işlərə kompleks yanaşmanın zəruriliyini və ardıcıllığın saxlanılmasını nəzərə alaraq əsas və yardımçı yollarda rahat və maneəsiz bağlantıların təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən, "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2011-ci illər üçün əlavə Tədbirlər Planı"nın Layihəsi hazırlanmışdır. O cümlədən Bakıda nəqliyyat tıxaclarının yaratdığı problemlərin aradan qaldırılması üçün küçə və prospektlərə yeni layihə hazırlanmış, 2008-ci ildə ekskalatorlarla təmin olunmuş müasir tipli 10 piyada keçidinin tikilməsi nəzərdə tutulmuşdur.

Martın 12-də Prezident Sarayında Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə ölkəmizdə avtomobil yolları şəbəkəsinin inkişafına həsr olunmuş müşavirə keçirılmışdir. Müşavirədə bir daha qeyd olunmuşdur ki, 2004-2007-ci illər ərzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər planının, Bakı şəhəri qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramının icrası olaraq, Bakının və şəhərətrafı avtomobil yollarının yenidən qurulması işləri davam etdirilmiş və eyni zamanda, bu bölgənin yol infrastrukturunun inkişaf eldirilməsi məqsədi ilə əlavə təkliflər işlənib hazırlanmışdır. Müşavirədə Bakı şəhərində nəqliyyat tıxaclarının aradan qaldırılmasında yol ötürücülərinin, yeni yolların inşası ilə yanaşı, hərəkət prosesinin təkmilləşdirilməsində böyük əhəmiyyəti olan digər tədbirlərin də həyata keçirilməsinin vacib olduğu vurğulanmışdır. Bakı şahərində nəqliyyatın hərəkətinin intellektual idarə edilməsi sisteminin yaradılması haqqında dövlət başçısının 2007-ci il 26 oktyabr tarixli Sərəncamının icrası olaraq, müvafiq işlər görülmüşdür. Koreyalı mütəxəssislərlə birlikdə tədqiqat işləri aparılmış, paytaxtda bu sistemin əhatə dairəsi müəyyənləşdirilmiş və tələb olunan avadanlıqların sayı dəqiqləşdirilmişdir. Layihələndirmə işləri yekunlaşdırılır və layihə 2008-2010-cu illərdə həyata keçiriləcəkdir. Yol-tikinti təşkillarının maddi-texniki bazasının gücləndirilməsi istehsal prosesinin avadanlıqlaşdırılmasına və tikintidə yüksək texnologiyaların tətbiqinə geniş imkanlar yaradır.

Hazırda Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq hava Limanı istiqamətində bir çox ölkələrdə istifadə edilən betonörtüklü yol salınması texnologiyası tətbiq edilir. Görülən işlər 2008-ci ildə paytaxtın nəqliyyat sistemində müşahidə olunan gərginliyin əhəmiyyətli dərəcədə azalacağını əminliklə söyləməyə kifayət qədər ciddi əsaslar yaradır. Bütün bunlar isə hələ görüləcək işlərin uğurlu başlanğıcıdır. 2008-ci ildə paytaxt nəqliyyatında sərhişinlərin rahat və təhlükəsiz gediş-gəlişi üçün iri və orta tutumlu avtobusların daha böyük partiyasının gətirilməsi nəzərdə tutulub. Təkcə avtomobil yolları və avtomobil nəqliyyatı istiqamətində deyil. Bütünlükdə yol-nəqliyyat kompleksinin bütün sicralarında - hava, su və dəmir yolu nəqliyyatında da qarşıda görüləsi işlərimiz çoxdur. Qeyd edək ki, hazırda həyata keçirilən və gələcəkdə görülməsi nəzərdə tutulan işlər ölkənin iqtisadi inkişafına, əhalinin sosial rifahının yüksəlməsinə xidmət edir. Təbii ki, ölkədə neftdən sonra ikinci əsas sahə sayılan yol-nəqliyyat kompleksi bundan sonra da dinmik sürətlə inkişaf etdiriləcək. Dövlətin bu sahəyə diqqəti və qayğısı kifayət qədərdir. Nəqliyyatçılar da bu sahəyə dövlət başçısının göstərdiyi yüksək etimadı on yüksək səviyyədə doğrultmağa çalışacaq, qarşıda duran vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsini təmin edəcəklər.

**Ziya Məmmədov,**

**Nəqliyyat naziri**

## Ölkə iqtisadiyyatının dinamik inkişafı

Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. Albrizmə çevrılmış bu ifadə Heydər Əliyev şəxsiyyətinə verılmış ən lakonik və düzgün qiyməti əks etdirir. O, xalqa və vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edilən təkmil irs, siyasi məktəb miras qoymuşdur. Bu irsin ən görkəmli nümayəndəsi, Heydər Əliyev sıyası məktəbinin layiqli təmsilçisi cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 4 ıl ərzində milli intibahın şərəfli mərhələsini yaşayır.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkışafı narainə misilsiz fəaliyyətində Prezident İlham Əliyev varislik, novatorluq və dinamizim prinsiplərinə sadiqlik nümayiş etdirir. Bütün bunlar əslində Prezident İlham Əliyevin Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoyduğunu təsdiqləyir. Bu missiyanm fəlsəfəsi 13 il əvvl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək ictimai naliyyətə başlayan cənab İlham Əliyevin 4 il öncə söylədiyı "Mən hər bır Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı. Bəs bu məzmun nələri ehtiva edir və hansı konkret nəticələri ilə xarakterizə olunur?

Bu suala cavab vermək üçün cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin keçən 4 ilinin leytmotivini təşkil edən ən mühüm vəzifələr və onların uğurla yerinə yetirilməsinin real mənzərəsi ilə tanış olmaq kifayətdir.

Prezident İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli olduğu vəzifələr aşağıdakılardan ibarətdir:

Azərbaycanda bir çadır şəhərciyi belə qalmayacaq, məcburi köçkünlərin sosial müdafiəsinin təşkili əsas məsələ olacaq; yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcək; 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacaq; regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacaq; sahibkarlığa dövlət qayğısı artırılacaq; transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacaq və.s.

Dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin 4 ili ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərə çarpacaq nailiyyətlər əldə olunubdur: 610 min yeni iş yerinin açılması, neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə

qurulması, rəhbər işçilərin məsuliyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət yeridilməsi, Avropa və dünya strukturların inteqrasiyanın davam etdirilməsi bu günün reallığıdır.

2003-cü ildən başlayaraq Prezident İlhama Əliyevin rəhbərliyi ilə Azərbaycanda yeni iqtisadi siyasət strategiyası həyata keçirılır. Təsadüfi deyil ki, dövlət başçısının prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlar da məhz sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların sosial-iqtisadi inkişafı haqqında olubdur. Bu kompleks proqramların icrası daim dövlət başçısının şəxsi nəzarəti altında həyata keçirilir. Prezidentin bölgələrə müntəzəm səfərləri, yerlərdə sosial-iqtisadi vəziyyətlə hərtərəfli tanış olması, əhali ilə görüşləri, regionların inkişafi, yoxsulluğun azaldılması ilə bağlı müəyyən edilmiş strateji proqramlar üzrə tapşırıqların yerinə yetirilməsi barədə konkret qərarlar verməsi artıq ənənəyə çevrılmışdir.

Bu ənənənin gətirdiyi iqtisadi dividentlər Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Prezident Sarayında Nazirlər Kabinetinin bu ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında rəsmən qeyd olunmuşdur. Dövlətimizin başçısı giriş nitqində bildirmişdir ki, ölkənin inkişafında müsbət dinamika yenə də özünü göstərir.

2007-cı ilin 9 ayında iqtisadi artım 27 faiz olmuşdur. Əhalinin pul gəlirləri 40 faiz, adambaşına düşən gəlirlər isə 38 faizdən çox artmışdır. Prezident İlham Əliyev xüsusi olaraq qeyd etmişdir ki, ölkədə sosial məsələlərin həlli istiqamətində mühüm addımlar atılır.

Azərbaycanda artıq orta əmək haqqı 230 dollar səviyyəsindədir.

Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət nəticəsində 2007-ci ilin yanvar-sentyabr ayları ərzində ölkənin əsas makroiqtisadi göstəriciləri olan ümumi daxili məhsul 2006-cı ilin müvafiq dövrü ilə müqayisədə, 27,1 faiz artmışdır. 2006-cı ilin eyni dövrü ilə müqayisədə cari ilin 9 ayında ölkədə adambaşına düşən daxili məhsul istehsalı 25,6 faiz artaraq 1966 manat və ya 2282 ABŞ dolları səviyyəsinə çatmışdır. Əhalinın rifah halının, onun maddi təminatının yaxşılaşdırılması sahəsində aparılan sosial-iqtisadi siyasətin nəticəsində 2007-ci ilin yanvar-sentyabr ayları ərzində 2006-cı ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq əmək haqqı 28,2 faiz artmışdır.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilən və elmi əsaslara söykənən neft strategiyasının həyata keçirilməsi hazırda cənab İlham Əliyevin iqtisadi siyasətinin əsas istiqamətlərində birini təşkil edir.

Heydər Əliyevin adını daşıyan və tarixə ümumilli liderimizin tək Azərbaycana deyil, həmçinin bölgənin digər dövlətlərinə və xalqlarına böyük löhfəsi kimi həkk edilən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin istismara verilməsini cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 4 ilinin on mühüm nailiyyətlərindən biri kimi dəyərləndirmək olar. Qarşıdakı 20 il ərzində bu kəmər vasitəsini nəql ediləcək Azərbaycan neftindən dövlət büdcəmizə 140 milyard ABŞ dollarından artıq əlavə maliyyə vəsaiti gələcək. Bundan başqa, Azərbaycan tranzit ölkəsi hesab olunur və öz neftindən başqa Qazaxıstan neftinin Avropa bazarlarına ötürülməsindən 100 milyonlarla dollar qazanc əldə ediləcəkdir. Qeyd elmək lazımdır ki, bu gün Qazaxıstan və Türkmənistan qazını Azərbaycan vasitəsilə Avropa bazarlarına çıxaracaq Transxozor qaz kəmərinin çəkilişi müzakirə mövzusudur. Bu kəmərin reallaşması Azərbaycanın tranzit ölkəsi kimi, əhəmiyyətini və gəlirlərini dəfələrlə artıracaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi əsas məsələlərdən biri də beynəlxalq neft və qaz kəmərlərinin, Cənubi Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin təminatçısı olacağı ilə bağlı idi. Artıq bu məsələ də cənab İlham Əliyevin prezidenllik naliyyətinin 4 ili ərzində öz həllini tapmaqdadır. Əslində bu kəmərlər yalnız Cənubi Qafqazın, Türkiyənin deyil, bütün Avropanın enerji təhlükəsizliyini təmin etməyə imkan verir. Odur ki, kəmərlərin qorunması, tranzit ölkələrdə təzlükəsizliyin təmin olunması artıq yalnız bu ölkələrin (Azərbaycanın, Gürcüstanın və Türkiyənin) daxili işi olmayıb, Avropanın, daha geniş mənada isə bütün dünyanın problemidir.

Bundan savayı, Prezident İlhara Əliyevin təşəbbüsü və dəstəyi ilə aparılmış danışıqların və keçirilmiş görüşlərin nəticəsi olaraq, regionda çox böyük və tarixi əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata kcçirilməsi prosesinə başlanmış, Türkiyə ərazisində tikinti işlərini aparacaq podratçı şirkət müəyyənləşdirilmişdir. Tikinti işlərinə noyabr ayında başlanılması və işlərin iki il yarım müddətinə başa çaldırılması nəzərdə tutulmuşdur. Bu layihənin reallaşması üçün nəzərdə tutulan 420 milyon dollar vəsaitin 215-i Türkiyənin, 205-i isə Gürcüstanın payına düşür. Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisinə 220 milyon ABŞ dolları həcmində kredit ayırmış, kreditin 40 milyon həcmində birinci hissəsi artıq verilmişdir. İlk vaxtlar illik yük buraxılışı 5 milyon ton olacaq, dəmir yolu üç ildən sonra 10-15 milyon ton, tam gücü ilə işləməyə başlayanda isə 20 milyon ton yük daşıya biləcəkdir.

Beləliklə, Böyük İpək Yolunun dəmir yolu ilə bərpa ediləcəyi, Azərbaycan və Türkiyənin bu yolun mərkəzi bölgələrinə çevriləcəyi gün uzaqda deyil. Yol isə Prezident İlham Əliyevin təbinncə desək, "həyatdır, inkişafdır, mədəniyyətdir".

Yuxarıda qeyd etdiyimiz kimi, cənab İlham Əliyevin prezidentlik naliyyətinin 4 ili ərzində həllinə çalışdığı ən vacib məsələlərdən biri işğal altında olan torpaqlarımızı azad

etmək və Ermənistanın etnik təmizləmə siyasətinin hədəfi olmuş yurddaşlarımızın həyat səviyyəsini yaxşılaşdırmaq, yurd-yuvalarından didərgin salınmış insanları öz ata-baba torpaqlarına qaytarmaqdır. Başqa sözlə, möhtərəm Prezidentimiz İlham Əliyevin ən çox diqqətdə saxladığı məsələlərdən biri məhz qaçqın və məcburi köçkünlərin taleyidir.

Bu problemin dinc yolla, beynelxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olmaq üçün bütün imkanlardan istifadə edən Prezident İlham Əliycv dəfələrlə bildirmişdir ki, hələlik sülh potensialı tükənməyibdir. Azərbaycanın işğal altında olan torpaqları sülh yolu ilə azad edilməsə, o zaman başqa vasitələrdən istiladə olunacaq. Elə bu məqsədlə də ölkəmizdə ordu quruculuğu prosesi sürətlə aparılır, hərbi büdcəyə ayrılan xərclər ildən-ilə artır. Əgər 2007-ci ildə hərbi xərclər 1 milyard ABŞ dolları səviyyəsindədirsə, 2008-ci ildə müvafiq göstərici 1,2-1,3 milyard ABŞ dolları səviyyəsinə qalxacaqdır.

Əvvəl söylədiyimiz fikrə qayıdaraq qeyd edək ki, keçən 4 il ərzində 9 çadır şəhərciyi ləğv edilmiş və qalan 3 şəhərciyin ləğvi isə bu ilin sonuna qədər başa çatdırılacaqdır. Göründüyü kimi, dövlətimizin başçısı məcburi köçkünlərə verdiyi vədi layiqincə yerinə yetirmiş, üstəlik, 2004-cü ilin 1 iyul tarixli sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət başçısının 2007-ci il 31 oktyabr tarixli sərəncamı ilə qeyd olunan "Dövlət Proqramı"na əlavələr edilmişdir. Bütövlükdə isə Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə 13 fərman və sərəncam imzalamış, onların icrası ilə əlaqədar Nazirlər Kabinetinin 47 qərar və sərəncamı, Milli Məclis tərəfindən isə 1 qanun qəbul olunmuşdur.

Dövlətimizin başçısı İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli ilə əlaqədar Ermənistan prezidenti, ATƏT-in Minsk qrupunun həmsədrləri, xarici ölkə rəhbərləri ilə 100-dən artıq görüş keçirmiş və ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığı ilə bağlı prinsipial mövqeyinin dəyişməz olduğunu nümayiş etdirmişdir.

Prezidentlik fəaliyyətinin keçən 4 ili ərzində cənab İlham Əliyev təhsil, səhiyyə və idman sahələrinə də xüsusi diqqət və qayğı göstərmişdir.

Ümummilli lider Heydər Əliyev haqlı olaraq təhsili millətin gələcəyi adlandırırdı. Elə bu məqsədlə ulu öndər 1999-cu il iyunun 15-də "Təhsil sahəsində islahat Proqramı"nı imzaladı. Bununla da müstəqil Azərbaycanın təhsil sistemində yeni dövrün əsasını qoydu. Cənab İlham Əliyevin 2003-cü ildə prezidentlik fəaliyyətinə başlamasından - sonra islahat Proqramının reallaşması daha da sürətləndi. İlkin olaraq latın qrafikası ilə ədəbiyyatların nəşri barədə imzalanmış Prezident sərəncamı məktəblərimizin latın qrafikalı

ədəbiyyatlarla təminatında mühüm rol oynadı.

İlham Əliyevin prezidentliyi dövründə məktəblərimizin maddi-texniki bazası daha da, möhkəmləndi. Məktəb tikintisi geniş vüsət aldı. Hələ 2003-cü ildə ümumilli Heydər Əliyevin məkləb tikintisi ilə bağlı imzaladığı Dövlət Proqramı uğurla həyata keçirilir. Təkcə 2007-ci ildə dövlət vəsaiti hesabına 200 yeni məktəb tikilib istifadəyə verılmışdir.

Yeni məktəblərin tikintisi ilə bağlı Heydər Əliyev Fondunun xidmətləri də xüsusi təqdirəlayiqdir. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında 2004-cü ildən etibarən fondun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində indiyədək 38 min 190 şagird yerlik 190 məktəb binası tikilib muəllim və şagird kollektivinin ixtiyarına verılmışdir.

Müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırlması istiqamətində də dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilməkdədir. Müəllimlərin əmək haqqı bir neçə dəfə artırılmış, qabaqcıl təhsil işçilərinə Prezident təqaüdləri və fəxri adlar verılmışdir.

Ölkənin həyat səviyyəsini xarakterizə edən və gələcəyini təmin edən əsas göstəricilərdən biri də insanların sağlamlığı və səhiyyənin inkişafıdır. Prezident İlham Əliyev ölkədə səhiyyənin inkişafına, bu sahədə yeni texnologiyaların tətbiqinə xüsusi əhəmiyyət verir. 2005-ci ildən başlayaraq, Azərbaycanın bütün regionlarında müasir standartlara uyğun diaqnostika mərkəzlərinin tikilməsi layihəsi həyata kcçirılır və bu işlər cənab İlham Əliyevin şəxsi nəzarətindədir.

Dövlət büdcəsindən səhiyyənin inkişafına ayrılan vəsait ilbəil artır. 2005-ci ildə bıı məqsədlər üçün 2004-cü ildəkindən 55 faiz çox vəsait xərclənmişdir. 2006-cı ildə isə büdcədən ayrılmış vəsait 2005-ci illə müqayisədə 60 faizdən çox artmışdır. Artım 2008-ci ildə də davam etmişdir.

Azərbaycanda təhsil, səhiyyə ilə yanaşı, idmana da qayğı sürətlə artır. Ölkəmizin müxtəlif bölgələrində müasir idman kompleksləri tikilib istifadəyə verilir. 10-dan çox idman kompleksi artıq fəaliyyətdədir. 20-yə qədər idman kompleksi isə tikilməkdədir və onların bəzilərinin tikintisinə artıq başlanılmışdır. Prezident İlham Əliyev Azərbaycanım hər bir bölgəsində müasir tipli idman komplekslərinin tikiləcəyini elan etmişdir. Heç də təsadüfi deyildir ki, ölkəmizdə idmanın sürətli inkişafı, müasir idman infrastrukturunun yaradılması, idmançılarımızın parlaq qələbələri beynəlxalq idman federasiyalarınm da diqqətini cəlb edir və Azərbaycan ən mötəbər beynəlxalq yarışların keçirildiyi bir ölkəyə çevrılır.

Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 4 ili ərzində daxili siyasətdə qazandığı uğurlar xarici siyasət məsələlərinin və diplomatiyamızın qarşısında duran mühüm

vəzifələrin həllində də əsaslı stimullaşdırıcı rol oynamışdır.

Dövlətimizin başçısı İlham Əliyev hələ 2006-cı il iyulun 27-də Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə keçirdiyi görüşündə Azərbaycanın xarici siyasəti qarşısında duran əsas istiqamətləri müəyyənləşdirmişdir. Azərbaycanın inkişafı, nailiyyətləri barədə dünya birliyini ətraflı məlumatlandırmaq və xaricdəki diasporumuzu, lobbimizi fəallaşdırmaq, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli maraqlarına uyğun nizamlanması üçün müasir təbliğat metodları ilə çevik diplomatik iş aparmaq, Avropanın şərq sərhədi olan ölkəmizin sivil dünyaya, Qərb ailəsinə inteqrasiyasını daha intensivləşdirmək, lakin bu prosesdə milli özünəməxsusluğu və dəyərləri qoruyub saxlamaq, bölgədə təhlükəsizliyin və regionun inkişafı naminə əməkdaşlıqda maraqlı olan bütün dövlətlərlə daha geniş münasibətlər qurmaq; Azərbaycana bəzən tətbiq edilən ikili standartları aradan qaldırmaq üçün daha qətiyyətli siyasəti həyata keçirmək; beynəlxalq terrorizmə və digər transmilli cinayətkarlıqlara qarşı mübarizədə həmişə ön sırada olmaq.

Prezident İlham Əliyevin rəhbərliyi altında, sadalanan və digər mühüm xarici siyasət vəzifələrinin uğurla həyata keçirilməsi ölkəmizi beynəlxalq rəqabət meydanına deyil, əməkdaşlıq məkanına çevirməkdədir.

Beləliklə, bu yazıda cənab İlham Əliyevin geniş və çoxtərəfli prezidentlik fəaliyyətinin 4 ilinin bəzi tərəflərinə toxunmağa səy göstərdik. Araşdırma prosesində gəldiyimiz nəticə sadə, birmənalı və ibrətamiz oldu: Azərbaycan siyasi mühitində Prezident İlham Əliyevlə rəqabət apara biləcək hər hansı bir siyasətçi yoxdur və belə görünör ki, yaxın illərdə də heç olmayacaq. Bəli, bu inkaredilməz həqiqətdir. Bu qənaətimiz əslində xalqımızın sabahkı düzgün seçiminə olan əminliyə köklənmişdir. Bu, xalqın Prezidentinə olan sonsuz məhəbbətinin bariz nümunəsi, eyni zamanda Prezidentin öz xalqına olan qayğısının nəticəsidir.

**Cavid Qurbanov.**
**«Azəryolservis» ASC-nin sədri.**
**Milli Məclisin deputatı**

## Bakıda müasir tipli iki körpü və iki piyada keçidi istifadəyə verılmışdir

## Azərbaycan Prezidenti İlham Əliyev açılışlarda iştirak etmişdir

Azərbaycan Rcspublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında 2006-cı il 2 fevral tarixli sərəncamına uyğun olaraq paytaxtda inşa ediləcək 9 yol qovşağının - körpünün tikintikisi və 13 piyada keçidindən ikisi 2006-cı il dekabrın 22-də istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev körpülərin və piyada keçidlərinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə, Bülbül prpospekti ilə Füzuli küçəsinin kəsişməsində yerləşən yeraltı piyada keçidin açılışında iştirak etdi. Buraya toplaşan inşaat və paytaxt sakinləri Prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar və ona gül dəstəsi təqdim olundu.

Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, inşasına bu ilin iyununda başlanmış, yeraltı keçidin ümumi uzunluğu 33 metr, eni 8 metrdir. Dörd tərəfə - Füzuli küçəsinə, Bülbül prospektinə, Heydər Əliyev adına Saraya və parka tərəf giriş-çıxışı olan keçiddə İsveçdən gətirılmış müasir texnologiyalı üç eskalator quraşdırılmışdır. Eskalator ilin istənilən fəslində təhlükəsiz işləməsi baxımından çox etibarlıdır. Tikinti işlərini "Akkord" şirkətlər qrupu yerinə yetirmişdir. İnşaat işlərinə ümumilikdə 3,5 milyon manat vəsait xərclənmişdir.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, keçidin planı ilə tanış oldu ərazinin əvvəlki və indiki görünüşünü əks etdirən fotoşəkillərə, texniki otaqlara baxdı. Bildirildi ki, burada əlil arabalarının hərəkəti üçün ayrıca yol da vardır. Döşəmələrə və divarlara və vurulmuş mərmərlər Rusiyadan, Çindən, Hindistandan gətırılmışdir. İnşaat işlərində 50-yə yaxın işçi çalışıbdır. Keçiddə xüsusi işıqlandırma sistemi və daimi olaraq həzin musiqi səsləndirilməsi üçün avandanlıq quraşdırılmışdır.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, müasir üslubda tikilən keçiddə ən yüksək texnologiyanın tətbiq edildiyini, görünüşünün çox gözəl olduğunu və buranın təmiz və səliqəli saxlanmasının zəruriliyini bildirdi.

Dövlətimizin başçısı keçidlə Heydər Əliyev adına parka çıxaraq gəzdi, ulu öndərin abidəsini ziyarət etdi. Parkın ətrafında yerləşən binaların xarici görünüşünün müasirləşdirilməsi

üçün əlavə tədbirlərin görülməsi haqqında müvafiq tövsiyə və tapşırıqlar verdi.

* * *

Prezident İlham Əliyev sonra Səməd Vurğun və Nizami küçələrinin kəsişməsində yerləşən yeraltı keçidin açılışına gəldi. Buraya toplaşanlar dövlətimizin başçısını hərarətlə salamladılar.

Uzunluğu 40 metr olan və təqribən 1,3 milyon manat vəsait xərclənmiş bu keçiddə tikinti işlərini İranın Saako şirkəti aparmışdır. Tikinti işlərinə rəhbərlik edən baş mühəndis Səməd Əkbəri Prezident İlham Əliyevə müraciətlə dedi ki, Sizi görməyimizdən çox şadıq. Sizə Allahdan uzun ömür arzulayırıq ki, həsrətində olduğumuz qədim Azərbaycanın, doğma Bakı şəhərinin inkişafı üçün çox dəyərli işlər görürsünüz. Biz Azərbaycanda işləməkdən çox məmnunuq. Şəhərin ən gediş-gəlişli yerlərindən birindəki keçid öz səliqə-səhmanı, original memarlıq tərtibatı ilə seçilir. İrandan gətirılmış yüksək keyfiyyətli mərmər üzərində həkk edilmiş Təbriz xalçalarının naxışları, səkkiz guşəli ulduzlar keçidin yan divarlarına gözəllik verir. Pilləkənlərdə əlil arabalarının hərəkəti üçün ayrıca yol var. Keçidin ətrafındakı ərazi abadlaşdırılmışdır. Təbrizdən gətirilmiş işıqlandırılan kaktuslar buraya xüsusi yaraşıq verir.

Prezident İlham Əliyev inşaatçılara təşəkkürünü bildirdi, Azərbaycanın günbəgün inkişaf etdiyini, xarici şirkətlər üçün gözəl şərait yaradıldığını, bundan sonra da Bakıda iş görməkdən ötrü yeni sahələrin açılacağını və işlərin çox olacağını vurğuladı.

Dövlətimizin başçısı yeraltı keçidi gəzdi, əlil insanların buradan keçməsinin asanlaşdırılması üçün müasir qurğulardan istifadə edilməsinin əhəmiyyətli olduğunu söylədi və bu barədə aidiyyəti qurumların rəhbərinə tapşırıqlar verdi.

* * *

Dekabrın 22-də Prezident İlham Əliyev paytaxtımızın Tbilisi prospekti ilə Salamzadə küçəsinin kəsişməsində, Nəqliyyat Nazirliyinin yaxınlığında tikilmiş yol qovşağının -körpünün açılışı mərasimində iştirak etdi. İnşaatçılar, şəhər sakinləri dövlətimizin başçısını hörmətlə qarşıladılar və gül dəstəsi təqdim etdilər.

Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, yol qovşağının layihəsi və göstəriciləri ilə tanış oldu. Məlumat verildi ki, körpünün ümumi uzunluğu 600 metr, o cümlədən yolötürücüsü 330 metr, eni 23,4 metrdir. Dördzolaqlı körpüyə giriş yolunun uzunluğu 1,3 kilometrdən çoxdur. Görülən işlərə 19,6 milyon, o cümlədən tikinti quraşdırma işlərinə 16,2 milyon manat xərclənmişdir. Yol qovşağı Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" departamenti tərəfindən inşa olunmuşdur.

Sonra açılış münasibətilə mərasim keçirildi.

Nəqliyyat naziri Ziya Məmmədov ulu öndər Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafının

nəzərdə tutan uzaqgörən siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini və bunun gələcəkdə daha böyük bəhrələr verəcəyini vurğuladı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Mən də sizin hamınızı bu körpünün istismara verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Körpünün tikintisində iştirak etmiş bütün inşaatçılara öz minnətdarlığımı bildirmək istəyirəm ki, qısa müddət ərzində bu körpü istismara verilibdir. Bu, bəlkə də, müasir tarixdə analoqu olmayan bir hadisədir. Bu ilin fevral ayında Bakı şəhərinin nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün mənim tərəfimdən sərəncam imzalanmışdır ki, Bakıda 9 körpü və yolötürücü tikilsin. Hələ bir il keçməyib, qısa müddət ərzində iki körpü istismara verılır, özü də yüksək səviyyədə. Vəzifə qoyulmuşdur ki, körpülərin xarici görünüşü də gözəl, müasir olsun, həm nəqliyyat funksiyasını daşısın, eyni zamanda, şəhərə gözəllik gətirsin. Bu gün görürəm ki, hər iki məsələ öz həllini tapıbdır. Bakının nəqliyyat problemi kəskinləşir. Bu da təbiidir. Çünki Azərbaycanın iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə inkişaf edir. Ölkə əhalisi öz həyat səviyyəsini ildən-ilə yaxşılaşdırır. İqtisadi artım göz qabağındadır və sosial rifah da yaxşılaşır. Bakıya, Azərbaycana minlərlə, on minlərlə nəqliyyat vasitəsi gətirılır. Əlbəttə, şəhərin nəqliyyat sistemi buna dözmür. Bu məsələni həll etmək üçün, tıxacları aradan qaldırmaq üçün qərar qəbul olunmuşdur ki, qısa müddət ərzində 9 yerdə körpü və yolötürücüsü tikilsin. Bu gün biz birinci körpünün açılışında iştirak edirik. Bu onu göstərir ki, qarşıda qoyulan bütün məsələlər qısa müddət ərzində və yüksək keyfiyyətlə öz həllini tapır. Bundan sonra tikiləcək körpülər, əlbəttə ki, Bakının nəqliyyat sisteminin yaxşılaşmasına xidmət göstərəcəkdir.

Nəqliyyat Nazirliyindən mənə verilən məlumata görə, 9 körpünün, yolötürücüsünün tikintisi ilə işlər bitmir. Yeni planlar var, yeni layihələr var və biz onları icra edəcəyik. İndi bizim iqtisadi imkanlarımız artır. Büdcəmiz kəskin şəkildə artır. Tikilən bütün bu körpülər, salınan yollar, kənd yolları hamısı dövlət vəsaiti hesabınadır. Biz artıq buna qadirik, iqtisadi potensialımızı gücləndiririk və bu potensialı insanların rahatlığına yönəldirik. Bu körpü məhz o funksiyanı daşıyır.

Körpü sənaye müəssisəsi, yaxud da ticarət müəssisəsi deyil ki, sonra gəlir gəlirsin. Bu, sadəcə, insanların rahatlığı üçün dövlət tərəfindən görülən işlərdir. Bu körpülərin tikintisinə və bütövlükdə, Bakıda nəqliyyat sisteminin yaxşılaşdırılmasının birinci mərhələsinin həyata keçirilməsinə 200 milyon yeni manatdan çox vəsait ayrılmışdır. Biz artıq bu işin əvvəlindəyik. Aeroport yolu tamamilə yeniləşəcək, indikindən iki dəfə enli olacaq və ən yüksək dünya standartlarına cavab verəcəkdir.

Kənd yolları salınır. O kəndlər ki, oraya piyada da getmək mümkün deyildi, artıq minik avtomobili ilə gedilir. Şəhərlərarası yolları, magistral yollar - budur Azərbaycanın bu-günkü inkişafı, bugünkü potensialı.

Ona görə mən bu körpünün istismara verilməsi münasibətilə sizi bir daha ürəkden təbrik edirəm. Bu həm gözəl bir layihədir, eyni zamanda, çox əlamətdar hadisədir və Azərbaycanın indiki siyasətini özündə əks etdirir. Körpülərin tikintisində iştirak etmiş bütün insanlara öz dərin minnətdarlığımı bildirirəm. Sizi bir daha təbrik edirəm.

Açılış mərasimində yadigar olaraq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi.

Prezident İlham Əliyev körpünün üzərində gəzdi, onun çox yaxşı tikildiyini bildirdi, yol qovşağının alt hissəsinə tamaşa etdi.

Körpüyə üzərinə vurulmuş lövhədə "Yol ötürücüsü Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin sərəncamı əsasında 2006-cı ildə inşa edilmişdır" sözləri yazılmışdır.

Paytaxtda daha bir yol qovşağının açılışı Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsində oldu.

Buraya toplaşan paytaxt sakinləri, inşaatçılar açılış mərasiminə gələn Prezident İlham Əliyevi hərarətlə qarşıladılar.

Körpünün tikintisinə 2006-cı ilin aprelində başlanmışdır. Ümumi uzunluğu 340 metr olan körpüdə hərəkət üçün 4 cərgəli yol salnmışdır. Körpünün istinad divarlarının uzunluğu 480 metrdir. Baş podratçı "Gəncəkörpütikinti-2" ASC işin keyfiyyətlə, layihə uyğun yerinə yetirilməsinə xüsusi diqqət yetirmişdir. Körpünün ətrafı abadlaşdırılmış, yaşıllıq zolağı salınmış, işıqlandırma sistemi yenidən qurulmuşdur ki, bu da şəhərimizə xüsusi yaraşıq verir.

Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi, körpünü gəzdi, işin keyfiyyəti ilə maraqlandı.

Körpünün divarına "Yolötürücüsü Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin sərəncamı əsasında 2006-cı ildə inşa edilmişdir" yazılmış xüsusi lövhə vurulmuşdur.

Bu əzəmətli yol qovşağının da müasir standartlara cavab verdiyini, xarici görünüşünün də gözəl olduğunu vurğulayan Prezident İlham Əliyev müxtəlif istiqamətlərdə salınan yeni yollara da baxdı, paytaxtda avtomobillərin sayının artmasını nəzərə alaraq, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması, tıxacların aradan qaldırılması məqsədi ilə əlavə tədbirlərin görülməsi, xüsusi planım hazırlanması barədə Nəqliyyat Nazirliyinin və Bakı Şəhəri İcra Hakimiyyətinin rəhbərinə lazımi tövsiyə və tapşırıqlar verdi.

**Azərbaycan Prezidenti İlham Əliyev**
**Sumqayıt şəhərində olmuşdur**

**Sumqayıt-Novxanı yolu yenidən qurulmuşdur**

Azərbaycan Prezidenti İlham Əliyev 2006-cı il dekabrın 29-da müasir standartlara uyğun yenidən qurulmuş Sumqayıt-Novxanı avtomobil yolu ilə tanış olmuşdur.

Prezidentə məlumat verildi ki, uzunluğu 9,7 kilometr olan yol Bakı şəhəri istiqamətinə hərəkət edən nəqliyyat vasitələrinin yaratdığı tıxacların aradan qaldırılması üçün əlverişli, sürücülər və sərnişinlər üçün isə çox rahatdır. Xəzər dənizinin sahili boyu uzanan iki-tərəfli yolda müasir işıqlandırma dirəkləri qoyulmuş, avtomobillərə texniki xidmət göstərilməsi üçün servislər yaradılmışdır. Dövlətimizin başçısı piyada yolu ilə gəzdi, keyfiyyəti ilə maraqlandı, buradan dənizi seyr etdi. Prezident İlham Əliyev sahil boyu abadlıq işlərinin görülməsinin və müasir istirahət zonalarının yaradılmasının zəruriliyini bildirdi.

## Azərbaycan Prezidenti sumqayıtlılarla görüşmüş, onların bayramlarını təbrik etmişdir.

Dekabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtda şəhər sakinlərinin ən sevimli istirahət yeri olan dənizkənarı parka gəldi. Dövlətimizin başçısını Yeni ilin rəmzləri olan Şaxta baba və Qar qız böyük sevinclə qarşıladılar, qarşıdan gələn bayramlar münasibətilə hərarətlə təbrik etdilər.

Prezident İlham Əliyev Şaxta baba və Qar qızları ilə şəkil çəkdirdi, dənizkənarı parkı gəzdi və burada abadlıq işlərinin davam etdirilməsi, sakinlərin istirahəti, asudə vaxtlarını daha səmərəli keçirməsi üçün lazımi şəraitin yaradılması barədə tapşırıqlar verdi.

Dövlətimizin başçısı Dənizkənarı parkda gəzintiyə çıxan insanlarla görüşdü, onların vəziyyəti ilə maraqlandı. Şəhər sakinləri, eləcə də burada müvəqqəti məskunlaşmış məcburi köçkünlər Azorbaycan Prezidentini qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək dedilər ki, cənab Prezident, Sizi yaxından görməyimizə çox şadıq. Allah Sizə uzun ömür, cansağlığı versin. Arzu edirik ki, Sizinlə birlikdə neçə belə gözəl bayramlar, yeni illər keçirək. Siz bizim qayğımıza qalırsınız, problemlərimiz gündən-günə öz həllini tapır. İnşallah, torpaqlarımız da erməni tapdağından azad olunacaqdır. Əminik ki, Sizin sayənizdə bütün arzularınıza çatacağıq.

Prezident İlham Əliyev mübarək Qurban bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə onları təbrik edərək dedi ki, indi insanların rahatlığı üçün hər cür şərait yaradılır, xalqımız buna layiqdir. Əlbəttə, ən ağrılı məsələmizi də həll edəcəyik. Hələlik müvəqqəti çətinlik olsa da, çalışıram ki, insanlarımız rahat yaşasınlar. Mən göstəriş verdim ki, bu park daha da abadlaşsın, yaxşı bir layihə hazırlasınlar. Bura daha da gözəlləşəcəkdir. Yer çox gözəldir, amma gərək əl gəzdirilsin. Bütün bunlar yaxın zamanlarda olacaqdır. Buranın havası, mənzərəsi çox gözəldir. Sumqayıt gözəlləşir, abadlaşır.

Dövlətimizin başçısı sakinlərlə xatirə şəkli çəkdirdi.

## Bakıda növbəti yol qovşağı istifadəyə verılmışdir

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2()()6-cı il 1 icvral tarixli Sərəncamına osason, paylaxlda inşa edilməli olan 9 yol qovşa-ğından daha biri 2007-ci il martın 19-da istifadəyə verılmışdir.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etraişdir.

Paytaxtın 20 Yanvar dairəsində - Tbilisi prospekti ilə Həsənbəy Zərdabi küçəsinin kəsişməsində tikilmiş müxtəlif səviyyəli yol qovşağının açılışına toplaşan inşaatçılar və şəhər sakinləri Prezident İlham Əliyevi hörmət və ehtirarala qarşıladılar. Dövlətimizin başçısına gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev yol qovşağının layihəsinə, tikinti prosesini əks etdirən şəkillərə baxdı, habelə Tbilisi prospekti ilə Cavad xan küçəsinin kəsişməsində tikilən müxtəlif səviyyəli yol qovşağının sxemi ilə tanış oldu.

Nəqliyyat naziri Ziya Məmmədov "Azərkörpü" Səhmdar Cəmiyyətinin tikdiyi yol qovşağının göstəriciləri barədə məlumat verdi. O bildirdi kı, mürəkkəb mühəndis-texniki qurğu olan yol qovşağının təməli 2006-cı ilin aprelində qoyulmuşdur. Bura 8 dairəli müxtəlif səviyyəli yol qovşağı - körpü və tuneldən ibarətdir. İşlər iki mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə inşa olunan körpü-keçidin uzunluğu 1,12 kilometr, o cümlədən yolötürücü 290 metr, yanaşmalar 830 metr, istinad divarları 523 raetr təşkil edir. Körpü-keçidinin smeta dəyəri 24,1 milyon manatdır. (3 cümlədən yolötürücüsünün tikintisinə 11,5 milyon manat, yanaşma yollarına 6,7 milyon, abadlaşdırma və işıqlandırma işlərinə 1,1 milyon manat, kommunikasiyalar üçün 2,3 milyon manat və digər işlərə 2,5 milyon manat xərclənmişdir. Bütövlükdə yol qovşağının smeta dəyəri 31,5 milyon manatdır. İkinci mərhələdə görülən işlərə 7,4 milyon manat sərf olunmuşdur. Monolit dəmir-beton işlərinin həcmi 23 min 290, yığma dəmir-beton işlərinin həcmi 4 min 995 kubmetrdir.

Z.Məmmədov vurğuladı ki, Rusiyanın Nəqliyyat Akademiyasının mütəxəssisləri körpünün davanlılığını yoxlamışlar. Bütün işləri yerli mütəxəssislər yerinə yetirmişlər. Xarici şirkətlərə ehtiyac qalmamışdır. Əgər bu işi Avropa şirkətləri görsəydilər, tikinti üç dəfə baha başa gələcəkdi. Aparılan xüsusi araşdırma göstərdi ki, körpü müasir standartlara cavab verir, çox davamlıdır, yükgötürmə qabiliyyəti layihədə nəzərdə tutulduğundan

çoxdur. Layihədə müəyyən dəyişikliklər edilmiş, yeni qovşaqlar yaradılmış, yolların uzunluğu, hündürlüyü ilə bağlı əlavə düzəlişlər olmuşdur. Burada təhlükəsizlik olağı da nəzərə alınmışdır. Nazir nəqliyyat problemlərinin həllinə göstərdiyi diqqət və qayğıya görə Prezidenə minnətdarlığını bildirdi və qarşıdan gələn Novruz bayramı münasibətilə nəqliyyalçılar adından təbrik etdi.

Dövlətimizin başçısına aeroport istiqamətində çəkiləcək körpünün maketi hədiyyə olundu.

Prezident İlham Əliyev körpünün ümumi görünüşünün, işıqlandırma sisteminin gözəl və müasir olduğunu bildirdi. O, rəmzi açılışı bildirən lenti kəsdi və buraya toplaşan inşaatçılara və sakinlərə müraciət dedi:

- Sizi bu körpünün açılışı münasibətilə təbrik edirəm. Çox gözəl körpüdür. Siz bunu çox qısa müddətdə inşa etmisiniz və Bakının nəqliyyat probleminin həlli üçün böyük işlər görmüsünüz. Həm xarici görünüşü gözəldir, həm də bütövlükdə keyfiyyəti çox yüksək səviyyədədir. Çox sevindiricidirki, bu gözəl işi yerli şirkət görübdür. Bakıda bir, iki yerdə yox, doqquz yerdə belə gözəl körpülərin ükintisinə başlanmışdı. İkisi bundan əvvəl, ikisi də bu gün, bayram ərəfəsində istismara verildi. Ona görə mən sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun. Çox yaxşı işləmisiniz. Bundan sonra da Bakıda və Azərbaycanda çox işlər - tikinti, quruculuq, abadlıq işləri görüləcəkdir. Ona göro artıq sizin şirkətinizin də böyük imkanları var, gələcəkdə böyük layihələrdə iştirak edəcəkdir.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

İnşaatçılar və sakinlər dövlətimizin başçısını bahar bayramı münasibətilə təbrik etdilər, Bakının müasirləşdirilməsinə göstərdiyi diqqətə görə minnətdarlıqlarını bildirdilər.

* * *

Sonra Prezident İlham Əliyev körpünü gəzdi və tunelin yerləşdiyi əraziyə gəldi. Tunelin divarına "Yolötürücü Azərbaycan Respublikasının Prezidenli cənab İlham Əliyevin sərəncamı əsasında 2006-2007-ci ildə inşa edilmişdir" sözləri yazılmış xüsusi lövhə vurulmuşdur.

Dövlətimizin başçısına paylaxtımızın Tbilisi prospektində inşa olunmuş tunelin göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, burada 1280 metrlik yolun 332 metri tuneldən keçir. Yolötürücünün tamamlanması ölkəmizin şimal istiqamətində nəqliyyatın şəhərə giriş-çıxışının asanlaşmasında, nəqliyyat axırının intensiv olduğu bu ərazidə hərəkətin tənzimlənməsində və bütövlükdə paytaxtın nəqliyyat problemini həllində mühüm rol oynayacaqdır. Bu layihədə nəqliyyatın hərəkəti tunelə salınaraq, fasiləsizlik təmin olunmuş, tunelin üzərində qurulmuş qovşaq nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmışdır.

Bağlantı qollar sayəsində nəqliyyatın hər tərəfə sərbəst hərəkəti həmin olunmuşdur.

Tunel ikitərəfli hərəkət üçün nəzərdə tutulmuşdur. Hər tərəfdə üç hərəkət zolağı vardır. Uzunlığu 332 metr, eni 30 metr, hərəkət zolağının eni 25,5 metr (hər birinin eni 12,75 metr olan iki istiqamətli yol), hündürlüyü 5,5 metrdir. Ayırıcı zolağın eni 3 metr, hər iki tərəfdə səkilərin eni 0,75 metrdir. Kənar yollar və digər yollarla min 120 metr uzunluğunda bağlantılar inşa edilmişdir. Tunelin istinad divarları ilə birlikdə uzunluğu 986 metrdir. Tikinti-quraşdırma işləri zamanı uzunluğu 16,20 metr olan 398 ədəd yığma dəmir-beton tirlər quraşdırılmış, 1133 ədəd dirək vurulmuşdur. 25 min 685 kubmetr optimal çınqıl qarışığı, 18 min 115 kubmetr fraksiyalı qırmadaş, 35 min 500 lon asfalt-beton vo 12,1 min kubmetr betondan istiladə edilmişdir. Tunel və köməkçi yollarda işıqlandırma, ventilyasiya, yanğından təhlükəsizlik, siqnalizasiya, rabitə və kamera sistemləri quraşdırılmışdır. Tikinti işləri zamanı 8 müxtəlif mühəndis-kommunikasiya xətləri köçürülmüşdür. 30 illik inşaat təcrübəsi olan Türkiyənin "Kolin" şirkəti tunelin tikintisini 10 aya başa çatdırmışdır.

Azərbaycan Prezidenti tunelin rəmzi açılışını bildirən lenti kəsdi, xatirə şəkli çəkdirdi və piyada gəzərək tunellə tanış oldu.

### İstirahət parkı şəhərimizə və yol qovşağı kompleksinə xüsusi yaraşıq verir

Sonra Prezident İlham Əliyev tunelin üzərində salınmış parkla tanış oldu.

Paytaxt sakinlərinin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılmış istirahət guşəsi şəhərimizə xüsusi yaraşıq verir. Burada hər cür rahatlıqla yanaşı, texniki təhlükəsizliyə nəzarət etməkdən ötrü bütün imkanlar yaradılmışdır. Belə ki, hərəkətə və tunelin fəaliyyətinə daimi nəzarət kameraları, fövqəladə hallarda polis, yanğından mühafizə və səhiyyə xidmətləri ilə dərhal əlaqə yaratmaq üçün xüsusi qurğular quraşdırılmış və nəzarət otağı tikilmişdir. İşıqlandırma sistemləri, əkilmiş ağaclar və dekorativ bitkilər buraya gözəl görkəm vermişdir.

Paytaxtım şimal qapısında salınan parkın, yol qovşağının istifadəyə verilməsi Novruz ərəfəsində gözəl bayram hədiyyəsidir.

* * *

Prezident İlham Əliyev Tbilisi prospekti ilə Cavad xan küçəsinin kəsişməsində, metronun "20 Yanvar" stansiyasının yaxınlığında inşa olunacaq tunelin sxemi ilə də tanış oldu.

Nəqliyyat naziri Ziya Məmmədov, "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov məlumat verdilər ki, burada da nəqliyyatın gediş-gəlişinin asanlaşdı-

rılması üçün tədbirlər görülür. Artıq körpü tikilmişdir, tunel də çəkiləcəkdir. Mətbuat prospektindən mikrorayonlara hərəkət edən nəqliyyat vasitələri bu tuneldən keçəcəkdir. Layihədə müəyyon dəyişiklik edilmiş, piyadalar üçün keçidlər də planlaşdırılmışdır. İşlərə bayramdan dərhal sonra başlanacaq və ümumi yol qovşağının tikintisinin ikinci mərhələsi çərçivəsində yerinə yetiriləcəkdir. Tbilisi prospekti və Cavad xan küçəsindəki müxtəlif səviyyəli yol qovşağı da ikinci mərhələdə inşa olunacaq və bütövlükdə, ölkəmzdə ən uzun qovşaq olacaqdır.

Bu ərazidə metrodan istifadə edənlərin və digər sərnişinlərin rahatlığı üçün mikroavtobusların xüsusi dayanacağı yaradılacaqdır. Tunel bu ilin oktyabrında istismara hazır olacaq və beləliklə, bu ərazidə tıxac problemi tamamilə aradan qaldırılacaqdır.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, bu əzəmətli yol qovşağının da müasir standartlara cavab verdiyini, ən yüksok texnologiyanın tətbiq edildiyini, görünüşünün çox gözəl olduğunu vurğuladı. Dövlətimizin başçısı tikinti işlərini yüksək səviyyədə apardıqlarına görə inşaatçılara və sifarişçilərə təşəkkürünü bildirdi, müxtəlif istiqamətlərdə salınan yeni yolların sxemlərinə baxdı, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması, tıxacların aradan qaldırılması məqsədi ilə bundan sonra da tədbirlərin görüləcəyini söylədi, lazımi tövsiyə və tapşırıqlarını verdi.

**Bakıda Zabrat-Balaxanı-Mehdiabad-
Xırdalan-Binəqədi dairəvi avtomobil yolu və
növbəti yeraltı piyada keçidi istifadəyə verılmışdir**

**Azərbaycan Prezidenti İlham Əliyev açılışlarda iştirak etmişdir**

2007-ci il mayın 17-də ölkəmizin paytaxtında Zabrat-Balaxanı-Mehdiabad-Xırdalan-Binəqədi dairəvi avtomobil yolu və növbəti yeraltı piyada keçidi istifadəyə verılmışdir.

Azərbaycan Prezidenti İlham Əliyev yolun və piyada keçidinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə Ziya Bünyadov prospekti ilə Əlövsət Qayıbov küçəsinin kəsişdiyi yerə gəldi.

Nəqliyyat naziri Ziya Məmmədov və "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Prezident İlham Əliyevi qarşıladılar, ölkəmizdə nəqliyyat sektorunun inkişafina, yolların təmirinə və yeni infrastrukturun yaradılmasına göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdilər. Məlumat verildi ki, yeni istifadəyə verilən yolla sutka ərzində təxminən 30-40 min avtomaaşın hərəkət edəcək və Ziya Bünyadov prospektində tıxacların qarşısı alınacaqdır. Ən önəmlisi isə yük maşınları şəhərə daxil olmayacaqdır. Burada yeni dəmiryol körpüsü də tikilir.

Zabrat-Balaxanı-Mehdiabad-Xırdalan-Binəqədi yolunun sifarişçisi Nəqliyyat Nazirliyi, icraçı isə "Akkord" şirkətlər qrupudur. Ümumi uzunluğu 28,9 kilometr olan yola 80 min ton asfalt döşənmişdir. Yolun yenidən qurulması işlərinə 2007-ci il martın 19-da başlanmış, mayın 8-də başa çatdırılmışdır.

Prezident İlham Əliyev Bakı şəhərətrafı avtomobil yollarının yeniləşdirilməsi layihəsi çərçivəsində görülən işlər barədə məlumatla tanış oldu, yolların əvvəlki və təmirdən sonrakı vəziyyətini əks etdirən şəkillərə baxdı.

Bildirildi ki, layihə əsasında uzunluğu 43,9 kilometr olan Ziya Bünyadov prospekti Binəqədi şosesi (uzunluğu 6 km, eni 13-15 m), Binəqədi şosesi (uzunluğu 3 km, eni 15-18 m), Dövlət Yol Polisi-Biləcəri (uzunluğu 1,8 km, eni 7,5 m), Biləcəri-Binəqədi şosesi (uzunluğu 6 km, eni 9-12 ra), Binəqədi şosesi-Mehdiabad (uzunluğu 6,1 krn, eni 8 m) və Xırdalan dairəsi-Binəqədi-Balaxanı yolu (uzunluğu 21 km, eni 7,5-9 m) çəkilmişdir. 122 min ton asfalt beton qarışığı işlədilmiş, 7 minədək ağac və kol əkilmiş, 28 min poqon-metr səki, 2600 metr kanalizasiya xətti çəkilmişdir.

Əvvəllər mövcud olmuş, lakin bərbad vəziyyətə düşmüş Zabrat-Balaxanı-

Mehdiabad-Xırdalan-Binəqədi yolu genişləndirilərək eni 7,5 metrdon 15 metrə çaldırılmışdır. Şimal bölgəsindən gələn avtonəqliyyatın Mərdəkan, Maştağa, Zabrat, Pirşağı və digər istiqamətlərə, yaxud əksinə hərəkəti 15-18 kilometr qısalacaqdır. Yəni şəhərin içinə girməmək şərtilə bu dairəvi yoldan istifadə olunacaqdır. Binəqədi rayonu ərazisində 33 kilometr, Sabunçu rayonu ərazisində isə 11 kilometrə yaxın yeni yol çəkilmişdir. İndiyədək Bakı şəhərində Nəqliyyat Nazirliyinin xətti ilə 75 kilometrlik yol çəkilmişdir.

Ziya Bünyadov prospektindən Əlövsət Qayıbov küçəsi istiqamətinə gedən yolun üstündə yerləşən bazarın arxasından 1,5 kilometr uzunluğunda yeni yol çəkiləcəkdir. Bu, bazara girib-çıxan yük maşınlarının hərəkətini asanlaşdıracaq və Ziya Bünyadov prospektindəki nəqliyyat gərginliyini azaldacaqdır.

Dövlətimizin başçısı yol inşaatçıları ilə görüşüb söhbət etdi, qısa müddət ərzində gördükləri işlərə görə onlara təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev respublika əhəmiyyətli yolların, paytaxtda mərkəzi yolların müasir standartlara cavab verməsi, yeni yol qovşaqlarının tikintisi, küçələrin genişləndirilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Dövlətimizin başçısı avtomobilin sükanı arxasına əyləşərək yeni yolun keyfiyyəti ilə əyani tanış oldu.

* * *

Sonra Prezident İlham Əliyev Binəqədi qəsəbəsinə gəldi. Buraya toplaşan sakinlər dövlətimizin başçısını böyük hörmət və qonaqpərvərliklə qarşıladılar. Onlar ölkəmizdə son illər ərzində görülən işləri yüksək qiymətləndirərək Bakının kənd və qəsəbələrinə göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.

Prezident İlham Əliyev qəsəbə sakinlərini salamladı, onları bu gözəl yolun çəkilməsi münasibətilə təbrik etdi.

**Hacı Mustafa VƏLİYEV** (qəsəbə ağsaqqalı): Cənab Prezident, xoş gəlmisiniz. Bütün bunlar Sizin sayənizdədir, Sizin diqqətinizin nəticəsidir.

**İlham ƏLİYEV**: Sağ olun. Bəli, özü də qısa müddət ərzində, ay yarım ərzində keyfiyyətli yol çəkilibdir.

**Hacı Mustafa VƏLİYEV:** Biz də istəyirdik ki, maşını özünüz sürəsiniz və yolları görəsiniz.

**İlham ƏLİYEV**: Mən şəkillərə də baxdım, əvvəllər bu yollar çox bərbad vəziyyətdə idi.

**Hacı Mustafa VƏLİYEV**: Cənab Prezident, biz 2003-cü ildə Sizinlə Şüvəlanda

ağsaqqallarla birlikdə bir dəfə görüşmüşük. Siz bu çətin vəzifəni öz üzərinizə götürdünüz. Bu gün isə onun bəhrəsini görürsünüz. İnşallah, Sizin bu siyasətiniz nəticəsində bizim ölkəmiz, Azərbaycan daha da çiçəklənəcək, bu, ən ucqar rayonlara da təsir edəcəkdir. Biz televiziya vasitəsilə görəndə ki, Xınalıq kəndinə telefon, yol çəkilib, insan deməyə söz tapmır. İnanırıq ki, gənclərimizin gələcəyi var, qüvvətli cavan Prezidentimiz var və onunla fəxr edirik. Siz bu qəsəbəyə birinci dəfədir gəlirsiniz və istəyirik hər il gələsiniz.

**İlham ƏLİYEV:** Sağ olun, istəyirdim gəlim və yaxşı oldu ki, yolun açılışında bərabər iştirak etdik.

Doğrudan da, təzə yol buraya gəliş-gedişi asanlaşdıracaq, sizin üçün çox rahat olacaqdır. Çünki əvvəllər böyük əziyyət çəkirdiniz, bu yolu, xüsusilə marşrut avtobusları ilə gedib-gəlmək çox çətin idi. İndi ən rahat, gözəl yollardan biridir.

**Hacı Mustafa VƏLİYEV:** Cənab Prezident, ürəymizdə sözümüz çoxdur. Bilmirik hansıları deyək. İstər təhsil, istərsə də iqtisadi və başqa sahələrdə Sizin böyük əməyiniz var.

**İlham ƏLİYEV:** Hər bir sahədə də inkişaf var. Bu, Azərbaycanın indiki reallıqlarıdır.

**Hacı Mustafa VƏLİYEV**: Bəli. Biz ümid edirik ki, Sizin siyasətiniz nəticəsində torpaqlarımız da azad olunacaq, köçkünlərimiz, qaçqınlarımız öz yurdlarına qayıdacaqlar.

**İlham ƏLİYEV:** Biz indi onlara şərait yaradırıq. Ancaq bu, müvəqqəti bir yerləşmədir. Əsas məsələ odur ki, torpaqlar azad olunsun və onlar öz torpaqlarına qayıtsınlar. Biz ondan sonra oranı da qurub-tikəcəyik, yollar, binalar, fabrik, zavod - nə lazımdırsa tikiləcəkdir. İndi Azərbaycanda ümumi inkişaf elodir ki, istənilən məsələ həll oluna bilər. Yol çəkilir, məktəblər, xəstəxanalar, hər şey tikilir. Yəni ölkəmizin iqtisadi gücü artır və hər şey edə bilərik. Bu yol ayyarım ərzində çəkilib, bunun özü də böyük bir işdir.

**Hacı Mustafa VƏLİYEV:** Bizim təkcə yollarımız təzələnmir, bütün Azərbaycan inkişaf edir.

**İlham ƏLİYEV**: Sağ olun.

**Hacı Mustafa VƏLİYEV**: Danışdıqlarımız hamısı səmimidir. İnşallah, hər şey yaxşı olacaqdır.

**İlham ƏLİYEV:** Mən görəndə ki, hər bir yer, rayon, şəhər abadlaşır, gözəlləşir, böyük işlər görülür, ümumi iqtisadi inkişaf var, sevinirəm. Hər bir kəndin problemi də həll olunmalıdır. Bu, həll olunarsa, bütün məsələlər həllini tapacaqdır.

Təxminən iki il bundan əvvəl şəhər icra hakimiyyətində Bakının ətraf qəsəbələrinin problemlərinin həlli üçün böyük bir müşavirə keçirdim. Orada hər bir rayon üçün xüsusi proqram nəzərdə tutuldu. İndi onun icrasına başlanıbdır, bütün qəsəbələr daha da abadlaşacaqdır.

Çünki Bakı ətrafı qəsəbələrdə 700 minə qədər əhali yaşayır. Bu, özlüyündə böyük bir şəhərdir, onların da problemləri çoxdur. Ona görə infrastruklur proqramın - qaz, işıq, su, kanalizasiya, məktəb, ambulatoriya, xəstəxana - çox genişdir və icra olunur. Rayonlar üçün ayrıca proqram var, biz bunu 2004-cü ildə qəbul etdik. Bakının qəsəbələri üçün də ayrıca proqram var. Bakının özü üçün də ayrıca proqram var - körpülər, yollar salınması, binaların təmiri və bərpası.

Dünən gedib teatrların təmiri ilə tanış oldum. İndi bütün teatrlar, muzeylər təmir olunur. Yəni bunlar bizim milli sərvətimizdir. Həm humanitar sahəyə, həm də infrastruktura, yol, nəqliyyat, təhsil, səhiyyə məsələlərinə böyük diqqət yetirılır. İstəyirəm ki, bunlar tezliklə həll olunsun. Gələn ilin oktyabrında mənim prezidentlik fəaliyyətimin 5 ili tamam olacaqdır. Onda xalqa hesabat veriləcəkdir. Ancaq bu görülən işlər də hesabatdır.

**Hacı Mustafa VƏLİYEV**: Biz əminik ki, Azərbaycan dünya ölkələri arasında ulduz kimi parlayacaqdır. Çünki Sizin kimi gözəl, cavan siyasətçi olan Prezidentimiz var.

**İlham ƏLİYEV:** Sağ olun. Sizə cansağlığı arzulayıram.

**Məleykə ALLAHVERDİYEVA** (müəllimə): Siz bizim əbədi Prezidentimizsiniz. 800 məktəb tikilib istifadəyə verilibdir. 18 məktəb də Binəqədi rayonunda tikilib və tikilməkdə davam edir. Bu, Sizin və ölkənin birinci xanımı Mehriban Əliyevanın, ulu öndər ocağının qayğısının bəhrəsidir. Biz bunu görürük.

*Xalqın qüdrət qələmidir,*
*nəqş elədi Heydərə!*
*Ağıl, kamal, düşüncə*
*baxş elədi Heydərə!*
*Azərbaycan deyilən*
*bu gözəl məmləkəti*
*Dünyaya dünya qədər*
*tanıtmaq, üçün*
*Heydəri bəxş elədi bizlərə!*

Siz də onun oğlusunuz. Ata Heydər, oğul Heydər oğludur. Cənab Prezident, Azərbaycan yalnız Sizə ümidlidir. Siz bizim seçilmiş əbədi Prezidentimizsiniz. Sizinlə görüşmək mənə nəsib oldu. Mən Mehriban xanımla da görüşmüşəm. Gözəl və güclü kadr siyasətiniz var, biz Sizi həmişə dəsləkləyirik.

İlham ƏLİYEV: Təhsil gələcəkdir.

**Məleykə ALLAHVERDİYEVA**: Bəli, bunu ulu öndər demişdi.

**İlham ƏLİYEV**: Bizim daxili imkanlarımız var və daha da artacaqdır. Ona görə gənc nəsil gərək çox bilikli, savadlı olsun, həyatda öz yerini tuta bilsin və ümumi inkişafa da öz töhfəsini versin. Məktəb tikintisi, kompyuterləşmə, kitabların latın qrafikası ilə nəşri - bütün bu işlər gələcək nəslin yetişdirilməsi üçün vacibdir və uşaqlarımız da vətənpərvərlik ruhunda böyüməlidirlər. Bu işdə müəllimlərin çox böyük əməyi var. Mən müəllimlərin fəaliyyətini çox yüksək qiymətləndirirəm və sizə də təşəkkür edirəm.

**Məleykə ALLAHVERDİYEVA**: Çox sağ olun. Gələcək preziden seçkilərində bütün binəqədililər yüz faiz Sizinlədir.

* * *

Prezident İlham Əliyev Binəqədidən Mehdiabad qəsəbəsinə gəldi. Qəsəbənin mərkəzi meydanına toplaşan sakinlər dövlətimizin başçısını gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar. Burada qəsəbə sakinləri ilə görüş keçirildi.

Abşeron rayon təhsil şöbəsinin müdiri **Nadir AGAYEV** Prezidenti salamlayaraq dedi:

- Cənab Prezident, icazə verin, Mehdiabad qəsəbəsinin və bütün rayonun ağsaqqalları, ziyalıları, ictimaiyyəti adından Sizə "Xoş golmisiniz!" deyim. Cənab Prezident, Sizin hakimiyyətiniz illərində bütün Azərbaycanın inkişafı, xüsusilə sosial-iqtisadi inkişafı göz qabağındadır. Bütün regionlarda olduğu kimi, bu, Abşeronda da öz əksini tapır. Rayonumuzda quruculuq, abadlıq işləri gündən-günə vüsət alır. Hazırda rayonda 6 məktəb tikilir və onların üçü istifadəyə tam hazırdır, qalanları isə sentyabradək hazır olacaqdır. Ele bir kənd, qəsəbə yoxdur ki, orada məktəb, bağça, səhiyyə obyekti təmir edilməsin, yaxud yenisi tikilməsin. Bütün bunlar Sizin qayğınızdır, apardığınız siyasətin, ulu öndərin qoyduğu bünövrənin ucaldılmasıdır.

Siz, həqiqətən də, Heydər Əliyev xəttinin layiqli davamçısısınız. Ona görə də abşeronlular 2003-cü ildə Sizə səs verdilər. 2008-cı ildə də seçki olacaq, abşeronlular yenə də Sizi yüksək səviyyədə dəstəkləyəcəklər. Sizin bütün daxili və xarici siyasətinizi bəyənirik və fəxr edirik ki, belə Prezidentimiz var. Mən bütün mehdiabadlılar adından Sizə bir daha təşəkkürümü bildirirom.

**Natiq ABDULLAYEV** (II qrup Qarabağ müharibəsi əlili): Cənab Prezident, mən veteranlar, şəhid ailələri adından Sizi salamlayıram.

Rəhmətlik Heydər Əliyev Mehdiabadda əlillər üçün qəsəbə saldı.

**İlham ƏLİYEV**: Bəli, buraya gəlmişdi.

**Natiq ABDULLAYEV**: Orada mənə evin orderini təqdim etdi. Biz Sizə dərin minnətdarlığımızı bildiririk, qayğınızı həmişə hiss etmişik. Problemsiz yer yoxdur, müvəqqəti şeylərdir. İnkişafa doğru gedirik.

Cənab Prezident, Sizdən bir xahişimiz var. Siz Xırdalana şəhər statusu verdim. Mehdiabada da qəsəbə statusu verilibdir. Qəsəbəmizdə xəstəxana tikilsəydi, çox yaxşı olardı.

**İlham ƏLlYEV**: Xəstəxana yoxdur?!

**Natiq ABDULLAYEV**: Yoxdur. Əlillərimiz, şəhid ailələrimiz var.

**İlham ƏLiYEV:** Mən göstəriş verəcəyəm ki, burada xəstəxana tikilsin.

**Natiq ABDULLAYEV**: Sizə arxalanmaq və Siz də həmişə bizə arxalana bilərsiniz.

**İlham ƏLİYEV:** Mən də sizə arxalanıram.

**Natiq ABDULLAYEV**: Men Mir Mövsüm ağanın qardaşı oğluyam. Mənə evin orderini şəxsən Heydər Əliyev veribdir. Allah ona rəhmət eləsin. O, dünyasını dəyişəndə bizim belimiz sındı. Amma Siz gəldiniz, bizi dikəltdiniz. Biz, həqiqətən, Sizin qayğınızı hiss edirik.

Bizim iki problemimiz də var. Mehdiabad-Məhəmmədi və Mehdiabad-Pirşağı yolları pis vəziyyətdədir. Şükür Allaha ki, qalan hər şey yaxşıdır, gözəldir. Keçən il sentyabrın 12-də Siz rayonumuzdan 38 nəfəri mükafatlandırdınız. Rayonda nə qədər dəyişikliklər olubdur. Sizin bu rayona nəzarətinizi hiss edirik, Abşeron Azərbaycanın bir gözüdür. Necə ki, biz Sizə arxalanırıq, isteyirik Siz də bizə arxalanasınız.

Sizə bütün veteranlar adından bir daha salamlarımı yetirirəm.

**İlham ƏLİYEV**: Mən də çox sevinirəm ki, Abşeron rayonunda işlər yaxşı gedir, çox gözəl quruculuq işləri aparılır, məktəbtər tikilir, yollar abadlaşır. Mən xatırlayıram, rayona gələndə gördüm ki, qısa müddət ərzində müsbətə doğru yaxşı dəyişikliklər yoxdur: yeni zavodlar, fabriklər, eyni zamanda infrastruklur layihələri. Xırdalan qəsəbəsinə də şəhər statusu verildi. Bu, Xırdalanın önəmini, onun bizim üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Bütövlükdə rayonda gedən abadlıq, quruculuq işləri məni sevindirir.

Bu yolun çəkilişi də rayona göstərilən diqqətin nəticəsidir. Bu yol qısa müddətdə, ayyarım ərzində çəkilib və çox da keyfiyyətlidir. İndi gediş-gəlidə rahatlaşacaqdır. Bundan sonra başqa istiqamətlərdə də yollar çəkiləcəkdir. Indi siz Mehdiabad-Pirşağı, Mehdiabad-Məhəmmədi yollarını deyirsiniz, mən nəqliyyat nazirinə tapşırıq verəcəyəm ki, məşğul olsunlar, Xəstəxana tikintisi də nəzərdə tutulacaqdır.

Bilirsiniz ki, Bakı şəhərinin və qəsəbələrinin inkişafı üçün xüsusi proqramlar nəzərdə tutulubdur. Abşeron sərhəddə yerləşir, amma Bakı deyil. Buna görə Abşeronun xüsusi inkişar proqramı olmalıdır və burada məktəb tikintisi, insanları narahat edən bütün məsələlər öz həllini tapmalıdır: işıq, su, qaz, kanalizasiya, yollar. Əsas bunlardır və bir də iş yerləri. Bütövlükdə indi Azərbaycanda inkişafa qədər sürətlə gedir ki, hər bir

rayonun inkişafı mümkündür, olacaq və var. Bakıda, rayonlarda, Bakının sərhədində yerləşən bölgələrdə insanlar daha da yaxşı yaşamalıdırlar. Mənim məqsədim budur, əsas vəzifələri də budur və çalışıram ki, buna nail olum. Həmişə bütün işlərdə xalqa arxalanıram. Həm ölkə daxilində islahatların aparılması üçün, həm xarici münasibətlərdə Azərbaycanın güclü mövqe nümayiş etdirməsi üçün, həm də müstəqil siyasət aparmaq üçün mənim dayağım xalqdır. Bu dəstək var və ona görə mən buna arxalanıb çalışıram ki, müstəqil ölkə kimi Azərbaycanı xalqla birlikdə on yüksak zirvələrə qaldırım. Biz bunu da edirik. İndi dünya səviyyəsində ölkəmizin rolu artır.

**Natiq ABDULLAYEV**: Cənab President, Sizin siyasətinizi izləyirik, prinsipial mövqeyinizi bilirik.

**İlham ƏLİYEV**: Hər bir sahədə mövqe olmalıdır. Ulu öndər Heydər Əliyevin də fəlsəfəsi məhz bu idi, mövqe nümayiş etdirirdi. Hər bir insanın həm xarici siyasətdə, həm daxili siyasətdə, həm də islahatların aparılmasında mövqcyi olmalıdır. Mövqesiz insan cəmiyyətdə o qədər də böyük önəmə malik deyildir. Hər bir insanın və ilk növbədə, ölkənin də özünə məxsus mövqeyi olmalıdır. Azərbaycan elə ölkədir ki, onun bütün məsələlərlə bağlı öz mövqeyi var. Heç kimdən asılı olmayan, müstəqil, öz milli maraqlarına əsaslanan mövqcyi var. Əsas budur. Belə olan halda, əlbəttə, iqtisadi inkişaf da gedəcək, bizim beynəlxalq nüfuzumuz da artacaqdır. Biz bunu görürük. Bizim böyük iqlisadi imkanlarımız var. Neft, qaz ehliyatları - bunlar bizə əlavə güc verir və biz də bundan istifadə edirik və elməliyik. Çünki istəyirik ölkəmiz daha da güclənsin.

Bizim problemlərimiz çoxdur. Həm sosial, həm iqtisadi, həm da başqa problemlər var. İqtisadiyyatımız yalnız keçən il 1990-cı ilin səviyyəsinə qalxdı. Yəni Sovet İtlifaqı dağılandan sonra iqtisadiyyata o qədər böyük zərbə vuruldu, bütün əlaqələr kəsildi və müstəqilliyin ilk illərində o qədor səhvlər buraxıldı ki, onları aradan qaldırmaq üçün nə qədər vaxt lazım oldu. Ancaq biz indi bu səviyyəyə gəlib çatmışıq. Bundan sonra ancaq və ancaq inkişafa doğru gedəcəyik.

Qarabağ problemi ən başlıca, birinci problemdir. Bizim bundan başqa əsas problemimiz olmayacaq, onlar həll cdiləcəkdir. Çalışırıq ki, Qarabağ məsələsini danışıqlar yolu ilə həll edək. Amma görürük ki, alınmır. Nə üçün? Çünki qarşı tərəf özünü səmimi aparmır. Biz nə elməliyik? Danışıqları davam etdirməliyik?! Mən hesab edirəm, danışıqları hələ ki davam etdirməliyik, çünki buna allernativ yoxdur. Alternativ müharibədir. Müharibəni də heç kim istəmir. Amma bununla bərabər nə etməliyik?! Güclü olmalıyıq. Neçə dəfə? 10 dəfə, 20 dəfə Ermenistandan güclü olmalıyıq və biz artıq bunu təmin edirik.

Əgər 8 il bundan əvvəl bizim iqtisadi vəziyyətimiz Ermənistanla təxminən eyni

idisə, indi biz iqtisadi inkişaf baxımından, büdcə baxımından, ordu quruculuğu baxımından onlardan 7-8 dəfə qüdrətliyik. Daha da güclənməli, orduya diqqəti artırmalı, iqtisadi potensialı möhkəmləndirməliyik. Bütün neft-qaz əməliyyatları nəticəsində Azərbaycana külli miqdarda pul gələcək və bu da, əlbəttə, ilk növbədə insanların problemlərinin həlli, ordunun güclənməsi üçün, siyasi ölkəmizin artması üçün istifadə olunmalıdır. Belə olan halda, biz bu məsələni daha da asanlıqla həll edəcəyik. Ancaq heç vaxt Azərbaycan xalqı və dövləti milli maraqlara zidd olan razılaşmaya getməyəcəkdir. Hcç vaxt! Yəni bu, bizim prinsipial mövqeyimizdir. Onlar bunu nə qədər tez başa düşsələr, bir o qədər yaxşı olar. Hər halda, indi biz inkişaf yolundayıq. Onların isə inkişafı yoxdur. Nəyin hesabına inkişaf etmirlər?! Çünki bölgədə həyata keçirilən bütün böyük layihələrdən təcrid olunmuş vəziyyətdədirlər.

İndi Türkiyəyə dəmir yolunu çəkəcəyik. Onlar tam təcrid vəziyyətinə düşəcəklər. İqtisadi perspektivləri yoxdur. Ancaq xarici yardıma arxalanırlar. O yardım bu gün var, sabah isə olmaya bilər. Heç bir ölkəyə yaraşmır ki, öz gələcəyini xarici yardıma görə müəyyən etsin. Biz heç kimdən yardım almırıq və hər şeyi özümüz həll edirik. Allaha şükür ki, xalqımız da çox müdrikdir, intellektual potensialı çox yüksəkdir. İndi cəraiyyətdə elə gözəl ab-hava var ki, bütün işləri görməyimiz mümkündür və mümkün olacaqdır.

Hər bir kəndin problemi də həll olunmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Əgər hər bir kəndin problemi həll edilsə, ölkədə bütün problemlər həll olunacaqdır. Çünki kənd, qəsəbə, necə deyərlər, kiçik yaşayış məntəqəsidir.

Mənim mehdiabadlılara da xüsusi hörmətim, məhəbbətim var.

**Brilyant MƏMMƏDOVA** (elmi işçi): Cənab Prezident, mehdiabadlılar bu gün çox böyük sevinc hissi keçirirlər. Ona görə ki, dövlət başçısı Mehdiabada üçüncü dəfədir gəlir. Allah rəhmət eləsin, Sizin atanız iki dəfə burada olmuş, mehdiabadlılarla görüşmüşdü. İndi Siz gəlmisiniz. Biz bunu həsrətlə gözləyirdik. Çünki Sizin çıxışlarınızı televiziya vasitəsilə həmişə dinləyirik və hər uğurunuzu xalqın uğuru hesab edirik. Siz həmişə öz çıxışlarmızda "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" demisiniz. Siz, doğrudan da, verdiyiniz vədlərə əməl etdiniz. Möhtərəm Prezidendimiz, biz buna çox sevinirik. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar az sayda qəsəbə, kənd qalmışdır ki, Siz oraya getməyəsiniz. Ən ucqar Xınalığa getmək, oraya yol çəkmək böyük bacarıqdır. Sizdə olan bacarıq, insanlara, hər bir Azərbaycan vətəndaşına qayğınız xalqımız tərəfindən həmişə alqışlanır.

Biz sevinirik ki, ulu öndərimizin Sizin kimi varisi var. Siz onun qoyduğu siyasi xətti davam etdirirsiniz. Eyni zamanda, xalqın rifahı Sizin bir nömrəli qayğınızdır. Televiziya vasitəsilə hamı bunu izləyir. Bütün regionlarda misli görünməmiş inkişafı, məktəblərin,

səhiyyə ocaqlarının tikintisini, kənd təsərrüfatı sahəsində fermerlərə qayğınızı deməmək olmaz.

Bir neçə kəlmə də alimlərə göstərdiyiniz qayğıdan danışmaq istəyirəm. Mən Azərbaycan Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunda işləyirəm. Alimlərə, elmi işçilərə qayğınızı fərəh hissi ilə qeyd edirəm. Özüm Mehdiabadda yaşayıram. Alimlərimizdə böyük fəalliq yaranıbdır. Onların əmək haqqı bir neçə dəfə artırılmışdır, elmlər namizədləri 30 manat, elmlər doktorları isə 60 manat əlavə də alırlar. Alimlər Sizin bu qayğınızdan ruhlanaraq daha da yaxşı işləmək istəyirlər. Allah Sizi qorusun!

**Qəmfilə QAYİBOVA** (şəhid anası): Cənab Prezident, şəhid anası kimi, mən Sizi alqışlayıram, öpürəm, bağrıma basıram. Allah ulu öndərimizə qəni-qəni rəhmət eləsin ki, Sizin kimi yetirməsi var. Biz Sizinlə fəxr edirik. Biz şəhid anaları göstərdiyiniz qayğıya görə Sizə minnətdarıq. Çox sağ olun. Sizin gəlişiniz bizim üçün şərəfdir. Mehdiabad camaatı, şəhid anaları adından Sizi öpürük, alqışlayırıq.

**İlham ƏLİYEV:** Mən də sizi alqışlayıram. Bir daha demək istəyirəm ki, Azərbaycan bundan sonra da ancaq və ancaq inkişaf yolu ilə gedəcəkdir. İndi həm sosial, iqtisadi sahədə, həm də infrastruktur, yol çəkilişi və sair sahələrdə bütün problemlər öz həllini tapacaqdır. Maaşlar, pensiyalar da artırıldı və bundan sonra da artırılacaqdır. Minimum əməkhaqqı, hər il ən azı iki dəfə artırılır. Minimum əməkhaqqı ilə yanaşı, bütün başqa kateqoriyadan olan insanların əməkhaqları, pensiya da artırılır. Düzdür, bu, bizi tam qane edə bilməz. Amma inkişaf var və gələcəkdə artım daha sürətlə gedəcəkdir. Ona görə mən gələcəkdə sosial, iqtisadi sahələrdə Azərbaycanın qarşısında böyük problem görmürəm. Harada problem varsa, biz bunu bilirik, həll edirik və həll edəcəyik.

Bir daha demək istəyirəm ki, mənim əsas məqsədim doğma xalqa xidmət etməkdir. Mən vəzifəyə bu məramla gəlmişəm və bunu əsas tutaraq, nə lazımdırsa, əlimdən nə gəlirsə, onu da edəcəyəm. Sizə də uğurlar arzulayıram.

* * *

Prezident İlham Əliyev mehdiabadlılarla səmimi görüşdü. Qəsəbə sakinləri bir daha Prezidenti dəstəklədiklərini vurğuladılar. Eyni zamanda, dövlətimizin başçısından yarımçıq qalmış məktəb binasının tikintisinin tamamlanmasına, qəsəbədə şəhidlərə abidə qoyulmasına kömək göstərməsini xahiş etdilər.

* * *

Prezident İlham Əliyev daha sonra paytaxtın Nəsimi rayonuna gəldi.

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2006-cı il 2 fevral tarixli Sərəncamına uyğun olaraq, inşası nəzərdə tutulan 13 yeraltı

piyada keçidindən üçüncüsünün açılışına toplaşan inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar. Prezidentə gül dəstəsi təqdim olundu.

Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, paytaxtın ən gur gediş-gəlişli yerlərindən olan bu ərazidə yeraltı keçidin olmaması həm sakinlər, həm də sürücülər üçün böyük təhlükə yaradırdı. İnşasına 2006-cı ilin avqustunda başlanmış yeraltı keçidin ümumi uzunluğu 38,5 metr, eni 6 metrdir. "Təzə Bazar Ticarət Mərkəzi"nə və Bakı Dövlət Sirkinə tərəf giriş-çıxışı olan keçidi "Astikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti tikmişdir. İnşaat işlərinə ümumilikdə 1 milon manat vəsait xərclənmişdir. Burada piyadaların hərəkətini fasiləsiz müşahidə etmək üçün qurğu quraşdırılıb, nasos stansiyası, müstəqil enerji təchizatı vardır. Keçidin divarlarına dövlətimizin başçısının müdrik kəlamları həkk olunmuşdur. Uşaq və əlil arabalarının hərəkəti üçün ayrıca pilləkən vardır. Daim səslənən həzin musiqi xoş ovqat yaradır.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, keçidlə tanış oldu, ərazinin indiki görünüşünə tamaşa etdi. Döşəmə və divarların mərmərləri Türkiyə və İrandan gətirilmişdir. İnşaat işlərində 50-yə yaxın işçi çalışmışdır.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, müasir üslubda tikilən keçiddə ən yüksək texnologiyanın tətbiq edildiyini, görünüşünün çox gözəl olduğunu vurğuladı və buranın təmiz və səliqəli saxlanılmasının zəruriliyini bildirdi.

Dövlətimizin başçısı keçidlə Bakı Dövlət Sirki tərəfə çıxaraq ətrafı seyr etdi, paytaxtda yeni keçidlərin, avtomobil dayanacaqlarının tikintisi üçün əlavə tədbirlərin görülməsi haqqında müvafiq tövsiyə və tapşırıqlarını verdi.

## Bakıda müasir tipli bir körpü və iki yeraltı piyada keçidi istifadəyə verılmışdir

Azərbaycan Respublikası Prezidenlİnin "Bakı şəhərində nəqliyyat sisteminin təkmılləşdirilməsi üzrə 2006-2007-ci illor üçün Tədbirlər planının təsdiq edilməsi haqqında" 2006-cı ıl 2 fevral tarixli sərəncamına uyğun olaraq, paytaxtda 9 yol qovşağı - körpünün və 13 piyada keçidinin tikilməsi nəzərdə tutulmuşdur. 2007-ci il scntyabrın 29-da daha bir körpü və iki yeraltı piyada keçidi istifadəyə verılmışdir.

Dövlətimizin başçısı əvvəlcə Ziya Bünyadov və Azadlıq prospektlərinin kəsişməsində tikilən yol qovşağının yerləşdiyi əraziyə gəldi. İnşaatçılar, şəhər sakinləri dövlətimizin başçısını hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev yol qovşağının layihəsi və göstəriciləri ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov və "Azəryolservis" Açıq Səhmdar Cəraiyyətinin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə ölkəmizdə nəqliyyat sektorunun inkişafına, yolların təmirinə və yeni infrastrukturun yaradılmasına göstərdiyi diqqət və qayğıya görə təşəkkür edərək məlumat verdilər ki, qovşağın birinci kompleksi üzrə körpü keçidinin uzunluğu 653 metr, o cümlədən yol ötürücüsünün uzunluğu 293 metr, enı 23,4 metr, dörd zolaqlı hərəkət hissəsinin eni isə 19 metrdir. Körpünün ümumi smeta qiyməti 22,1 milyon manatdır və dünya standartları ilə müqayisədə, çox səmərəli və ucuz başa gəlmişdir. Yeni körpü ilə hər gün on minlərlə avtomaşın hərəkət edəcək və Ziya Bünyadov prospektində tıxacların qarşısı alınacaqdır. Estetik və memarlıq baxımından gözəl təsir bağışlayan, indiyədək istifadəyə verılmış sayca beşinci olan bu körpü Bakı şəhər sakinlərinə, nəqliyyat vasitələrindən istifadə edən insanlara layiqincə xidmət edəcəkdır.

Yo1 qovşağının birinci kompleksi Türkiyənin "Yapılar" şirkəti tərəfindən 16 ay ərzində inşa edilmişdır. Bu işlərdə 300 nəfərdən çox adam çalışmışdır. İşin keyfiyyətlə, layihəyə uyğun yerinə yetirilməsinə xüsusi diqqət yetirılmış, körpünün ətrafi abadlaşdırılmış, yaşıllıq zolağı salınmış, işıqlandırma sistemi yenidən qurulmuşdur. Bu isə şəhərimizə xüsusi yaraşıq verir.

Ziya Məmmədov dedi ki, cənab Prezident, körpülərin hamısı istismara verildikdən sonra şəhərdə nəqliyyat vasitələrinin hərəkəti xeyli asanlaşacaqdır. Sizin tapşırığınıza uyğun olaraq yeni layihələr hazırlayıb təqdim etmişik və razılığınızla gələn ildən onların tikintisinə başlamaq mümkün olacaqdır.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirərək dedi ki, nəqliyyatın hərəkətinin tənzimlənməsində körpülərin müsbət rolu indidən hiss olunur. Əminəm ki,

bütün 9 körpü və yolötürücüləri istismara veriləndən, ikinci mərhələdə yeni körpülərin tikintisindən sonra vəziyyət daha da yaxşılaşacaqdır.

**Ziya MƏMMƏDOV**: Cənab Prezident, istəyirəm, bir layihəni ali diqqətinizə təqdim edim. Sizin tapşırığınıza uyğun olaraq, biz Bakının mərkəzindən, Heydər Əliyev prospektindən keçməklə hava limanına qədər yolun yenidən qurulması ilə məşğuluq. Yəni yol Sabunçu dairəsinə qədər 12 zolaqlı, oradan hava lımanına qədər isə 8 zolaqlı olacaqdır. Biz gələn ilin yanvar ayından bu işlərə başlayamaq niyyətindəyik. Digər birlayihə Bakıdan Hövsan istiqamətində yeni magistral yolun tikilməsi ilə bağlıdır və Sizin icazənizi istəyirik. Çünki Heydər Əliyev prospektini bağlayıb işlərə başlayanda alternativ yol hazırlanmalıdır. Məsafə baxımından hər iki yol eynidir. Hövsan ərazisinin əksər hissəsi hazırda boşdur.

**İlham ƏLİYEV:** Hövsanın içindən keçən köhnə bir yol var.

**Ziya MƏMMƏDOV**: Bəli. Siz tapşırıq verdiniz ki, yol Hövsanın içərisindən keçməsin. Ona görə bu marşrut daha uyğun oldu. Yəni əgər Hövsan qəsəbəsinin içindən keçsəydi, məsafə 24 kilometr uzanacaqdı. Bu da məqsədəuyğun deyildir.

**İlham ƏLİYEV**: Bütövlükdə, ikinci yola böyük ehtiyac var. Çünki indi şəhəri aeroportla birləşdirən yeganə yol Heydər Əliyev prospektidir. Təhlükəsizlik baxımından ancaq o yolla getmək mümkündür. Nəzərə alsaq ki, Heydər Əliyev prospektində genişləndirmə işləri aparılacaq, ikinci yola böyük ehtiyac var. Deyirsiniz, yanvar ayına qədər alternativ yol istismara verilə bilər?

**Ziya MƏMMƏDOV**: Bəli.

**Cavid QURBANOV**: Cənab Prezident, Hövsandan keçən yolu genişləndirmək mümkün deyil, çünki orada tikinti işləri çox gedir.

**İlham ƏLİYEV:** Mən bilirəm, o yolu getmişəm.

**Cavid QURBANOV**: Fəhlə prospektində bəzi yerlərdə tikililər var, yolu genişləndirmək çətindir.

**Hacıbala ABUTALIBOV** (Bakı Şəhəri İcra Hakımiyyətinin başçısı): Cənab Prezıdent, bu gün mənə dedilər, sabahdan bu işlə məşğul olacağam.

**İlham ƏLİYEV**: Şəhərdən aeroporta gərək bu yolla gedib sonra aeroporta dönəsən?!

**Ziya MƏMMƏDOV:** Bəli. Alternativ yolun layihəsinə əsasən, bu yol Mərdəkana gedəcəkdir.

**İlham ƏLİYEV:** Yəni bu, Mərdəkan dairəsinə bağlanacaqdır.

**Ziya MƏMMƏDOV:** Bəli, arxa hissədən keçməklə bu dairəyə bağlanacaq və Qalaya gedən yolla birləşəcəkdir.

**İlham ƏLİYEV:** Oradan da aeroporta gediləcəkdir. Qala yolundan oraya iki

dəqiqəlik yoldur.

**Ziya MƏMMƏDOV:** Bəli. Ən optimal variant budur.

**Cavid QURBANOV**: Bu yolun keçəcəyi ərazini piyada gəzmişik. Hövsanda bəzi yerlərdən qaz, neft boruları, elektrik xətləri keçdiyindən, yolun tikilməsi üçün problemlər yaranacaqdı. Ona görə bu marşrutu seçdik və o, heç nəyə mane olmur.

**İlham ƏLİYEV:** Təzə yol neçə kilometr olacaqdır?

**Cavid QURBANOV:** 18 kilometr.

**İlham ƏLİYEV:** Bəs bütövlükdə şəhərdən aeroporta?

**Cavid QURBANOV:** 40 kilometr. Yəni əvvəlki ilə eyni.

**İlham ƏLİYEV**: Neçə zolaqlı yol olacaq?

**Ziya MƏMMƏDOV**: Cənab Prezident, 6 zolaqlı etmək istəyirik.

**İlham ƏLİYEV:** Altı yaxşıdır, genişdir. Yolun sağını, solunu abadlaşdıraraq, ağac əkmək lazımdır.

**Hacıbala ABUTALIBOV**: Heç bir problem olmayacaq. Yolun bir hissəsi zeytunluğun içindən keçəcəkdir. Ona görə hər iki tərəf yaşıllıq olacaqdır.

**Ziya MƏMMƏDOV**: Bir hissədə vəziyyət yaxşıdır, amma digər hissə bir az bərbaddır, onu da düzəldəcəyik.

**Cavid QURBANOV**: Bu yol Bilgəh tərəfə də gedəcək, dənizkənarı ilə Sumqayıta çatdırılacaqdır.

**Ziya MƏMMƏDOV**: Hazırda iş gedir, dəmir yolu sökülür. Sovet İttifaqı dağılan zaman bu xətti də dağıtmışdılar.

**İlham ƏLİYEV**: Bəli, bilirəm, o xətti görmüşəm. Demək, buradan Mərdəkan dairəsinə birləşəcək və Sumqayıta gedəcəkdir.

**Ziya MƏMMƏDOV**: Bəli, şimal istiqamətinə gedəcəkdir.

**İlham ƏLİYEV**: Bütün bu bölgədən şimala doğru getmək üçün daha şəhərə gəlməyə ehtiyac olmayacaq, birbaşa gedəcəklər.

**Ziya MƏMMƏDOV**: Bəli. Eyni zamanda, Sizin yeni tapşırığınızla Sumqayıtdan dənizkənarı ilə şimal sərhədinə qədər yolun layihəsi üzərində də iş gedir.

**İlham ƏLİYEV**: Bəli, onu da hazırlayın.

**Cavid QURBANOV**: Cənab Prezident, Sizin sərəncamınıza əsasən, Babək prospektində tikilən körpüdən keçməklə yol Qaraçuxur qəsəbəsinə birləşəcək və oradan Suraxanıya gedəcəkdir. Beləliklə, dairəvi yol tamamlanır. Alternativ üç yol alınır.

**İlham ƏLİYEV:** O, yaxşı layihədir. Bu yol isə sonra yenə işləyəcək, camaat qəsəbələrə buradan gedəcək.

**Ziya MƏMMƏDOV**: Bəli, indi bir hissəsi aeroport, bir hissəsi Hövsan

yolundan istifadə edir. Amma bu yol olanda bütün qəsəbələr istifadə edecəklər. Bu yol çəkiləndən sonra ətrafdakı boş torpaqlardan da istifadə olunacaqdır.

**İlham ƏLİYEV**: Bu yolu iki aya necə çəkmək olar.

**Ziya MƏMMƏDOV**: Cənab Prezident, Sizin tapşırığınızla Xınalığa iki aya yol çəkmişiksə, bunu da çəkəcəyik. Gələn ilin yanvar ayına hazır olacaqdır.

Dövlətimizin başçısına xəritələr vasitəsilə bu layihə barədə daha konkret məlumat verildi.

Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi, körpünü gəzdi, işin keyfiyyəti ilə maraqlandı, körpünün alt hissəsinin göstəriciləri ilə tanış oldu.

Körpünün divarına "Yolötürücüsü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərərcamı əsasında 2007-ci ildə inşa edilmişdir" sözləri yazılmış xüsusi lövhə vurulmuşdur.

Dövlətimizin başçısı Ziya Bünyadov prospekti ilə Azadlıq prospektində inşa olunan yol qovşağının ikinci kompleksinə daxil olan tunelin tikintisi ilə də maraqlandı. Məlumat verildi ki, uzunluğu 300 metr olacaq tunelin tikintisinin smeta dəyəri 17,1 milyon manatdır. Tunelin istifadəyə verilməsi nəqliyyat vasitələrinin həm körpünün üstündən, həm də yerin altı ilə maneəsiz gediş-gəlişi üçün gözəl şərait yaradacaq, müxtəlif istiqamətlərə hərəkətinin intensivliyi təmin olunacaqdır.Hal-hazırda işlər gedir, Müəyyən səbəblərdən iş uzansa da, tikintinin 2008-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdur. İkinci komplekslə birlikdə yol qovşağının smeta dəyəri 39,2 milyon manat təşkil edir.

Bu əzəmətli yol qovşağının da müasir standartlara cavab verdiyini, xarici görünüşünün də gözəl olduğunu vurğulayan Prezident İlham Əliyev müxtəlif istiqamətlərdə salınan ikinci dərəcəli yeni yollara da baxdı, paytaxtda avtomobillər sayının artmasını nəzərə alaraq, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması, tıxacların aradan qaldırılması məqsədi ilə əlavə tədbirlərin görülməsi, xüsusi planın hazırlanması barədə lazımi tövsiyə və lapşırıqlarını verdi.

## Yeni yeraltı piyada keçidi müasirliyi və gözəlliyi ilə seçilir

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Heydər Əliyev adına sarayın qarşısındakı ərazidə, Rəşid Behbudov və Məhəmməd Füzuli küçələrinin kəsişməsində tikilmiş yeraltı piyada keçidinin açılışında iştirak etmişdir. Buraya toplaşan inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər planına uyğun tikilən və sayca istifadəyə

verilən dördüncü keçidin yerüstü məkanı, ətrafda aparılan yenidənqurma işləri ilə tanış oldu.

Bildirildi ki, üst hissədə əraziyə Avropa şəhərləri üçün xarakterik tərzdə, yonulmamış təbii qranit parçalar döşənmişdir. Bir vaxtlar bu, Bakıda da ənənə şəklini almışdı. Bunun yenidən dirçəldilməsi müsbət hal kimi qiymətləndirilə bilər.

Dövlətimizin başçısı keçidin rəmzi açılışını bildirən lenti kəsdi, keçidin planı ilə tanış oldu, ərazinin əvvəlki və indiki görünüşünü əks etdirən fotoşəkillərə, texniki otaqlara, kiçik ticarət obyektlərinə baxdı.

Məlumat verildi ki, "Akkord" şirkətlər qrupunun inşa etdiyi bu keçid müasir standartlara tam cavab verir. Eni 17 metr, uzunluğu 36 metr olan keçidin dörd çıxışı vardır. Onların hər birində ABŞ-m "Otis" fırmasının istehsalı olan 2 eskalator quraşdırılmışdır. Açıq hava şəraiti üçün nəzərdə tutulmuş eskalatorlar çox etibarlıdır və elektrik enerjisi sərfi azdır. Sərnişin olmadıqda eskalator özü dayanır, sərnişin yaxınlaşdıqda isə yenidən hərəkətə gəlir.

Yüksək mühəndis qurğularının tətbiq olunduğu keçidin dünya standartlarına cavab verən isitmə-soyutma, ventilyasiya və yanğın mühafizəsi sistemləri vardır. Paslanmayan materiallardan, güzgü əksi verən alüminium lövhələrin ahəngi açıq zümrüd rəng çalarları ilə harmoniya yaradır. Keyfiyyətli, təbii və süni üzlük materialların tətbiqi yeraltı məkanda gün işığı effekti verir. "Philips" firmasının ən yeni məhsulu olan işiqlandırma sistemi diqqəti cəlb edir. Burada 14 kiçik ticarət dükanı fəaliyyət göstərəcəkdir. Mühafızə və texniki nəzarət də yüksək səviyyədə olacaqdır. Bunun üçün xüsusi nəzarət kameraları qurulmuşdur. Keçiddə daimi olaraq həzin musiqi səsləndirilməsi üçün avadanlıq quraşdırılmışdır. Cari ildə İSO beynəlxalq sertifikatına layiq görülən "Akkord" şirkətlər qrupu tikintidə ən son yeniliklərdən geniş istifadə etmişdir. İnşaat işlərində 50-dən çox adam çalışmışdır.

Görülən işləri yüksək qiymətləndirən Prezident İlham Əliyev keçidlə Heydər Əliyev adına parka çıxaraq buranı gəzdi, ulu öndərin abidəsini ziyarət etdi. Paylaxtda yenidən-qurma işləri zamanı keyfiyyətin və müasirliyin başlıca meyar kimi götürülməsinin zəruriliyini vurğulayan dövlətimizin başçısı parkın ətrafında yerləşən binaların xarici görünüşünün müasirləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verdi.

## **Paytaxtın ən gur yerində nəqliyyatın və piyadaların təhlükəsiz hərəkəti üçün şərait yaradılmışdır**.

Prezident İlham Əliyev daha sonra paytaxtın mərkəzində, Bülbül prospekti və Nizami küçəsinin kəsişməsində yerləşən yeraltı piyada keçidinin açılışına gəldi. Buraya

toplaşanlar dövlətimizin başçısını hərarətlə salamladılar.

Azərbaycan Prezidentinə məlumat verildi ki, keçidin tikintisinə 2006-cı il sentyabrın 20-də başlanmış, bu günlərdə işlər tamamlanmışdır. Uzunluğu 45 metr, eni 8 metr, hündürlüyü isə 3 metrdir. Bu keçiddə tikinti işlərini İranın "Saako" şirkəli aparmışdır. Keçidin Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Opera və Balet, Gənc Tamaşaçılar teatrları tərəfə iki çıxışı vardır. Burada müasir işıqlandırma sistemi, təhlükəsizliyin təminatı üçün kameralar və yanğımdan mühafizə qurğuları qoyulmuşdur. Keçidin smeta dəyəri 3,3 milyon manatdır.

Dövlətimizin başçısı keçidin açılışımı bildirən lenti kəsdi və yaxından tanış oldu. Bildirildi ki, inşaat işlərində əsasən yerli materiallardan istifadə olunmuş, quraşdırılan dörd  eskalator isə Almaniya istehsalıdır. Çıxışlardakı işıqlandırılan ağaclar isə buraya xüsusi  yaraşıq verir.

Ən gediş-gəlişli yerlərdən birində tikilmiş keçid səliqə-sahmanı, orijinal memarlıq tərtibatı və dizaynı ilə də seçilir. İrandan gətirilmiş yüksək keyfiyyətli material üzərində döymə üsulu ilə hazırlanmış və Nizami Gəncəvinin "İsgəndərnamə", "Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin" və "Yeddi gözəl" poemalarına aid süjetlər keçidin yan divarlarına xüsusi gözəllik verir.

Prezident İlham Əliyev ətraf ərazidə aparılan abadlıq işləri ilə maraqlandı, gələcəkdə paytaxtda əlavə 10 yol qovşağının və 3 piyada keçidinin tikilməsi barədə tapşırıq verdi.

## Azərbaycan Prezidenti İlham Əliyev Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.

Dövlətimizin başçısı Bakı-Sumqayıt yolunun üzərində inşa edilən avtovağzalın yerləşdiyi əraziyə gəldi, kompleksin baş planına və maketinə baxdı. Prezidentə məlumat verildi ki, kompleksin inşasına 2004-cü ilin mayından başlanmışdır. Tikinti üçün 3,7 hektar sahə ayrılmışdır. Sifarişçi Nəqliyyat Nazirliyi, baş podratçı isə "Bakı XXI əsr" şirkətidir. MDB məkanında analoqu olmayan bu avtovağzal kompleksi respublikanın rayonlarına və xarici ölkələrə sərnişin daşınmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Burada gün ərzində 18-20 min sərnişinə xidmət etmək, 800-950 avtobusu yola salmaq və qəbul etmək mümkün olacaqdır.

Əraziyə baxdıqdan sonra dövlətimizin başçısı kompleksin ayrı-ayrı mərtəbələrini

gəzdi. Bildirildi ki, kompleksdə 1100 yerlik yeraltı avtomobil dayanacağı, ticarət köşkləri, sərnişin avtobuslarının dayanması üçün meydançalar, müxtəlif xidmət otaqları olacaqdır. Kompleksdə ümumi istilik və ventilyasiya sistemi, videomüşahidə, siqnalizasiya sistemi, işıqlandırma, lift və eskalatorlar proqramlaşdırılaraq bir məntəqədən idarə olunacaqdır. Ümumi sahəsi 164 min kvadratmetr olan kompleksə ibadət otağı, ana və uşaq üçün otaq, poçt, teleqraf, bank, VİP otağı, gözləmə salonu, yeməkxana da daxildir.

Ümumiyyətlə, kompleksdə əsas işlərin 70 faizi görülmüşdür. 96 yerlik beşmərtəbəli 3 ulduzlu mehmanxanada tamamlanma işləri gedir. MDB məkanında ilk dəfə olaraq burada şüşədən asma tavan quraşdırılacaqdır. Ətraf ərazidə böyük istirahət zonası yaradılacaqdır. Havalandırma sistemi və kompozit panel örtüklər Almaniyadan, lift və eskalatorlar Yaponiyadan, nəhəng şüşə asma tavan Birləşmiş Ərəb Əmirliklərindən, mərmər isə İrandan gətirilmişdir. Obyektdə 450-dək işçi çalışır, orta aylıq əmək-haqqı 350-400 manatdır. Kompleks istismara veriləndən sonra burada ümumilikdə 2500-3000 yeni iş yeri açılacaqdır. Avtovağzalın gələn ilin birinci rübündə istifadəyə verilməsi planlaşdırılır.

Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə aparılması və vaxtında başa çatdırılması barədə tapşırıq və tövsiyələrini verdi.

## Bakı-Tbilisi-Qars dəmir yolu çox böyük regional qüvvə olan Azərbaycan-Gürcüstan-Türkiyə birliyini daha da möhkəmləndirəcəkdir

### Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin təməli qoyulmuşdur

21 noyabr 2007-ci il də Gürcüstanın Tetri-Skaro rayonunda - Marabda stansiyasında Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixail Saakaşvili, habelə Avropa İttifaqından, Amerika Birləşmiş Ştatlarından və digər ölkələrdən qonaqlar iştirak edirdilər. "Dəmir İpək yolu" adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmir yolu əlaqəsi yenidən bərpa olunacaqdır.

Layihəyə əsasən, Qarsdan Axalkalakiyə qədər 105 kilometrlik dəmir yolunun çəkilməsinə 420 milyon dollar sərmayə qoyulacaqdır. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissəni Türkiyə maaliyyələşdirəcəkdir (220 railyon dollar). Gürcüstanın Azərbaycandan aldığı 200 milyon dollarlıq krcditlə isə Türkiyə sərhədindən Axalkalakiyo qədər olan təqribən 30 kilometrlik xətt inşa ediləcək və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətt yenidən qurulacaqdır.

Layihənin 2009-cu ildə tamamlanması nəzərdə tutulur. İlkin hesablamalara görə, 2010-cu ildə 1,5 milyon sərnişin və ildə 3 milyon ton yük daşınacaqdır. 2034-cü ildə isə bu yolla 3,5 milyon sərnişin və ildə 16,5 milyon ton yük daşınacağı proqnozlaşdırılır. Qazaxıstanın da bu xəttə qoşulması üçün protokol imzalanmışdir.

Xatırladaq ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə əlaqədar anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Mixail Saakaşvili imzalamışlar.

Təməlqoyma münasibətilə keçirilən mərasimi Prezident Mixail Saakaşvili açdı.

### Gürcüstan Prezidenti Mixail Saakaşvilinin nitqi

- Əziz qardaşlarım, Türkiyə və Azərbaycan respublikalarının prezidentləri!

Hörmətli qonaqlar, əziz həmvətənlər!

Bütün Gürcüstana müraciət edib demək istəyirəm ki, bu gün əlamətdar gündür.

Gürcüstanı düşdüyü dalandan çıxıb Avropaya istiqamət götürür. Biz bu gün Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin təməlini qoyuruq. Bununla bizim Avropaya çıxışımız üçün şərait yaranır. Rusiya-Gürcüstan dəmir yolu xəttinin Abxaziya hissəsi bağlandıqdan sonra bizim Rusiya ilə, eyni zamanda, digər ölkələrlə dəmir yolu əlaqəmiz kəsildi. Mən prezident seçildikdən sonra Abdullah Gül və İlham Əliyev ilə bu layihənin gerçəkləşməsi üzərində işə başladıq. Bu layihənin Gürcüstan üçün, ümumən Cənubi Qalqaz üçün böyük səmərəsi olacaq, yüzlərlə yeni iş yerləri açılacaqdır. Çindən və digər ölkələrdən gələn yüklər bu domir yolu vasitəsilə Avropaya ötürüləcəkdir. Bu, böyük geosiyasi inqilabdır. Dostluq və qardaşlıq münasibətlərimiz bu qlobal layihənin həyata keçirilməsinə şərait yaratmışdır. Biz tezliklə bu dəmir yolu vasitəsilə axşam qatara əyləşib, səhər Türkiyədə olacağıq, oradan da Avropaya gedəcəyik. Bu tikintinin tezliklə başa çatıb istifadəyə verilməsi əsas məqsədlərimizdəndir. Əminəm ki, prezidentliyimin ikinci müddətində bu dəmir yolu istifadəyə veriləcək və mən onun ilk sərnişinlərindən olacağam. Bu əlamətdar gün münasibətilə hamınızı təbrik edirəm.

**Türkiyə Prezidenti Abdullah Gülün nitqi**

- Hörməlli prezidentlər!

Çox dəyərli qonaqlar!

İki gün tarixi bir gün yaşayırıq. Çox gözəl bir səbəbdən bir yerdəyik. İnanıram ki, bu anlar gələcəkdə cox gözəl bir şəkildə xatırlanacaqdır. Bu gün Bakını Qarsa bağlayacaq dəmir yolunun təməlinin qoyulması münasibətilə buraya toplaşmışıq. Hamınıza hörmət və sevgilərimi çatdırıram. Türkiyə, Gürcüstan və Azərbaycan xalqlarına xoşbəxtlik diləyirəm.

Biz bu gün sadəcə Bakı, Tbilisi və Qarsı bir-birinə bağlanırıq. Əslində, biz bu gün Çini Londona bağlayırıq. Bu, böyük bir layihədir. Çindən çıxan vaqonlar, lokomotivlər Xəzəri, daha sonra Bakı, Tbilisi və Qarsı keçərək, İstanbula çatacaqdır. İstanbulda sürətlə inşa edilən "Mərmərə ray" xətti vasitəsilə dənizin altından keçərək, Avropanı qət edəcək və oradan da La-Manş boğazını keçərək Londona çatacaqdır.

Əslində tarixi, coğrafiyanı dəyişdirən böyük bir layihənin həyata keçirilməsinin addımını atırıq. Bu layihədə bir çox insanın əməyi olmuşdur.

1990-cı illərin əvvəllərində həmin layihələr, təəssüf ki, daha sonra lazım olan marağı görmədiyi üçün bir qədər ləngidi. Amma ötən illərdə bu layihə üzərində üç ölkə intensiv işlədi. Xatırlayıram, əvvəlcə Türkiyə, Gürcüstan və Azərbaycanın nəqliyyat nazirləri topladılar və bu layihəni təkrar canlandırmaq üçün səfərbər oldular. Daha sonra bunun həyata keçirilməsinin mümkünlüyü məsələsi ortaya çıxdı. Bu ilin əvvəlində prezidentlərin, baş nazirlərin iştirakı ilə burada keçirilən bir mərasimə qatıldılar, çərçivə

müqaviləsi imzalandı. Üç ölkənin siyası qərarı ortaya qoyuldu və bütün dünyaya, bölgəyə bəyan edildi. Ondan sonra işlər sürətləndi və bu gün böyük bır sevinci yaşayırıq.

Bu layihəni həyata keçirilməsi ilə əlaqədar addımı atırıq, onun təməlini atırıq. Bu layihəni həyata keçirərək üçün düyməni basırıq. Həqiqətən də, böyük bir hadisə, böyük bir xöşbəxlikdir. İnanıram ki, bu layihə həyata keçiriləndən sonra tarixi "İpək yolu" yenidən canlanacaqdır. O zaman şose yolu ilə işləyən "İpək yolu", indi dəmir yolu ilə işləməyə başlayacaqdır. Dediyim kimi, sadəcə, üç ölkəni yox, Mərkəzi Asiyanı, uzaq Asiyanı, Çini Avropaya bağlayacaqdır.

Qazaxıstanın qoşulması bu layihəni, həqiqətən də, işləyən hala gətirmişdir. Bunu burada ifadə etmək, hörmətli Nazarbayevə də təşəkkür etmək istəyirəm. Onun bu layihəyə olan marağını yaxından bilən insanlardan biriyəm.

Xatırlayacaqsınız, ötən il keçirilən toplantılarda Qazaxıstan bu dəmir yolu ilə 10 milyon ton yük göndərəcəyini bildirmişdir. Bildiyiniz kimi, sadəcə, sərnişin daşınmayacaqı eyni zamanda, yüklər də daşınacaqdır.

Layihənin bölgənin iqtisadi irikişafına çox böyük fayda verəcəyinə, bölgəmizdəki insanların rifahının yaxşılaşacağına çox inanıram. Bir tərəfdən hava yolları, bir tərəfdən dəniz yolu, bir tərəfdən dəmir yolları, digər tərəfdən də avtomobil yolları bu üç ölkəni bir-birinə daha çox bağlayır və ortaq iqtisadi bölgə yaranır. Bildiyiniz kimi, Batumi hava limanı ortaq istifadəyə açılmışdır.

Gəncə ilə Bakı arasında, Tbilisi ilə Bakı arasında avtomobil yolu yenidən qurulduqdan sonra bütün bunlar Qara dəniz nəqliyyat yoluna bağlanacaq və Bakıdan çıxan avtomobillər çox gözəl yollardan keçərək İstanbula çatacaqlar.

Bütün bunlar həyəcanverici böyük layihələrdir. Bir vaxtlar bunlar haqqında danışılarkən, bunları röya kimi, xəyal kimi görənlər olmuşdur. Amma, bu gün görürük ki, bütün bu layihələr gerçəkləşir. Bakı-Tbilisi-Ceyhan neft boru xətti necə gerçəkləşdisə və tankerlər Orta Asiyanın, Qafqazların neftini Aralıq dənizindən dünya bazarına necə daşıyırsa, Bakı-Tbilisi-Ərzurum təbii qaz xətti necə tamamlandısa, əminəm ki, Bakı-Tbilisi-Qars yolu da ən qısa müddətdə tamamlanacaq və bundan sadəcə, bölgəmiz, sadəcə üç ölkə deyil, bütün dünya faydalanacaqdır. Bunlar tarixi hadisələrdir. Belə tarixi bir hadisəni sizlərlə - dəyərli prezidentlərlə, həmkarlarımla birlikdə yaşamaqdan böyük sevinc duyuram. Bu layihələrin daha fərqli layihələri təşviq edəcək nümunə olacağına inanıram. Sadəcə, bölgəmizdə deyil, dünyanın başqa bölgələrində də bunlardan nümunə alacaqlarına inanıram. Bu bir həqiqətdir ki, təhlükəsizlik, sabitlik, iqtisadi inkişaf, rifah bir-biri ilə bağlı amillərdi. Dünyada sülhü, sabitliyi qorumaq və nəticədə insanların rifahını, xöşbəxtliyini təmin etmək bizim üzərimizə düşən ən böyük vəzifədir.

Bu səbəbdən demək istəyirəm, əslində, Qafqaz bölgəsində bu layihələr bütün ölkələrə

açıqdır. Sülh, sabitlik bərqərar olduqda heç kimi kənarlaşdırmaq niyyətimiz yoxdur. Hər kəs bu layihələrə qatıla bilər. Bütün bölgənin insanları irqi, dini ayrı-seçkilik olmadan bu layihələrin faydalarından yararlana və öz xalqlarının, ölkələrinin, millətlərinin rifahını artıra bilərlər.

Ümid edirəm ki, layihələr bu şəkildə dərk olunmalıdır. Bu layihələrin həyata keçirilməsi yanlış şəkildə dərk edilməməlidir. Bu layihələrin, sadəcə, üç ölkəyə deyil, bir gün bütün bu coğrafiyaya xidmət edəcəyinə də inanıram. Bu sahədə əməyi olan hər kəsə təşəkkür edirəm. Yaxın vaxtda bu layihələrin bitdiyini və relslər üzərində insanları, yükləri daşıyan vaqonların hərəkət edəcəyini və bunun da açılışını bir yerdə yaşayacağımıza ümid edirəm.

Təkrarən hamınıza hörmət və sevgilərimi çatdırıram.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli cənab prezidentlər!

Hörmətli dostlar, xanımlar və cənablar!

İlk növbədə, məni bu gözəl mərasimə dəvət etdiyinə görə əziz qardaşım, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə təşəkkürümü bildirmək istəyirəm. Mən böyük məmnuniyyətlə bu dəvəti qəbul ctdim və bu gün biz birlikdə növbəti tarixi addımı atırıq. Bu gün üç ölkə - Gürcüstan, Türkiyə və Azərbaycan bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edən yeni layihənin təməlini qoyur.

Bizim əməkdaşlığımızın çox böyük tarixi var. Xalqlarımız əsrlər boyu birlikdə yaşamışlar, yaratmışlar. Gürcüstan və Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizə ilk yardım edən, ilk kömək göstərən Türkiyə dövləti olmuşdur. Biz bunu unutmuruq və heç vaxt unutmayacağıq. Bu gün Gürcüstan və Azərbaycan gücləndikcə, öz müstəqilliyini möhkəmləndirdikçə və dünya iqtisadiyyatına inteqrasiya etdikcə, əlbəttə ki, bizimlə Türkiyə arasında olan münasibətlər yeni səviyyəyə qalxır. Biz artıq qarşılıqlı fəaliyyətlə bir-birimizi gücləndiririk, dəstəkləyirik və bizim tərəfimizdən, bizim təşəbbüsümüzün bölgədə həyata keçirilən layihələr təkcə xalq1arımız üçün deyil, bütün dünya üçün çox böyük əhəmiyyət kəsb edir.

Şübhəsiz, Bakı-Tbilisi-Qars dəmir olunan tkintisi tarixi hadisədir. Bu layihə uzun illərdir ki, müzakirə olunurdu, yəni mövcud idi, ancaq layihənin gələcəyi qeyri-müəyyən idi. Uzun illər ərzində müxtəlif beynəlxalq maliyyə qurumları ilə, beynəlxalq təşkilatlarla apardığımız danışıqlar, əfsuslar olsun ki, heç bir nəticə verməmişdi. Ancaq bu gün bizim ölkələrimiz öz iradəsini ortaya qoyaraq, bu layihəni özümüz həll edirik. Bütün maliyyə məsələləri öz həllini tapıbdır, texniki məsələlər öz həllini tapıbdır, texniki-iqtisadi əsaslandırma hazırdır və bu gün biz yolun tikintisinə başlayacağıq. Artıq burada deyildi

ki, bu yolun tikintisi bütün bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb cdir və mən əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi bölgəyə daha da çox təhlükəsizlik, daha da çox əməkdaşlıq gətirəcək və bu imkanlardan istifadə edən ölkələr, əlbəttə ki, regional əməkdaşlıq baxıramından da bir-birinə yaxın olacaqlar. Çox şadam ki, Gürcüstan, Türkiyə və Azərbaycan tərəfindən bölgədə başlanmış hamısı uğurla icra olunur. Deyə bilərəm ki, bu layihənin Bakı-Tbilisı-Qars dəmir yolunun tikintisinin başlanmasında, əlbəttə, bizim aramızda, üç ölkə arasında mövcud olan əməkdaşlıq istiqamətləri, parametrləri də öz rolunu oynamışdır.

1990-cı illərin ortalarında Azərbaycanda başlanmış böyük enerji layihələri yəqin ki, bu dəmir yolunun yaranmasında da az rol oynamamışdır. Bizim əməkdaşlığımızın artıq çox böyük tarixi var. Bakı-Tbilisi-Qars layihəsi Azərbaycanın böyük neft-qaz yataqlarının işlənilməsi nəticəsində həyata keçirilən neft-qaz kəmərləri layihələrinin - Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən Bakı-Supsa, ondan sonra Bakı-Tbilisi-Ceyhan, ondan sonra Bakı-Tbilisi-Ərzurum layihələrinin məntiqi nəticəsidir. Mən əminəm ki, əvvəlki layihələr nə qədər uğurlu idisə, Bakı-Tbilisi-Qars da bir o qədər uğurlu olacaqdır. Bu, bir daha onu göstərir ki, əgər bizim ölkələrimiz öz siyasi iradəsini, öz dostluq əlaqələrini, əməkdaşlıq prinsiplərini ortaya qoyurlarsa, istənilən layihə öz həllini tapar. Ən böyük şübhələr doğuran layihələr də öz həllini tapıbdır. Hamı bilir ki, həm Bakı-Tbilisi-Ceyhan, həm Bakı-Tbilisi-Ərzurum layihələri bəzi dairələr tərəfindən real layihələr kimi qəbul edilmirdi. Bunlara çox böyük şübhələrlə yanaşırdılar. Hətta deyilirdi ki, Azərbaycanda Bakı-Tbilisi-Ceyhan neft kəmərini doldurmaq üçün kifayət qədər netl yoxdur. Gələn il Bakı-Tbilisi-Ceyhan tam gücü ilə işləyəcək, 50 milyon ton nelt nəql edecəkdir. Bu 50 milyon tonun hamısı da Azərbaycan nefti olacaqdır. Vaxtilə belə bir fikir də var idi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə ehtiyac yoxdur, çünki Azərbaycanda yetərincə qaz ehtiyatı yoxdur. Amma bu gün Azərbaycan o ölkədir ki, keçən il xaricdən 4,5 milyard kubmetr həcmində qaz alırdı, indi isə idxal yoxdur, Azərbaycan artıq üç ölkəyə öz qazını nəql edir. Azərbaycan qazı Gürcüstan və Türkiyə, iki gün bundan əvvəl isə Türkiyə ərazisi ilə Yunanıstan bazarına da çıxmışdır. Yəni, bu o deməkdir ki, Azərbaycan qazı artıq Avropa İttifaqının bazarındadır.

Bakı-Tbilisi-Qars layihəsinə də şübhə ilə yanaşanlar, buna müqavimət göstərənlər var idi və biz bilirik, onları tanıyırıq. Amma buna rəğmən bizim ölkələrimizin iradəsi əsas rol oynamışdır. Bu, çox böyük məna daşıyan bir hadisədir. Bu, sadəcə olaraq, bir nəqliyyat layihəsi, yaxud da üç ölkəni birləşdirən layihə deyil, halbuki, bu baxımdan da çox böyük əhəmiyyəti var. Bu layihə onu göstərir ki, bizim ölkələrimiz bölgədə həm böyük əməkdaşlığa təkan verəcək layihələrin təşəbbüskarıdır, həm bunları maliyyələşdirir, həm də bunları icra edirlər. Ölkələrimizin müştərək, ortaq iradəsi bölgənin inkişafına öz

müsbəl təsirini göstərir. Mən bunu xüsusilə vurğulamaq istəyirəm - bizim başladığımız və uğurla icra etdiyimiz bütün layihələr əməkdaşlıq, dostluq amillərini möhkəmləndirən layihələrdir. Bu layihələr heç kimə qarşı yönəldilməyib, sadəcə olaraq, dostluğa, əməkdaşlığa yönəldilmişdir. Biz dostuq, qardaş ölkələrik, qardaş xalqlarıq və tam haqqımız var ki, xalqlarımızın milli maraqlarını təmin etmək üçün istənilən layihəni icra edək və biz bunu edirik. Ona görə mən bu layihəyə bu prizmadan yanaşıram. Mən çox şadam ki, biz bu gün bu böyük işləri birlikdə görürük. Gələcəkdə bu layihə, əlbəttə ki, xalqlarımızın rifah halının yaxşılaşmasına, bölgədə gedən əməkdaşlıq meyillərinin güclənməsinə gətirib çıxaracaqdır. Mən şübhə etmirəm ki, bu layihə başa çatandan sonra ona qoşulan tərəflər və ölkələr kifayət qədər çox olacaqdır. Necə ki, bizim bütün enerji layihələrimizə indi başqa ölkələr də qoşulmaq istəyir və biz də bunu alqışlayırıq. Biz bu yolu açırıq, biz Şərq-Qərb enerji dəhlizini açdıq. İlk dəfə olaraq, Xəzər dənizinin zəngin neft-qaz yataqlarını dünya bazarlarına təqdim etdik. Biz enerji təhlükəsizliyi məsələləri ilə çox ciddi məşğuluq və indi hamı bilir ki, dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi məsələləri ən birinci yer tutur. Demək olar ki, ölkələrin təhlükəsizliyi xeyli dərəcədə enerji təhlükəsizliyindən asılıdır. Biz öz enerji təhlükəsizliyimizi təmin etmişik. Nəyin hesabına? Birgə işlər hesabına, dostluq hesabına, qardaşlıq hesabına, üç ölkənin birləşməsi hesabına. Bu gün bizim ölkələrimiz Avropanın enerji təhlükəsizliyində öz rolunu oynayır. Azərbaycanda çıxarılan qaz Gürcüstan, Türkiyə ərazisi ilə Avropa İttifaqına nəql edilir. Bizim ölkələrimiz şaxələndirmə məsələlərində çox önəmli rol oynayır və bu rol gələcəkdə artacaqdır. Əgər başqa ölkələr bizim mövcud olan enerji infrastrukturlarına qoşularsa, əlbəttə ki, regional əməkdaşlıq yeni formalarla zənginləşəcəkdir.

Mən hesab edirəm ki, bu layihə bölgədə nəqliyyat təhlükəsizliyinə də öz müsbət təsirini göstərəcəkdir. Bu gün enerji məsələlərinin ön plana çıxması nəticəsində daha çox enerji təhlükəsizliyi haqqında danışılır. Ancaq nəqliyyat təhlükəsizliyi ondan az əhəmiyyət daşımır. Biz bu yolun yaradılması ilə nəqliyyat təhlükəsizliyi məsələsinə öz töhfəmizi veririk. Əminəm ki, bu gün bu layihəyə o qədər də səmimi münasibət göstərməyən tərəflər, ölkələr, yaxud beynəlxalq maliyyə qurumları, bir gün gələcək və bəlkə də, yaxın zamanlarda bu layihəyə qoşulmaq üçün bizimlə əməkdaşlığa başlayacaqlar. Biz də bu əməkdaşlığa hazırıq. Biz gördüyümüz bütün işləri müsbət nəticələrə - əməkdaşlığa, bölgədə təhlükəsizliyin təmin olunmasına, asayişin qorunmasına, iqtisadi və siyasi maraqların birləşməsinə yönəldirik və bizim maraqlarımız üst-üstə düşür. Gürcüstan-Türkiyə-Azərbaycan çox böyük regional qüvvədir. Bizdə həm təbii sərvətlər, həm transit imkanları, həm böyük infrastruktur, həm böyük sənaye potensialı və həm də, ən önəmlisi, üç ölkə arasında dostluq, qardaşlıq münasibətləri var. Bu, çox qiymətlidir və biz əlbəttə ki, bütün səylərimizi bundan sonra da bu istiqamətə yönəldəcəyik. Mən əminəm ki,

Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi nəticəsində bizim aramızdakı dostluq, əməkdaşlıq münasibətləri daha da dərinləşəcək və bu, bölgəyə xeyir gətirəcəkdir.

Əziz dostlar, sizin hamınızı bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, bütün xalqlarımıza - gürcü, türk, Azərbaycan xalqlarına rifah, çiçəklənmə və qələbə arzulayıram. Sağ olun.

* * *

Sonra dövlət başçıları "Bakı-Tbilisi-Qars xəttinin təməli 2007-ci il noyabrın 21-də Gürcüstanın Tetri-Skaro rayonunun Marabda kəndi ərazisində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixail Saakaşvili tərəfindən qoyulmuşdur" sözləri yazılmış vərəqi imzalayaraq gilizin içinə qoydular. Prezidentlər gilizi təmələ qoydular və beton qarışığı tökdülər.

Dövlət başçılarına xatirə hədiyyələri təqdim olundu.

Mərasim başa çatandan sonra Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ilk sərnişinlər kimi, dəmir yolunun rəmzi olaraq çəkilmiş təxminən iki yüz metrlik hissəsini qatarla keçdilər.

* * *

Noyabrın 21-də Gürcüstan Prezidenti Mixail Saakaşvilinin adından Azərbaycan Prezidenli İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün şərəfinə nahar verildi. Səfər başa çatdı.

## Azərbaycan Prezidenti İlham Əliyev Bakının Nərimanov rayonu ərazisində yeni salınan yolla tanış olmuşdur

Azərbaycan Prezidenti İlham Əliyev 2007-ci il dekabrın 14-də Bakının Nərimanov rayonu ərazisində, Nəsib bəy Yusifbəyli küçəsinin davamı olaraq yeni salınan 1,4 kilometr uzunluğunda olan yolla tanış olmuşdur.

Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verərək dedi ki, cənab Prezident, Sizin şəxsi təşəbbüsünüz və tapşığınızla bu ərazidə yeni yol salınmışdır. Əslində, əvvəllər burada yol olmamışdır. Sizin Bakı şəhərində nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə verdiyiniz göstərişə əsasən, "Gənclik" meydanından Ceyhun Hacıbəyli (keçmiş Fabritus) küçəsinədək 650 metrlik dördzolaqlı yol salınmışdır. Biz bu yolu prospektə çevirmək məqsədilə onu Nəsimi rayonu ərazisinə, Səməd Vurğun küçəsinə qədər uzadacağıq. Bütövlükdə yolun uzunluğu 1400 metr olacaqdır. Dördzolaqlı yeni prospekt nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsində və tıxacların aradan qaldırılmasında mühüm rol oynayan əhəmiyyətli yola çevriləcəkdir. Bu yolun bir üstünlüyü də ondan ibarətdir ki, "Gənclik" meydanı istiqamətinə gedən əsas küçələr prospektlərlə birləşəcəkdir. Buradan hərəkət etməklə Ceyhun Hacıbəyli küçəsinə, Həsən Əliyev prospektinə, Mirəli Qaşqay küçəsinə, Azadlıq prospektinə, Xan Şuşinski, Səməd Vurğun küçələrinə çıxmaq mümkün olacaqdır.

Cənab Prezident, Ceyhun Hacıbəyli küçəsinə qədər olan hissə Nəsib bəy Yusifbəyli küçəsı adlandığı üçün biz də yolun davamını şərti olaraq elə həmin küçənin adı ilə adlandırmışıq.

**İlham ƏLİYEV:** Yeni yol açılır, əvvəllər burada yol yox idi. Gərək, bura üçün ad da fıkirləşək. Biz bu yolu keçmiş "Anten" adlandırılan ərazi hesabına açdıq. Faktik olaraq, bu yol "Anten" ərazisinin bir hissəsidir.

**Ziya Məmməmədov**: Cənab Prezident, tamamilə doğru deyirsiniz, Sizin tapşırığınızla bu ərazidən 25 metr enində zolaq ayrıldı. Bu, nəqliyyat vasitələri üçün həqiqətən də çox geniş imkanlar açır. Yolun hərəkət hissəsinin eni 16 metrdir. Piyadaların gediş-gəlişi üçün də şərait yaradılmışdır. Yeni açılan yol bütün istiqamətlərə gediş-gəlişi təmin etdiyinə görə Vaqif küçəsindən "Gənclik" meydanına doğru hərəkət birtərəfli olacaqdır. Bu, Vaqif küçəsinda hərəkət intensiv olduğuna görə və təhlükəsizliyi təmin etmək baxımından zəruridir.

**İlham ƏLİYEV**: O küçəni də maksimum dərəcədə genişləndirmək lazımdır.

**Ziya MƏMMƏDOV**: Bəli, genişləndirəcəyik və hərəkəti birtərəfli edəndə çox rahat olacaqdır.

**İlham ƏLİYEV:** Hansı tərəfdən?

**Ziya MƏMMƏDOV:** Dədə Qorqud parkının yanından "Gənclik" meydanına qədər hərəkətin birtərəfli olması daha məqsədə uyğundur. "Gənclik" meydanından Təbriz küçəsi istiqamətdə yeni yolun çəkilməsini də nəzərdə tutmuşuq, bunun üçün imkan vardır. Həmin ərazidə gələcəkdə Diplomatik Akademiyanın tikiləcəyini də nəzərə alsaq, bu yola ehtiyac duyulacaqdır.

Dövlətimizin başçısına məlumat verildi ki, Bakı şəhərində beşinci körpünün tikintisi də başa çatmaqdadır və bir neçə digər layihələr üzərində də iş davam etdirılır.

Prezident İlham Əliyev "Gənclik" meydanının müasirləşdirilməsinin, Vaqif küçəsinin genişləndirilməsinin, paytaxtın digər yerlərində maksimum dərəcədə yeni yolların açılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı avtomobilə əyləşərək yeni yolun hazır hissəsi ilə hərəkət etdi, bu ayın sonunadək tamamlanacaq sahədə işlərin gedişi ilə tanış oldu, yolun çəkilişinə mane olan tikililərin sahiblərinə kompensasiya ödənilməklə sökülməsi, tıxacların aradan qaldırılması üçün digər yeni yolların salınması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.

## Bakıda müasir tipli daha bir körpü və yeni yol istifadəyə verılmışdir

## Azərbaycan Prezidenti İlham Əliyev açılışlarda iştirak etmişdir

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2006-cı il 2 fevral tarixli sərəncamına uyğun olaraq paytaxtda inşa ediləcək 9 yol qovşağının - körpünün sayca yeddincisi 2007-ci il dekabrın 19-da istifadəyə verılmışdir.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Mərasimə toplaşan inşaatçılar, paytaxt sakinləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.

Nəqliyyat naziri Ziya Məmmədov Prezidentə məlumat verdi ki, üçüncü mikrorayon dairəsindəki bu yolötürücüsünün ümumi uzunluğu 1249 metr, eni 19,8 metr, hərəkət hissəsi isə 17 metrdir. Əsas körpünün uzunluğu 776,7 metrdir. Cavadxan və Alı Mustafayev küçələrinin kəsişməsində yerləşən və tikintisinə ötən ilin iyununda başlanan yolötürücüsü dörd istiqamətlidir. Nəqliyyat Nazirliyinin sifarişi ilə "Körpü-Bina-Tikinti" MMC tərəfindən tikilmiş yolöturücüsündə 23,53 min kubmetr dəmir-beton işləri görülmüşdür.

Prezident İlham Əliyev yolötürücüsünün tikintisini əks etdirən fotoşokillərə baxır, salınmış yolların keyfiyyəti, nəqliyyatın bütün istiqamətlərə hərəkətinin tənzimlənməsi ilə maraqlandı.

Bildirildi ki, bu körpü həm də əvvəllər hərəkətin nizamsız vəziyyətdə olduğu bu ərazidə tənzimləyici rol oynayır. 20 Yanvar dairəsindən üçüncü mikrarayon bazarınadək və əks istiqamətdə nəqliyyatın maneəsiz hərəkətini təmin edəcəkdir. Həmçinin körpüdən Asif Məhərrəmov küçəsinə köməkçi yollar ayrılır. Bu da hərəkətin intensiv olduğu üçüncü mikrorayon dairəsində tıxacların qarşısını alacaqdır. Deməк olar ki, hərəkətin təhlükəsizliyi üçün hər cür şərait yaradılmışdır. Sağ və sol yollar tamamilə genişləndirilmış, hərəkətin bütün isüqamətində, yaşıllıqlar salınmışdır. Tikintidə milli memarlıq elementlərindən və müasir texnologiyadan istifadə olunmuşdur. Körpünün inşasında yerli, habelə Rusiya və İtaliya istehsalı olan material və avadanlıqdan istifadə edilmişdir.

Prezident **İlham ƏLİYEV** inşaatçılara müraciətlə dedi:

- Sizi təbrik edirəm. Nə qədər yaxşı iş görmüsünüz. Bakının nəqliyyat sisteminin yaxşılaşması üçün çox böyük işlər görülür. Körpülər, yol qovşaqları, tunellər tikilir, şəhər gözəlləşir. Körpülər həm də memarlıq abidələridir, şəhərimizə əlavə gözəllik verir. Həm də insanların rahatlığı

üçün yaxşı şərait yaradılır. Körpü elə bir qurğudur ki, buraya qoyulan vəsait gen qayıtmır. Zavod, fabrik deyil ki, oradan gəlir gəlsin. Sadəcə olaraq, dövlət bu vəsaiti qoyur ki, insanların rahatlığı təmin olunsun, vaxtlarını tıxaclarda keçirməsinlər, rahat hərəkət etsinlər. İnsanların yaşayış səviyyəsi yaxşılaşır, imkanları artır, hamı maşın almaq istəyir. Maşınların çoxalması da istər-istəməz nəqliyyat problemlərinin yaranmasına gətirib çıxarır. Ona görə biz bəri başdan bütün tədbirləri görürük. Nəqliyyat Nazirliyinə bütün göstərişlər verılmışdir. Bu işlər böyük plan çərçivəsində görülür. Artıq yeddinci körpü istismara verilibdir. Bir neçə yerdə tikintilər davam edir. Nəqliyyat Nazirliyinə göstəriş verilibdir, onlar növbəti proqram hazırlayırlar. Yəqin ki, yaxın zamanlarda Bakıda yeni körpülərin, yölötürücülərinin, qovşaqların tikintisi üçün lazımi tədbirlər görüləcəkdir. Beləliklə, Bakıda tıxac problemi aradan qalxmalıdır.

Bununla yanaşı, başqa tədbirlər də görülür. Bakıda nəqliyyatın hərəkətinin idarə edilməsinin xüsusi intellektual sistemi yaradılacaq, yol hərəkəti kompüter vasitəsilə tənzimlənəcəkdir. Beləliklə, bütün şəhərimiz üçün, şəhərin infrastrukturu üçün lazım olan tədbirlər görüləcəkdir. Çox şadam ki, bu tikintidə yerli şirkətlər işləyir. Əvvəlki illərdə daha çox xaricdən dəvət edirdik. İndi də dəvət edirik, amma az. O vaxt bizim təcrübəmiz yox idi, imkanımız yox idi, texnikamız yox idi. Amma indi hər şey var və pul Azərbaycanda qalır. Bu pulu Azərbaycan vətəndaşları qazanarlar. Azərbaycan şirkətləri güclənir və böyük şirkətlərə çevrılır. Gələcəkdə onlar həm Azərbaycanda, həm də başqa ölkələrdə işləyəcəklər. Yəqin ki, burada işləyənlərin maaşı da yaxşıdır. 800,1000,1500 manat alanlar var. Çox gözəl.

Onu da demək istəyirəm ki, bu körpülər çox yüksək keyfiyyətlə, böyük təminatla tikilir. Xarici görünüşü mütləq gözəl olmalıdır. Çünki bu, həm də şəhərin gözəlliyidir. Maşınların hərəkəti üçün körpü tikmək olar. Amma biz gözəl körpülər tikirik. Baxanda adamın ürəyi sevinir. Prezident İlham Əliyev körpü ilə tanışlıq zamanı dedi ki, buradakı təhlükəsizlik sədləri də indi Azərbaycanda istehsal olunur, xaricdən gəlmir. Biz bir müddət bundan əvvəl təhlükəsizlik sədləri və qalvanizasiya zavodunun açılışında iştirak etdik. Bütün lazımi materiallar Azərbaycanda istehsal olunmalıdır və ölkə iqtisadiyyatı belə inkişaf edəcəkdir. Əgər Azərbaycanda son illər ərzində yol tikintisinə, körpülərin tikintisinə bu qədər böyük vəsait qoyulmasaydı, onda bu zavodun tikintisinə də ehtiyac olmazdı. Bu zavod tikilib və fəaliyyət göstərəcək, ustalar işləyəcəklər.

**Ziya MƏMMƏDOV**: Cənab Prezident, bu təhlükəsizlik sədlərinin elastikliyi var, avtomobil dəyəndə onu geri atır. Yəni avtomobil digər istiqamətə aşmır. Doğrudur, təhlükəsizlik səddini zədələyib sıradan çıxarır, amma xəsarət olmur.

**İlham ƏLİYEV**: Bəli, bunu əyir, amma sonra bunu bərpa etmək olur.

**Ziya MƏMMƏDOV**: Cənab Prezident, Sizin tapşırığınızla biz təkcə Bakıda yox, respublikanın müxtəlif bölgələrində buna bənzər körpülər inşa edirik. Oğuzda, Qəbələdə, Qazaxda -

təqribən 4 körpü istismara verilməyə hazırdır.

**İlham ƏLİYEV**: Bəli, gedin açılışlarını edin. Körpülər hər yerdə tikilir və hər yerdə də tikilməlidir.

Sizi qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. Lövhədə "Yol ötürücüsü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında 2006-2007-ci illərdə inşa edilmişdir" sözləri yazılmışdır.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

Prezident İlham Əliyev körpünün üzərindən yardımçı yolları və ətraf ərazini seyr etdi, körpünün alt hissəsində müxtəlif istiqamətlərə çəkilmiş yollara, Salamzadə küçəsindəki körpüdə aparılan əsaslı yenidənqurma işlərinə baxdı.

Dövlətimizin başçısı körpünün müasir, möhkəm olması, küçələrin, yardımçı yolların genişləndirilməsi və ətraf ərazidə abadlıq işlərinin aparılması barədə müvafiq tövsiyə və tapşırıqlarını verdi.

## Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 19-da Bakının Nərimanov rayonu ərazisində salınmış yeni yolun açılışında da iştirak etmişdir

Dövlətimizin başçısı 2007-ci il sentyabrın 1-dən inşasına başlanmış yolun açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Həsən Əliyev prospektini, Maqsud Əlizadə, Teymur Əliyev və Salamzadə küçələrini Əhməd Rəcəbli küçəsi ilə, Aşıq Molla Cümə küçəsini isə Ziya Bünyadov prospekti ilə birləşdirən bu yol ərazidə nəqliyyatın hərəkatını tənzimləyəcəkdir. Altızolaqlı ikitərəfli yolun uzunluğu 1,5 kilometr, yolun eni isə 24 metrdir. Ümumiyyətlə, paytaxtda yol-nəqliyyat strukturunu yaxşılaşdırmaq üçün Bakı Şəhəri İcra Hakimiyyətinin sərəncamı ilə Nərimanov rayonunda 5 yeni küçənin salınması başa çatdırılmışdır. Heydər Əliyev və Ziya Bünyadov prospektlərini birləşdirən Aşıq Molla Cümə küçəsi istifadəyə hazırdır.

Bundan əlavə, Həsən Əliyev prospektini Əhməd Rəcəbli küçəsi ilə bağlayan 500 metrlik yolun çəkilişi də tamamlanmışdır. Ümumilikdə, bu ərazidə 60 min kvadratmetr asfalt döşənmiş, xaricdən gətirilmiş 4 mindən çox dekorativ bəzək kolları, habelə palma ağacları əkilmişdir. Salınan yaşıllıqları suvarmaq üçün xüsusi su xətləri çəkilir, işıqlandırma sistemi quraşdırılır.

Nərimanov rayonu ərazisində daha üç yolun salınması davam etdirilir.

Prezident İlham Əliyev yolun layihəsi, eləcə də bu ərazidə yerləşən "Qardaşlıq məzarları" xatirə kompleksinin eskiz layihəsi ilə tanış oldu, qəbiristanlığın vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.

Bildirildi ki, sahəsi 11220 kvadratmetr olacaq xatirə kompleksinin tikintisinə 1,552 milyon manat xərclənəcək və 2008-ci ilin mayın 9-da tamamlanacaqdır. Tikinti işləri "Dəvəli" və "İlandağ" məhdud məsuliyyətli cəmiyyətləri tərəfindən görüləcəkdir.

Dövlətimizin başçısı bu cür yolların əhəmiyyətini, paytaxtın digər ərazilərində də belə yollara ehtiyac duyulduğunu vurğuladı, yenidən yaradılacaq komplekslə bağlı tövsiyə və tapşırıqlarını verdi.

## Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul-Kürdəmir magistral yolunun açılışında iştirak etmişdir

2007-ci il dekabrın 24-də Bakı-Ələt-Qazax əsas magistral yolunun 85 kilometrlik Hacıqabul-Kürdəmir avtomobil yolunun 75 kilometrlik hissəsinin təntənəli açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı inşaatçılar böyük ehtiramla, hərarətli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev yolun əsas iqtisadi göstəriciləri ilə tanış oldu.

Doğum günü münasibətilə Prezident İlham Əliyevi təbrik edən nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, Bakı-Ələt-Qazax avtomobil yolunun mühüm hissəsini təşkil edən Hacıqabul-Kürdəmir yolunun tikintisi dövlət büdcəsi vəsaiti və Avropa Yenidənqurma və İnkişaf Bankının krediti hesabına maliyyələşdirilmişdir. Yolun yenidən qurulması ilə bağlı elan olunmuş müsabiqədə İtaliyanın "Todini Konstrakşn" şirkəti və yerli "Azərinşaatservis" Məhdud Məsuliyyətli Cəmiyyət qalib gəlmişdir. 2005-ci ilin mayın 16-da isə yolun tikintisinə başlanmışdır. Böyük İpək yolunun bir hissəsini təşkil edən bu yolun ümumi uzunluğu 85 kilometrdir. Layihəyə hazırda fəaliyyətdə olan yolun 75 kilometrlik hissəsinin yenidən qurulması, Kürdəmir rayonu ərazisində 10 kilometrlik yeni yolun, eləcə də Kürdəmir dairəvi avtomobil yolunun tikintisi daxildir. Ümumi dəyəri 97,16 milyon ABŞ dolları olan layihə çərçivəsində Padar çayı üzərində iki körpü, habelə 4 mal-qara keçidi tikilmiş, yerüstü suların axınını təmin edəcək 165 ədəd boru çəkilmişdir. Körpülərin ümumi uzunluğu 72,25 metr, eni isə 33,40 metrdir. İstifadəyə verılmış avtomobil yolunun birinci dərəcəli hissəsinin uzunluğu 5,7 kilometr, eni 27,5 metrdir. Yolun qalan, ikinci dərəcəli hissəsinin uzunluğu 78,2 kilometr, eni 15 metrdir. Yolun tikintisi zamanı 1,73 milyon kubmetr torpaq və 490 min ton asfalt işləri görülmüşdür. Tikinti işlərində 623 yerli, və xarici mütəxəssis çalışmışdır.

Azərbaycan Prezidenti yolun tikintisini və işin gedişatını əks etdirən fotoşəkillərlə tanış oldu.

Bildirildi ki, istifadəyə verılmış yol Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədinədək olan 503 kilometrlik magistral avtomobil yolunun 14,9 faizini təşkil edir. Gürcüstan sərhədinə qədər əsas magistral yolun tam tikintisi üçün artıq maliyyə imkanları tapılmışdır və yol 2010-cu ildə istifadəyə veriləcəkdir. Ümumi layihə əsasında hissə-hissə Kürdəmir-Ucar, Ucar-Yevlax və Yevlax-Gəncə avtomobil yollarının tikintisi nəzərdə tutulmuşdur. Bundan başqa, Kürdəmirdən Yevlaxadək əlavə 2 zolaqlı yeni yol da çəkiləcəkdir.

Azərbaycanda yol infrastrukturunun yenidən qurulması Almaniya, İtaliya, Çexiya, Türkiyə, Koreya və digər dövlətlərin aparıcı yol tikintisi şirkətlərinin diqqət mərkəzindədir və onlar Nəqliyyat Nazirliyinin təşkil etdiyi müsabiqələrdə iştirak edir. Bakıdan Kürdəmirədək yol genişləndiriləcək və onun kənarlarında qalvanik təhlükəsizlik sədləri qoyulacaqdır.

**İlham ƏLİYEV**: Təkcə bu yol tikilmir, Bakı-Rusiya, Bakı-İran sərhədlərinə qədər yollarda da tikinti başlanmışdır.

**Ziya MƏMMƏDOV**: Bəli, bütün istiqamətlərdə - həm şimalda, həm də cənubda. Eyni zamanda, Şamaxı isliqamətində də yenidənqurma işləri gedir. Bütün bu layihələrin həyata keçirilməsində xarici kreditlərlə bərabər, Azərbaycan hökumətinin də payı vardır.

**İlham ƏLİYEV**: Bəli, bu, əvvəldən belə nəzərdə tutulmuşdu. Amma bundan başqa, biz əlavə vəsaitin ayrılması üçün də müvafiq göstərişlər vermişik.

**Cavid QURBANOV**: Bu yolun tikintisinə Azərbaycan hökuməti 50 milyon manat vəsait qoymuşdur. Qalan vəsaiti isə Avropa İnkişaf və Yenidonqurma bankı kredit vermişdir.

**Ziya MƏMMƏDOV**: Cənab Prezident! Həqiqətən də, Sizin şəxsi təşəbbüsünüz, dəstəyiniz və tapşırıqlarınız olmasaydı, bu yollar belə sürətlə inşa edilə bilməzdi. Çünki beynəlxalq kredit təşkilatları ilə danışıqlar gec baş tutur, müəyyən prosedur qaydaları gec həyata keçırılır. Bir layihəni işləyib başa çatdırmaq üçün iki il vaxt gedir.

**İlham ƏLİYEV**: Həm danışıqlar, həm də daxili prosedurlar orada çox mürəkkəbdir. Ona görə, əlbəttə, həm beynəlxalq maliyyə qurumlarının imkanlarından, həm də öz imkanlarımızdan, artan maliyyə resurslarımızdan istifadə edəcəyik.

* * *

Sonra Prezident İlham Əliyev rəmzi açılışı bildirən qırmızı lenli kəsdi.

Dövlətimizin başçısın xatirə hədiyyələri təqdim olundu.

Prezident İlham Əliyev avtomobilin sükanı arxasına əyləşərək hərəkətin təhlükəsizliyinə, nəqliyyatın normal hərəkətinə hərtərəfli imkan yaradan, tarixi İpək yolunun bir hissəsi olan yeni yolun keyfiyyətini yoxladı.

Dövlətimizin başçısı inşaatçıları təbrik etdi, görülən işləri yüksək qiymətləndirərək dedi ki, Azorbaycanın bütün yolları belə olmalıdır. Bundan sonra daha da böyük işlər görüləcəkdir. Ölkəmizin bütün yolları belə gözəl, rahat olmalıdır. Bu isə son illər ərzində tikilən yollardan ən yüksək keyfiyyətlisidir.

## Azərbaycan Prezidenti İlham Əliyev Bakının Nərimanov rayonu ərazisində yeni salınan yolun açılışında iştirak etmişdir

2007-ci il dekabrın 30-da Bakının Nərimanov rayonu ərazisində, Nəsib bəy Yusifbəyli küçəsində yeni salınan yol istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.

Dövlətimizin başçısı yeni yolun planı və burada hərəkətin təşkilinin sxemi ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov məlumat verərək dedi ki, cənab Prezident, Sizin şəxsi təşəbbüsünüz və tapşırığınızla bu ərazidə müasir standartlara uyğun salınmış təxminən 1,5 kilometrlik yolun ümumi eni 16 metr, hərəkət hissəsi isə 15 metrdir. Dörd hərəkət zolağının hər birinin eni 3,75 metrdir. Bakı şəhərində nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə verdiyiniz göstərişə əsasən, yolun "Gənclik" meydanından Ceyhun Hacıbəyli küçəsinədək olan 650 metrlik hissəsi dekabrın 14-də Sizin iştirakınızla istifadəyə verılmışdir. Bu yolu prospektə çevirmək məqsədilə onu Nəsimi rayonu ərazisinə, Səməd Vurğun küçəsinə qədər uzatmışıq. Yola mane olan tikililər sökülmüş, ensiz yerlər genişləndirılmış, işıqforlar və yol nişanları qoyulmuşdur. Piyadaların gediş-gəlişi üçün də şərait yaradılmışdır. Nəqliyyat vasitələri bu yolla hərəkət etməklə Ceyhun Hacıbəyli küçəsinə, Həsən Əliyev prospektinə, Mirəli Qaşqay küçəsinə, Azadlıq prospektinə, Xan Şuşinski, Səməd Vurğun küçələrinə çıxa biləcəkdir.

Ümumən, yeni yol nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsində və tıxacların aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaqdır. Bu yolun bir üstünlüyü də ondan ibarətdir ki, "Gənclik" meydanı istiqamətinə gedən əsas küçələr prospektlərlə birləşəcəkdir.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirərək yeni yolun "Anten" deyilən ərazi hesabına açıldığını vurğuladı və başqa yerlərdə də yeni yolların salınmasının zəruriliyini söylədi.

Nəqliyyat naziri bildirdi ki, hazırda “Gənclik” meydanından Təbriz küçəsi istiqamətində yeni yolun çəkilməsi ilə bağlı layihə üzərində iş gedir. Bu, gediş-gəlişi asanlaşdıracaq və yeni infrastruktur yaranacaqdır.

Həmin ərazidə gələcəkdə Diplomatik Akademiya üçün binanın tikiləcəyi də nəzərə alınsa, bu yola ehtiyac böyükdür.

Yeni açılan yol bütün istiqamətlərə gediş-gəlişi təmin etdiyinə görə “Gənclik" meydanından Vaqif küçəsinə doğru gedən yol 7-10 metr genişləndiriləcəkdir.

Dövlətimizin başçısı Vaqif küçəsinə də baxdı, burada hərəkət intensiv olduğuna

görə təhlükəsizliyi üçün onun maksimum genişləndirilməsinin zəruriliyini vurğuladı və dedi ki, Dədə Qorqud parkının yanından "Gənclik" meydanına qədər hərəkətin rahatlığının təmin edilməsi məqsədəuyğundur.

Prezident İlham Əliyev avtomobilə əyləşərək Nəsib bəy Yusifbəyli küçəsi ilə hərəkət etdi, salınan yolun keyfiyyəti ilə maraqlandı, tıxacların aradan qaldırılması üçün digər yeni yolların tikilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Nazir Ziya Məmmədov bildirdi ki, bu yolun keçmiş Papanin küçəsi ilə birləşdirilməsi də nəzərdə tutulur. Nəqliyyat vasitələri Səməd Vurğun küçəsindən keçməklə həmin küçəyə sərbəst çıxış əldə edəcəkdir. Tibb Universitetinin ərazisindən heç bir problem yaradılmadan yeraltı tunel tikiləcəkdir.

Dövlətimizin başçısına Bakı şəhərində tikintisi davam etdirilən digər obyektlər barədə də məlumat verildi.

Prezident İlham Əliyev bütün işlərin müasir səviyyədə, keyfiyyətlə icra olunmasının vacibliyini vurğuladı.

**Azərbaycan Prezidenti İlham Əliyev Azadlıq meydanı - Zığ dairəsi-Heydər Əliyev adına beynəlxalq hava limanı avtomobil yolunun tikintisinin gedişi ilə tanış olmuşdur**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il fevralın 8-də Bakıda beynəlxalq standartlara uyğun yenidən qurulan Azadlıq meydanı - Zığ dairəsi avtomobil yolu və yeni salınan beton örtüklü Zığ dairəsi – Heydər Əliyev adına beynəlxalq hava limanı avlomobil yolunun tikintisinın gedişi ilə tanış olmuşdur.

Prezident İlham Əliyev əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaxınlığında Azadlıq meydanı - Zığ dairəsi avtomobil yolunun ən müasir standartlar səviyyəsində yenidən qurulması ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov dövlət başçısına məlumat verdi ki, bu yolun uzunluğu 12 kilometr olacaqdır. Yolun səkkiz cərgəsindən dördü avtomobillərin sürətli hərəkəti üçün nəzərdə tululur. Hər iki tərəfdən genişləndirilən bu yolun üzərində üç yol qovşağı tikiləcəkdir. Həmin yolun davamı olaraq salınan Zığ dairəsi - Heydər Əliyev adına beynəlxalq hava limanı avlomobil yolu isə beton örtüklüdür.

Prezident İlham Əliyev Zığ dairəsində aparılan işlərin gedişi ilə tanış oldu. Dünyadakı ən qabaqcıl texnologiya əsasında tikilən bu yolun eni 26 metr, uzunluğu isə 17 kilometrdir. Altıcərgəli, sürət zolağı olacaq yolun hər iki tərəfində mühafizə çəpərləri çəkiləcəkdir. Nəqliyyat Nazirliyinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə "Akkord" şirkətlər qrupunun inşa etdiyi yolun beton örtüyünün qalınlığı 26-28 santimetr təşkil edir. Yol boyunca ən müasir standartlara cavab verən işıqlandırma sistemi quraşdırılır.

Prezident İlham Əliyev avtomobili özü idarə edərək yolun digər hissəsinə gəldi. Dövlət başçısına yeni yolun salınma texnologiyası nümayiş etdirildi. Burada Azərbaycan inşaatçıları Almaniyanın "Günter Papemburq" şirkətinin mütəxəssisləri ilə birgə çalışırlar. Bu yolda beş yerdə körpü inşa edilir. Tikinti işlərinə 2800-3000 işçi, 1000-ə qədər texnika cəlb olunmuşdur. Dövlət başçısına bildirildi kı, belə yollar yalnız dünyanın ən inkişaf etmiş ölkələrində istismardadır və ən son texnologiyaya əsaslanır.

Prezident İlham Əliyevə Baku Siti (Baku city) layihəsi barədə də geniş məlumat verildi. Bildirildi ki, həmin layihə müasir şəhərsalma imicinin formalaşdırılması məqsədi daşıyır. Layihədə Azərbaycan Olimpiya Mərkəzi, Beynəlxalq Ticarət Mərkəzi, müasir sərgi salonu və sair beynəlxalq səviyyəli obyektlərin, mükəmməl infrastrukturun tikintisi nəzərdə tutulmuşdur.

Xarici mütəxəssislərlə də söhbət edən ölkə başçısı Azərbaycanda bütün infrastrukturun, o cümlədən avtomobil yollarının ən müasir standartlar səviyyəsində yenidən qurulması üçün kompleks tədbirlərin bundan sonra daha da genişləndiriləcəyini vurğuladı, inşaatçılara uğurlar arzuladı.

## Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır

### Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə ölkəmizdə avtomobil yolları şəbəkəsinin inkişafına həsr olunmuş müşavirə keçirilmişdir

2008-ci il martın 12-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə ölkəmizdə avtomobil yolları şəbəkəsinin inkişafına həsr olunmuş müşavirə keçirilmışdir.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi –

Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bizim iqtisadiyyatımız çox yüksək sürətlə artır.

Son dörd ildə ümumi daxili məhsul 96 faiz artmışdır ki, bu da indiyə qədər dünya iqtisadiyyatında görünməmiş bir nailiyyətdir. Əlbəttə, bu, imkanlarımızı daha da artırır. Bizə imkan verir ki, iqtisadiyyatımızın bütün sahələrini inkişaf etdirək.

Sirr deyil ki, uğurlu iqtisadi siyasətin təməlində 1990-cı illərin ortalarında başlanmış və bu gün uğurla davam etdirilən Heydər Əliyevin neft siyasəti dayanır. Məhz o çətin, ağır günlərdə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan dünya birliyinə, dünya iqtisadiyyatına uğurla inteqrasiya etməyə başlamışdır və ölkəmiz siyasi dividendlərlə yanaşı, əlbəttə ki, çox böyük iqtisadi imkanlar da əldə edə bilmişair. Bu yolda çox böyük çətinliklər olmuşdur, ölkəmiz böyük sınaqlardan keçmişdir. Ancaq bu gün qürur hissi ilə deyə bilərik ki, nəzərdə tutulmuş bütün proqramlar, layihələr həyatda öz əksini tapıbdır. Azərbaycan nefti və qazı dünya bazarlarına çıxarılır. Azərbaycan özünün enerji təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görübdür. Azərbaycanın təbii ehtiyatları dördneft-qaz kəməri vasitəsilə dünya bazarlarına çıxarılır və ölkə böyük həcmdə maddi imkanlar əldə edir.

Bununla yanaşı, ölkə iqtisadiyyatında aparılan liberal islahatlar, bütövlükdə lıberallaşma siyasəti, dövlətin özəl sektora dəstəyi - həm mənəvi, həm də maddi dəstək - bütün bu amillər, əlbəttə ki, iqtisadiyyatımızı gücləndirir və nəticə etibarilə Azərbaycan daha da inamla və sürətlə inkişaf edir. İqtisadi müstəqillik, enerji təhlükəsizliyi məsələləri, iqtisadi cəhətdən heç kimdən asılı olmamaq amilləri, əlbəttə, hər bir ölkə, xüsusilə gənc müstəqil ölkə üçün önəmlidir və bu gün biz tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmiş, əbədi və dönməz etmişdir.

Bizim müstəqil siyasət aparmaq üçün bütün imkanlarımız var: həm siyasi iradə, həm

xalq tərəfindən bizim siyasətimizə verilən qiymət, həm də iqtisadi imkanlar, enerji təhlükəsizliyi məsələləri və Azərbaycanda aparılan iqtisadi və sosial islahatlar. Ölkəmiz bundan sonra da uğurla inkişaf edəcək, mən buna şübhə etmirəm. Biz bundan sonrakı illərdə həm iqtisadi, siyasi islahatları davam etdirəcək, həm də sosial məsələlərin həllinə diqqət göstərilməsini davam etdirəcəyik. Beləliklə, Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil olacaqdır.

Bugünkü müşavirə nəqliyyat məsələləri, daha doğrusu, avtomobil nəqliyyatı məsələləri ilə bağlıdır. Son illər ərzində bu sahədə çox böyük uğurlar əldə edilmişdir. Demək olar ki, Azərbaycanda nəqliyyatın bütün sahələri planlı şəkildə inkişaf etdirılır. Hər bir sahə üçün əlavə proqramlar, layihələr var, maliyyə resursları təmin edilir. İndi ölkəmiz dünya maliyyə aləmində də çox güclü mövqelərə malikdir. Bizə böyük inam var və buna görə indi dünya maliyyə bazarında maliyyə resursları almaq bizim üçün böyük problem deyildir. Azərbaycan istənilən məbləğdə kreditlər əldə edə bilər. Deyə bilərəm ki, kreditlər bizə təklif edən qurumlar daha çoxdur, nəinki bizim buna olan ehtiyacımız. Artıq bundan sonra biz maliyyə çətinlikləri çəkməyəcəyik. Beləliklə, bizə lazım olan, ölkənin inkişafına lazım olan bütün infrastruktur layihələrini icra edəcəyik.

Bir daha demək istəyirəm ki, bütövlükdə nəqliyyatda işlər yaxşı gedir.

Bildiyiniz kimi, dəmir yolu nəqliyyatında transmilli layihələr həyata keçirilməyə başlayır. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi tarixi nailiyyətdir. Biz dəfələrlə bu barədə sözümüzü demişik, bunu təkrarlamağa ehtiyac yoxdur. Bu dəmir yolunun tikintisi bölgədə tamamilə yeni vəziyyət yaradır və Azərbaycanı çox etibarlı tranzit ölkəyə çevirəcəkdir. Digər layihələr də icra olunur və bütövlükdə, dəmir yolu sisteminin möhkəmlənməsi bizim üçün çox vacibdir. Gələcəkdə bu sahəyə yenə də vəsait ayrlacaqdır.

Həmçinin dəniz nəqliyyatı da inkişaf etməkdədir. Azərbaycanda, Bakıda yeni böyük dəniz limanı tikiləcəkdir. Biz bunun layihəsi ilə tanış olduq. Yeni tankerlər alınır. Quru yüklərin daşınması üçün gəmilər, bərələr alınır. Nəzərə alsaq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi nəticəsində Azərbaycan ərazisi ilə yük daşımalarının həcmi böyük dərəcədə artacaq, əlbəttə, biz indidən buna hazır olmalıyıq. Bütün nəqliyyat infrastrakturumuzu buna hazır etməliyik. İlk növbədə, Xəzər Gəmiçiliyini möhkəmləndirməliyik. Bildiyiniz kimi, gəmiçiliyin inkişafı üçün dövlət tərəfindən yeni gəmilərin alınması üçün vəsait ayrılır. Biz bundan sonra da gəmiçiliyə kömək göstərəcəyik. Düzdür, mən hesab edirəm ki, hər bir şirkət, o cümlədən dövlət şirkəti öz ehtıyaclarını özü təmin etsin. Ancaq bununla bərabər, bəzı hallarda maliyyə imkanları məhdud olduğuna görə, ölkənin strateji maraqları təkcə şirkətlərin fəaliyyəti nəticəsində təmin oluna bilmir.

Belə olan halda, mütləq dövlət müdaxilə etməli, öz resurslarını bu işlərə

yönəltməlidir ki, ölkəmizin strateji, iqtisadi və regional maraqları təmin olunsun. Məhz buna görə Azərbaycan dövləti gəmiçiliyin inkişafına dövlət büdcəsindən böyük məbləğdə vəsait ayırıb və biz növbəti illərdə də bu siyasəti davam etdirəcəyik.

O cümlədən, bildiyiniz kimi, biz hava nəqliyyatını məhz dövlət zəmanətli kreditlər hesabına çox böyük dərəcədə inkişaf etdirə bilmişik. Məhz dövlət zəmanəti ilə alınan kreditlər hesabına yeni təyyarələr alınır. Müasir təyyarələr - "Boinq", "Erbas", "Atr" təyyarələri alınır. Demək olar ki, Azərbaycanın təyyarə parkında köhnə təyyarələr artıq yoxdur. MDB məkanında ilk dəfə məhz Azərbaycana "Boinq-787" tipli yeni təyyarələr gətiriləcəkdır. Onlar bu sahədə ən son texnoloji nailiyyətdir.

Azərbaycanda yeni aeroportlar tikilir. Bakı, Naxçıvan, Gəncə, Lənkəran - Azərbaycanda dörd beynəlxalq aeroport olacaqdır. Bununla yanaşı, regional aeroportlar da tikilir. Zaqatalada, gələcəkdə lazım olarsa, başqa yerlərdə. Yəni bu sahənin də inkişafı bizim üçün çox lazımdır. Azərbaycan indi dünyada təyyarələr vasitəsilə yük daşımalarının təmin edilməsində də vacib rol oynayır. Məhz Azərbaycan artıq regional mərkəz olubdur. Bizim səylərimiz nəticəsində məşhur "Karqolüks" şirkəti məhz Azərbaycanı mərkəz seçibdir və Avropadan Asiyaya, Asiyadan Avropaya məhz Azərbaycanın üzərindən uçuşları təmin edir. Yəni bütün bu nailiyyətlər bir daha onu göstərir ki, biz öz siyasətimizlə, etibarlı tərəfdaş olmağımızla, gözəl geosiyasi vəziyyətdən istifadə etməklə Azərbaycanda çox güclü və hərtərəfli nəqliyyat infrastrukturuna malik oluruq, bunu gücləndiririk. Növbəti illərdə bu sahəyə həm diqqət artırılacaq, həm də maliyyə resursları cəlb ediləcəkdir.

Bugünkü müşavirə avtomobil nəqliyyatı problemləri ilə bağlıdır. Bu sahədə də çox böyük işlər görülüb və bütün bunlar göz qabağındadır. Yolların çəkilişi elə bir sahədir ki, burada əldə edilmiş nailiyyətlər haqqında danışmaq bəlkə də yersizdir. Çünki bütün bunlar göz qabağındadır. Hər bir vətəndaş bunu görür, yeni yollardan istifadə edir, bu yollar həm insanlara rahallıq verir, həm də ölkə iqtisadiyyatı daha da hər inkişaf cdir.

Bildiyiniz kimi, biz regional inkişaf proqramının sonuncu mərhələsindəyik. Artıq proqramın beşinci ili gedir və bu yaxınlarda başa çatacaqdır. Bildiyiniz kimi, növbəti proqram hazırlanır və regionların inkişafında yol nəqliyyatının möhkəmlənməsi başlıca rol oynayır. Yol olmayan yerdə inkişaf da yoxdur. Əgər biz bütün regionları inkişaf etdirmək istəyiriksə və bunu ediriksə, burada birinci şərt yoldur. Elektrik enerjisi, qaz, su və yoldur. İndi ediləcək təqdimatda bu sahədə hansı işlərin görülməsi ilə tanış olacağıq. Daha önəmlisi odur ki, biz növbəti illərdə hansı işləri görməliyik.

Onu deyə bilirəm ki, indi Azərbaycanı qonşu ölkələrlə birləşdirən bütün magistral yollarda böyük təmir-tikinti işləri gedir. Həm yeni yollar salınır, həm də mövcud yollar

əsaslı təmir olunur. Ümid edirəm ki, yaxın zamanlarda biz üç istiqamətdə gedən işlərin tamamlanmasını görəcəyik. Həm Bakı-Gürcüstan sərhədi, həm Bakı-Rusiya sarhədi, həm də Bakı-İran sərhədi yollarının tikintisi. Bu yollar bizi təkcə qonşu ölkələrlə birləşdirmir, eyni zamanda Azərbaycanın, demək olar, bütün ərazisindən keçir və əlbəttə, yolboyu yerləşən şəhərlərə daha da rahat çıxışı təmin edir. Ona görə bu yolların tikintisi bir neçə məqsəd daşıyır. Əlbəttə, biz Azərbaycan ərazisi ilə yükdaşımaların artmasını istəyirik və bunu təmin edirik. Amma ilk növbədə Azərbaycan vətəndaşlarının normal yoldan istifadə etməsi məsələləri diqqət mərkəzindədir. Bir daha demək istəyirəm ki, regionların inkişafi məsələləri birbaşa yol infrastrukturu ilə bağlıdır.

Bununla yanaşı, şəhərlərarası yollar da böyük əhəmiyyət kəsb edir və bu sahədə işlər görülür, həmin yollar təmin olunur. Bakı-Şamaxı-Yevlax-Balakon yolu yenidən qurulmalıdır və işlər başlanmışdır. Eyni zamanda bir müddət bundan əvvəl mənim tərəfindən Nəqliyyat Nazirliyinə göstəriş verilmişdir ki, mövcud olmayan yollar haqqında, şəhərləri birləşdirəcək qısa yolların tikintisi haqqında fikirləşsinlər. Çünki bəzi hallarda bir bölgədən o biri bölgəyə gəlmək üçün insanlar Bakıdan keçərək hərəkət etməlidirlər. Əlbəttə, bu, həm vaxt baxımından, həm də rahatlıq baxımından bizə əl vermir. Bildiyimə görə, bu sahədə də müəyyən araşdırmalar aparılmışdır.

Eyni zamanda biz kənd yollarının tikintisinə də diqqət göstəririk. Ən ucqar kəndlərə yollar çəkilir və bunlar çox gözəl yollardır. Yol çəkilən kimi biz dərhal görürük ki, o bölgədə canlanma gedir, dərhal inkişaf baş verir. Xüsusilə Azərbaycanın çox gözəl təbiətini nəzərə alsaq, turizm üçün yararlı olan yerlərdə inkişafı biz dərhal görürük. O yerlərdə iqtisadi inkişaf başlayır, kiçik və orta sahibkarlıq inkişaf etməyə başlayır. Yəni biz bölgələrdən mütəmadi qaydada məlumat aldığımıza görə görürük ki, yolun çəkilişi regionlarda gedən inkişafla nə dərəcədə bağlıdır. Bunlar, demək olar ki, bir-biri ilə birbaşa bağlı olan məsələlərdir. Regionların sosial-iqtisadi inkişafi Dövlət proqramının uğurlu icra olunmasının bir səbəbi də ondadır ki, biz bu proqramın icrası ilə bərabər, yol infrastrukturuna da böyük diqqət göstərmişik.

Onu da demək istəyirəm ki, proqram 2004-cü ilin əvvəlində qəbul olunanda proqramda bu illər ərzində, son dörd il ərzində yol tikintisi ilə bağlı görülən işlər nəzərdə tutulmamışdı. Ancaq biz əlavə vəsait ayırmaqla proqramın sürətlənməsini təmin etmək üçün yol infrastrukturuna da böyük vəsait qoymuşuq. Biz bunun nəticəsini görürük.

Bakı şəhərinin yol nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün də bir müddət bundan əvvəl çox vaxtında qəbul edilmiş və lazımlı qərarlar bu sahədə vəziyyəti bir qədər yüngülləşdirmişdir. Sirr deyil ki, Bakıda və bütövlükdə, Azərbaycanda gedən inkişaf yol infrastrukturuna əlavə yük gətiribdir. Bakının tarixi küçələri, demək olar ki, ensizdir. Onları enliləşdirmək, demək olar, mümkün deyildir. Biz öz tarixi keçmişimizə

hörmətlə yanaşırıq və yanaşmalıyıq. Yeni salınan yollar, nisbətən müasir tarixə aid olan yollar da, əlbəttə, artan yükə dözə bilmir. Mən bir rəqəmi deyə bilərəm ki, təkcə keçən il Azərbaycana xaricdən 80 mindən çox avtomobil gətirilmişdir ki, bunların da böyük əksəriyyəti Bakının payına düşür. Əgər biz tədbirlər görməsəydik, mənim tərəfimdən sərəncamlar imzalanmasaydı və işlər görülməsəydi, bu gün deyə bilərəm ki, bəlkə də Bakının yol infrastrukturu, Bakının nəqliyyatı illik vəziyyətinə düşə bilərdi.

2005-ci ilin sonunda biz görəndə ki, artıq tıxaclar yaranır, 2006-cı ilin əvvəlində müvafiq sərəncamlar imzalamaqla böyük işlərə başlamışıq. Hələ deyə bilmərəm ki, biz istədiyimizə nail ola bilmişik. Ancaq qısa müddət ərzində Bakıda tikilən yeni yollar, təmir olunan yollar, yol ötürücülərinin, qovşaqlarının, yeraltı-yerüstü keçidlərin tikilməsi vəziyyəti böyük dərəcədə sağlamlaşdırmışdır. Bunu biz də görürük, əhali də görür. Ancaq o da həqiqətdir və biz indi bunu görürük ki, nəzərdə tutulmuş layihələr məsələnin həlli üçün yetərli deyildir. Doqquz yol ötürücüsü, körpü, tunel, yol qovşağının tikintisi nəzərdə tutulmuşdur ki, artıq onlardan altısı istismara verılmışdir. Ancaq biz görürük ki, bunlara hələ nə qədər böyük ehtiyac vardır. Ona görə Bakı şəhərinin nəqliyyat sisteminin yaxşılaşdırılması üçün nə lazımdırsa, biz onu edəcəyik. Həm körpülərin, yol qovşaqlarının tikintisi, həm də yeni yolların açılması, salınması davam etdiriləcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda bu il nəqliyyatın intellektual idarəetmə sistemi tətbiq olunmalıdır. Mən Koreya Respublikasında rəsmi səfərdə olduğum zaman bu sistemlə tanış oldum, onunla xüsusilə maraqlandım. Sonra müqavilə imzalandı və indi o sistem Azərbaycanda tətbiq olunacaqdır.

Bu, şəhər nəqliyyatına böyük dərəcədə kömək göstərəcəkdir.

Əzizbəyov metrostansiyasından Heydər Əliyev adına beynəlxalq aeroporta gedən yolu, demək olar ki, biz yenidən qururuq, iki dəfə genişləndiririk. İndi bu yol 4-6 zolaqlıdır. Ancaq sonra 8-12 zolaqlı olacaqdır. Yəni biz şəhərimizə əsas girişin ən müasir standartlara çatdırılması üçün böyük işlər görürük. Artıq yolun bir hissəsi işləyir və tikinti işləri yaxşı gedir.

Bununla bərabər, onu da deməliyəm ki, şəhəri aeroportla birləşdirən və normal vəziyyətdə olan cəmi bir yol var. Əlbəttə ki, biz bununla razılaşa bilməzdik. Ona görə qəbul etdiyimiz qərar əsasında yeni yolun salınması da nəzərdə tutulmuşdur. Azadlıq meydanı-Zığ-Heydər Əliyev adına Beynəlxalq Aeroporta qədər yeni yol salınır. Mən yolun tikintisi ilə tanış olmuşam və deyə bilərəm ki, çox keyfiyyətlə, tamamilə yeni texnologiya əsasında tikilir. Həmin texnologiya bu yaxınlarda Avropanın inkişaf etmiş şəhərlərində tətbiq olunmağa başlanmışdır. Ancaq artıq bu texnologiya Azərbaycanda var. Bax, budur bizim məsələyə yanaşmağımız, budur bizim siyasətimiz.

Mən bunu bir neçə dəfə demişəm, bir də demək istəyirəm ki, Azərbaycanda yaranan müəssisələr, tikilən yollar, infrastruktur obyektlərinin hamısı dünya standartlarına uyğun olmalıdır, o səviyyədə olmalıdır. Biz dünyada olan ən son nailiyyətləri Azərbaycana gətirməliyik. Beş, on il bundan əvvəl dünya standartı sayılan səviyyə bizə lazım deyildir. Ən inkişaf etmiş ölkədə hansı texnologiya tətbiq edilirsə, o, Azərbaycanda da tətbiq olunmalıdır. Bizim ölkəmiz müasir ölkəyə çevrılır və əminəm ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır. Dünyada inkişaf ctmiş o qədər də çox ölkə yoxdur. Bu anlayış özündə çoxlu amilləri cəmləşdirir. Ancaq mən inanıram, bizim imkanımız var ki, ölkəmuizi inkişaf etmiş ölkələrin sıralarına daxil edək.

Yol infrastrukturunun bu işlərdə çox mühüm yeri var. Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir. Bax, bu gün biz bu məsələlərlə bağlı müzakirə aparacağıq.

İndi söz nəqliyyat naziri Ziya Məramədova verılır.

## Nəqliyyat naziri
## Ziya Məmmədovun çıxışı

- Zali-aliləri, möhtərəm cənab Prezident.

Hörmətli müşavirə iştirakçıları.

Azərbaycan Respublikası iqlisadiyyatının yüksək tiplərlə inkişafını təmin edən davamlı sabitliyə, tərəqqiyə və yüksəlişi aparan uğurlu siyasətiniz, bütün sahələrdə olduğu kimi, nəqliyyat yol kompleksinin də inkişafi üçün böyük imkanlar yaratmışdır. Ulu öndər Heydər Əliyev ölkənin nəqliyyat infrastrukturunda avtomobil yollarının mühüm əhəmiyyət kəsb etdiyini daim qeyd edərək, bu sahənin inkişafına xüsusi önəm vermişdir. Ümummilli lider demişdir: "Yol iqüsadi inkişafın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqlisadiyyat inkişaf edə bilməz".

Nəqliyyat xidmətlərinə artan tələbatın təmin edilməsi məqsədi ilə daha səmərəli nəqliyyat sisteminin yaradılmasına yönəldilmiş və cənab Prezident, Sizin sərəncamlarınızla təsdiq olunmuş proqramların yerinə yetirilməsi nazirliyin əsas fəaliyyət istiqaməti olmuşdur.

Qeyd etmək istərdim ki, ötən 4 il ərzində bu sahədə bir sıra problemlərin həllinə nail olunmuş, zəruri maddi-texniki baza formalaşdırılmış və bununla da hazırda görülən işlər üçün əsaslı zəmin yaradılmışdır.

Hazırki təqdimatın ölkənin avtomobil yolları ilə bağlı olduğunu nəzərə alaraq, icazənizlə bu sahədə görülən işlər barədə məlumatları ali diqqətinizə təqdim edərdim.

Əvvəlcə fürsətdən istifadə edərək 22 fevral - Avtomobil Yol işçilərinin peşə

bayramı gününü təsis eldiyinizə görə, cənab Prezident, Sizə dərin minnətdarlığımızı ifadə edirəm, Sizə uzun ömür, cansağlığı və yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Respublikanın ümumi istifadədə olan avtomobil yollarının 22134 kilometrinə Nəqliyyat Nazirliyi tərəfindən xidmət göstərılır. Bu yolların 1684 kilometri beynəlxalq magistrallar, 2669 kilometri respublika əhəmiyyətli, 13 min kilometri yerli əhəmiyyətli, 1,5 mm kilometri Bakı şəhərinm ərazisində, 3,3 min kilometri rayon və digər şəhərlərin ərazilərində olan yollar, prospektlər və küçələrdir. Körpülərin ümumi sayı 1201-dir.

Ölkə iqtisadiyyatının sürətlı inkişafı, əhalinin sosial rifahının yaxşılaşması hər il Azərbaycana gətirilən avtonəqliyyat vasitələrinin sayının sürətli artımına səbəb olur. 2004-2007-ci illərdə ölkəyə 250 minə yaxın, təkcə 2007-ci ildə isə 83 mindən artıq avtomobil gətirilmişdır. Hazırda ölkəmizdə avtonəqliyyat vasitətərinin ümumi sayı 773 min ədədidir. Əgər 1998-ci ildə hər l000 nəfərə düşən minik avtomobillərinin sayı 35 ədəd olmuşdursa, 2007-ci ildə bu rəqəm 71-ə çatmaşdır.

Avtomobil yollarının tikilməsi, yenidən qurulması, təmiri və yolların cari saxlanmasının təmin edilməsi üçün ən əsas amil maliyyə məsələlərinin həllidir.

Uzun illər böyük çətinliklər yaradan bu problemlər, bu gün, cənab Prezident, Sizin birbaşa dəstəyiniz sayəsində öz həllini tapmışdır. 2006-cı il 12 oktyabr tarixli Sərəncamını dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" məqsədli büdcə fondunun yaradılması xüsusi önəm kəsb edir. Bunun nəticəsidir ki, 2 il ərzində avtomobil yollarının istismarı və saxlanması üçün ayrılmış vəsait həcmi 3 dəfə artmışdır. Əgər 2006-cı ildə bu məqsədlə dövlət büdcəsindən 50 milyon manat ayrılmışdısa, artıq 2007-ci ildə bu məbləğ 130 milyon manat olmuş2008-ci ildə isə 162 milyon manatdır. Yolların, körpülərin, keçidlərin tikilməsi yenidən qurulması və bərpası üçün milli investisiya qoyuluşunu məbləği 2004-cü ildə 16,3 milyon manat olmuşdusa, 2007-ci ildə bu rəqəm 464 milyon manat təşkil etmiş, 2008-ci ildə isə 522 milyon manat məbləğində təsdiq olunmuşdur. Beynəlxalq maliyyə institutlarının kreditləri hesabına həyata keçirilən avtomobil yolları layihələri üzrə 2007-ci ildə 99,3 milyon dollar vəsait cəlh edilmşdir və 2008-ci ildə isə bu vəsaitin 250 milyon dollar olacağı gözlənilir. Əgər 2000-ci illərin əvvəllərində nəqliyyat layihələrinin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə qurumları kiçik vəsaitləri belə çox ehtiyatla ayırırdılarsa, hazırda ən nüfuzlu beynəlxalq maliyyə institutları tərəfindən daha sərfəli şərtlərnən təklif olunan investisiyaların məbləği 3 milyard dollardan artıqdır.

Möhtərəm cənab Prezidient, avtomobil yollarının tikilməsi və yenidən qurulması ilə yanaşı, yolların istismarı cari saxlanmasının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla bağlı olaraq yol istismarı idarələrinin texniki imkanlarının artırılması məqsədi ilə Sizin sərəncamlarınız asasında ayrılmış məqsədli vəsaitlər hesabına son 3 il

ərzində avtomobil yollarının tikintisində və təmirində istifadə olunan 1967 ədəd müxtəlif təyinatlı yol texnikası və avadanlıq alınmışdır. 2004-2007-ci illər ərzində respublikada tikilən, yenidon qurulan və təmir olunan yolların uzunluğu 3652 kilometr olmuşdur. Buraya yeni tikilən və bərpa olunan 1006 kilometr və təmir olunmuş 2446 kilometr yol aiddir. Bu dövrdə 35 yeni körpü tikilib istismara verılmışdır.

Beynəlxalq əhəmiyyətli magistral avtomobil yolları:

- Bakı-Ələt-Qazax dovlət sərhədi avtomobil yolu. Uzunluğu 503 kilometr. Birinci dərəcəli, 4 zolaqlı yol. Bu yolun layihələndirilməsinə və tikilməsinə 2000-ci ildə 2 zolaqlı yol kimi başlanılmışdır. Lakin yolun Hacıqabul-Qazax dövlət sərhədi hissəsinin 389 kilometri birinci dərəcəli, 4 zolaqlı olmaqla yenidən layihələndirilməsi və maliyyələşdrilməsi üzərində işlər aparılmışdır.

Bakı-Ələt avtomobil yolu. Uzunluğu 69 kilometr. Birinci dərəcəli, 4 zolaqlı yolun 14-cü kilometrə qədər olan hissəsinin yenidən qurulması daxili investisiya hesabına həyata keçirılır. Qalan 55 kilometrlik hissənin yenidən qurulması üçün "Bayerışe LandesBank" ilə danışıqlar yekunlaşır və bu işlərə başlanaraq 2010-cu ilin birinci yarısında başa çatdırılacaqdır.

Ələt-Hacıqabul yolu, 45,6 kilometr. Birinci dərəcəli, 4 zolaqlı yol 2004-cü ilin fevral ayında istifadəyə verılmışdir.

Hacıqabul-Kürdəmir yolu, 85,6 kilometr. Yolun 75 kilometrlik, 2 zolaqlı hissəsi 2007-ci ildə istismara verılmışdir. Yolun 11,6 kilometrlik Kürdəmir dairəvi hissəsinin tikintisi 2008-ci ilin iyun ayında başa çatdırılacaqdır.

Kürdəmir-Ucar yolu, 46,2 kilometr, 2 zolaqlı. Tikintisinə 2008-ci ilin iyun ayında başlanılacaq və 2009-cu ildə başa çatdırılacaqdır.

Ucar-Yevlax yolu, 53 kilometr, 2 zolaqlı. 2007-ci ilin aprel ayında tikinti işlərinə başlanılıb və 2009-cu ilin martında başa çatdırılacaqdır.

Yevlax-Gəncə yolu, 88,8 kilometr, 2 zolaqlı. Hazırda layihənin maliyyələşdirilməsi ilə bağlı müzakirələr aparılır və yekunlaşdırıldıqdan sonra tikintiyə başlanılacaqdır.

Gəncə-Qazax yolu, 94 kilometr, 2 zolaqlı. Yol 2006-cı ilin noyabr ayında istismara verılmışdir. Uzunluğu 10,6 kilometr olan Tovuz dairəvi yolunda tikinti işləri bu ilin oktyabr ayında başa çatdırılacaqdır.

Qazax dövlət sərhədi yolu, 38 kilometr, 2 zolaqlı. Tikintisi 2009-cu ilin birinci yarısında başa çatdırılacaqdır. Uzunluğu 398 kilometr olan Hacıqabul-Qazax dövlət sərhədi avtomobil yolunun əlavə 2 zolağının tikintisinin layihələndirilməsi, texniki-iqtisadi əsaslandırması və ekoloji qiymətləndirilməsi yekunlaşdırılmışdır.

Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu. Uzunluğu 198 kilometr, birinci dərəcəli, 4 zolaqlı. İstismara verilmə müddəti 2010-cu il. Yolun uzunluğu

134 kilometr olan Bakı-Gəndov hissəsinin tikintisinin 2008-ci ildə yekunlaşdırılması nəzərdə tutulur. Layihənin dəyərinin bahalaşması ilə əlaqədar olaraq yolun qalan 64 kilometrlik hissəsi üçün çatışmayan maliyyə vəsaitinin mənbəyi müzakirə olunur. Ümumi uzunluğu 95 kilometr olan, 2 zolaqlı Xaçmaz-Quba və Gəndov-Quba-Qusar-Xudat avtomobil yollarının yenidən qurulması 2009-2011-ci illərdə başa çatdırılacaqdır.

Ələt-Astara dövlət sərhədi avtomobil yolu. Uzunluğu 195 kilometr. Birinci dərəcəli, 4 zolaqlı. İstismara verilmə müddəti 2010-cu il. Yolun Ələt-Masallı hissəsinin uzunluğu 136 kilometrdir. İlk 22 kilometrlik hissəsinin tikintisinin 2008-ci ildə başa çatdırılması nəzərdə tutulur. Digər hissələrin tikintisinə başlanılması üçün lazımi tədbirlər görülür. Masallı-Astara hissəsi, uzunluğu 59 kilometr. Tikintiyə 2008-ci ilin oktyabr ayından başlanılacaqdır. 80 kilometr uzunluğunda Şorsulu-Biləsuvar-Cəlilabad-Masallı yolu, 2 zolaqlı. 2009-2010-cu illərdə bərpa olunacaqdır.

Eyni zamanda ali diqqətinizə məruzə edirəm ki, avtomobil yollarının inkişaf strategiyası ilə bağlı aparılmış araşdırmaların nəticələrinə əsaslanaraq beynəlxalq əhəmiyyətli magistrallarda təmir və yenidənqurma işlərini davam etdirərək, 2 zolaqlı alternativ yol kimi saxlanılması, paralel olaraq bu istiqamətlərdə betonörtüklü, 4 zolaqlı yeni avtomobil magistrallarının tikilməsi təklif olunur.

Cənab Prezident, icazənizlə mən burada bir balaca açıqlama verərdim. 2 zolaqlı asfalt yolları bərpa olunur və bununla bərabər, buna paralel olaraq 4 zolaqlı yeni beton avtomobil yollarının avtoban tələblərinə uyğun surətdə qurulması təklif olunur. Bu, əslində bizə imkan verəcək ki, hazırda bir neçə lot çıxmaq şərti ilə bütün magistral yolları beynəlxalq kreditlər və daxili invcstisiya hesabına yenidən quraq. Yəni, bu ikizolaqlı yolları biz bərpa etməklə həm hərəkətin tez bir zamanda normal vəziyyətə keçilməsini təmin edirik və eyni zamanda təklif olunan yeni 4 avtoban betonörtüklü yolları çəkməklə Azərbaycanın uzunmüddətli avtomobil yolları strategiyası həll cdilmiş olur.

Ötən dövr ərzində respublika əhəmiyyətli yollarda da böyük həcmli təmir-tikinti işləri aparılmışdır.

Quba-İspik-Xınalıq yolu, 57 kilometr. Lənkəran-Lerik yolu, 50 kilometr. Masallı-Yardımlı yolu, 53 kilometr. Gəncə-Daşkəsən-Xoşbulaq yolu, 47 kilometr. Biləsuvar-İranla dövlət sərhədi yolu, 19 kilometr.

Eyni zamanda ümumi uzunluğu 140 kilometrdən artıq digər rayonlararası, rayondaxili avtomobil yolları da təmir olunmuşdur. Hazırda yerli əhəmiyyətli dıgor yollärdada işlərr davam etdırılır.

Qusar-Əlik-Laza yolu, 39 kiloraetr. İnşası 2009-cu ildə başa çatdırılacaqdır.

Şəmkir-Gədəbəy yolu, 45 kilomelr. Tikintisi 2008-ci ildə başa çaldırılacaqdır.

Tovuz-Əlibəyli yolu, 18 kilometr. İnşası 2008-ci ildə başa çatdırılacaqdır.

Şamaxı-Pirqulu yolu, 25 kilometr. Tikintinin 2008-ci ildə tamamlanması nəzərdə tutulur.

İsmayıllı-Lahıc yolu, 19 kilometr. Yenidənqurma işlərinə 2008-ci ildə başlanılması və 2009-cu ildə başa çatdırılması nəzərdə tutulur.

Bakı-Şamaxı-Muğanlı avtomobil yolu, 124 kilometr, 2 zolaqlı. Tikinti işlərinə 2007-ci ilin iyun ayında başlanılıb və 2009-cu ilin iyulunda başa çatdırılması nəzərdə tutulur.

Muğanlı-İsmayıllı-Qəbələ-Şəki avtomobil yolu, 163 kilometr, 2 zolaqlı. Yolun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin uzunluğu 76 kilometr. Tikintisinə 2007-ci ildə başlanılıb vo 2009-cu ildə başa çatdırılması nəzərdə tululur.

Eyni zamanda respublika əhəmiyyətli digər yolların beynəlxalq standartlara uyğun tikilməsi və bərpa olunması ölkənin avtomobil yolları şəbəkəsinin daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bununla bağlı olaraq aşağıdakı perspektiv layihələr müəyyənləşdirilmişdir:

Muğanlı-Yevlax yolu, 148 kilometr ve Yevlax-Zaqatala-Balakən dövlət sərhədi yolu, 164 kilometr. Bu avtomobil yollarında tikinti işlərinə 2008-ci ildə başlanılacaq və 2011-ci ildə başa çatdırılacaqdır.

Şəki-Qax-Zaqalala avtomobil yolu, 67 kilometr, 2 zolaqlı. 2009-2010-cu illərdə yenidən qurulması nəzərdə tutulur.

Mingəçevir-Ağcabədi-Bəhrəmtəpə-Biləsuvar yolu, 2 zolaqlı, uzunluğu 228 kilometr. Tikinti işlərinə 2009-cu ildə başlanılması və 2011-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Hacıqabul-Bəhramtəpə yolu, 2 zolaqlı, uzunluğu 69 kilometr. Tikinti işlərinə 2011-ci ildə başlanılması və 2013-cü ildə başa çatdırılması nəzərdə tutulur. Şamaxı-Quba avtomobil yolu yeni layihədir. Yəni Şamaxıdan Qubaya getmək üçün artıq Xırdalan dairəsinə gəlib şimala istiqamət götürmək lazım olmayacaqdır. Yeni yol birbaşa Şamaxıdan Qubaya, yəni Qonaqkənd istiqamətindən, Olimpiya Kompleksinin yanından mərkəzi yola birləşəcək və oradan da şimala və hətta Rusiya dövlət sərhədinə qədər hərəkət etməyə imkan verəcəkdir. Bıı yolun uzunluğu 106 kilometr olacaqdır. Onun 2 və 4 zolaqlı olması nəzərdə tutulur. Hazırda layihə işləri yekunlaşdırılır. Layihəni Koreya şirkəti işləyir və bir neçə aydan sonra son variantı bizə təqdim edəcək və sonra ali diqqətinizə məruzə edəcəyik.

Tikintiyə 2009-cu ildə başlanılması və 2011-cu ildə başa çatdırılması nəzərdə tutulur. Bu, Koreya şirkətinin bizə verdiyi müddətdir, maliyyələşmə olduğu halda, iki il ərzində bu yolu çəkib istismara vermək mümkündür.

İkizolaqlı Şamaxı-Padar-Sabirabad (68 kilometr), Ağsu-Kürdəmir-İmişli-Bəhramtəpə (113 kilometr) və Əli Bayramlı-Salyan (43 kılometr) avtomobil yollarında layihələndirmə

işləri aparılır. Bu yolların 2010-2013-cü illərdə yenidən qurulması nəzərdə tutulur.

2004-2007-ci illər ərzində regionlarda dövlət büdcəsi hesabına ümumi uzunluğu 1973 metr təşkil edən 35 körpü tikilərək istifadəyə verılmışdir. Hazırda 5 körpüdə tikinti işləri davam etdirılır. 2009-2012-ci illərdə isə respublikada daha 45 körpünün tikintisi və bərpası planlaşdırılır.

Möhtərəm cənab Prezident, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramının, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər planının, Bakı şəhəri qəsəbələrinin sosial-iqtisadi inkışafının sürətləndirilməsinə dair tədbirlər proqramının icrası olaraq, Bakının və şəhərətrafi avtomobil yollarının yenidən qurulması işləri davam etdirilmiş və eyni zamanda bu bölgənin yol infrastrukturunun inkişaf etdirilməsi məqsədi ilə əlavə təkliflər işlənib hazırlanmışdır:

Heydər Əliyev prospekti-Əzizbəyov dairəsi-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı avtomobil yolu - 20 kilometr, 8-12 zolaqlı, üzərində 4 yol ötürücüsü;

20 Yanvar dairəsi-Ziya Bünyadov prospekti-Əzizbəyov dairəsi avtomobil yolu - 11 kilometr, birbaşa bağlantı;

Azadlıq meydanı-Zığ dairəsi-Hcydər Əliyev adına Beynəlxalq Hava Limanı avtomobil yolu - 31 kilometr, 6 zolaqlı, 19 kilometri betonörtüklü;

Heydər Əliyev adına Beynəlxalq Hava Limanı-Mərdəkan dairəsi-Bilgəh-Nardaran-Pirşağı-Novxanı-Sumqayıt-Zeynalabdin Tağıyev qəsəbəsi avtomobil yolu - 73 kilometr, 6 zolaqlı;

Yeni Suraxanı dairəsi-Ramana-Zabrat-Mehdiabad-Binəqədi-Biləcəri-Lökbatan-8-ci kilometr, şəhərin mərkəzinə daxil olmadan iki istiqamətdə - Bakı-Quba və Bakı-Şamaxı yollarına çıxışı təmin edən avtomobil yolu - 22 kilometr. Bakı dairəvi -1 avtomobil yolunun tikintisinin 2009-cu ildə başa çatacağı gözlənilir, hazırda işlər davam etdirılır.

Zeynalabdin Tağıyev qəsəbəsi-Sahil qəsəbəsi dərin dövrələmə yolu - 40 kilometr. Biz bu daxili yolu bərpa edib yenidən qurmaqla, Bakı istiqamətinə nəqliyyat hərəkətinin qarşısını qismən alacağıq. Hazırda o istiqamətdə çoxlu daş karxanaları var və onlardan çıxarılan daşlar, demək olar ki, cənub və qərb bölgələrinə yalnız Bakı şəhərindən gəlib keçməklə daşınır ki, bu da problemlər yaradır. Ona görə bu yolun bərpası, yenidən qurulması vəziyyətə xeyli müsbət təsir göstərəcək;

Ramstor dairəsi-Babək prospekti-Zığ-Qala yoluna çıxış - 21 kilometr;

Bakı şəhərinin digər qəsəbə və kəndlərini birləşdirən yolların yenidən qurulması -120 kilometr;

Cənab Prezident, Sizin Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında 2007-ci il 22 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar.,4784 kilometr yol - prospekt və küçə nazirliyin balansına verılmışdir.

Ötən müddət ərzində Bakı şəhərində 267 kilometr yolun asfalt örtüyü bərpa olunmuş, 45,3 milyon manatlıq iş həcmi yerinə yetirilmişdir. O cümlədən Dərnəgül qəsəbəsindən Binəqədi şosesinə birbaşa yeni avtomobil yolu tikilmişdir. 2006-2007-ci illərdə Xırdalan dairəsi-Binəqədi-Balaxam və bu ətrafdakı əraziləri əhatə edən 43,9 kilometrlik avtomobil yolu təmir olunmuşdur.

Möhtərəm cənab Prezident, 2006-cı il 1 fevral tarixli Sərəncamınızla təsdiq edilmiş Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün tədbirlər planında 9 körpünün və 13 piyada keçidinin tikilməsi planlaşdırılmışdır. Bu müddət ərzində bütövlükdə 6 yol ötürücüsü və 6 piyada keçidi tikilərək istifadəyə verılmışdir. O cümlədən Tbilisi prospekti ilə Əbdülvahab Salamzadə küçəsinin kəsişməsində yol ötürücüsü; Ziya Bünyadov prospekti ilə Atatürk prospektinin kəsişməsində yol ötürücüsü; 20 Yanvar dairəsində yol ötürücüsü; Tbilisi prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tunel tipli yol ötürücüsü; Ziya Bünyadov prospekti ilə Azadlıq prospektinin kəsişməsində yol ötürücüsündə uzunluğu 290 raetr olan körpü istifadəyə verılmışdir və tunelin tikinti işləri davam etdirılır; Cavadxan küçəsi ilə Alı Mustafayev küçəsinin kəsişməsində 3-cü mikrorayon dairəsi yol ötürücüsü. Tikintisi davam etdirilən yol ötürücüləri: Heydər Əliyev prospekti ilə Ziya Bünyadov prospektinin kəsişməsində - Əzizbəyov dairəsində, Babək prospektinin Mikayıl Əliyev və Məhəmməd Hadi küçələri ilə kəsişməsində, "Xalqlar dostluğu" metrostansiyası yaxınlığında, "Excelsior" mehmanxanası dairəsində. Bu 3 yol ötürücüsü və Azadlıq prospektində tikilən tunel bu ilin sonunda istismara veriləcəkdir.

İstifadəyə verılmış piyada keçidləri: Bülbül prospekti və Füzuli küçəsinin kəsişməsi; Səməd Vurğun və Nizami küçələrinin kəsişməsi; Səməd Vurğun küçəsi, "Təzə bazar"ın qarşısı; Bülbül prospekti və Nizami küçəsinin kəsişməsi; Rəşid Behbudov və Füzuli küçələrinin kəsişməsi; Heydər Əliyev prospektində yerüstü keçid. Qeyd olunan bütün yol ölürücüləri və piyada keçidlərinin inşası beynəlxalq norma və standartlara uyğun olaraq aparılmışdır.

Görülən işlərə kompleks yanaşmanın zəruriliyini və ardıcıllığın saxlanılmasını nəzərə alaraq, əsas və yardımçı yollarda rahat və maneəsiz bağlantıların təmin edilməsi məqsədi ilə Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2011-ci illər üçün əlavə tədbirlər planının layihəsi hazırlanmışdır və icazənizlə, onu ali diqqətinizə təqdim edim.

Azadlıq prospekti ilə Cəfər Xəndan küçəsinin kəsişməsində yol qovşağı - eni 24 metr, uzunluğu 620 metr olan tunelin yanaşmalarla birgə uzunluğu 1110 metrdir. Eni 10,5 metr, hündürlüyü 5 metr olan körpünün yanaşmalarla uzunluğu 850 metrdir.

Heydər Əliyev prospekti ilə Ağa Nemətulla küçəsinin kəsişməsində yol qovşağı -hündürlüyü 5 metr, uzunluğu 200 metr olan tunelin keçid girişləri ilə birlikdə ümumi uzunluğu 880 metrdir. Bunu tikməklə biz Heydər Əliyev prospektində aeroport istiqamətinə birbaşa, maneəsiz, yəni heç bır işıqfor olmadan hərəkəti təmin edəcəyik.

Heydər Əliyev prospektində dəmir yolu xəttinin altından keçən yol ötürücüsünün yenidən qurulması - mövcud tağşəkilli körpünün sağ vo sol tərəflərində hər birinin eni 13 metr olmaqla, yan yollar üçün tağlı körpü tikilməsi təklif edilir. Yeni keçidlərin uzunluğu 900 metrdir.

Bakıxanov küçəsi boyunca Rəşid Behbudov küçəsindən Tbilisi prospektinədək məsafəni birləşdirən birtərəfli ikizolaqlı yol ötürücüsü - eni 11,7 metr olan körpünün hündürlüyü 6 metrdir. Yolun körpü ilə birlikdə eni 21 metr nəzərdə tutulur. Bu körpü Bakıxanov küçəsi boyunca dayaqları yolun ayırıcı zolağında yerləşməklə, 6 yol kəsişməsi problemini eyni zamanda həll edir. Körpünün yanaşmalarla birgə uzunluğu 1 kilometr 900 metrdir.

Tbilisi prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində tunel tipli yol qovşağı - yanaşmalarla birlikdə uzunluğu 1100 metrdir. Tunelin uzunluğu 300 metr, eni 23,5 metr, hündürlüyü 5 metrdır, hərəkət zolaqlarının sayı 4 olacaqdır.

Alı Mustafayev, Əbdülvahab Salamzadə küçələri ilə Ziya Bünyadov prospektinin kəsişməsində yol qovşağı - yanaşmalarla birlikdə körpü keçidinin uzunluğu 1050 metrdir. Körpünün uzunluğu isə 330 metr, eni 11,7 metr, hündürlüyü 5 metrdir. Tunellərlə bir istiqamətli, ikizolaqlı hərəkət nəzərdə tutulur. Hər birinin eni 13,5 metr olan tunellərin yanaşmalarla birlikdə ümumi uzunluğu 2900 metr, hündürlüyü 5 metrdir.

Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsində yol qovşağı -hərəkət zolaqlarının sayı 4 olan körpü keçidinin yanaşmalarla birlikdə uzunluğu 950 metrdir. Körpünün uzunluğu isə 310 metr, eni 23,4 metr, hündürlüyü 5 metrdir.

Xocasən qəsəbəsində dəmir yolu ilə avtomobil yolunun kəsişməsində layihələndirilməsi nəzərdə tutulan körpü. Cənab Prezident, bu da çox vacib layihələrdən biridir. Çünki hazırda biz Xocasən yolunda yenidənqurma işləri aparırıq. Mövcud ikizolaqlı yolu dördzolaqlıya çeviririk. Oradan çox sayda qatarlar keçir və avtomobil nəqliyyatı ilə toqquşmalar baş verir, qəzalar törədilir. Nəticədə həm insan tələfatı olur, həm dəmir yolunda, həm də avtomobil nəqliyyatında böyük ləngimələr əmələ gətirir. Ona görə bu körpünün tikintisi gələcəkdə nəzərdə tutulan işlərin səmərəliliyinin artırılması baxımından önəmli sayıla bilər. Körpünün yanaşmalarla birlikdə uzunluğu 70, eni 47 metrdir. Hərəkət zolaqlarının sayı 8-dir.

Bunun 4-ü sürətli, 4-ü isə yerli hərəkət üçün nəzərdə tutulur.

Ziya Bünyadov prospekti ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsindəki yol

qovşağında körpünün hündürlüyü 5 metr, cm 23,4 metr, uzunluğu 350 metrdir və dördzolaqlı hərəkət üçün nəzərdə tutulur. Körpü keçidinin yanaşmalarla bırlikdə uzunluğu 780 metrdir.

Azadlıq meydanı-Zığ dairəsi yolunda. Əhmədli və Günəşli yaşayış massivlərinə gedən yolayrıcında yol qovşağı - ümumi uzunluğu 690 metr, o cümlədən körpünün uzunluğu 300 metr, eni 23,4 metr, hündürlüyü 5 metr, hərəkət zolağının sayı 4-dür.

Azadlıq meydanı-Zığ dairəsi yolunda Naxçıvanski adına hərbi lisey yaxınlığında tunel tipli yol qovşağı - tunelin istinad divarı ilə birlikdə uzunluğu 630 metr, eni 26 metr, hündürlüyü 5 metr, hərəkət zolağının sayı 4-dür. Qovşağın tikilməsi Əhmədli və Günəşli istiqamətində, habelə yolboyu nəqliyyatın maneəsiz hərəkətini təmin edəcəkdir.

Koroğlu Rəhimov, Fətəli xan Xoyski küçələrinin kəsişməsində tunelin və "Yeganə" şadlıq sarayının yaxınlığında yol ötürücüsünün tikilməsi bu ərazidə hərəkəti asanlaşdıracaq, piyadaların və nəqliyyatın təhlükəsiz hərəkətini təmin edəcəkdir.

Bakı-Aslara yolunun 4-7-ci kilometrliyində, Bibiheybət məscidi ilə Bayıl bazarı arasında yolun köçürülməklə yenidən qurulması. Bu yolda birtərəfli hərəkət tətbiq olunubdur. Yolun uzunluğu 3,5 kilometr, hərəkət zolağı dördcərgəlidir.

Azadlıq meydanını Zığ dairəsi ilə birləşdirən 12 kilometrlik mövcud Zığ şosesinin səkkiz cərgəli hərəkət üçün sürət zolaqları tətbiq etməklə yenidən qurulması. Yol boyu piyadaların təhlükəsizliyinin təmin edilməsi üçün layihəyə altı ədəd yerüstü piyada keçidinin tikilməsi daxil edilmişdir.

Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Mərdəkən dairəsi-Bilgəh mövcud avtomobil yolunun 3+3 prinsipi ilə altıcərgəli hərəkət üçün yenidən qurulması hər iki istiqamətdə nəqliyyatın hərəkətini asanlaşdıracaqdır.

Fətəli xan Xoyski prospektini Dərnəgül şosesinə birbaşa bırləşdirən 7 kilometrlik altıcərgəli sürət zolaqlı yolun tikilməsi ilə Gənclik meydanından Əzizbəyov dairəsinədək yeni hərəkət istiqaməti yaranır.

Babək prospektindən Qaraçuxur qəsəbəsinə girişlərlə uzunluğu 1800 metr, öz uzunluğu 780 metr olan yeni konstruksiyalı körpünün tikilib istifadəyə verilməsi ilə Ramstor dairəsindən başlamaqla, altıcərgəli avtomobil yolu vasitəsilə şəhərin mərkəzini hava limanına birləşdirən alternativ yol alınır. Beləliklə, biri digərindən asılı olmayaraq, şəhərin mərkəzini Heydər Əliyev adına Beynəlxalq Hava Limanı və ətraf qəsəbələrlə birbaşa birləşdirən üç sərbəst avlomobil yolunun Formalaşdırılması başa çalır.

Biləcəri enişindəki "LUKoyl" yanacaqdoldurma məntəqəsinin arxa tərəfində, 9-cu mikrorayon yolayrıcını Biləcəri enişinə birbaşa birləşdirən 1 kilometrlik dördcərgəli avtomobil yolunun tikilməsi ilə Binəqədi, Novxanı, Mehdiabad və digər yaşayış məntəqələri istiqamətində

Tbilisi prospektinə alternativ yeni avtomobil yolu yaradılır. Bu, eyni zamanda, Tbilisi prospektində nəqliyyatın sıxlığını əhəmiyyətli dərəcədə azaldacaqdır.

Xırdalan dairəsi yaxınlığında, şimal istiqamətində dəmir yolu xəttinin altından keçən mövcud köhnə tunelin əvəzində yeni altıcərgəli tunelin tikilməsi Biləcəri, Binəqədi qəsəbələrinin və Bakının şimalında yerləşən digər yaşayış məntəqələrinin nəqliyyat təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır.

Vaqif prospektini Ramstor dairəsi ilə birləşdirən 2,6 kilometrlik dördcərgəli yolun tikilməsi Qələbə meydanından Heydər Əliyev və Babək prospektlərinə birbaşa çıxışı təmin edəcək, digər paralel küçə və prospektlərdə nəqliyyatın sıxlığını aradan qaldıracaqdır.

Məmmədli, Zabrat, Sabunçu qəsəbələrinin yanından keçməklə Nardaran qəsəbəsini yeni tikilən Sabunçu yol qovşağı ilə birbaşa birləşdirən 18 kilometrlik, dördcərgəli, sürət zolaqlı avtomobil yolunun tikilməsi yarımadanın şimal hissəsində yerləşən yaşayış məntəqələrini Sabunçu dairəsində dairəvi avtomobil yolları ilə birbaşa birləşdirmək imkanı yaradır.

2008-ci ildə müasir tipli 10 piyada keçidinin tikilməsi də təklif olunur. Tədbirlər planı çərçivəsində şəhərin mərkəzi hissəsindo, o cümlədən Füzuli meydanında, dəmir yolu vağzalı meydanında, Səməd Vurğun bağının qarşısındakı meydanda, 9 Yanvar bağının ərazisində, Tofiq Bəhramov adına Stadionun qarşısında, 8-ci Kilometr və 3-cü mikrorayon bazarlarının ərazisində və digər yerlərdə çoxmərtəbəli avtomobil dayanacaqlarının tikilməsi təklif edilir. Ümumilikdə, 2008-2011-ci illərdə Bakı şəhərində 30 piyada keçidinin, 14 yol qovşağının, 7 çoxmərtəbəli avtomobil dayanacağının və 96 kilometr uzunluğunda avtomobil yolunun tikilməsi təklif olunur.

Möhtərəm cənab Prezident, Bakı şəhərində nəqliyyat tıxaclarının aradan qaldırılmasında yol ötürücülərinin, yeni yolların inşası ilə yanaşı, hərəkət prosesinin təkmilləşdirilməsində böyük əhəmiyyəti olan digər tədbirlərin də həyata keçirilməsi olduqca vacibdir. Bakı şəhərində nəqliyyatın hərəkətinin intellektual idarə edilməsi sisteminin yaradılması haqqında 2007-ci il 26 oktyabr tarixli sərəncamınızın icrası olaraq, müvafiq işlər görülmüşdür. Koreyalı mütəxəssislərlə birlikdə tədqiqat işləri aparılmış, paytaxtda bu sistemin əhatə dairəsi müəyyənləşdirilmiş və tələb olunan avadanlıqların sayı dəqiqləşdirilmişdir. Hazırda layihələndirmə işləri yekunlaşdırılır və layihə 2008-2010-cu illərdə həyata keçiriləcəkdir. Yol-tikinti təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi istehsal prosesinin avadanlıqlaşdırılmasına və tikintidə yüksək texnologiyaların tətbiqinə geniş imkanlar yaradır. Hazırda Zığ dairəsi-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı istiqamətində bir çox ölkələrdə istifadə edilən betonörtüklü yol salınması texnologiyası tətbiq edilir.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi bir daha əmin edək ki, qarşıya

qoyulan vəzifələrin yerinə yetirilməsi üçün bütün inkanlarımızı səfərbər edəcəyik. Diqqətinizə görə minnətdaram.

Dövlətimizin başçısı müşavirəyə yekun vurdu.

## Azərbaycan Prezidenti<br>İlham Əliyevin yekun nitqi

- Geniş təqdimatda gələcəkdə görüləcək işlər göstərildi. Eyni zamanda, bayaq qeyd etdiyimiz kimi, bu vaxla qədər bu sahədə görülən işlər də göstərılmışdir. Həm bu vaxta qədər görülən və həm də bundan sonra görüləcək işlər deməyə əsas verir ki, Azərbaycanın avtomobil noqliyyalı infrastrukturunun tamamilə yeniləşməsi mümkün olacaqdır. Bu, çox böyük proqramdır və həm magistral yolların, şəhərlərarası, kənd yollarının, şəhər yollarının tikintisi, həm də yol qovşaqlarının, piyada keçidlərinin tikintisi, nəqliyyatın idarəetmə sisteminin təkmilləşdirilməsi üçün çox vacib bir vasitə olacaqdır. İndi sadəcə olaraq, təqdimatda göstərilən bütün layihələri bir daha nəzərdən keçirmək lazımdır. Biz onların prioritetlərini müəyyən etməliyik ki, bu il hansılar və gələn il hansılar başlanmalıdır. Ancaq hesab edirəm ki, bu, böyük, gözəl proqramdır və bunun icrası nəticəsində demək olar ki, nəqliyyatla bağlı əsas məsələlər öz həllini tapacaqdır.

Biz Bakı şəhərində ilk yol qovşaqlarının tikintisinə başlayanda, əlbəttə, təxmin edə bilirdik ki, bu, sadəcə olaraq, birinci mərhələdir, bir başlanğıcdır. Bu gün təqdimatda göstərilən layihələr, deyə bilərəm ki, Bakının bütün nəqliyyat sisteminin təkmilləşməsini təmin edəcəkdir. Yəni, nəzərdon qaçan, yaxud da burada göstərilməyən layihələr yaxın gələcək üçün yoxdur. Biz sadəcə olaraq, qısa müddət ərzində bütün bu 1ayihələri həyata keçirməliyik. Əlbəttə, bunu elmək üçün texniki imkanlar lazımdır və onlar da var. İndi burada göstərildi ki, nə qədər avadanlıq alınıbdır. Çox sevindirici hal ondan ibarətdir ki, Bakıda və magistral yollarda tikintidə işləyənlər yerli mütəxəssislərdir. Yəni, bu işləri Azərbaycan şirkətləri görür. Bir neçə il bundan əvvəl biz bu barədə, sadəcə olaraq, fikirləşə bilərdik, bunu arzulaya bilərdik. Ancaq indi bu, reallıqdır.

Dövlət tərəfindən həyata keçirilən layihələr, dövlət investisiya xətti ilə və xaricdən gətirilən krcditlər hesabına görülən işlər imkan verir ki, özəl sektor da inkişaf etsin. Azərbaycan şirkətləri, özəl sektor nümayəndələri bütün bu işlərdə fəal iştirak edirlər. Hesab edirəm ki, əgər onların işlərinin keyfiyyəti yüksək səviyyədədirsə, gələcəkdə də əlbəttə, ilk növbədə, üstünlüyü yerli şirkətlərə verməliyik.

Texniki imkanlardan başqa, maliyyə imkanları da olmalıdır. 2008-ci ilin dövlət büdcəsi artıq təsdiq olunubdur. Ancaq istisna deyil kı, büdcəyə düzəlişlər edılsın. Hesab edirəm ki, bu, edilməlidir və dürüstləşdirmə zamanı həra nəqliyyatda, həm də başqa sahələrdə bizim üçün, ölkəmizin inkişafı üçün lazım olan tədbirlər nəzərdə tutulmalıdır. Ona görə hesab edirəm ki, növbəti bir-iki ay ərzində bütün bu təkliflər bir daha təhlil edilməli, proqram şəklinə salınmalı və 2008-ci il üçün prioritet məsələlər 2008-ci ilin büdcəsinə əlavə olunmalıdır. Ondan sonrakı illərdə isə bunlar təbii ki, növbəti illərin büdcələrində nəzərdə tutulacaqdır.

Maliyyə imkanlarımız var. Yolların bir hissəsi kreditlər hesabına tikilir. Əgər güzəştli və əlverişli şərtlərlə yeni kreditlər əldə etmək mümkün olacaqsa, buna da getməliyik. Amma o da həqiqətdir ki, indi Azərbaycanın iqtisadi, maliyyə vəziyyəti belədir ki, biz kreditlərsiz də bütün işləri görə bilərik. Bildiyiniz kimi, bəzi hallarda bizə lazım olan regional layihələrin həlli üçün Azərbaycan dövlətinin özü kreditlər verməyə hazırdır və bunu edirik. Bir sözlə, həm xarici maliyyə resurslarından istifadə etməliyik, həm də, ilk növbədə, öz imkanlarımızdan istifadə etməliyik.

Bir daha demək istəyirəm ki, bu təqdimatda avtomobil nəqliyyatının bütün sahələri öz əksini tapıbdır. Əlbəttə, növbəti illərdə biz daha böyük diqqəti kənd yollarına yönəltməliyik. Çünki, təbii, təqdimatda, ilk növbədə, ən prioritet məsələlər öz əksini tapıbdır. Ancaq kənd yolları da bizim üçün prioritetdir. Düzdür, bu yollar ycrli icra orqanları tərəfindən tikilməlidir, təmir olunmalıdır. Yəqin buna görə təqdimatda bu barədə deyilməyibdir. Ancaq ümumi konsepsiyanı, ümumi yanaşmanı yəqin ki, Azərbaycan dövləti tərəfindən bu işlərə cavabdehlik daşıyan qurum kimi Nəqliyyat Nazirliyi öz üzərinə götürməlidir. Çünki indi Nəqliyyat Nazirliyinin infrastrukluru, texnikası, avadanlığı, texnologiyası var. Gələcəkdə yəqin ki, biz buna bir daha baxmalıyıq və kənd yollarını da yüksək səviyyəyə çatdırmalıyıq.

Hesab edirəm ki, biz bu təqdimata və təklif olunan layihələrə Naxçıvan Muxtar Respublikasının yol problemlərini də elavə etməliyik. Demək olar ki, bu təqdimatda Azərbaycanın bütün bölgələri əhatə olunur. Ancaq biz Naxçıvan Muxtar Rcspublikasının yol təsərrüfatına da əlavə vəsaiti ayırmalıyıq. Xahiş edirəm ki, bu məsələlərlə bağlı Naxçıvanın rəhbərliyi ilə də əlaqə saxlayın, onlarla danışın və biz dövlət büdcəsindən Naxçıvanın yollarının tikintisinə, təmirinə məqsədyönlü şəkildə vəsait qoymalıyıq. Beləliklə, bu layihələrin həyata keçirilməsi ilə biz nəqliyyat sahəsində böyük bir işi həll edirik.

Bildiyiniz kimi, Bakıda piyada keçidlərinin tikintisi də çox yaxşı gedir, yüksək keyfiyyətlə aparılır. Çox yaxşı ki, demək olar, bütün keçidlərdə eskalatorlar qoyulubdur. Biz insanlara rahatlıq yaradırıq. Çünki yaşlı insanlar pilləkənlə qalxıb-düşməkdə

əziyyət çəkə bilərlər. Bəzi hallarda cavanlar özlərinə əziyyət vermək istəmir, yeraltı ke-çıd olduğu halda, yol qaydalarını pozaraq, ondan istifadə etrairlər. Ancaq eskalator olan halda və yeraltı keçid, yerüstü keçid müasir səviyyədə olduğu halda, ərainəm kı, msanlar onlardan daha da səmərəli istifadə edəcəklər.

Biz eynı zamanda, ölkəmizə və şəhərimizə yeni avtobusların gətirilməsi ilə də məşğuluq. Bu sahədə Nəqliyyat Nazirliyı işlər görür və özəl şirkətlər də fəaldırlar. Biz dövlət tərəfindən bu məsələyə baxa bilərik. Yəni, dövlət tərəfindən investisiya şəklində vəsait ayırıb bu avtobusları alaraq, özəl firmalara icarəyə verə bilərik ki, bu sahədə də vəziyyət yaxşılaşsın. Bilirəm ki, insanları narahat edən şəhər nəqliyyatıdır və bu sahədə, əlbəttə, tənzimləmə siyasəti aparılmalıdır. Bir müddət bundan əvvəl xaricdən 200 avtobus gətirilibdir. Bu, artıq bu sahəyə böyük bir töhfədir. Eyni zamanda, intellektual idarəetmə sisteminin işə düşməsi ilə bu sahədə çox böyük dəyişikliklər olacaqdır. Bu işlər kompleks şəkildə aparılacaqdır. Beləliklə, Azərbaycan iqtisadiyyatı, - nəqliyyat iqtisadiyyatın əsas elementlərindən biridir, - daha da inkişaf edəcəkdir.

Bizim mövqeyimiz möhkəmdir. Bildiyiniz kimi, dünyanın aparıcı iqtisadi qurumları vaxtaşırı ölkələrin reytinqlərini tuturlar. Bəzi hallarda onlar ciddi xarakter daşımır, bəzi hallarda isə mötəbər qurumlar və onların tərtib etdiyi reytinqlər, əlbəttə, həqiqəti əks etdirir. Xüsusilə, Davos Dünya İqtisadi Forumunun reytinqlərində iqtisadiyyatın rəqabət qabiliyyətliliyi sahəsində Azərbaycan dünya miqyasında 66-cı yeri tutur. Çox tanınmış maliyyə qurumu olan "Qoldman Saks"ın tərtib etdiyi reytinqdə isə Azərbaycan 61-ci yerdədir və bütün başqa MDB ölkələrini qabaqlayır. Bu, reallıqdır, həqiqəti əks etdirən reallıqdır. Azərbaycan çox sürətlə inkişaf edir. Həm iqtisadi inkişaf, həm sosial məsələlərin həlli, həm insanların həyat səviyyəsinin yaxşılaşması, vaxtaşırı, ildə iki dəfə minimura əməkhaqqının, minimum pensiyaların artırılması, sosial müavinətlərin artırılması, həm də iqtisadi və sosial islahatların aparılması sahəsində biz çox böyük nailiyyətlərə çatmışıq. Ancaq biz bununla kifayətlənməməliyik. Elə etməliyik ki, növbəti illərdə uğurlu inkişafımız güclənsin və ölkə qarşısında duran bütün vəzifələr öz həllini tapsın.

Mən hesab edirəm ki, bu müzakirələr nəticəsində bu təqdimatda göstərilən bütün məsələlər bir daha təhlil ediləcək və bunun əsasında mənim tərəfindən yeni sərəncam imzalanacaq, 2008-ci il üçün proqram tərtib olunacaqdır. Növbəti illərdə proqramın icrası bu sahədə vəziyyəti böyük dərəcədə yaxşılaşdıracaqdır. Eyni zamanda, Azərbaycan nəqliyyat infrastrukturu baxımından ən qabaqcıl ölkəyə çevriləcəkdir.

## Nəqliyyat sahəsi dinamik inkişaf edir

## Qazanılan uğurlar bunu deməyə əsas verir

Bu günlərdə Azərbaycanda geniş vüsət almış iqtisadi inkişaf nəqliyyat sektorunun yenidən qurulmasına, ölkə əhalisinin bütün növ nəqliyyat xidmətlərinə olan tələbatın ödənilməsinə və respublikanın tranzit potensialının artırılmasına səbəb olmuşdur.

Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan strateji siyasi kurs ölkə Prezidenti cənab İlham Əliyevin titanik fəaliyyəti sayəsində uğurla davam etdirilərək yol-nəqliyyat kompleksinin dinamik inkişafı üçün geniş imkanlar yaradıb. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən iqtisadı islahatlar və çevik xarici siyasət sayəsində ölkəmizin beynəlxalq aləmdə nüfuz və mövqeyi getdikcə artmış, iqtisadi artım tempinə görə dünyada lider dövlətə çevrılmışdir. Son zamanlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən də nəqliyyatın infrastrukturunun sürətlə inkişaf etdirilməsi və beynəlxalq standartlar səviyyəsinə çatdırılması üçün hər cür şərait mövcuddur. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə işlənib hazırlanmış dövlət proqramlarının icrası bütün sahələrdə olduğu kimi, yol-nəqliyyat kompleksində, xüsusilə avtomobil və dəmir yolu sahəsində özünü aydın şəkildə göstərir. Prezident İlham Əliyev yol, nəqliyyat infrastrukturunun yeniləşməsini ölkəmizin inkişafının mühüm əlaməti kimi qiymətləndirərək demişdir: "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirecəyik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır. Gələcəkdə tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir".

Qeyd etdiyimiz kimi, son zamanlar özünün sabit inkişafı ilə fərqlənən nəqliyyat sektoru ciddi inkişaf dövrünü yaşamaqdadır. Nəqliyyat naziri hörmətli Ziya Məmmədovun bu sahədə gördüyü işlər, həyata keçirdiyi tədbirlər müsbət uğurlu nəticələr verir. Bu səbəbdəndir ki, ötən il yol-nəqliyyat infrastrukturunun inkişafı geniş vüsət almışdır. Təsadüfi deyil ki, ötən ildə Bakı şəhərində il ərzində yolların və yol qurğularının inkişafının əhatə dairəsi xeyli dərəcədə genişlənmişdir. 2007-ci il ərzində nəqliyyatın bütün sahələrində - mülki, hava, su, dəmir yolları və avtomobil noqliyyatında, avtomobil yollarının tikintisində və yenidən qurulması istiqamətində görülən işlər ürək açandır. Bu ildə bütün növ nəqliyyat vasitələri ilə 161,9 milyon ton, keçən illə müqayisədə 11,2 faiz çox yük daşınmışdır.

Sərnişin daşınması 6,7 faiz artaraq 1134,0 milyon nəfər təşkil etmişdir. Yüklərin 27,6 milyon tonu dəmir yolu, 10,1 milyon tonu su, 78,6 milyon tonu avtomobil

nəqliyyatı, 45,6 milyon tonu isə boru kəmərləri vasitəsilə danışmışdır. Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi üzrə 46,4 milyon ton yük, o cümlədən 10,7 milyon ton tranzit yük daşınmışdır. Sərnişinlərin 955,6 milyon nəfəri avtomobil, 6,7 milyon nəfəri dəmir yolu, 1,6 milyon nəfəri hava nəqliyyatı vasitəsilə daşınmışdır. Bu dövr ərzində 7 ədəd lokomotiv alınmış, 7,3 kilometr dəmir yolu xətti, 12 ədəd lokomotiv, 800 ədəd yük vaqonu, 61 ədəd sərnişin vaqonu əsaslı təmir olunmuş, 4800 ədəd yük vaqonu vo 347 ədəd sərnişin vaqonu depo təmirindən keçmişdir. Hava nəqliyyatı ilə sərnişin daşınması 16,7 faiz, dövriyyəsi isə 20,0 faiz artmışdır.

Prezident sərəncamıyla təsdiq edilmiş "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq, Bakı şəhərində sərnişin daşımaların təşkili, idarə olunması və tənzimlənməsi, sərnişin nəqliyyat vasitələrinin təhlükəsiz, texniki normalara uyğun istismarı üçün mühüm tədbirlər görülmüşdür. Azərbaycan Respublikasının nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasının sürətləndirilməsi ölkədə daha keyfiyyətli nəqliyyat sisteminin yaradılmasının, irimiqyaslı regional layihələrin həyata keçirilməsini zəruri edir. Odur ki, bu istiqamətdə aparılan danışıqların real nəticəsi olaraq regionda çox böyük və tarixi əhəmiyyətli Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Gürcüstan hissəsinin 2007-ci ilin noyabrından tikintisinə başlanılmış, Türkiyə ərazisində tikinti işlərini həyata keçirəcək podratçı şirkət müəyyənləşdirilmişdir.

Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli sərəncamının icrası olaraq, "Azərbaycan Dövlət Dəmir Yolunun 2008-2011-ci illərdə inkişafına dair Dövlət Proqramının layihəsi işlənib hazırlanmışdır. Bu proqramın həyata keçirilməsi ölkənin dəmir yollarında artan yük həcminin daşınması və "Şərq-Qərb" nəqliyyat dəhlizinin Azərbaycanın ərazisindən keçən hissəsində dəmir yolu infrastrukturunun yenidən qurulması ilə bərabər, dəhlizin rəqabət qabiliyyətinin gücləndirilməsinə, yüklərin çatdırılma müddətinin azaldılmasına və hərəkətin təhlükəsizliyinin təmin olunmasına tam xidmət edəcəkdir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizinin qovuşmasında, respublikamızın əsas dəmir yolu və avtomobil yollarına birbaşa çıxışı olan ərazidə yeni Dəniz Ticarət Limanının inşası istiqamətində işlər görülməyə başlanılmışdır. Bu limanın tikilməsi ilə ölkəmiz və region üçün böyük əhəmiyyətə malik olan, nəhəng nəqliyyat qovşağının yaradılmasına və azad iqtisadi zonanın formalaşmasına şərait yaradacaqdır.

Sevindirici haldır ki, son zamanlar ölkənin avtomobil və dəmir yollarının yenidən qurulması və genişləndirilraəsi, cənab Prezident İlham Əliyevin şəxsi diqqət və qayğısı, nəzarəti ilə həyata keçırılır. "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi

üzrə Tədbirlər Planı"nda yol infrastrukturu üzrə nəzərdə tutulmuş işlərin icrası ilə bağlı olaraq hesabat dövründə yol qovşaqlarının və piyada keçidlərinin inşası davam etdirılmışdir. Ötən 2007-ci il ərzində 4 ədəd yolötürücüsü və 4 ədəd piyada keçidi yüksək zövqlə tikilərək şəhər əhalisinin istifadəsinə verılmışdir. Bunun nəticəsində bu ərazilərdə nəqliyyatın hərəkəti asanlaşmış, hərəkətin və piyadaların təhlükəsizliyi təmin edilmişdır. Hazırda "Əzizbəyov" metrostansiyası dairəsindəki yolötürücüsündə son tamamlanma işləri görülür. "Əzizbəyov" metrostansiyası dairəsindən Heydər Əliyev Hava Limanına qədər (14 km) avtomobil yolunda layihə üzrə tikinti işləri uğurla davam etdirılır. Bundan başqa, respublikanın 3 magistral yolunu birləşdirən, uzunluğu 21,5 kilometr olan Bakı dairəvi avtomobil yolunun inşaat işləri də yerinə yetirilməkdədir. Bu dövrdə uzunluğu 43,9 kilometr olan Xırdalan dairəvi - Binəqədi-Balaxanı avtomobil yolu təmir olunmuş, 6 zolaqlı Zığ-Binə və Bilgəh-Pirşağı avtomobil yollarının tikintisinə başlanılmışdır. Onu da qeyd edim ki, yeni salman avtomobil yolları, tikilən körpülər və yeraltı piyada keçidləri şəhərimizin nəqliyyat sistemini təkmilləşdirir və paytaxtımızda tıxac probleminin aradan qaldırılmasım təmin edır. Bakıda nəqliyyat tıxaclarının aradan qaldırılması üçün yeni layihələr hazırlanmışdır. 2008-ci ildə eskalatorlarla təmin olunmuş müasir tipli 10 piyada keçidinin tikilməsi nəzərdə tutulmuşdur. 2008-2010-cu illəri əhatə edən Tədbirlər Planında əlavə olaraq 11 ədəd yol qovşağı və 13 ədəd çoxmərtəbəli avtomobil dayanacaqlarının tikintisi də nəzərdə tutulmuşdur.

Azərbaycanda neft sektorundan sonra ikinci əsas sahə sayılan yol-nəqliyyat kompleksi son dövrlər ölkə Prezidenti cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, şəxsi nəzarəti altında çox sürətlə, müasir meyarlara uyğun olaraq dinamik inkişaf edir. Ötən 2007-ci il ərzində görülən işlər və uğurlar həyata keçirilən tədbirlər 2008-ci ildə də paytaxtımızın və ümumən ölkənin nəqliyyat sistemində daha ürəkaçan nailiyyətlər qazanılacağına qəti əminlik yaradır. Nəqliyyat naziri hörmətli Ziya Məmmədovun rəhbərliyi ilə həyata keçirilən tədbirlər və görülməsi nəzərdə tutulan layihələr Azərbaycanın iqtisadi inkişafına, ölkə əhalisinin sosial rifahının daha da yüksəlməsinə xidmət edir. Biz, nəqliyyatçılar ölkə Prezidenti cənab İlham Əliyevin nəqliyyat sahəsinə göstərdiyi mütəmadi diqqət və qayğısına cavab olaraq üzərimizə düşən vəzifəni bundan sonra da layiqincə doğruldacaq, qüvvə və bacarığımızı səfərbər edəcəyik.

**Məhərrəm Məmmədov.**
**Azərbaycan Respublikasının**
**Prezidenti yanında Dövlət İdarəçilik**
**Akademiyasının məzunu**

## İqtisadi tərəqqi və islahatlar strategiyası

XX əsrin 90-cı illəri modemləşdirməniı yeni mərhələsi məcrasmda cəmiyyətin transformasiyası illəri kimi tarixə düşmüşdür. Bu dövrdə "mahiyyət etibarilə... tamamilə yeni Azərbaycan yaranmışdır". (Heydər Əliycv)

(XXI əsrin və yeni minilliyin başlanması münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan xalqına müraciətindən / Dirçəliş XXI əsr. 2001. N - 1-2.s. 47).

### 1. Sistemin böhranından SSRİ-nin parçalanmasına qədər

ABŞ və SSRİ arasında soyuq müharibə şəraitində Qorbaçov gürurunun təklif etdiyi modernləşdirmə niyyətləri "sürətləndirmə" və "yenidənqurma" adlandırıldığına baxmayaraq, əslində bu niyyətlər böhran vəziyyətinə düşmüş sovet iqtisadiyyatının məhvini sürətləndirmiş oldu. XX əsrin 80-ci illərinin axırlarında sosializm cəmiyyətinin üzləşdiyi iqtisadi problemlər dərin tarixi köklərə malik idi. İnkişaf yolunu seçmək problemi hələ 50-ci illərin ortalarında qarşıya çıxmışdı. O vaxt SSRİ iqtisadiyyatının səmərəliliyini artırmaq üçün, cəsarətsiz də olsa, müəyyən addımlar atılmışdı. Lakin sosializm sistemi çərçivəsində müvafiq islahatları həyata keçirmək mümkün olmadı. Ölkə durğunluq vəziyyətinə düşdü və bunun nəticəsində son dərəcədə zəruri olan ürədə məsələlərin həlli ən azı iki onillik müddətinə ləngidi. Həlli tapılmayan problemlərin sayı get-gedə çoxalır, SSRİ-nin yüksək inkişaf etmiş ölkələrdən geriliyi daha da artırdı.

Sovet sisteminin ümumi böhranı 70-ci illərə təsadüf etdi. Bu dövrdə ölkə rəhbərliyi, demək olar ki, bütün diqqətini Sovet İttifaqının zəmanətli strateji təhlükəsizliyinin təmin edilməsi məsələləri üzərində cəmləşdirmişdi: raket-nüvə pariteti, ölkənin özünü enerji ilə təchiz etməsi, hərbi-siyasi ittifaqlar yaradılması məsələlərinə daha çox əhəmiyyət verilirdi. Bununla yanaşı, daxili siyasətin ən mühüm məsələləri arxa plana keçmiş, bu isə bir sıra qeyri-sağlam proseslərin sovet cəmiyyətinin iliyinə hopmasını şərtləndirmişdi. 70-ci illərin ikinci yarısında Brejnev özü xəstələndi, onun ən yaxın ətrafındakılar isə Baş katib vəzifəsinə sahib çıxmaq hüququ uğrunda qızğın mübarizəyə başladılar. Bu vəziyyətdə həmin qeyri-sağlam proseslər daha təhlükəli xarakter almışdı. Kölgə iqtisadiyyatının inkişafı, dövlət mülkiyyətinin mənimsənilməsi və korrupsiya faktlarının geniş yayılması halları göz qabağında idi. Sov. İKP MK-da olan məlumatlara görə, 1975-1980-ci illərdə dövlət əmlakının oğurlanması hallarının sayı 30%, aşkar edilmiş rüşvətxorluq hallarının sayı az qala 50%, spekulyasiya halları 40% artmışdı. Sov.İKP sıralarında yaranmış mənəvi vəziyyət belə bir faktdan aşkar görünür ki, 1980-ci ildə rüşvətxorluğa görə sovet məhkəmələri tərəfindən məhkum edilənlərin ümumi sayının az qala 30%-i Sov.İKP üzvləri və Sov.İKP üzvlüyünə namizədlər idi. Ticarət, yüngül və yerli sənaye sahələrində kriminogen hallar total xarakter almışdı.

Tanınmış sosioloq İ.V.Bestujev-Ladanın 1985-ci ildə Sov.İKP MK-ya

göndərdiyi analitik materialdan məlum olur ki, o dövrdə "qara iqtisadiyyat" və bir ovuc adamın əlində hədsiz çox maddi sərvətlərin cəmləşməsi SSRİ-də dövlətin əsaslarına təhlükə yaratmışdı. Həmin məktubda deyilirdi: "Öz növbəsində...bu bir neçə faizdən iqtisadi asılılıq vəziyyətində olan adamlar;n əhatə dairəsi get-gedə genişlənir və bu vəziyyət get-gedə daha çox adama sarsıdıcı təsir göstərir. (...) Bir-birinin ardınca "qara bazarlar" yaranır, maliya klanları bir-biri ilə düşmənçilik edir, nəzarət orqanlarının korrupsiyaya qurşanmaq cəhdləri özünü göstərir... Durmadan artan bu "qara" qüvvə üçün hələ kifayət qədər adekvat ad da tapılmayıb. Lakin sosializm quruluşu üçün bundan daha ciddi daxili sosial təhlükə yoxdur. Ona görə ki, bu qüvvə nə burjuaziyadır, nə qərb tipli mafiya, nə də yeni iqtisadi siyasət dövrünə xas olan nuvorişlər. Ciddi təhlükə mənbəyi olan bu yem solsial hadisənin inkişafına biz tamamilə gözdən qaçırmış və onu özbaşına buraxmışıq" (Leqosta-ev V.Üelluloid QKÇP// Завтра. 2003 N-31).

1989-cu ildə SSRİ əhalinin hər nəfərinə düşən sənaye və kənd təsərrüfatı məhsullarının ən mühüm növlərinin istehsalına görə ABŞ-dan xeyli geri qalırdı. Elektrik enerjisi istehsalı sahəsində bu gerilik 50%, əmtəə kömür istehsalı üzrə 35,8%, sulfat turşusu istehsalı üzrə 39,9%, kimyəvi liflər istehsalı üzrə 66,3%, sintetik liflər istehsalı üzrə 86,3%, ipək parça istehsalı üzrə 5,2 dəfə, dənli və dənli-paxlalı bitkilər istehsalı üzrə 40,0%, ət istehsalı üzrə (kəsilmiş şəkildə) 41,7% təşkil edirdi (Алескуров А.Распад ССР как обьективная основа зарождения, формирования рыночных отношений// Azərbaycan iqtisadiyyatı yüksəliş yollarında (Məqalələr məcmuəsi). III (XII) buraxılış. Bakı. 2003.s.5.).

"Yenidənqurma"nın iflası başlayanda və 90-cı illərin əvvəllərində ictimai şüurda belə bir nikbin tikir hökm sürürdü ki, guya "özü-özünü tənzimləyən" bazar münasibətləri böhranın çarəsi olacaqdır. Suverenlik əldə edilməsi, siyasi demokratikləşmə, xüsusi mülkiyyətin reabilitasiyası gələcək tərəqqinin vasitələri hesab edilirdi. Müstəqillik aktı (18 oktyabr 1991-ci il) və "Belovejsk parçalanması" barədə saziş (8 dekabr 1991-ci il) qəbul ediləndən sonra Azərbaycan dərhal islahatlar - ilkin planı sadəcə, mövcud olmayan iri-miqyaslı dəyişikliklər sistemini həyata keçirmək zərurəti ilə üzləşdi.

Sovet İttifaqının parçalanması nəticəsində keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar arasında iqtisadi əlaqələr pozuldu. Qiymətlərin liberallaşdırılması üzündən istehsalın tənəzzüllü, müəssisələrdəki dövriyyə vəsaitlərinin qiymətdən düşməsi və əhalinin alıcılıq qabiliyyətinin azalması - bütün bunlar ölkənin hərbi məğlubiyyətinə bərabər idi. "Onilliklər boyu formalaşmış iqtisadi əlaqələr, müəssisələr arasında istehsal kooperasiyası... 1991-1994-cü illərdə pozuldu... Ticarət balansındakı müsbət saldo 1992-ci ildəki 489 milyon dollardan, 1993-cü ildə 55 milyon dollara, yəni ÜDM-in həcminə nisbətən 40%-dən 3%-ə düşmüşdü" (Алескеров А.К, Ахвердова С.Г.Рынок и проблемы еффективного развития внешнеэкономических связей Азербайджанской Республики и мировым сообществом // Аудит. 2000. N-4.C.30).

**2. İqtisadi yeniliklər və islahatlar konsepsiyasının formalaşması**

İqtisadi modernləşdirmə texnoloji tərəqqi ilə xarakterizə olunur. Texnoloji tərəqqi isə, öz növbəsində, elmin vəziyyətindən asılıdır. Modernləşdirmə iqtisadiyyatın birinci (hasiledici) sahələrinin ixtisarı hesabına ikinci (sənaye, kommersiya) və üçüncü (xidmət) sahələrinin inkişafı ilə səciyyəvidir. Bu cür modernləşdirmə həm də yüksək səviyyəli texnologiyalara, istehsal, istehlak və bölgü ilə bağlı iqtisadi fəaliyyət sahələrinin get-gedə daha geniş miqyasda ixtisaslaşmasına əsaslanan sənaye sisteminin (neoindustrializmin) inkişafı ilə səciyyəvidir. İqtisadi liberalizm nəzəriyyəsinə görə, bu halda əsas bazarların - əmtəə, işçi qüvvəsi və maliyyə bazarlarının miqyası və mürəkkəblik dərəcəsi də artmalıdır.

Ölkədə bazar iqtisadiyyatına keçidlə bağlı dəyişikliklərin optimal strategiyasının və onun həyata keçirilməsinin düzgün taktikasını seçmək ehtiyacı yaranmışdı. Əslində ölkə iki alternativ inkişaf proqramından birini seçmək məcburiyyətində idi. Neokonservativ konspesiyaya əsaslanan birinci proqram bazar totalitarizminin, qiymət yaranmanın sərbəstliyini, dövlətin əhaliyə kömək yönümlü sosial proqramların ixtisarını və bunun nəticəsində, sosial-sinfi gərginliyin artması ilə müşayiət olunan bir ovuc nuvorişlərin və saysız-hesabsız binəsiblərin yaranmasnı nəzərdə tuturdu.

Bazar iqtisadiyyatına tədricən keçilməsini nəzərdə tutan ikinci halda isə geniş əhatəli orta sinfin, çoxukladlı, çoxsahəli, elm və texnika tutumlu iqtisadiyyatın yaradılmasına yönəlmiş dəyişikliklərin tempini və onların sosial yönümünü dövlət müəyyənləşdirir (Bax: S.Səfərov İqtisadi siyasət strategiyası: konseptual əsaslar. Bakı. 2000).

Radikal müxalifəti təmsil edən iqtisadçılar birinci varianta tərəfdardırlar. Məsələn, Q.İbadoğlunun təklif etdiyi "reseptlərə" fikir verin: "Özəlləşdirmənin gedişində yüksək dərəcədə rentabelli dövlət müəssisələrinin səhmlərinin mərhələlər üzrə satışına üstünlük verilməlidir. Özəlləşdirmə prosesinə strateji investorlarla yanaşı, pensiya fondları şəklində institusional investorları da cəlb etmək, korporativ idarəetmə və nəzarət mexanizmini daha geniş tətbiq etmək, vasitəçilərin investisiya fondlarının və maliyyə institutlarının fəaliyyəti üçün şərait yaratmaq lazımdır". Bu "reseptdə"ki "pensiya fondları" sözlərini çıxarsanız, görəcəksiniz ki, xammal sahələri ("yüksək dərəcədə rentabelli dövlət müəssisələrini") transmilli korporasiyalara vermək, dövləti iqtisadiyyatdan total miqyasda uzaqlaşdırmaq proqramı təklif olunur.

Bizim müxalifətçilərin çox xoşladığı kapitallaşdırma modeli Rusiyada həyata keçırılmışdi. Bəs nəticəsi nə oldu? "90-cı illərdə Rusiyanın sınaqdan keçirdiyi "qovub çatma" modernləşməsi təcrübəsi uğurlu olmadı." Burada ilk dəfə olaraq neqativ səfərbərlik tətbiq edildi, insanlara dedilər: "Nə istəyirsiniz edin, amma "lehinə" səs verin". Özünütəşkil işlərinin pis vəziyyətdə olduğu ölkədə "neqativ" sərbəstliyə əsaslanan bu cür "sosial kontrakt" sosial hüceyrələri parçaladı, anemiya və neqativ fərdlər yaratdı, xüsusən

gənclər arasında milli dövlətçilik və fərdi identiklik sahəsində böhran, cəmiyyətin kriminallaşması müşahidə olunurdu". 70 il müddətində tarixin hərəkətverici qüvvələri sayılan dünya inqilabı, yaxud Böyük tikinti kimi böyük layihələrlə işləmiş Rusiya indi anemiya və Putinin " 10 il ərzində ÜDM-i ikiqat artırmaq" barədə çağırışları kimi gülünc vəziyyətlə üzləşmişdir.

Azərbaycanın dövlət müstəqilliyi bərpa ediləndən sonrakı dövrdə respublika iqtisadiyyat sahəsində öz suveren hüquqlarını həyata keçirməyə və müstəqil iqtisadi siyasət yeritməyə başlamışdır.

Azərbaycan rəhbərliyi ölkənin suverenliyini və dövlətçiliyini daha da möhkəmlətməyi, Qərbin iqtisadi və siyasi strukturlarına sürətlə inteqrasiya etməyi yenə özünün strateji məqsədləri hesab edir. Azərbaycanın milli inkişaf konsepsiyası Xəzərin karbohidrogen resurslarından, ölkənin Avropa ilə Asiyanın qovuşağında əlverişli coğrafi mövqeyindən istifadə edilməsi əsasında qurulmuşdur.

Lakin müstəqilliyin elə ilk illərində Azərbaycan ciddi sınaqlarla üzləşdi. 1991-ci ildə öz suverenliyini bəyan etmiş Azərbaycan Respublikası iqtisadi və siyasi çətinliklərə sinə gərməli oldu.

Bu dövr ərzində ÜDM-in həcmi hər il orta hesabla 13-20% azalırdı və artıq 1994-cü ildə ÜDM-in həcçi 1990-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 66,6% səviyyəsində idi. 1994-cü ildə infilyasiya göstəricisi 1763,5%-ə çatmışdı, büdcə kəsiri 10%-dən çox idi, dövlətin valyuta ehtiyatları tükənmişdi. Ermənistanın respublikamıza təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi və 1 milyondan çox azərbaycanlının doğma ata-baba yurdlarından qovularaq, öz vətənində qaçqına çevrliməsi ölkədə sosil-iqtisadi böhranı daha da kəskinləşdirdi.

1993-cü ildə H.Əliyev hakimiyyətə gələndən və ölkədə siyasi sabitlik yaradılandan sonra geniş miqyaslı sağlamlaşdırma tədbirləri reallığa çevrildi. Bu görkəmli dövlət xadiminin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda varisliyi qoruyub saxlayan, ən yaxşı ənənələri novatorluqla əlaqələndirən modernləşmə üçün prinsipial imkan yarandı. Respublika Prezidenti həmin amillərin iyerarxiyasını belə müəyyən etmişdir: "Siyasi həyatın sabitliyi iqtisadiyyatda da sabitliyi təmin etmişdir" (Бакинский рабочий, 2005. 25 апреля). Bu və digər fundamental şərtlər Heydər Əliyevin gərgin və məhsuldar fəaliyyəti sayəsində təmin edilmişdir.

Məhz 1995-ci ildən sonra ölkədə daxili sıyasi sabitlik yaranması sayəsində milli iqtisadi təfəkkür formalaşır. Ötən on ilin təcrübəsi göstərdi ki, bazar islahatlarının yönümü, templəri və məzmunu siyasi menecerizmin suverenliyi, dövlətin iqtisadi kursu, millətin idarəetmə kapitalı və sair amillərdən, ilk növbədə isə xarizmatik liderin olmasından asılıdır.

Hadisələri bir qədər qabaqlayaraq qeyd edək ki, 2001-ci ilin göstəricisinə əsasən ən tez inkişaf edən milli iqtisadiyyatların siyahısında (ÜDM-nin artımına görə) Azərbaycan

ÜDM-nin 9,9%, illik artımı ilə IV yer tutur (müqayisə üçün: Ukrayna - 9,0%, Gürcüstan-8,4%, Rusiya-5,0%), (bax: Событийа года: 2002. M. 2003-C.226).

Çoxukladlı iqtisadiyyatın yaradılması, özəlləşdirmə və torpaq islahatı, maliyyə-vergi və idarəetmə sistemlərinin islahatı, bazar münasibətlərinin genişlənməsi - bütün bu konkret tədbirlər Azərbaycanda iqtisadi modernləşmənin mahiyyətini təşkil edir. Azərbaycanda həyata keçirilən iqtisadi modernləşmə yalnız bu şərtlə məqbul sayıla bilər ki, dövlət bu məsələlərə müdaxilə edə bilsin. Sosialist ənənələrinə malik olan bu ölkədə iqtisadi modernləşmənin daha bir xüsusiyyəti - iqtisadi demokratiya prinsiplərinin geniş tətbiq edilməsidir. Bu o deməkdir ki, dövlət bərabər imkanlar yaranacağına təminat verir, çünki müasir Azərbaycanda hər hansı islahatım, etik baxımdan, yalnız o halda mənası olar ki, həmin islahat bütün cəmiyyətin əmin-amanlığını təmin etmiş olsun.

Əlbəttə, cəmiyyətdə heç kəs şübhə etmirdi ki, məhz neft sənayesi iqtisadi tərəqqinin hərəkətverici qüvvəsinə çevrilə bilər. Məhz neft sənayesi transmilli korporasiyaların kapitalını cəlb edə bilərdi, lakin bu investisiyaların tezliklə səmərə verməsi üçün bir sıra şərtlərə riayət edilməli idi. Neft hasilatının intensivləşdirilməsi və neftin nəqli bu cür amillərdəndir. Lakin buradan belə bir nəticə çıxır ki, təsərrüfat sahəsində uğurlar qlobal amillərdən - milli iqtisadiyyatın ümumdünya iqtisadi məkanına uyğunlaşması, neftin beynəlxalq qiymətləri, BVF-in standartları və digər sanballı geosiyasi amillərdən asılıdır.

Biz Prezident H.Əliyevin əvvəlki fəaliyyətinə bələd olduğumuz üçün qətiyyətlə deyə bilərik ki, o, Qərbi Avropa hökumətlərinin praktikasından, yəni həmin ölkələrdə istehsal qüvvələrinin məqsədəuyğun yerləşdirilməsi problemi ilə dövlət səviyyəsində məşğul olmalarından...", ölkələrin sosial-iqtisadi inkişafı üçün isə "... ilk baxışda bazar münasibətlərinə xas olmayan tənzimləyici şərtlərdən istifadə edilməsindən" xəbərsiz ola bilməzdi (Надиров А.Вопросы экономического развития азербайджанский регионов и системе рыночных отношений). AR EA Xərəbləri. İqtisadiyyat seriyası, N-3, 1998, s.5) Lakin vəziyyət daha ciddi idi və müdrik siyasətçilər bunu bilirlər...

Azərbaycan hökuməti bazar iqtisadiyyatına keçid strategiyasını əsas götürərək, qiymətlərin liberallaşdırılması və sort pul-kredit siyasəti yeridilməsi yolu ilə inflyasiyanı cilovlamağa müvəffəq oldu. 1996-cı ildə inflyasiya səviyyəsi endirildi, son illərdə isə həmin göstəricinin qiyməti 2-3% həddindədir. Büdcə kəsirinin Milli bank tərəfindən maliyyələşdirilməsi kimi qüsurlu praktikaya son qoyulması, büdcə xərcləri üzərində nəzarətin təmin edilməsi və bir sıra digər məqsədyönlü tədbirlər görülməsi nəticəsində büdcə kəsirini azaldaraq 1-2%-ə endirmək mümkün olmuşdur. Hazırda respublikamızda illik ÜDM artımı orta hesabla 8-10%-ə bərabərdir (rəqəmlər AR Dövlət Statistika Komitəsinin materiallarından götürülmüşdür).

BVF-in digər beynəlxalq təsisatların əsas problemi- qloballaşma problemi və qloballaşma variantlarının seçilməsi problemidr. SSRİ-də və Şərqi Arvopada real sosializmin məğlbuliyyətinin və azad bazar apologiyasının təsiri altında elə bir ideoloji ab-hava

yaranmışdı ki, xalis bazar iqtisadiyyatı tərəfdarlarının baxışları üstünlük qazanmışdı. Bu, dövlətin təsərrüfatçılıq rolunun minimuma endirilməsi, faktiki olaraq dövlətin iqtisadiyyatdan uzaqlaşması demək idi. BVF-in standart reseptləri neokonservatorların nəzəri müddəalarına əsaslanır: "Qiymətlərin liberallaşdırılması, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, sərt maliyyə-kredit siyasəti, büdcə kəsirinin minimuma endirilməsi, müəssisələrin müflisləşməsi haqqında qanunun tətbiq edilməsi, torpaq üzərində alqı-satqı hüququ olmaqla xüsusi mülkiyyət, xarici kapital üçün etibarlı təminatlar" (Современное мировое пространство //Возраждениу- XXI век, 1999, N-19. с. 72-79 ).

Ölkə iqtisadiyyatının məhz iqtisadi metodlarla idarə olunması, bazar iqtisadiyyatı münasibətlərinin düzgün qurulması cənab Heydər Əliyevin gərgin əməyi və müstəsna ŞGX-si rolu sayəsində mümkün olmuşdur.

Cənab Prezident nəqliyyatın inkişafına da diqqət yetirmişdir və o dəmir yolunu "Azərbaycan iqtısadiyyatının böyük bir hissəsi" hesab edir.

"Azərbaycan Dövlət Dəmir Yolunun son illərdəki uğurlu fəaliyyəti məhz Heydər Əliyev cənablarının bizə olan şəxsi qayğı və diqqətinin sahəsində mümkün olmuşdur". (Z.Məmmədov, Heydər Əliyev və Azərbaycan Dəmir Yolları, Bakı. 1999.s.86).

"Ölkənin qan damarı" sayılan dəmir yolunda sərnişin və yük daşımalarının həcmi artmış, hərəkətin təhlükəsizliyi təmin edilmişdir. Görülən əsaslı tədbirlər sahəsində iqtisadi göstəricilər yüksəlmişdir "...mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişaf hiss edirəm".

3. Neft kontaktiları vasitəsilə iqtisadi tərəqqiyə doğru

Heç şübhəsiz, neft sənayesi milli iqtisadiyyatın inkişafında mühüm yer tutur. 90-cı illərdə bütövlükdə Azərbaycan iqtisadiyyatında olduğu kimi, neft sektorunda da istehsalın kəskin azalması müşahidə olunurdu. Azərbaycan iqtisadiyyatında neft sənayesinin strateji əhəmiyyəti, milli iqtisadiyyatın struktur islahatlarında neft sənayesinin müstəsna rola malik olması bu sahədə məxsusi dövlət strategiyasının yaradılmasını və həyata keçirilməsini tələb edirdi və belə strategiya yaradıldı (bax: S.Səfərov. Yeni Azərbaycan: iqtisadiyyat, siyasət, dinamizm. Bakı. 2003)

İslahatlar, faktiki olaraq, 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin imzalanması ilə başlandı. Bu müqavilənin imzalanması, bir tərəfdən, Heydər Əliyevin strateji istedadının nəticəsi, digər tərəfdən, özünü tamamilə işə həsr etmək bacarığını nümaiş etdirmiş İlham Əliyevin gərgin əməyinin bəhrəsi idi. İlham Əliyev "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə demişdir: "Azərbaycana təzyiq o qədər güclü idi ki, xarici ölkələrin neft şirkətləri bu tezisi (Xəzərin statusu problemini. - Müəllifin qeydi) kontraktın şərtlərinə daxil etmişdilər....

Bu, əslində o demək idi ki, kontrakt imzalanacaq, lakin qüvvəyə minməyəcəkdir... Bu şəraitdə Azərbaycan Respublikasının Prezidenti məni o vaxt yekun danışıqların

.0.
aparıldığı Hyustona və ABŞ-ın Energetika Nazirliyinin rəhləri ilə görüşmək üçün Vaşinqtona ezam etməyi qərara aldı...Yalnız Amerika hökuməti bu məsələyə müdaxilə edəndən sonra xarici neft şirkətləri həmin bəndi kontaktdan çıxarmağa razılıq verdilər" (Доклад первого вице-рпезидента ГЩКАП, депутата Милли Меджлиса Ильхама Алиева// возрождение XXI век, 1999. N-1999. с. 11-12).

Xəzərin Azərbaycan şelfindəki neft-qaz ehtiyatlarının fəal mənimsənilməsi işləri 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin - "Azəri-Qraq-Günəşli" (AÇG) yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsü barədə sazişin imzalanması ilə başlandı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini (AİOC) yaratmış saziş iştirakçıları arasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ), Amerikanın Amoco, Unocal və Pennzoil, Britaniyanın British Petroleum, MsDermott və Ramco, Norveçin Statoil, Rusiyanın Lukoil (hərçənd, sonradan LUKoil həmin sazişdə özünün payını yapon şirkətinə satmışdır), Türkiyənin TRAO və Səudiyyə Ərəbistanın Delta şirkətləri vardır. Sonradan Yaponiyanın İtochu və Amerikanın Exxon şirkətləri də bu kontrakta qoşuldu. Otuz il müddətinə imzalanmış "Əsrin müqaviləsi"nə görə, ölkəmizə 11 milyard ABŞ dollarından çox vəsait cəlb edilməsi nəzərdə tutulmuşdur.

"Çıraq" yatağının işlənməsi Azərbaycanda neft hasilatının azalması prosesini dayandırmış və 1998-ci ildən başlayaraq Azərbaycan Respublikasında neft hasilatı artmağa başlamışdır. Belə ki, 1997-ci ildə ölkədə 9,0 milyon ton neft çıxarıldığı halda 1998-cı il-də 11,3 miloyn ton, 1999-cu ildə 13,8 milyon ton, 2000-ci ildə 14,0 milyon ton, 2001-cı ildə 14,8 milyon ton və 2002-ci ildə 15,3 milyon ton neft çıxarılmışdır.

1994-cü ildən sonra Azərbaycan neft hasilatına dair təqribən 50 milyard dollar investisiya qoyulması nəzərdə tutulan sazişlər imzalanmışdır. 2005-ci ildə investisiyalar hesabına 20 milyon ton neft çıxarılması nəzərdə tutulur. 2010-cu ildə hasilatın həcmi artaraq 40-50 milyon tona çatacaqdır. Xəzərin Azərbaycan sektorunda neftlə zəngin olan 145 perspektivli struktur aşkar edilmişdir. Qiymətləndirilmiş ehtiyatların bütün həcminin üçdə bir hissəsinin yerləşdiyi üç ən zəngin yatağın işlənməsi sayca birinci və ən iri konsorsium - Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən həyata keçirılır. 11 firmanın daxil olduğu bu Konsorsiumda Amerikanın iştirak payı 40%-ə bərabərdir. Konsorsium həmin yataqların 30 il müddətində istismar edilməsi nəticəsində 99 milyard dollar mənfəət əldə etməyi planlaşdırır ki, bu məbləğin də 78 milyard dollarının Azərbaycana çatması nəzərdə tutulur.

Kontrakt imzalanandan sonrakı müddətdə baş vermiş hadisələri təhlil edəndə görürük ki, neft sektoru üçün böhran dövrü artıq geridə qalmışdır, əcnəbi investorların müxtəlif sahələrə marağı artmış, neft hasilatının artırılması ölkə iqtisadiyyatının inkişafına təkan vermişdir. Miqyasına görə analoqu olmayan "Əsrin müqaviləsi"ndən az sonra Azərbaycanda neft yataqlarının müştərək kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə bir-birinin ardınca daha 21 kontrakt imzalanmışdır. Bağlanmış sazişlərə müvafiq olaraq,

Azərbaycan iqtisadiyyatına xarici investisiyaların həcmi 60 milyard ABŞ dollarından çox olacaqdır.

Neft hasilatından ölkəmizin əldə edəcəyi ümumi mənfəət hasil ediləcək neftin dəyərinin 80%-i qədər olacaqdır. Kontraktlar imzalandıqdan sonra ölkəyə maliyyə axını get-gedə artırdı. Xarici sərmayələrin çox hissəsi (1994-1998-ci illərdə qoyulmuş 4 milyard dollar ümumi investisiyanın təqribən 66%-i) neft sektoruna yönəldilmişdi. Həm xarici, həm də daxili kreditlərin qalan hissəsi, başlıca olaraq ticarət-vasitəçilik və maliyyə-kommersiya sahələrinə sərf edilmişdir. Dövlətin inhisarçı mövqe tutması nəticəsində Azərbaycanda əhalinin hər nəfərinə düşən investisiyaların orta həcmi Rusiyanın müvafiq göstəricisindən dörd dəfə yüksəkdir. Bu göstərici üzrə ölkəmiz Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr arasında ilk yerlərdən birini tutur.

Neft kontraktlarının imzalanması, mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, yaranmış vəziyyətə adekvat maliyyə yeniliklərin tətbiq edilməsi sayəsində islahatların ilkin kordinatları müəyyənləşdi. Bu hadisələr fonunda 1995-ci ildə hökumətin böhran əleyhinə proqram qəbul etməsi faktı çox qanunauyğun hal idi. Fond ölkəmizə məsləhət köməyi, texniki və maliyyə köməyi göstərirdi. İşlənib hazırlanmış proqramı qanunverici və icra hakimiyyətlərinin görməli olduğu tədbirlərin müəyyənləşdirdiyi ssenari xarakteri daşıyırdı. İslahatların BVF tərəfindən təklif edilən ssenarisi - "üçüncü dünya" ölkələrinə tövsiyə edilmiş trafaretdir.

Burada bir məqamı xüsusi qeyd etməliyik: Azərbaycan Respublikası BVF-in fəaliyyət koordinatlarında qalmaqdadır. Yuxarıda qeyd etdiyimiz kimi, BVF ekspertlərinin rəhbər tutduğu radikal islahatlar konsepsiyasına görə əsas məsələ - qiymətlərin tənzimlənməsindən tam imtina edilməsidir. Ekspertlərin fikrincə, tələbata oriyentasiya edilmiş qiymətlər ölkənin iqtisadi böhrandan çıxmasını, səmərəsiz istehsalatların dayandırılmasını və iqtisadiyyatın strukturunun yenidən qurulmasını sürətləndirməli idi. Qiymətlər direktiv iqtisadi sistemin dağılmasının stimulyatoru və bazar iqtisadiyyatı yaradılmasının oriyentivi olmalı idi. Lakin bu ideyanın həyata keçirilməsi heç bir yerdə arzu edilən nəticələrə gətirib çıxarmadı - nə MDB-də, nə də dünyanın başqa regionlarında. Qiymətlərin liberallaşdırılması onların bir neçə qat artmasına gətirib çıxartdı və hiperinflyasiya mexanizminə çevrildi.

Belə bir gərgin vəziyyətdə respublika Prezidenti tərəfindən həyata keçirilən neft siyasəti ölkəyə sanballı xarici investisiyalar cəlb etdi. Bunun sayəsində 1995-ci ildə neft hasilatını 9,2 milyon tona, 1998-ci ildə isə 11,4 milyon tona çatdırmaq mümkün oldu. 1990-1992-ci illərdə qaz hasilatı kəskin şəkildə azalmışdı və ölkənin ehtiyaclarının yalnız 40%-ni təmin edirdi.

Azərbaycanın neft strategiyası, ilk növbədə, neft hasilatı layihələrinə xarici investisiyaların, yeni müasir texnologiyaların, əcnəbi işgüzar dairələrin və beynəlxalq şirkətlərin cəlb edilməsi yolu ilə dünya bazarına inteqrasiya etməyə yönəlmişdir.

Neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatına xarici investisiyaların artmasını təmin edir. Məsələn, təkcə dörd layihə - Azəri, Çıraq, Günəşli və Şahdəniz yataqlarının geniş miqyasda işlənməsi, habelə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri üzrə 2004-cü ilədək Azərbaycan iqtisadiyyata cəlb edilməsi planlaşdırılan investisiyaların həcmi təqribən 9 milyard ABŞ dollarına bərabər olacaqdır.

Beləliklə, Azərbaycanın neft sektoru öz inkişafının yeni mərhələsinə qədəm qoymuş və Azərbaycanın iqtisadiyyatında neft sektorunun rolu nəzərəçarpacaq dərəcədə artmışdır. Beynəlxalq bazarda neftin və qazın qiyməti ilə əlaqədar pessimist fərziyyələri əsas götürdükdə belə, yaxın illər ərzində Azərbaycanın xeyli gəlir əldə edəcəyi gözlənilir. Azərbaycan hökuməti bu mövqedən çıxış edərək neft gəlirlərindən asılılığı ən yaxın vaxtlarda azaldacaq, iqtisadiyyatı diversifikasiya edəcək, əhalinin həyat səviyyəsinin durmadan artmasını və beləliklə, Azərbaycanın dünyanın sivil ölkələri arasında layiqli yer tutmasını təmin edəcəkdir.

Qara və əlvan metallurgiya sahəsində istehsalın tənəzzülünün dinamikası, ilk növbədə, avadanlığın köhnəlmə dərəcəsi, tələbatın və innovasiya investisiyalarının azalması ilə bağlıdır. Maşınqayırma məhsullarının istehsalı 1990-cı ildə sənaye məhsullarmm ümumi həcminin 20,3%-i qədər olduğu halda 1998-ci ildə bu rəqəm azalaraq 3,5%-ə düşmüşdü. Kimya və neft-kimya sənayesində tənəzzül resursqoruma və tullantısız istehsal göstəriciləri aşağı olan köhnə sovet texnologiyalarından istifadə edilməsindən irəli gəlirdi.

Əsaslı tikinti sahəsində ağır vəziyyət yaranmışdı.

İnvestisiyaların ÜDM-də xüsusi çəkisi cəmi 19% idi. Qeyri-neft sahələrində investisiya fəallığının azalması və kapital qoyuluşlarının ümumi həcminin 25%-dən çox azalması faktları sənayenin yenidən təchiz edilməsi imkanlarına mənfi təsir göstərirdi.

4. Maliyyə sabitləşməsi məsələsi gündəlikdədir

Rəsmi məlumatlara görə, 1995-ci ildə Azərbaycan iqtisadiyyatının potensialı 1991-ci il səviyyəsi ilə müqayisədə cəmi 30%, əslində isə 15-20%) olmuşdur. Ağır sənaye - metallurgiya, maşınqayırma və netf-kimya müəssisələri, praktiki olaraq, tamamilə dayandırılmışdı. Azərbaycan bazarları Türkiyədə istehsal ediliş aşağı keyfıyyətli mallarla doldurulmuşdu. Əhalinin təqribən 85-90%-i yoxsulluq həddindən aşağı səviyyədə idi. Bununla yanaşı, əmək qabiliyyətli yaşda olan insanların təqribən dördə bir hissəsi işsiz qalmışdı.

İnflyasiya səviyyəsi ayda 500%-ə çatdığı bir şəraitdə ölkədə maliyyə sabitliyi yaratmaqdan islahatlar yolunda növbəti addımlar atmaq mümkün deyil. Belə bir vəziyyətdə maliyyə sabitliyinə nail olmaq üçün görülən tədbirlər islahatlar prosesində mühüm addım oldu. Lakin təəssüf ki, o məqamda heç kəs ağlına da gətirmirdi ki, inkişaf baxımından,

infilyasiyanın olmamasındansa, nəzarət edilən inflyasiya daha üstündür. Buna görə də kredit siyasətinin sərtləşdirilməsi və pul emossiyasının məhdudlaşdırılması üçün bir sıra tədbirlər görüldü. Əmək haqqı və pensiyaların ödənilməsi üçün, eləcə də sosial proqramların həyata keçirilməsi üçün büdcə məsrəflərinin azaldılması hesabına tələbat kəskin şəkildə aşağı salındı. Belə ki, 1995-ci ilin axırlarında Azərbaycanda qiymətlərin artma göstəricisini xeyli azaldaraq, ayda 4-6%-ə endirmək və milli valyutanı sabitləşdirmək mümkün olmuşdu.

Bu, çox "qan bahasına" başa gəlmiş olsa da, hər halda real uğur idi. 1995-1996-cı illərdə makroiqtisadi sabitləşmə sayəsində 1997-1999-cu illər üçün iqtisadiyyatın struktur yenidən qurmasına dair hökumətin orta müddətli proqramının işlənib hazırlanması və islahatlar strategiyasının dəqiqləşdirilməsi üçün zəruri ilkin şərait yaranmış oldu. Beləliklə, dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlamaq üçün imkan yarandı.

### 5. Özəlləşdirmə: bir qədər gec, amma dəqiqləşdirilmiş

Respublikamız özələşdirmə prosesinə MDB-nin bəzi ölkələrindən gec başlamışdı. Bu, həmin ölkələrdə və ilk növbədə Rusiyada özəlləşdirmə prosesində yol verılmış səhvləri və nöqsanları nəzərə almağa imkan verirdi. Rusiyalıların əksəriyyəti nəinkı "sahibkarlıq hissi" qazanmamış, üstəlik, özəlləşdirmənin özünə dövlət mülkiyyətinin qarət edilməsi kimi münasibət bəsləməyə başlamışdılar.

Azərbaycanda dövlət mülkiyyətinin özəlləşdirilməsi "1995-1998-ci illərdə Azərbaycan Respublikasına da dövlət mülkiyyətinin özələşdirilməsinin Dövlət Proqramı" qəbul ediləndən sonra həyata keçirilməyə başlandı. Bu, özəlləşdirmənin birinci mərhələsi oldu. Həmin dövrdə "İxtisaslaşdırılmış çek auksionları haqqında əsasnamə"; "Açıq tipli səhmdar cəmiyyətlərinə çevrilən dövlət müəssisələrinin səhmlərinin ortaq kollektivlərinə güzəştli satışı haqqında əsasnamə"; "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi qaydaları haqqında əsasnamə"; "İcarəyə verilmiş dövlət əmlakının auksionları haqqında əsasnamə"; "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında əsasnamə"; "Milli depozitar sistera haqqında əsasnamə"; "Özəlləşdirmə prosesində dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətinin ixtisaslaşdırılmış investisiya fondlarının formalaşmasına yönəldilən səhmləri haqqında"; "Qeyri-dövlət hüquqi və fıziki şəxslərin əmlakına mülkiyyət hüququnun rəsmiləşdirilməsi haqqında" Prezident fərmanları, "Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydası haqqında əsasnamə" və başqa sənədlər qəbul edildi. Bu fərman və əsasnamələrin qəbul edilməsi özəlləşdirmə prosesini hüquqi normalar çərçivəsində saxlamaq cəhdi ilə bağlı idi. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası da bu prosesdə öz rolunu oynadı. Konstitusiyada göstərılırdi ki, ölkədə dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti mövcuddur.

1997-ci ilin əvvəlinədək təqribən 13 min kiçik dövlət müəssisəsi özəlləşdirılmış,

976 orta və iri dövlət müəssisəsində səhmdar cəmiyyətləri yaradılmışdır. 409 səhmdar cəmiyyətinin səhmlərinin 70%-i çek hərraclarında və pullu hərraclarda satılmışdı. Bundan sonra metallurgiya və kimya sənayesi müəssisələri, tikinti kompleksləri, mehmanxana və sanatoriyalar özəlləşdirməyə başlandı. Ümumiyyətlə, özəlləşdirmə proqramında təqribən 60 min təsərrüfat obyektinin xüsusı mülkiyyətə verilməsi nəzərdə tutulurdu. Ekspertlərin fikrincə, həmin obyektlərin ümumi dəyəri 15 milyard dollara bərabər idi. Əhaliyə özəlləşdirmə çekləri paylanmışdı. Özəlləşdirmənin Azərbaycan modelinə görə, özəlləşdirilən müəssisələrin səhmlərinin 15%-i əmək kollektivinin üzvlərinin çeklərinə dəyişdirılır, səhmlərin ən azı 55%-i açıq çek hərraclarına, qalan hissə isə pullu hərraclara göndərilir.

Özəlləşdirmənin gedişində xarici kapital da ölkəyə "daxil olmuşdur" - özəlləşdirilən orta və iri müəssisələrinin səhmlərinin 25%-i xarici kapitalın payına düşür. Azərbaycanda özəlləşdirmə liberal bazar iqtisadiyyatının Çübays kimi tərəfdarlarından çox-çox uzaq olan dövlət məmurlarının nəzarətı altında həyata keçirilirdi. Bir sıra hallarda özəlləşdirmə dövlət mülkiyyətinin aşağı və orta pilləli idarəetmə kadrlarının həmin mülkiyyətə yiyələnməsini pərdələmək üçün yalnız formal tədbir oldu. Banklar və keçmış dövlət müəssisələrinin müdiriyyəti əksər hallarda həmin müəssisələrin şəriksiz mülkiyyətçilərinə çevrılırdi. Bu məqsədlə onlar aşağıdakı metod və vasitələrdən istifadə edirdilər: özəlləşdirilən müəssisələrin ilkin qiyməti, bir qayda olaraq bilərəkdən, qat-qat aşağı göstərılır, real start şərtləri təmin edilmirdi, səhmlərin qiymətləri barədə zəruri informasiya yox idi. Təsadüfı deyildir ki, səhmlərin qiyməti 100 dollardan yuxarı qalxmadı, son nəticədə isə təqribən 10 dollar ətrafında dəyişirdi.

1999-cu ilin aprelin 1-dək respublikada ilkin dəyəri 407,3 milyard manat olan 28423 obyekt və müəssisə, o cümlədən: 9324 məişət xidməti obyekti, 514 sənaye müəssisəsi, 108 kənd təsərrüfatı müəssisəsi, 204 tikinti təşkilatı, 98 yarımçıq tikinti, 2000 ticarət müəssisəsi, 532 ictimai iaşə müəssisəsi, 448 yanacaq doldurma stansiyası, 13179 nəqliyyat müəssisəsi və nəqliyyat vasitəsi, 41 kommunal təsərrüfatı obyekti və bir sıra digər obyektlər özəlləşdirılmışdi.

1997-ci ildə Azərbaycanda qeyri-dövlət sektorunun ÜDM-in tərkibində xüsusi çəkisi, orta hesabla, 46% olmuşdur. Özəlləşdirmə vergi siyasətinin təkmilləşdirilməsinə təkan verdi. İqtisadçılar və siyasətçilər dövrü mətbuatda real çıxışlar edərək, vergi islahatları keçirilməsini tələb etməyə başlamışdılar. Vegilərin yığılmasını təmin etmək üçün ictimai şüurda vergilərin azaldılması və unifikasiya edilməsi ideyası bərqərar olmuşdu. Büdcə müəssisələrinin maraqları nəzərə alınmadan vergilərin azaldılması xalis plutokratiya olub yalnız kapitalın xeyrinə işləyir.

### 6. Aqrar islahat: haqlı radikalizm (?)

Sovet hakimiyyəti illərində kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında mühüm

rol oynayırdı. Respublikada ÜDM-in 50%-ə qədəri və ixracdan mədaxilin 40%-ə qədəri aqrar sahənin payına düşürdü. 1996-1997-ci illərdə həyata keçirilən aqrar islahatı, özəlləşdirmə ilə yanaşı, bazar iqtisadiyyatına keçidlə bağlı dəyişikliklərin əsas tərkib hissəsinə çevrilmişdi. 1995-ci ilin fevral ayında "Aqrar islahatın əsasları haqqında" və "Kolxoz və sovxozların islahatı haqqında" qanunların, 1996-cı ılin iyul ayında isə "Torpaq islahatı haqqında" Qanunun qəbul edilməsi islahatların hüquqi bazasının təmin edirdi. Azərbaycanda torpaq pulsuz xüsusi mülkiyyətə verılır və alqı-satqı obyektinə çevrılırdi. Kənddə yaşayan hər bir vətəndaş torpaq payı alırdı. Torpağı sərbəst şəkildə satmaq, dəyişmək, miras vermək, icarəyə vermək, girov kimi istifadə etmək olardı, yəni torpaq əmtəəyə çevrilirdi. Bu, ən radikal qanun oldu o, kapitallaşmanın təntənəsini təcəssüm etdirir və müəyyən mənada, istismarların iqtisadiyyatdan kənar formalarının yaranmasını qabaqlayırdı. Əlbəttə, kolxoz və sovxozların mütləq mənada qəbul edilməməsi mübahisəli ideya idi. 1996-cı ildə onların sayı 201-ə düşmüşdü. Eyni zamanda, fərdi kəndli təsərrüfatlarının sayı artaraq, 1996-cı ildəki 3186-dan 1999-cu ildə 44561-ə çatmışdı.

Bu tədbirlər nəticəsində 1769 kolxoz, sovxoz və təsərrüfatlararası müəssisə ləğv edilmişdi. Bütün bu kampaniya çox vaxt rüşvətxorluq və müdiriyyət tərəfindən nəzarətsizliklə müşayiət olunurdu. Çünki fərdiyyətçi kəndli (fermer) çox vaxt müdiriyyətinin qarşısında köməksiz vəziyyətdə qalırdı. Kollektiv mülkiyyət forması tamara yox olmadı: 366 müstəqil kənd təsərrüfatı istehsal kooperativi, 627 kiçik müəssisə, 5758 kollektiv və icarə müəssisəsi yaradıldı. Artıq 1996-cı ildə ölkədə istehsal edilən kartofun 95%-dən çoxu, meyvənin 90%-i, tərəvəzin 85%-i, bostan bitkilərin 69%-i, ətin 82%-i, südün 94%-i, yumurtanın 94%-i, yunun 70%-i həmçinin tütünün çox hissəsi xüsusi təsərrülatlar tərəfindən istehsal edilmişdi. Mal-qara özəlləşdiriləndən sonra 1997-ci il aprelin 1-nə olan məlumata görə qaramalın 90%-dən çoxu şəxsi təsərrüfatlarda idi. 1999-cu il iyulun 1 -dək 4,2 milyon hektar torpaq sahəsi, o cümlədən kənd təsərrüfatı üçün yararlı olan 2,6 milyon hektar torpaq sahəsi müxtəlif mülkiyyət formalı təssərrüfatlar tərəfindən özəlləşdirilmiş və təsərrüfatlar arasında paylanmış, 1,1 milyon hektar torpaq sahəsi xüsusi mülkiyyətə verilmişdi ki, bu da, üst-üstə, bütün torpaq sahlərinin 89,3%-i deməkdir.

Aşkardır ki, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün torpaq üzərində mülkiyyət məsələsi ilə yanaşı, su və irriqasiya sistemləri problemini, kreditlər və idarəetmə problemini də həll etmək zəruridir. Bu məsələlərin həllində çox şey emal sənayesinin vəziyyətindən, ölkədə kənd təsərrüfatının inkişafı mənafelərinə müvafıq olan bank-kredit sisteminin yaradılmasından asılıdır. Başqa sözlə desək, dövlət inkişaf etmiş ölkələrin siyasətindən nümunə götürərək, kənd təsərrüfatından üz döndərməməlidir. Həmin ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi 50%-ə çatır.

1996-cı ildə 1990-cı ildən sonra ilk dəfə kənd təsərrüfatı məhsullarının istehsalı artdı, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1995-ci ilin göstəricisi ilə müqayisədə dəyər ifadəsində üç dəfə artdı.

## 7. III Respublikada biznes-birlik: iqtisadi səmərəlilik və siyasi loyallıq

Heydər Əliyev 2002-ci it aprelin 25-də biznesmenlərlə görüşündə sosial sinfin - sahibkarlar sinfinin yaranmasını dövlətin düzgün iqtisadi siyasətinin nəticəsi kimi qiymətləndirirək demişdir: "Biz Azarbaycanın sosial-iqtisadi inkişaf bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və bundan sonra da sahibkarlığın inkişafı üçün zəruri olan bütün tədbirləri hayata keçirməklə məşğul olacağıq (Dirçəliş XXI əsr. 2002. N-5. s. 182). Azərbaycan cəmiyyətində sahibkarlığa mənfi münasibət bəsləndiyi vaxtlar artıq geridə qalmışdır. İndi hamı başa düşür ki, işgüzar adamın əməyi və enerji dövlətə və cəmiyyətə lazımdır. Azərbaycanın siyasi elitası da iş adamlarının quruculuq imkanlarını yaxşı bilir və yüksək qiyməltləndirir. Bu məsələdə Prezidentin həlledici oynamışdır. Bununla əlaqədar, belə bir mühüm Faktı qeyd edək: A.Иванов "Независимайа газета"da yazır ki, yenidənqurmadan sonrakı illərdə "tədris və elm cəmiyyətə lazım olmayanda İlham Əliyev (müəllifin qeydi) sahibkara çerılır. Onun MDDMİ-də (Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda) aldığı biliklər Türkiyədə və Rusiyada uğurlu biznes fəaliyyətini səhmana salmasına imkanı verir. Bazarın qanunları barədə haçansa nəzəri şəkildə öyrəndiyi bilikləri praktikada, özü də çox uğurla mənimsəyir. Buna görə də təsadüfi dcyildir ki, 1994-cü ildə onu Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsinə dəvət edilər'".

Bele güman etmək olar ki, bazarın reallıqlarının prezident ailəsi səviyyəsində bilinməsi də sahibkarlığın rəğbətləndirilməsi siyasətinə təsir göstərmişdir.

Prezidentin siyasəti müvafiq qanunlar şəklində hüquqi şəraitlə bərabər, müəyyən bazar mühiti, biznes məkanı yaradılması yönəlmişdir. İslahatlar praktikası göstərir ki, prezident dövlət adamı olmaq etibarı ilə öz vətənini və öz xalqını sevən yerli sahibkarlara üstünlük verir. Bu cür sahibkar bütün dünyada məşhur olan Yozef Şumpeterin nəzərdə tutduğu mənada yenilikçi olmalıdır. Sahibkar yeni, istehlakçılara hələ məlum olamyan nemətlər yaratmağa, yeni islehsal üsullarını və texnologiyaları öyrənməyə, yeni satış bazarlarını, yeni xammal mənbələrini mənimsəməyə,öz sahəsində baş verən təşkilatı dəyişikliklikllərə uyğunlaşmağa çalışmalıdır. Dövlət bu cür biznez kömək etməyə borcludur, çünki Şumpeterin yazdığı kimi, "'Əgər əsas AMIL - yeni kombinasiyaları həyata keçirməyə girişən insan yoxdursa heç bir kredit iqtisadi inkişafa gətirib çıxara bilməz".

Azərbaycanda sabibkarlığın inkişaf eldirilməsi üçün hüquqi baza, mahiyyət etibarı ilə yaradılmışdır. "Sahibkarlıq fəaliyyi haqqında", "'Müəssisələr haqqında", "Məşğulluq haqqında", "Mülkiyyət haqqında", "İcarə haqqında"' və sair qanunlar edilmişdir. Sahibkarılığı maliyyə və təşkilati baxımdan dəstəkləmək üçün Milli Fond təsis edilmiş, "Antiinhisar siyasəti və sahibkarlığa gömək üzrə dövlət komitəsi, "Kiçik və orta sahibkarlığın inkişafi agentliyi", "Biznes və İqtisadiyyat informasiya mərkəzi", "Azərbaycan Respublikasının Auditor palatası" yaradılmışdır.

Ötən illər ərzində Azərbaycanda sahibkarlar sinfi iqtisadi reallıq olmaqla bərabər, həm də siyasi realllığa çevrılmışdir.Məsələ bundan ibarətdir: bu sinif hakimiyyətlə qarşılıqlı münasibətləri öz xeyrinə yenidən bölüşdürməlidirmi və beləliklə, idarəetmə funksiyalarının həyata keçirilimәsi üçün müəyyən siyasətçilər qrupunun maliyyətləşdirdiyi partiyaları təmsil edən bəzi sisyasətçiləri eəlb etməklə hakimiyyət funksiyalarını tam həemdə həyata keçiriməlidirmi? Tanınmış maliyyə maqnatı Berezovski öz fikrini məhz bu ruhda ifadə etmişdir:"Kapital hakimiyyəti işçi kimi eəlb edir və bunun forması - seçkilərdir". Sosialist (bolşevik) inqilabını və kommunistlərin 70 illik ağalığının bu cür modeli yaxın perspektivdə böyük şansa malik deyildir.

Görünür, Äzərbaycan məxsusi identikliyi əsasında modernləşmənin xüsusiyyəti ondan ibarətdir ki, yeni yaranmış burjuraziya sinfi dövlətin və cəmiyyətin xeyrinə işləyəcək və inqilabdan; əvvəlki dövrdə (Rusiya imperiyasının tərkibində) Azərbaycanda mövcud olmuş ənənələrə müvafiq şəkildə siniflərin fövqündə dayanan hakimiyyətə siyasi loyallığını ifadə edəcəkdir. Bununla bərabər, sahibkarlığın inkişafı dövlət büdcəsinə vəsaitlər daxil olmasına, yeni iş yerləri açılmasına, inflyasiyanın və əmək miqrasiyasının alovlanmasına şərait yaradacaqdir. Sahibkarlığın inkişafı həm də bu mənada modernləşmənin xeyrinədir ki, cəmiyyət və dövlət işləri daha səmərəli idarə etməyi öyrənir, idarəetmənin direktiv metoduna menecmentlik, yəni səmərəli və rasional idarəetmə elemeti də əlavə olunur.

## 8. Azərbaycan dövlətinin iqtisadiyyatda rolu

"Qovub çatma" prinsipinə əsaslanan inkişaf siyasəti, ənənəvi olaraq, dövlət tərəfindən müəyyən spesifık funsiyalarm yerinə yetirilməsini nəzərdə tutur. Əslində, yüksək dərəcədə inkişaf etmiş ölkələrdən geri qalmanı məhz həmin funksiyaların sayəsində aradan qaldırmaq mümkün olur. Dövlətin rolu məsələsi həmişə kəskin diskussiyalara səbəb olmuşdur, çünki bu məsələ nəzəri polemika çərçivəsindən kənara çıxır və modernləşmə problemini dərk edən hər bir cəmiyyətdə aparilan siyasi mübarizliyi bilavasitə əks etdirir. Modernləşməkdə olan cəmiyyətə münasibətdə dövlətin fəaliyyətinin iki aspekti var - "neqativ" və "pozitiv" aspektlər. Modernləşmədə dövlətin rolu mövzusu III Respublikanın tarixində çox maraqlı bir taleyə malikdir. Siyasi strukturlar (partiyalar və hüquq müdafiə cəmiyyətləɪı) dövlət intervensionizmi ideyasına tamamilə düşmən mövqe tuturlar, lakin onlar öz tənqidlərini avtoritarizmin tənqidi kimi, korrupsiyanın tənqidi kimi qələmə verərək, guya dövlətdən daha yüksək prioritetə malik olmalı vətəndaş cəmiyyəti yaratmaq istədiklərini bildirirlər. Bu cür qüvvələrin hakimiyyətə gəlməsi "neqativ" variantın tətbiq edilməsi, yəni dövlətin iqtisadiyyatından kənarlaşması və laktiki olaraq, onun (dövlətin) xüsusi kapital üçün, neeə deyərlər, geeə keşikçisinə çevrilməsi demək olardı. "Dövlət və iqtisadiyyat" probleminin "pozitiv" variantı Azərbaycan tarixində son iki yüz ildə həyata keçirilmişdir. Bu, ölkənin iqtisadi həyatında və deməli, sosial-siyasi və

mənəvi həyatında da, dövlətin birbaşa iştirak etməsi deməkdir.

Başqasını "qovub çatmaq" istəyən ölkə sadəcə inkişaf etməklə kifayətlənməyib, ondan irəlidə gedən ölkəyə nisbətən daha sütətlə inkişaf etməlidir. Bundan əlavə, nailiyyətləri sadəcə qəbul etmək və onları şaraitinə adaptasiya etmək və kifayət deyildi. Bu yol, ən yaxşı halda, yalnız geriləmənin artmamasına imkan verər. Dövtlət əhəmiyyətlı vəzifə isə daha artıq inkişaf etmiş ölkəyə məlum olmayan üsülları (institutları, mexanizmləri) axtarıb tapmaqdan ibarətdir. "Qovub çatma" inkişafının birinci qaydası budur - daha çox inkişaf etmiş ölkənin yolu ilə getmək olmaz. III Respublikada öz üsullarını axtarıb tapmaq mövzusu hələ yetişməyib - bu fikir ilk təəssuratın ifadəsidir və bu barədə mübahisə etməyə dəyər. Heç şübhəsiz, elə rəhbərliyi qlobal təsirlərin təzyiqini hiss edir və böhranlı vəziyyətlərə cavab rejimində fəaliyyət göstərir. Bu proses hələ başa çatmayıb. Əvvələn ona görə ki, modernlaşmənin milli modeli, o cümlədən hələ tam deyil və ikincisi, istər cəmiyyətin daxilində, istərsə də onun hüdudlarından kənarda mövcud olan ziddiyyətli uzunmüddətli amillərin nə ilə nəticələnəcəyi məlum deyil.

**Məhərrəm MƏMMƏDOV.**
**"III Respublika: Milli inkişaf modeli və strategiyası"**
**"Elm" nəsriyyatı. Bakı-2003**

## Xalqın seçdiyi lider

Dünyada insan üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. Əgər azad insan müstəqil dövlətdə yaşayırsa, bu, dəyər ölçüyəgəlməz bir xoşbəxtlikdir. Azərbaycan xalqı üçün xoşbəxtliyin belə yüksək zirvəsinin fəthi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Planetimizin bütün dövrlərdə ən görkəmli şəxsiyyətləri sırasında öndə dayanan ulu öndərimiz Heydər Əliyev öz fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin mənafeyinə xidmət etmiş və Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan torpağının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, xalqımızın xoşbəxtliyi və rifahının yaxşilaşması, ölkəmizdə demokratiyanın inkişafı üçün mümkün ola bilən hər şeyi etmişdir.

Azərbaycanm mövcudluğu tarixində dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun layiqli səviyyədə yüksəlməsi, dünya Azərbaycanlilarının birləşməsi, iqtisadiyyatın dirçəlməsi və inkişafı, xalqımızın rifah halının yaxşilaşması müdafiə qabiliyyətinin güclənməsi sahəsində ən uğurlu nəticələrə ulu öndərimiz Heydər Əliyev nail olmuşdur. Onun böyüklüyünü, əzəmətini və qüdrətini bütün dünyanın qəbul etməsi və bununla hesablaşması tarixi reallıqdır.

...90-cı illərin əvvəllərində yaranmış əlverişli şəraitlə əlaqədar xalqımız əsrlərlə həsrətində olduğu azadlıq ideallarına yenidən qovuşsa da, milli maraqlara xəyanət etmiş Vəzirov-Mütəllibov rejimi, öz şəxsi mənafelərini güdən AXE-Müsavat cütlüyünün təcrübəsizliyi və səriştəsizliyi Vətənimizin öz müstəqilliyini itirməsi, ərazisinin parçalanması, dövlətçiliyinin məhv olması təhlükəsi ilə üz-üzə qoydu: ölkə böhran içərisində idi; dövlət idarəçiliyi orqanlarının, müəssisə və təşkilatların fəaliyyəti iflic vəziyyətinə salınmışdı; bütün sahələrdə hərc-mərclik hökm sürürdü; inflyasiya dünyada nadir müşahidə olunan vəziyyətə çatmışdı; dövləti zor gücünə ələ keçirən səriştəsiz və ambisiyalı şəxslər kriminal qruplara bölünərək, əhalini vahimə içərisində saxlayırdı; işsizlər kütləsi getdikcə artırdı; elm, mədəniyyət və incəsənət xadimlərinə, tanınmış mütəxəssislərə etimadsızlıq göstərilməsi adi hala çevrılmışdi. Ölkəmizdə çıxış yolu görünməyən belə bir zamanda xalqın müxtəlif təbəqələrinin saysız-hesabsız müraciətləri, təkidli tələbi və vəziyyətdən çıxış yolu tapmaqda aciz qalan iqtidarın özünün inadlı xahişləri ilə məhz ümummilli liderimiz Heydər Əliyev yenidən Azərbaycanın siyasi rəhbərliyinə gələrək, öz qayıdışı ilə dövlətimizin inkişafına və xalqımızın rifahının yaxşilaşmasına zəmin yaratdı, taleyüklü problemlərin hamısını qısa müddət ərzində böyük müvəffəqiyyətlə həll edərək, Azərbaycanın müstəqilliyinin dönməzliyi, əbədiliyi və sarsılmazlığı üçün zəruri olan bütün tədbirləri gördü. Atəşkəs sazişinin əldə olunmasından böyük məharətlə istifadə edərək, respublikada ictimai-siyasi sabitliyin bərqərar olunması, kriminogen vəziyyətin aradan qaldırılması,

vahid komandanlıq altında nizami ordunun yaradılması, bazar iqtisadiyyatına keçidlə bağlı aparılması mühüm əhəmiyyət kəsb edən islahatları həyata keçirdi ki, hələ 70-ci illərdə istehsalın bütün sahələri üzrə elm və təhsilə, ixtisas və peşələrə yiyələnmələri məqsədi ilə dahi rəhbərimiz tərəfindən respublikadan kənara göndərilən gənclərin böyük əksəriyyəti bu işdə fəal iştirak etdilər.

Azərbaycanda ilk Milli Konstitusiyanın qəbulu, demokratik seçkilərin keçirilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti, senzuranın götürülməsi, üçpilləli məhkəmə sisteminin yaradılması, terrorçuluqla fəal mübarizə aparılması, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi də ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil dövlətçiliyimizin və Azərbaycanın ən yeni tarixinin yaradıcısı olan ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasına uyğun olaraq, dövlətçilik siyasətinin ən layiqli davamçısı, yüksək intellektə, əhatəli dünyagörüşünə, prinsipial mövqeyə, şəxsi nüfuza, fikirlərinin reallığa uyğunluğunu inandırıcı dəlillərdən istifadə yolu ilə sübut etmək bacarığına malik olan, beynəlxalq aləmdə kifayət qədər tanınmış siyasi xadim Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizdə sabitliyin axarı, müstəqilliyin möhkəmləndirilməsi, dövlətçiliyin gücləndirilməsi və qüdrətləndirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, beynəlxalq nüfuzunun yüksəlməsi istiqamətində yeni-yeni uğurlar qazanilmaqdadır.

Bu gün Azərbaycan xalqı, vətəndaşlarının Milli Konstitusiya və mütərəqqi qanunlarla tənzimlənən hüquq və azadlıqlarına real təminatlar yaradan, hüquqi məkanda və vətəndaş cəmiyyətdə yaşadığına, mütərəqqi islahatlar nəticəsində formalaşmış demokratik, sivil və hüquqi dövlətdə fəaliyyət göstərdiyinə, "Əsrin müqaviləsi" və bu kimi digər böyük layihələri həyata keçirdiyinə, özəlləşdirmə aparilmaqla bazar iqtisadiyyatı şəraitinin formalaşması nəticəsində əldə etdiyi iqtisadi müstəqilliyinə, beynəlxalq aləmin tamhüquqlu üzvü olmaqla, dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiya etdiyinə, ərazi bütövlüyünün bərpası istiqamətində aparilan və son nəticədə erməni qəsbkarları tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması ilə nəticələnəcək siyasətə görə dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik siyasətinə borcludur.

Azərbaycan xalqının mütləq əksəriyyətinin dəstəyi ilə Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin gördüyü işlər xalqımıza və bütün beynəlxalq aləmə əyani surətdə göstərir ki, Heydər Əliyev siyasəti və ideyaları yaşayır, onun müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, bu ideyaların həyata keçirilməsi istiqamətində ardıcil və məqsədyönlü şəkildə dövlətçilik tədbirləri həyata keçirılır. Sön dörd il ərzində Azərbaycanda görülən və bu gün də müvəffəqiyyətlə davam etdirilən qurucu

luq işləri, Azərbaycan Respublikasının hərtərəfli sosial-iqtisadi inkişafı, xalqımızın həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər əsası 1993-cü ildə qoyulmaqla bu günə qədər davam edən ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin təntənəsi kimi qiymətləndirilir. Öz müstəqilliyinin 16 ili ərzində hüquqi, demokratik və sivil dövlət quruculuğu kimi möhtəşəm məqsədlərini həyata keçirməyə nail olmuş Azərbaycan Respublikası hazırda öz yeni inkişaf tarixini yaşayır. Dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın dinamik şəkildə və yüksələn xətlə sosial-iqtisadi inkişafı, əhalinin həyat şəraitinin qabaqcıl ölkələr səviyyəsinə qaldırılması, müxtəlif sahələr üzrə, o cümlədən idmanla əlaqədar əhəmiyyətli nailiyyətlərə müvəffəq olunması, demokratik dəyərlərin tam şəkildə reallaşması və dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiyası, doğma torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində müəyyənləşdirilmiş uzaqgörən strateji xəttə uyğun olaraq, məqsədyönlü tədbirlər həyata keçirılır.

Son 4 ildə həyata keçirilən bu tədbirlərin başlıca məqəsdlərindən biri də məhz ölkə vətəndaşlarının firavan yaşayışının təmin edilməsidir. Nazirlər Kabinetinin 2007-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında göstərildiyi kimi, Azərbaycan son illərdə dünyada analoqu olmayan sürətlə inkişaf etmişdir. 2007-ci ilin birinci yarısında əhalinin pul gəlirləri 37 faiz, əmək haqqı 26 faiz artmışdır. İlin ilk altı ayında təxminən 40 min yeni iş yeri açılmış, ümumilikdə, 2003-cü ildən ötən müddət ərzində yeni iş yerlərinin sayı 572 min olmuşdur. Əvvəlki illərdə olduğu kimi, 2007-ci ilin birinci yarısı da Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, Dövlət Proqramının uğurla idarə edilməsi və əhalinin sosial rifahının daha da yaxşilaşması ilə əlaqədar olmuşdur. 2007-ci ilin I yarısında ölkədə ümumi daxili məhsulun istehsalı 35,1 faiz artaraq 10672,4 milyon manata çatmışdır: adambaşına düşən gəlirin həcmi 1265 manat olmuşdur. Sənaye istehsalının həcmi də 35,6 faiz artmışdır. Dövlət büdcəsinin gəliri ötən ildəkindən 71 faiz çoxalmışdır. 5 il əvvəl dövlət büdcəsi 1,5 milyard manat idisə, ölkənin iqtisadi potensialının tam hərəkətə gətirilməsinə nail olunması nəticəsində, növbəti ildə, həmin rəqəmin 12 milyard manatdan çox olacağı gözlənilir.

Ökəmizdə iqtisadiyyatın inkişafı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 2 oktyabr 2007-ci ildə "Qara dəniz və Xəzər dənizi regionunda birbaşa Xarici investisiyalar" beynəlxalq konfransın və biznes-forumunun iştirakçılarını salamlayarkən demişdir ki, Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlar nəticəsində iqtisadi inkişafda nəzərə çarpan irəliləyiş əldə olunmuşdur. Qeyri-neft sektorunun genişləndirilməsi iqtisadiyyatın diversifikasiyası, müasir infrastrukturun qurulması ölkədə sosial-iqtisadi inkişafın dinamikliyini təmin edən əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Ölkəmizdə bərqərar olmuş siyasi sabitlik və demokratik mühit bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi sistemin formalaşmasına güclü təkan vermişdir. Bu tədbirdə investisiya qoyuluşlarının ürəkaçan gedişinə toxunan dövlət başçısı bildirmişdir: "Azərbaycanda Xarici investisiya yatırımları üçün əlverişli şərait yaradılmış və bu proses dövlət tərəfindən daim dəstəklənir. Bu gün respublikamızın mövcud iqtisadi durumu və investisiya mühiti iş adamlarına sərbəst şəkildə fəaliyyət göstərmək imkanı verir. Tarixdə "Böyük İpək Yolu" kimi tanınmış şərq-qərb, habelə şimal-cənub nəqliyyat dəhlizinin kəsişməşində yerləşən ölkəmiz regionda əhəmiyyətli sənaye-ticarət mərkəzinə çevrilməkdədir.

Uğurla həyata keçirilən "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum" və "Bakı-Tbilisi-Qars" kimi məqalayihələr nəinki region miqyasında, habelə bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malikdir. Bu qlobal partnyorluq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir".

Ölkəmizdə investisiya sahəsində görülən işləri araşdırmaqla göstərək ki, bu gün Azərbaycan investisiyanın səviyyəsinə görə dünya ölkələri sırasında öndədir. 2004-cü illərdə dövlət başçımızın bilavasitə iştirakı ilə Böyük Britaniya, Çin, İtaliya, Rusiya, Latviya, Litva, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdə təşkil olunmuş biznes-forumlar bu sahədə işə böyük təkan vermişdir. Gələn ilin dövlət büdcəsində təkcə dövlət xətti ilə investisiyaların həcminin ən azı 3 milyard dollar təşkil edəcəyi, iqtisadiyyatın tam liberallaşdırılması, inkişafın hər sahədə müşahidə olunması, adambaşına düşən birbaşa Xarici investisiyaların həcminə görə Azərbaycanın bölgədə lider olması böyük nailiyyətdir. Dövlət İnvestisiya Şirkətinin yaradılmasına qərar verilməsi, Azərbaycan Respublikasında "xüsusi iqtisadi zonaların yaradılması haqqında" 6 mart 2007-ci il tarixli fərman sahibkarlığın sürətli inkişafına xidmət edən kompleks tədbirlərin mühüm tərkib hissəsidir. Ölkəmizdə cari ilin yanvar-avqust aylarında 17,2 milyard ABŞ dolları məbləğində ümumi daxili məhsulun istehsal edilməsi, adambaşına düşən investisiyanın həcminə görə Azərbaycanın MDB ölkələri sırasında birinci yerdə olması, l995-2007-ci illər ərzində iqtisadiyyatımıza 42 milyard dollar sərmayə yatırılması, bu ilin sonunadək investisiyaların məbləğinin təxminin 6 milyard dollara çatacağı ölkəmizin sürətli dinamik inkişafından xəbər verir.

Dünya ölkələri sırasında hər hansı bir dövlətin yeri onun iqtisadi cəhətdən inkişafına görə müəyyən edilir. İqtisadiyyatı güclü  olan dövlət öz siyasətini daha inamla, daha cəsarətlə yürüdür, digər dövlətlərin onunla hesablaşmasını şərtləndirir. İqtisadi müstəqilliyin siyasi müstəqilliyi möhkəmləndirməsi, onu qüdrətləndirməsi mübahisəsizdir. Məhz buna görə də Heydər Əliyev siyasi kursuna rəğmən, ölkəmizdə iqtisadiyyatın inkişafına xüsusi diqqət yetirilir.

Ötən dörd il ərzində ölkə əhalisinin aztəminatlı təbəqəsindən olan pensiyaçıların sosial müdafiəsinin daha da gücləndirilməsi üzrə parametrlər bir daha sübut edir ki, ölkə başçısının nəzərdə tutduğu proqram - məqsədlər uğurla reallaşdırılmış əhaliyə ödənilən pensiya və digər sosial ödənişlər üzrə xərclərin hər il artımı müşahidə olunmuş bu sahədə köklü dəyişikliklər baş vermişdir. Bünun nəticəsidir ki, əmək pensiyalarnın orta aylıq məbləği 2003-cü illə müqayisədə 3,6 dəfə artaraq 2007-ci ildə 65,7 manata, pensiyanın minimum məbləği isə 3,6 dəfə artaraq 50 manata çatmışdır. Dövlət Sosiali Müdafiə Fonduna daxilolmalar da əhəmiyyətli dərəcədə artmışdır. Təkcə 2007-ci ilin yanvar-iyun aylarında 58,4 faiz artaraq 300 milyon manata yaxın məbləğ təşkil etmişdir. Yoxsulluğun səviyyəsi 20 faizə düşmüşdür. Bu da önəmlidir ki, 2007-ci ilin iyununda Dünya Bankı tərəfindən Azərbaycanın sığorta-pensiya modeli keçid dövrü ölkələri üçün örnək kimi təqdim olunmuşdur.

Dövlət başçımızın "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün tədbirlər planının təsdiq edilməsi haqqında" 2006-ci il 1 fevral tarixli sərəncamına əsasən, 431228,98 manat dəyərində körpülərin və yeraltı keçidlərin inşası da uğurla davam etdirılır. Makroiqtisadi sabitliyin qorunmasına, antiinflyasiya tədbirlərinin gücləndirilməsinə, qiymətlərin süni olaraq artırılmasına qarşı tədbirlər görülməsi həmişə diqqət mərkəzində olmaqla, insanlara qayğının tərkib hissəsidir.

Bakı şəhərinin içməli su probleminin tam həlli üçün Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilişinin, Abşeron suvarma sisteminin tikintisinin geniş vüsəti həyat şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Azərbaycanın 6 trilyon kubmetr qaz ehtiyatına malik olması, hasilatın ildən-ilə artması, ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən elektrik stansiyalarının tikilməsi ölkəmizin güc və qüdrətinin durmadan yüksəlməsinin təzahürüdür.

Azərbaycanda təhsil sahəsinə çox böyük qayğı göstərılır. Elə onun nəticəsidir ki, son 3-4 il ərzində ayrilan büdcə xərcləri 3,3 dəfə artmış, 2007-ci ildə bu məbləğ 900 milyon manat olmuşdur. 4 il ərzində 1200 məktəb tikilmiş, 1000-dən çox məktəbdə təmir işləri aparılmışdır ki, bu da böyük nailiyyətdir. Bu sahədə birinci ledi, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramli səfiri Mehriban xanım Əliyevanın əməyi diqqətəlayiqdir. Fondun xətti ilə 200-ə qədər məktəbin tikilməsi, büdcənin 14 faizinin təhsil məsələlərinə sərf olunması, Prezidentin ehtiyat fondundan da 14 milyon manat ayrılması, müəllimlərin problemlərinin həllinin həmişə diqqət mərkəzində durması, gələn il əmək haqlarının yenə də artırılmasının nəzərdə tutulması təhsilə göstərilən doğma münasibətin nəticəsidir.

Azərbaycanda həm reqionlarda, həm də Bakıda səhiyyənin inkişafına xüsusi

diqqət yetirılır. Tikintisi 20 il yarımçıq qalmış Milli Onkoloji Mərkəzin 2008-ci ildə istifadəyə veriləcəyi Elmi-Tədqiqat Oftalmologiya İnstitutu binasının da dünya standartları səviyyəsində, tikilməsi Travmatologiya İntstitutunun, Böyrəkköçürmə Mərkəzinin, bölgələrdə diaqnostika mərkəzlərinin tikilməsi, Bakıda 25 tibb müəssisəsinin istifadəyə verilməsi, təkcə 2007-ci ildə 50-dək tibb müəssisəsinin tikilməsi və ya təmir edilməsi, təcili tibbi yardım: xidmətinin də yeniləşməsi insanların sağlam yaşamaq barədə Konstitusiya hüquqlarının həyata keçirilməsi sahəsində dövlət başçısnın xüsusi qayğısıdır.

Azərbaycan Prezidentinin son 4 illik fəaliyyəti idmana qayğı nümunələri ilə də zəngin olmuşdur. Bu baxımdan, bölgələrdə yeni olimpiya komplekslərinin inşasının davam etdirilməsi faktını xüsusi vurğulamaq lazımdır. Dövlət başçısının diqqət və qayğısının nəticəsi kimi Azərbaycan idman ölkəsinə çevrılır, beynəlxalq arenada nüfuz və mövqeyini gücləndiriır. Milli Olimpiya Komitəsinin fəaliyyəti aydın göstərir ki, gənclərin və yeniyetmələrin mənəvi və estetik tərbiyəsinin formalaşması onların əxlaqına, davranışına, kollektiv və cəmiyyətə inteqrasiyasına da güclü təsir edir, Azərbaycanda gündən-günə artan idman komplekslərinin, mərkəzlərinin yaradılması xalqımızın, xüsusən gənclərin sağlamlağına, milli-mənəvi və estetik dünya görüşünün formalaşmasına güclü təsir etməklə, onlara dövlət qayğısını da əks etdirir.

1997-ci il iyulun 31-də son dərəcə sönük fəaliyyət göstərən Azərbaycan Milli Olimpiya Komitəsinin Baş Məclisində ARDNŞ-in birinci vitse-prezidenti Cənab İlham Əliyevin bu qurumun prezidenti seçilməsi inkişafa təkan verdi; idmanın maddi-texniki bazası yaradıldı, ağırlıq mərkəzinin regionlara keçirilməsi son yeddi ildə 15-dək müasir olimpiya idman kompleksinin tikilib istifadəyə verilməsi ilə nəticələndi. Yaxın gələcəkdə universal, böyük idman qurğuları respublikamızı tam əhatə edəcəkdir. İndi Azərbaycan təkcə idmançıların beynəlxalq yarışlarda hamını heyrətə gətirən çıxışları ilə deyil, həm də dünya miqyaslı mötəbər yarışların təşkilatçısı kimi tanınır. 2000-ci ildən başlayaraq, respublikamızda mötəbər idman yarışları keçirılır və ölkəmizin bu sahədəki təşkilatçılıq bacarığı beynəlxalq mütəxəssislər tərəfindən təqdir olunur. Bu sahədə ölkə Prezidentinin ən fəal müttəfiqi Mehriban xanım Əliyeva da Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi bu elitar idman növünün ölkəmizdə populyarlaşmasına öz töhfəsini vermişdir.

Azərbaycanda idmana, olimpiya oyunlarına göstərilən böyük diqqətin nəticəsidir ki, ölkəmiz dünyada idman ölkəsi kimi tanınır. Bu, həm də Azərbaycanın qüdrətini, imkanlarını təzahür etdirir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev demişdir: "Azərbaycan Olimpiya oyunları keçirmək üçün bütün imkanlara malikdir". Elə məhz buna görə də Azərbaycan 2016-ci ildə Olimpiya oyunlarını keçirmək təşəbbüsü ilə çıxış edir.

Bir vaxtlar maddi çətinlik üzündən respublikamızı tərk etmiş çoxsaylı idmançılar geri qayıdaraq, respublikamızda idman şərəfini qoruyurlar: müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarına qatılaraq, uğurlu nəticələr göstərirlər.

Əgər 1998-2000-ci illərdə Azərbaycanda üç beynəlxalq turnir və bir Avropa çempionatı keçirılmişdirsə, 2001-2004-eü illərdə üç olimpiya təsnifat turniri, 4 dünya çempionatı, 3 Avropa çempionatı, dünya və Avropa kubokları, müxtəlif idman növləri üzrə 16 beynəlxalq turnir keçirılmışdir. 2005-2007-ci illərdə isə həmin turnirlərin sayı daha çox oldu. Bütün bunlar Azərbaycanın və onun idmanının şöhrəti, ölkəmizin iqtisadi qüdrətinin göstəricilərindəndir.

Dörd il ərzində görülən bütün işlər, aparilan siyasət Azərbaycanı daha da inkişaf etdirdi, ölkəmiz daha da qüdrətləndi, gücləndi, öz mövqeyini möhkəmləndirdi, ölkəmizdə vətəndaş birliyi tam bərqərar olundu. Dinlərarası münasibət yeni keyfiyyət səviyyəsinə qalxdı. Dinlərarası münastbətlərin inkişafı, sivilizasiyalararası dialoqun möhkəmlənməsi, həm yəhudi, həm xristian dinlərinin daşıyıcıları ilə qardaşlıq əlaqələrinin daha da güclənməsi, nüfuzunun artması dəstəkləyənlərin, tərəfdaşlarımızın çoxalması deməkdir.

Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin qarşıya qoyduğu mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də işğal altında olan torpaqlarımızı geri almaq, yurd-yuvalarından didərgin salınmış soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Bu məsələnin beynəlxalq prinsiplər əsasında həll edilməsinə qədər ermənilərin etnik təmizləmə siyasətindən və uydurma torpaq iddialarından əziyyət çəkən soydaşlarımızın sosial problemlərinin həlli istiqamətində əsaslı dönüş yaradılmışdır. Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədi ilə son dörd ildə 383 milyon manat pul ayırlmaqla yanaşı, müntəzəm olaraq yemək xərci verilir, qış mövsümündə yanacaq paylanır. Göstərilən qayğının nəticəsi olaraq, 6075 nəfər qaçqın və məcburi köçkün işlə təmin olunmuş, 760 fermer təsərrüfatı yaradılmışdır. Bayramlarda verilən yardımların miqdarı isə 10 milyon manata yaxindir. Qaçqın və məcburi köçkünlərə 15713 yaşayış evindən ibarət 49 qəsəbə salınması, 106 orta məktəbin, 4 musiqi məktəbinin, 34 uşaq bağçasının, 4 xəstəxananın, 38 tibb məntəqəsinin, 29 klub-icma mərkəzinin, 30 rabitə evinin tikilib istifadəyə verilməsi, uzunluğu 820 km olan elektrik hava xəttinin çəkilməsi, habelə son dörd il ərzində görülən bu və digər işlər qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı bütün tədbirlərin görüləcəyinə hər bir kəsdə möhkəm inam yaradır.

2007-ci il sentyabrın 4-də keçirilən Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin müzakirəsinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham

Əliyev demişdir: "İqtisadi sahədə, siyasi cəhətdən Azərbaycan bölgənin aparıcı ölkəsidir. Hamı bunu etiraf edir.

Azərbaycan böyük ölkələrlə bərabər hüquqlu münasibətlər qura bilib, biz öz enerji siyasətimizi aparmaqla bölgənin və Avropanın enerji təhlükəsizliyinə töhfəmizi verməyə başlayırıq. Yerləşdiyimiz bölgədə gedən proseslərə bizim çox böyük dərəcədə təsir etmək imkanlarımız var... Əsas məsələ, bir nömrəli problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bu, birinci problemdir. Bu problemi həll etmək üçün nə lazımdırsa, onu da edəcəyik".

Əsasını ümummilli liderimiz Heydər Əliyevin qoyduğu hərbi islahatların möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə ən çətin tapşırığın öhdəsindən inamla gələn güclü və peşəkar Azərbaycan Ordusu yaradılmışdır. Göstərilən hərtərəfli diqqət və qayğı nəticəsində hərbi qulluqçuların döyüş ruhu yüksəlmiş, Vətəni qorumaq məsuliyyəti, torpaqlarımızı işğalçılardan təmizləmək qətiyyəti güclənmişdir. Ordumuz müasir texnika və silahlarla təchiz olunmuş, hərb elminin son nailiyyətlərini mənimsəmişlər. BMT-nin qəbul etdiyi qərar əsasında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin tərkibinə əsgər və zabitlərimizin də daxil olunması Azərbaycan Ordusunun yüksələn nüfuzunun təzahürüdür. Azərbaycan Ordusu çox sürətlə inkişaf edir. Əgər 2003-eü ildə ölkəmizdə hərbi xərclər 135 milyon dollar məbləğində idisə, 2007-ci ildə bu rəqəm 1 milyard dollara çatmışdır, yəni 4 ildə 8 dəfə artmışdır. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yeri tutur. Ölkəmizdə hərbi xərclərin Ermənistanın dövlət büdcəsinə bərabər olmasının özü Silahlı Qüvvələrimizin qüdrətinin əyani təzahürüdür. 2007-ci il iyunun 22-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxalışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyev demişdir: "Bizim üçün Dağlıq Qarabağdan başqa heç bir ciddi məsələ yoxdur, təbii ki, bundan istifadə edəcəyik, ordumuzu gücləndirəcəyik, bütün yollarla Ermənistana təzyiq edəcəyik və öz doğma torpaqlarımızı azad edəcəyik... Mən ölkə Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, bir daha bəyan edirəm ki, ordunun güclənməsi üçün bundan sonra da əlimdən gələni edəcəyəm. Bu gün burada numayiş etdiriləcək yeni döyüş təyyarələri də bunun çox gözəl təzahürüdür". Azərbaycan dövləti və onun ordusu kifayət qədər hörmətə malikdir, öz torpaqlarını işğalçilardan azad etmək gücündədir. Ordumuz istənilən vaxt hərb yolu ilə məsələni həll edə bilər. Buna Azərbaycan Prezidentinin son dörd ildə apardığı məqsədyönlü islahatlarla nail olunmuşdur. Belə bir ordu ilə Azərbaycan xalqı fəxr edir və öz Prezidentinə minnəldarlıq bildirir.

Öz mənalı həyatını xalqımızın bugünü və sabahı ilə yaşayan ulu öndərimiz 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciət edərək demişdir: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Həyat dahi rəhbərimiz Heydər Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Danılmaz bir faktdır ki, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi, insanlara firavan həyat bəxş edilməsi sahəsində yorulmaz və məqsədyönlü faəliyyəti ilə Azərbaycanın hər bir vətəndaşının yaxşı Prezidenti olan Cənab İlham Əliyevin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə nüfuzu gündən-günə yüksəlir. Təkcə onu göstərmək kifayətdir ki, ölkədə siyasi qüvvələr balansını, xalqın onlara etimad səviyyəsini, siyasətçilərin reytinqini müəyyənləşdirmək üçün ABŞ-ın Beynəlxalq Seçki Sistemləri Fondunun (İFES) Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə keçirdiyi sorğularla rəyi soruşulan 1400 nəfərin 85 faizi Azərbaycan Prezidentini dəstəklədiyini bildimişdir. 2005-ci ildə isə bu faiz 73,4 olmuşdur. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev bu zirvəyə yüksək intellektə, praqmatik düşüncəyə, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bildiyinə, tükənməz enerjiyə və təşəbbüskarlığa malik olduğuna və bu xüsusiyyətlərdən yeni məzmunlu demokratik dövlət quruculuğu işlərində özünəməxsus bacarıqla istifadə etdiyinə görə yüksəlmişdir. Əldə etdiyi uğurlar, qazandığı nailiyyətlər onu deməyə imkan verir ki, Azərbaycanın hər bir vətəndaşının yaxşı Prezidenti olan İlham Əliyev bütün xalq tərəfindən sevilir və hər bir sakin onu özünə doğma sanır. Xalq üçün, Vətən üçün gördüyü əzəmətli işlərlə ürəkləri fəth etmiş, insanların xöşbəxtliyi üçün daim yorulmadan çalışan İlham Əliyevin - xalqın seçdiyi liderin ölkəyə rəhbərliyi hamı tərəfindən bəyənilir və onun müddətinin daha çox davamiyyəti ürəkdən gələn ən önəmli arzudur. Belə lideri olan xalq xoşbəxtdir. Onun nəzərdə tutduğu, planlaşdırdığı işlərin uğurla həyata keçirilməsində yardımçı olmaq hər birimizin müqəddəs boreudur.

**Vidadi Zeynalov,**
**Rabitə və İnformasiya Texnologiyaları**
**Nazirliyi Aparatının rəhbəri**

## İmişli: İqtisadi və sosial inkişafın yeni mərhələsində

Ölkəmizin gözəl guşələrindən olan İmişli Aran bölgəsinin aparıcı rayonlarından biri kimi ad-san qazanmışdır. Qədim yurdun zəhmətkeş insanlarının xoş təbəssümü, qonaqpərvərliyi bu yerlərə gələn adamları valeh edir, təbiətin "gözəl hüsnü" isə hər gələnə yenə də "gəl-gəl" deyir. Doğma Azərbaycanın bugünkü inkişaf templərini gözəl diyarda hər zaman müşahidə etmək mümkündür.

İmişlinin zəngin tarixi vardır, bu yer qədim insanların məskəni olmuşdur. Orta əsrlərə aid tarixi abidələrin qalıqları hələ də durur. Muxutəpə yaşayış yerinin tarixi küp qəbirlər mədəniyyəti dövrünə gedib çıxır, Qalaca yaşayış yerinin 800 ilə yaxın yaşı var, "Dəyirman yeri şəhərgahı" IX-X əsrlərə aiddir. Bundan başqa, Qızıltəpə, Yeddioymaq, Aranlı, Abıştəpə abidələri də xalqımızın qədim keçmişindən xəbər verir.

İmişli rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur. 1890 kvadratkilometr sahəsi, 110 min nəfərdən çox əhalisi olan rayonda 1 şəhər, 2 qəsəbə, 48 kənd mövcuddur.

Rayonda əsas iqtisadiyyat sahəsi kənd təsərrüfatıdır, lakin son illər sənaye də böyük sürətlə inkişaf etməkdədir. Faydalı qazıntılardan neft, qaz, qum və çınqil çıxarılır.

Son illər bütün ölkəmizdə olduğu kimi, İmişli rayonunda da quruculuq işləri geniş miqyas almışdır.

Azərbaycan xalqının böyük oğlu, zəmanəmizin nadir şəxsiyyəti, ümummilli liderimiz Heydər Əliyevin 85 illik yubileyini yenicə qeyd etdik. Bu əlamətdar tarixə həsr olunmuş tədbirlərimiz hələ də davam etməkdədir. Yibley günlərində həyata keçirdiyimiz tədbirlər bir daha sübut etdi ki, ulu öndərimiz böyük siyasi və dövlət xadimi kimi xalqımızın tarixi taleyində çox mühüm rol oynamışdır.

Ümummilli liderimiz sözün həqiqi mənasında bütün həyatını doğma xalqın rifahına, xoşbəxt gələcəyinə həsr etdi. Heydər Əliyev Azərbaycanı dərin tənəzzüldən, qardaş qırğınından, qarmaqarışıqlıq və xaosdan xilas etdi, onun həyata keçirdiyi islahatlar hüquqi, dünyəvi, demokratik dövlətin bərqərar olmasına geniş yol açdı, müstəqilliyimizin möhkəmləndirilməsinə imkan yaratdı və onu təmin etdi. Ulu öndərimiz Azərbaycanın müstəqilliyinin memarı və onun banisidir.

Ümummilli liderimizin İmişli əhalisinin də üzərində haqqı var. O öz hakimiyyəti dövründə 4 dəfə rayonumuzda olmuş, ərazilərimizi qarış-qarış gəzmiş, zəhmət adamları ilə görüşərək onların vəziyyəti ilə mütəmadi olaraq maraqlanmış, çoxlu problemləri yerindəcə həll etmişdir. O illərdə rayonda nə qədər böyük quruculuq işləri getmişdir, təsərrüfatlar yaradılmış, sənaye müəssisələri ilk addımlarını atmış,

sosial-iqtisadi obyektlər tikilmişdir! Bunu bizim ağsaqqalırımız, əmək veteranlarımız, o unudulmaz günlərin şahidləri daha yaxşı bilirlər.

Sakinlərimiz bu tarixi görüşləri həmişə xatırlayır, Heydər Əliyevi ən dərin hörmətlə yad edir, onun verdiyi tövsiyələrdən indinin özündə də bəhrələnirlər. Azərbaycana rəhbərliyinin hər iki dövründə bu tarixi şəxsiyyət İmişli rayonunun tərəqqisi üçün hər şeyi etmişdir. Məhz göstərilən dəstək nəticəsində İmişli rayonu da çətin məqamlarda ruhdan düşməmiş, böhranlardan çıxmış, böyük inkişaf yoluna düşmüşdür. Biz bugünkü nailiyyətlərimizi, həyatda, işdə nə qazanmışıqsa hamısını Heydər Əliyev dühasının bəhrələri hesab edirik, bütün insanlarımız bundan hədsiz fəxarət hissi duyurlar.

Ümummilli liderimizin təməlini qoyduğu strateji siyasi kurs onun layiqli siyasi varisi, Prezident möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Rayonumuzda Cənab İlham Əliyevin göstərişləri ilə böyük quruculuq tədbirləri həyata keçirılır, bütün yaşayış məntəqələri abadlaşır və gözəlləşir, iqtisadiyyatda yeni modern meyllər kök salır. Onun qayğı və diqqəti nəticəsində son illər ərzində İmişlinin siması tanınmaz dərəcədə dəyişilmiş, istehsal ve sosial təyinatlı obyektlər inşa edilmiş, zəhmetkeşlərin güzəranı xeyli yaxşilaşmışdır.

2003-cü ilin oktyabrından sonra rayonumuzda Şəkər zavodu, broyler fabriki, Muğan SES, "Araz" konyak və şirələr zavodu, "Orion-E" MME, "Şəki-ipək" MME, Bəhramtəpə "Çınqil-Servis" şirkəti, Cəfərli yarımstansiyası, şəhər stadionu, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı, ulu öndərin muzeyi, "Kral" şadlıq sarayı, pivə zavodu, çoxlu sayda digər sosial-iqtisadi istiqamətli obyektlər tikilib istifadəyə verilmişdir. Ayrıca qeyd etmək yerinə düşər ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın xüsusi qayğı və diqqəti sayəsində rayonda 18 ümumtəhsil məktəbi tikilib istifadəyə verılmış, 5 məktəb əsaslı təmir olunmuş, hazırda 6 məktəb binasında inşaat işləri gedir, bir neçə məktəbdə əsaslı təmir işləri aparılır.

Biz ölkə başçısının irəli sürdüyü vəzifələri tam reallaşdımaq, insanların yaşayışını onun görmək istədiyi kimi qurmaqdan ötrü bütün qüvvələrimizi səfərbərliyə almışıq.

Cənab İlham Əliyev bu yaxınlarda Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasındakı geniş nitqində bəyan etmişdir ki, son 4 il-də Azərbaycan iqtisadiyyatının inkişaf templəri görünməmiş miqyasda artmış, ümumdaxili məhsul istehsalı 14 faiz çoxalmış, bütövlükdə birinci rübün göstəriciləri ölkə üçün uğurlu olmuşdur. Bu, onu deməyə əsas verir ki, respublikada iqtisadi islahatlar dönməz xarakter almış, dinamik inkişaf təmin edilmişdir.

Ölkəmizin hər yerində olduğ kimi, İmişli rayonunun sosial-iqtisadi inkişafinda

da bir sıra uğurlu nəticələr əldə olunmuş, nailiyyətlər qazanılmışdır. Bəzi rəqəmlərə nəzər salaq. Rayonda eari ilin birinci rübü ərzində iqtisadiyyatın əsas sahələri üzrə 34510,4 min manatlıq məhsul istehsal olunmuş və ya xidmət göstərılmış, bunun 63,6 faizi sənayenin, 16,2 faizi kənd təsərrüfatının, 14,6 faizi ticarət və iaşənin, qalanı tikinti, nəqliyyat və rabitə sahələrinin payına düşür. Əsas sahələr üzrə məhsul buraxilışı ötən ilin müvafiq dövründəkinə nisbətən 23,9 faiz artmışdır.

Aqrar sahədə 2008-ci ilin məhsulu üçün 4679 hektarda arpa, 11646 hektarda buğda, 478 hektarda kartof, 430 hektarda tərəvəz, 2852 hektarda yonca, 300 hektarda şəkər çuğunduru əkilmiş, 7200 hektarda pambıq şumu aparılmışdır Əvvəlki illə müqayisədə taxil əkinləri 694 hektar artmışdır. İribuynuzlu mal-qaranın sayı 76395 başa, davarların sayı 217912 başa çatdırılmışdır. İlin ilk rübündə 1808 ton ət, 7543 ton süd, 2 milyon 392 min ədəd yumurta istehsal olunmuş, bütün bu göstəricilər üzrə əvvəlki ilin miivafiq dövrü ilə müqayisədə artım müşahidə olunmuşdur.

Qeyd etdiyim kimi, rayonda sənaye məhsulları istehsalının həcmi durmadan artır. Bu artımın əsas hissəsi İmişli Şəkər zavodunun öz fəaliyyətini genişləndirməsi sayəsində mümkün olmuşdur. Cari ilin birinci rübündə burada 61103 ton şəkər tozu emal edilmiş, 17882,7 min manatlıq məhsul istehsal olunmuşdur ki, bu da rayon üzrə istehsal olunmuş sənaye məhsulunun 81,5 faizini təşkil edir.

Regionların sosial-iqtisadi inkişafı və əhalinin ərzaq təminatı, habelə işsizliyin məhdudlaşdırılmasında regionda analoqu olmayan bu iri müəssisənin rolu olduqca böyükdür. 87 milyon ABŞ dollarına başa gələn, hər gün 6 min ton şəkər çuğunduru emal etmək, ildə 1 milyon ton şəkər istehsal etmək gücünə malik olan zavodun tikintisinə 2003-cü ildə başlanmış, inşaat işləri cəmi 27 ay ərzində başa çatdırılmışdır. 2006-ci il mart ayının 23-də möhtərəm Prezidentimiz İlham Əliyev zavodun açılış mərasimində şəxsən iştirak etmişdir.

Eyni zamanda zavodun ərazisində gündə 600 ton qarışıq yem, 40 ton bitki yağları, xeyli digər məhsul vermək gücündə aqrar-sənaye kompleksi yaradılmışdır. Həmin kompleksdə istehsal həcmi 300 ton olan küspəqurutma fabriki də inşa edilmişdir. Zavodun ərazisində daxili təsərrüfat da yaradılmışdir ki, burada 100 baş mal-qara bəslənilir, 2,5 hektar sahədə meyvə bağları salınmışdır. İmşlinin fəxri olan bu nəhəng müəssisədə bütün istehsal prosesləri avtomatlaşdırılmış, ən yeni texnologiyalar tətbiq olunmaqdadır.

Onu da qeyd etmək vacibdir ki, ötən il zavodun işə fəaşlaması ilə əlaqədar ölkənin 9 rayonunda 4000 hektarlıq ərazidə şəkər çuğunduru becərilmişdir. 762 fermer və 152 fiziki şəxslə şəkər çuğunduru qəbulu haqqında müqavilə imzalanmışdır. Bu il çuğundurun miqdarı 100 min tona yaxın olacaqdır. Əkin sahələrinin artırilaraq 8500 hektara çatdırılması, bu sahələrdən 255 min ton məhsul ildə edilməsi nəzərdə tutulmuşdur.

"Azərsun Kənd Təsərrüfatı" MME tərəfindən həyata keçirilən layihələr çərçivəsində yararsız torpaqlar çuğundur əkinləri üçün yararlı hala salınmışdır. Biləsuvarda 3400 hektarda bu işlər daha yaxşı aparılmışdır.

İmişlidə neftçıxarma ənənəvi sənaye sahəsi hesab edilir, bu sahəyə diqqət daim artırılır. Muradxanlı neft mədənləri vaxtilə bütün keçmiş SSRİ məkanında məşhur idi və indi də respublikamızın neft anbarına öz payını verməkdədir. Bu ilin birinci rübündə Muradxanlıda 8,3 min ton neft hasil edilmiş, proqnoz tapşırığına tam əməl olunmuşdur. Burada nəzərdə tutulan 150 min kubmetr təbii qaz hasil edilmişdir ki, bu da daxili ehtiyacları ödəmək üçün istifadə olunmuşdur. Birinci rüb ərzində mədən üzrə 1 quyuda qazma işləri başa çatdırılmış, 2 quyuda əsaslı təmir işləri aparılmışdır.

Rayonda istehsal olunan sənaye məhsullarının 87,5 faizi emal sənayesi müəssisələrinin, qalan hissəsi enerji və su təehizatı ilə məşğul olan obyektlərin payına düşür. O da mühümdür ki, sənaye məhsullarının 90,6 faizi qeyri-dövlət bölməsində islehsal olunmuşdur.

Rayonumuzda əsaslı tikinti xeyli irəli getmişdir. 2008-ci ilin birinci rübündə bütün maliyyə mənbələri hesabına rayon iqtisadiyyatının və sosial sahələrin inkişaf etdirilməsi üçün 4838,7 min manat həcmində investisiya qoyulmuşdur. Ötən ilin müvafıq dövrü ilə müqayisədə investisiya qoyuluşu 118,8 faiz artmışdır. Rayonda fəaliyyət göstərən tikinti təşkilatları tərəfindən birinci rübdə görülən podrat işlərinin həcmi 734 min manatdan çox olmuşdur. Bunun 443,8 min manatı yeni tikinti, 198 min manatı əsaslı təmir, 92,2 min manatı eari təmir işləridir. Həyata keçırılmış podrat işlərinin 265,2 min manatı avtomobil yollarının əsaslı və cari təmirini əhatə etmişdir. Bəhramtəpə dəmir-beton zavodu müəssisələrin materiallarla təminatında mühüm rol oynayır. 38 işçinin çalışdığı müəssisədə yaşayış və inzibati binaların tikintisi üçün bloklar, betonitlər, divar və örtük panelləri armatur karkasları, kanallar üçün beton borular və plitələr, digər məmulatlar istehsal edilir. Cari ilin birinci rübündə burada 154408 manatlıq iş görülmüşdür.

Nəqliyyat bölməsində fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 565,2 min manatlıq xidmət göstərılmişdir ki, bu da ötən ilin müvafiq dövründəkindən çoxdur. Bu xidmətlərin 99,8 faizi özəl bölmənin payına düşür. Avtomobil nəqliyyatı birinci rübdə 137 min ton yük daşımışdır ki, bu da əvvəlki ildəkindən 1,5 faiz çoxdur. Sərnişinlərin sayı da çoxalaraq 993 min nəfərə çatmışdır.

Rayondakı 36 saylı yol-istismar idarəsi tərəfindən bu müddətdə Ağsu-Kürdəmir-Bəhramtəpə avtomobil yolunda, Araz çayı üzərindəki körpüdə təmir işləri aparılmış, Hacıqabul-Bəhramtəpə-Mincivan avlomobil yolunda, yerli əhəmiyyəli yollarda hamarlama və cari təmir işləri görülmüş, İmişli-Qaravəlli-Mirili yoluna çınqıl

döşənmişdir ki, bu da yük və sərnişin daşınması işinə müsbət təsir göstərmişdir.

Birinci rüb rabitə və ticarət sahələri üçün də uğurlu olmuşdur. Əhaliyə, idarə və müəssisələrə 125,4 min manatlıq, ötən ildəkindən 60,4 faiz çox rabitə xidməti göstərilmiş, Qızılkənd və Boşçalilar kəndlərində müasir avtomat-telefon stansiyaları quraşdırılmış, Bəhramtəpə qəsəbəsində elektron ATS-in quraşdırılmasından ötrü yenidənqurma işləri görülmüş, Otuziki kəndində poçt binası inşa olunmuş, İmişli şəhərindəki M.Müşfiq küçəsində telefonlaşdırma aparılmışdır. Rayonda əmtəə dövriyyəsi 17447 min manat, əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 3913 min manat təşkil etmiş, hər iki göstərici üzrə müvafiq olaraq 46,4 və 113,8 faiz artım olmuşdur.

Adamların xidmət sahələri ilə daha mütəşəkkil əhatə olunmasında özəl müəssisələr əsas rol oynayır. Ona görə də möhtərəm Prezidentimizin qarşıya qoyduğu prioritet vəzifələrdən biri sahibkarlığın inkişaf etdirilməsidir. Rayonumuzda özəl bölmənin müasir tələblər səviyyəsinə yüksəldilməsi üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsində birinci rübdə iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışında özəl bölmənin payı 93,6 faiz təşkil etmişdir. Sahibkarlığın inkişafı üçün 828 min manat uzunmüddətli, 1485,7 min manat qısamüddətli kreditlər verılmiş, əhalidən banklara 36,7 min manat əmanət qəbul edilmişdir.

Rayonda əhalinin elektrik enerjisi və təbii qazla təminatı sahəsində xeyli iş görülmüşdür. Bu ilin ilk 3 ayında 19 transformator təmir olunmuş, şəhər və kəndlərdə xeyli istismara yararsız dirək və naqillər dəyişdirılmişdir. Bu müddətdə 343 abonentin evinə mavi yanacaq verılmiş, qaz xətlərində təmir işləri sürətləndirılmiş, yeni qaztənzimləyici şkaflar quraşdırılmışdır. Əhali enerji ilə fasiləsiz olaraq təmin olunur, ödəmələr kəsirsiz həyata keçirılır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda irəli sürülmüş vəzifələrin icrası ilə bağlı işlərimizdən ayrıca bəhs etmək istəyirəm. 330 kilobaltlun 2-ei İmişli Parsabad və İmişli-Şirvan DRES ötürüeü xətlərinin inşası davam etdirılmiş, hazırda tikinti-quraşdırma işləri başa çatmaq üzrədir. Bəhramtəpə hidroqovşağında bərpa işləri aparılmış, suvarma kanallarının 33,4 kilometri, kollektorların 22,2 kilometri lildən təmizlənmişdir. Kür və Araz çaylarında daşqınların qarşısını almaq üçün 293 kubmetr sahilbərkitmə işi həyata keçirılmiş, mühafizə bəndləri möhkəmləndirılmişdir. Eəfərli, Haeırüstəmli və Aranlı kəndlərində 5000 hektar ərazidə suvarma-drenaj şəbəkələrinin bərpası rayonun iqtisadiyyatının yüksəlməsinə xeyli kömək edəcəkdir.

Tikinti işləri öz vüsətini gündən-günə artırır. Bitki yağları müəssisəsinin, spirt, yem və süd emalı zavodlarının inşasına hazırlıq işləri gedir. Olimpiya İdman Kompleksinin. DSMF rayon şöbəsinin, əmək və əhalinin sosial müdafiəsi mərkəzinin və qaz istismarı idarəsinin, vergi terminalının binalarında tamamlama işləri aparılır.

Mirili kəndində 192, Muradalili kəndində 160, Muradxanlı kəndində 120, Qaralar kəndində 600 yerlik məktəb binalarının tikintisi davam etdirilmiş, şəhərin Gənclik məhəlləsində 360, Murğuzallı kəndində 180 yerlik məktəblərin tikintisinə başlanmışdır, Əsaslı təmirinə ötən il start verılmış Bəhramtəpə qəsəbə və Xəlfəli kənd orta məktəb binalarında işlər yekunlaşmaq üzrədir. Məktəblərin maddi-texniki bazası xeyli möhkəmləndirılmış, ümumtəhsil məktəbləri üçün ləvazimatlar alınmışdır. Rayon mərkəzi xəstəxanasının yeni təmir olunmuş cərrahiyyə şöbəsi üçün müasir tibbi cihaz və avadanlıqlar yaxın vaxtlarda buraya gətiriləcəkdir.

Bundan başqa, tarix-diyarşünaslıq muzeyində, mədəni-maarif müəssisələrində təmir və bərpa işləri görülür, bu müəssisələr lazımi inventarla təchiz olunur.

Regionların sosial-iqtisadi inkişafına dair tədbirlərin görülməsi nəticəsində son beş ilə yaxın müddət ərzində 14346 iş yeri açılmışdır ki, bunun da 9816-sı daimi iş yerləridir. Əhalinin həyat şəraiti yaxşılaşmış, ailələrin büdcəsinə xeyli əlavə vəsait daxil olmuşdur. Həyat şəraitini səciyyələndirən orta aylıq əmək haqqı təkcə bu ilin birinci rübündə 143 manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövründəkinə nisbətən 39 manat çoxdur.

Möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin iclasında qarşımıza əvvəlkindən daha mühüm vəzifələr qoymuşdur. O, göstərmişdir ki, əldə olunan nailiyyətlərlə əsla kifayətlənmək olmaz. İrəlidə bizi sosial-iqtisadi inkişafın yeni və daha məsuliyyətli mərhələsi gözləyir. Ona görə də bütün səylər indidən səfərbərliyə alınmalı, imkanlar araşdırılmalı və dürüstləşdirilməli, atacağımız hər addım dəqiq ölçülüb-biçilməlidir.

Onu da nəzərə almaq lazımdır ki, cari il respublikamızın ictimai-siyasi həyatında çox mühüm, mən deyərdim ki, taleyüklü hadisə prezident seçkiləri ilə əlamətdardır. Bu ümumxalq və ümumdövlət əhəmiyyətli tədbirin mahiyyətini məneə hamı yaxşı başa düşür. Biz tapşırlmış işə məsuliyyətimizi qat-qat artırmalı, xalqın bütün istək və arzularını yerinə yetirməliyik.

Vətəndaşlarımızın ən dərin etibarını qazanmış, onun şəriksiz lideri olan Cənab İlham Əliyevi hər sahədə dəstəkləməli, ona kömək etməliyik. Bu, bizim vətəndaşlıq və vəzifə borcumuzdur, xalqımızın taleyini xoş və firavan görmək istəyiriksə, seçkilərin yüksək siyasi fəallıq şəraitində keçirilməsinə hər cür yardım göstərməliyik. Yalnız belə olduqda inkişafimızın daha da irəliləməsinə nail ola bilərik.

İmişli əhalisi məhz bu amalla yaşayır, yaradır, çalışır.

**Əbülfəz Ağayev,**
**İmisli Rayon İcra Hakimiyyətinin bascısı**

## Yeniləşən Beyləqan

Ən yeni tariximizdə respublikamızda iqtisadiyyatın bu cür sürətlə inkişafi dünyanın əksər ölkələrində müşahidə olunmayıb. Ölkəmizdə insanların firavan həyat şəraiti artıq arzu deyil, bu bir reallıqdır. Dövlətimizin başçısı İlham Əliyev son dörd ildə ölkənin inkişafı və tərəqqisi naminə həyata keçirilən çox mühüm proqramların uğurlu nəticələri haqqında danışarkən qeyd edib ki, bizi ən çox sevindirən bölgələrin bütün infrastrukturunun yeniləşməsidir. Bölgələr çox sürətlə yaxşılığa doğru dəyişir. Yeni iş yerləri açılır, məktəblər inşa olunur, həyat şəraiti durmadan yaxşılaşır. İnsanlar indi daha yaxşı yaşamaq haqqında düşünürlər.

Regionların inkişafı Prezidentin daim nəzarətindədir. Bu səbəbdəndir ki, dövlət başçısının bölgələrə səfərləri mütəmadi xarakter almışdır. Bu yaxınlarda Füzuli, Beyləqan və Biləsuvar rayonlarına səfəri xalq ilə Prezidentin sıx birliyini bir daha nümayiş etdirdi. Təxminən 20 ildən sonra Beyləqan rayonuna təbii qazın verilməsi bərpa olunmuşdur. Bu əlamətdar gün münasibətilə beyləqanliları təbrik edən Azərbaycan Prezidenti İlham Əliyev haqlı olaraq qeyd etmişdir ki, bu gün yanan bu məşəl inkişafın simvoludur.

Aran iqtisadi rayonuna daxil olan Beyləqan torpağında bu gün geniş miqyaslı tikinti-quruculuq və abadlıq işləri aparılır. Dövlət başçısının Beyləqan camaatı ilə səmimi görüşləri və burada aparilan işlərə yüksək qiymət verməsi insanların ruh yüksəkliyini daha da artırıb. Qədim Beyləqan öz tarixinin yeni səhifəsini yazır.

Rayonun giriş hissəsində Mil düzünün yaraşığı hesab olunan "yay kimi dartılıb, ox kimi süzən", təbiətin nadir incisi olan Ceyran Abidə Kompleksi ana təbiətə vurğunluğun, yüksək zövqün və həssas bir qəlbin nişanəsidir. İndi Beyləqanda belə nadir guşələrə daha tez-tez rast gəlmək mümkündür.

Rayonun inkişaf tempini göstərən tutarlı dəlillər kifayət qədərdir. Onlar haqqında bu gün hər bir beyləqanlı qürur və sevinclə söz açır.

2007-ci il Beyləqan rayonunun iqtisadiyyatının inkişafi üçün əsl uğurlu il olmuşdur. Rayonda istehsal olunmuş məhsulların və əhaliyə göstərilən xidmətlərin həcmi faktiki qiymətlərlə 59,9 milyon manat təşkil etmişdir. Bu, əvvəlki ildəkindən 3,0 faiz çoxdur. İstehsal olunmuş məhsulların adambaşına düşən həcmi il ərzində faktiki qiymətlərlə 17,9 faiz artaraq 840 ABŞ dollarına çatmışdır. Bu dövrdə 2 milyon 914 min manatlıq sənaye məhsulu istehsal edilmiş, xidmət göstərilmişdir. Sənayedə çalışanların orta aylıq əmək haqqı əvvəlki ildəkinə nisbətən 29,6 faiz artmış, kənd təsərrüfatı məhsulları istehsalının həcmi faktiki qiymətlərlə 36,6 milyon manat təşkil etmişdir.

Rayonda əsas kapitala yönəldilən investisiyaların həcmi 6 milyon manat olmuşdur.

Bunun 2,9 milyon manatı istehsal təyinatlı obyektlərə yönəldilmişdir. Bu dövrdə rayonda ümumi sahəsi 18,1 min kvadratmetr olan 189 mənzil istifadəyə verılmışdir. Bütövlükdə istifadəyə verilən əsas fondların dəyəri 4,9 milyon manat təşkil etmişdir.

Ötən il rayonun ticarət və iaşə şəbəkələri tərəfindən əhaliyə satılan istehlak mallarının dəyəri 47 milyon manat, əvvəlki ildəkindən 26,8 faiz çox olmuşdur. İaşə xidmətinin həcmi 0,9 milyon manata, pullu xidmətlərin həcmi 9,8 milyon manata, məişət xidmətinin həcmi 1,4 milyon manata çatmışdır.

"Dövlət Proqramı"na uyğun rayonda yenidənqurma, tikinti-abadlıq və mədəni quruculuq işləri ötən il və bu ilin I rübündə intensiv olaraq davam etdirılmışdir. Bu dövrdə respublika və rayon əhəmiyyətli avtomobil yollarının 24,1 kilometr hissəsində əsaslı, 24,9 min kvadratmetr sahədə asfalt-beton qarışığı ilə cari təmir işləri aparılmış, Örənqala, Şəfəq qəsəbə, Təzəkənd, Dünyamalilar, Birinci Şahsevən kənddaxili yollarına 4,31 kilometr uzunluqda 24,8 min kvadratmetrdən artıq asfalt örtük salınmışdır.

35 min ton istehsal gücündə pambıq emalı müəssisəsi, şəhərin mərkəzində müasir üslubda "Parabank"ın inzibati binası, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 3 mərtəbəli 24 mənzilli yaşayış binası, kənd və qəsəbələrdə 164 fərdi yaşayış evi, 81 saylı Beyləqan Dairə Seçki Komissiyası, yeni təşkil olunmuş rayon meliorasiya idarəsi və Şəfəq qəsəbə inzibati ərazi vahidi üzrə nümayəndəlik üçün inzibati binaları istifadəyə verilib. Dünyamalilar meyvə-tərəvəz konserv müəssisəsi, Milabad süd qəbulu və emalı sexi, "Rəşad-Nur" mebel sexi, mebel salonu, "Xan qızı" kanalı üzərində Körpü, Qum-çınqil istehsalı üzrə 3 karxana, şəhərin şərq və qərb giriş kompleksləri, "Təbiət abidəsi", "Şəhidlər" xatirə kompleksi, 100-dən çox ticarət, iaşə və digər istehsal, emal və xidmət obyektləri tikilib istifadəyə verılmışdir.

Beyləqanda yeni bir muzey yaradilıb. Tarix-diyarşünaslıq muzeyi. Bəri başdan qeyd edək ki, çoxəsrlik Azərbaycan dövlətçilik tarixini, qədim Beyləqanın keçmişini çox dəyərli və mənalı eksponatlarla əks etdirən tarix-diyarşünaslıq muzeyinin ölkəmizdə analoqu yoxdur.

Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin tarix və milli-mənəvi dəyərlər haqqında iki kəlamı daş kitabələrə həkk olunub. Məktəblilərə bu muzeydə qədim tariximiz haqqında açıq dərslər keçiləcək, Azərbaycan tarixi və Beyləqan haqqında bukletlər paylanacaqdır. Beşbarmaq yarpaqları ilə gözoxşayan xan çinarların əhatəsində yerləşən tarix-diyarşünaslıq muzeyi daxili imkanlar hesabına həyata vəsiqə qazanıb. Çox böyük məna və dəyərli eksponatları ilə qədim Beyləqanda çoxəsrlik tariximizin səhifələrini təqdim edən tarix-diyarşünaslıq muzeyi zəngin mədəniyyət ocağıdır.

Yolların kənarlarına, park və xiyabanlara 30 mindən artıq ağac əkilmiş, 10 min kvadratmetrdən artıq sahədə yaşıl çəmənliklər, 400 metr uzunluqda yeni səkilər salınmış, bütövlükdə 20 min kvadratmetrdən artıq sahəyə dekorativ üzlük daşlar döşənmişdir. Şəhərin mərkəzi mədəniyyət və istirahət parkında geniş abadlıq və quruculuq işləri aparılmış, "Əyləncə mərkəzi", "Cənnət bağı", "Xan bağı" istirahət-xidmət guşələri yaradılmışdır. Ümumilikdə görülən işlərə 5,2 milyon manat, 2006-cı ildəkindən 0,7 milyon manat çox vəsait sərf olunmuşdur.

Hazırda işlərin mərkəzində 2 hektar sahədə 2500 nəfərdən artıq yeni daimi iş yerlərinin yaradılması nəzərdə tutulan "İstehsal-satış kompleksi"nin, "Azersell"in ekspress müştəri xidmətləri müəssisəsinin, "Texnikabank"ın inzibati binasının, 3 mərtəbəli ticarət-xidmət kompleksinin, 2 mərtəbəli mebel salonunun, avtovağzal binasının, Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Məşğulluq Mərkəzi və Əmək Müfəttişliyi üçün inzibati binanın, Birinci Şahsevən kəndində özəl tibbi diaqnostika mərkəzinin və digər iki kapital tutumlu binaların tikintisi davam etdirılır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun rayonda 20.117 yeni iş yeri açılmışdır. Bunun 4121-i daimi iş yerləridir. Təkcə 2007-ci ildə rayonda 7046 yeni iş yeri yaradılmışdır ki, bunun da 928-i daimi iş yeridir. Bu dövrdə 6118 nəfər müvəqqəti, 13071 nəfər mövsümi işlərə cəlb edilmişdir.

Bu dövrdə rayon əhalisinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə rayonun 5 yaşayış məntəqəsində 6 yeni artezian və subartezian quyusu qazılmış, 9,6 min metr uzunluğunda yeni su xətləri çəkilmiş, 114 müxtəlif tipli su nasoslarında, hidrotexniki qurğularda, 8,2 min metrdən artıq ötürücü su xətlərində əsaslı və cari təmir işləri aparılmış, nəticədə 18 min nəfərdən artıq əhalinin içməli su ilə təminatı yaxşılaşmışdır. Şəhərin SMD-4 qəsəbəsində mövcud kanalizasiya sistemi təmizlənmiş, onlarca yaşayış binasının, inzibati binanın və xidmət obyektlərinin bu xidmət növündən istifadəsi xeyli yaxşılaşmışdır.

Azərbaycan Respublikası Prezidentinin ölkədə əhalinin, istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təminatının yaxşılaşdırılmasına, istehlak olunan elektrik enerjisinin dəyərinin ödənilməsinə və bu sahədə yol verilən neqativ halların qarşısının alınmasına dair verdiyi tapşırıqların icrası 2007-ci ildə də rayon icra hakimiyyətinin fəaliyyətinin prioritet istiqamətlərindən olmuşdur. Yaradılmış qərargah tərəfindən bu istiqamətdə görülən işlər, göstərilən əməli köməkliklər sayəsində il ərzində 13.655 abonentə (99,5 faiz) sayğac quraşdırılmış, istehlak olunmuş elektrik enerjisinin dəyərinin ödənilmə səviyyəsi 53,5 faizdən 100 faizə çatdırılmış, əhalidən əvvəlki ildəkinə nisbətən 576 min manat çox enerji haqqı yığılmışdır.

Bununla belə, rayonun bir sıra yaşayış məntəqələrində, elektrik ötürücü

xətlərinin primitiv qaydada çəkilməsi, gərginlik transformatorların tələb olunan güedə qurulmaması, elektron ötürücü qurğularında yenidənqurma işlərinin, habelə təmir və sazlama işlərinin aparılması üçün lazımi avadanlıqların, mal-materialların və texnikanın olmaması çətinliklər yaratmışdır.

Təsərrüfatların suvarma suyu ilə təminatının yaxşılaşdırılması və torpaqların şoranlaşmasının qarşısının alınması məqsədilə ötən il rayonda xeyli iş görülmüşdür. Örənqala, Dünyamalılar, Bünyadlı, Əhmədli, Kəbrili, Allahyarlı, Tatalılar, Eyvazalılar, İmamverdilli, Aşağı və Yuxarı Çəmənli ərazi vahidlərində suvarma kanallarının 120 kilometrdən artıq hissəsi lildən təmizlənmiş, 55 kilometr dren-kollektor şəbəkəsi yenidən bərpa olunmuşdur.

Azərbaycan Respublikasının Meliorasiya və İrriqasiya Proqramına uyğun "Yuxarı Mil" kanalı ilə "Xan qızı" kanalı arasında yerləşən Allahyarlı, Yeni Mil, Milabad, Mil yaşayiş məntəqələrində 4200 hektar sahənin 1200 hektarında torpaqların yaxşılaşdırılması üzrə kompleks meliorativ tədbirlərə başlanilmış, eari il isə Şərq, Türklər, Sarısu kəndləri ərazisində 5000 hektar sahənin suvarma sistemlərinin yaxşılaşdırılması üzrə irriqasiya işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Beyləqan kənd təsərrüfatı rayonudur və iqtisadiyyatının əsasını bitkiçilik, heyvandarlıq təşkil edir. Aqrar bölmədə məhsul istehsalı xeyli artmışdır. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamının məhsul istehsalçılarında yaratdığı stimulun bu artımda çox böyük rolu olmuşdur. Bu dövrdə rayon üzrə 13 min 27 torpaq mülkiyyətçisinə 40 min 333 hektar əkin sahəsinin becərilməsi üçün 1,6 milyon manat məbləğində dövlət yardımı verılmış, 1100 tondan çox güzəştli gübrə paylanmışdır.

Aqrar bölmədə çalışan əmək adamlarına göstərilən diqqət və qayğı sayəsində ötən il rayonda əkin sahələrinin həcmi son 16 ildə ən yüksək həddə - 45 min 772 hektara çatmışdır. Son illər İmişli Şəkər zavodunun istifadəyə verilməsi, rayonda şəkər çuğunduru əkininə marağı xeyli artırmışdır. Hesabat ilində rayonda ən müasir aqrotexnikanın tətbiqi ilə 350 hektar sahədə şəkər çuğunduru əkilmiş, bu günədək 12,3 min tondan çox məhsul istehsal olunmuşdur.

Bu dövrdə rayon üzrə 43,6 min ton taxil, 6,8 min ton pambıq istehsal olunmuş, əvvəlki ildəkindən xeyli çox olmaqla, kartof istehsalı 3,3 min tona, meyvə istehsalı 7,1 min tona, tərəvəz istehsalı 10,4 min tona, üzüm istehsalı 1,1 min tona, bostan məhsulları istehsalı 4,5 min tona çatdırılmışdır. Heyvandarlıq daha yüksək templə inkişaf etmişdir. İl ərzində iribuynuzlu mal-qaranın sayı 1,5 min baş artaraq 51,2 min başa, qoyun-keçilərin sayı 8,9 min baş artaraq 271 min başa çatmış, bütün növdən olan quşların

sayı çoxalmış, 2006-eı ildəkinə nisbətən daha çox ət, süd, yun, yumurta istehsal edilmişdir.

Hazırda rayonda "Aqrolizinq" ASE-nin kənd təsərrüfatı məhsulları istehsalçılarına texniki xidmət edən 82 texnikadan, maşın və mexanizmdən ibarət xidmət parkına malik olan bir aqrotexservis müəssisəsi fəaliyyət göstərir. Lakin fermerlərin ehtiyaelarını tam ödəmək üçün rayonda ən azı 8-10 yerdə belə texniki xidmət servislərinin açılmasına ehtiyac var.

Bu dövrdə rayon üzrə 43,6 min ton taxil, 6,8 min ton pambıq istehsal olunmuş, əvvəlki ildəkindən xeyli çox olmaqla kartof istehsalı 3,3 min tona, meyvə istehsalı 7,1 min tona, tərəvəz istehsalı 10,4 min tona, üzüm istehsalı 1,1 min tona, bostan məhsulları istehsalı 4,5 min tona çatdırılmışdır.

Ölkədə sahibkarlığın inkişaf etdirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin qarşıya qoyduğu vəzifələr son illər rayon icra hakimiyyəti tərəfindən ardıcil surətdə yerinə yetirılmışdir. Hesabat ilində sahibkarlıq fəaliyyətinə əngəl törədən amillərin aradan qaldırılması, iş adamları üçün lazımi informasiya, məsləhət və digər xidmət mərkəzlərinin fəaliyyətinin canlandırılması, bu dövrdə onlara verilən kreditlərin həcminin 2 dəfədən çox artırılması hesabına rayonda məhsul istehsalı və xidmətlər sahəsində qeyri-dövlət sektorunun xüsusi çəkisi xeyli artmış, sənayedə 60 faiz, tikintidə 31 faiz, nəqliyyatda 99 faiz təşkil etmişdir. Pərakəndə əmtəə dövriyyəsinin 99 faizi, iaşə dövriyyəsinin, məişət xidmətinin, digər pullu xidmətlərin 100 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Bu gün həyatımızda və rayonumuzda baş verən müsbət dəyişikliklərə görə dövlətimizin başçısı Cənab İlham Əliyevə minnətdarıq. Prezidentin Füzuli və Beyləqan rayonlarının sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər haqqındakı sərəncamı dərin razılıqla qarşilanıb. Beyləqan camaatı qarşıdan gələn prezident seçkilərində səs verecəkləri namizədi indidən müəyyən ediblər. Onlar inkişafa, əmin-amanlığa, firavan həyat şəraitinə, güclü və qüdrətli Azərbaycana, onun liderinə səs verməklə gələcək uğurlara, müasir dövlətə, ərazilərin bərpa olunmasına münasibət bildirəcəklər.

**İrşad Əliyev,**
**Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı**

## Quba: Görülən işlər və qarşıda duran vəzifələr

2008-ci il Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlamışdır. Xalqımızın ümummilli lideri, əbədiyaşar tarixi şəxsiyyət, ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlətçilik konsepsiyasının, iqtisadi inkişaf strategiyasının və Xarici siyasət kursunun Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən yeni tarixi şəraitə uyğun uğurla davam etdirilməsi ölkəmizin həm regionda, həm də beynəlxalq miqyasda artan nüfuzunun daha da möhkəmlənməsində, vətəndaşlarımızın maddi rifah halının durmadan yaxşilaşmasında özünü göstərmişdir.

Qubanın inkişafı möhtərəm Prezidentimizin daim diqqət mərkəzindədir. Elə bunun nəticəsidir ki, rayonumuza investisiya axını güclənmiş, yeni sosial obyektlər, istirahət guşələri, turizm obyektləri tikilməyə başlamış, Quba şəhərinin küçə və parklarında təmir və bərpa işləri görülmüşdür.

İlin ötən 3 ayında rayon iqtisadiyyatının aparıcı sahələrinə diqqət daha da artırılmış, nəticədə ümumi məhsul buraxilışının həcmi 33,2 faiz artaraq 24 milyon 896 min manat olmuşdur. İstehsal olunmuş ümumi məhsulun 31,8 faizi kənd təsərrüfatının, 14 faizi isə sənayenin payına düşür. Bu dövr ərzində rayonda bir nəfərə düşən məhsulun həcmi 165,9 manat olmuş rayon üzrə orta əmək haqqı 119 manat təşkil etmişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 03 avqust tarixli 935 nömrəli sərəncamı ilə təsdiq edilmiş tədbirlər planında verılmış tapşırıqların həyata keçirilməsi nəticəsində 2008-ci ilin 3 ayı ərzində rayonda 381 iş yeri açılmışdır. Bunun 271-i daimi, 110-u isə mövsümü iş yerləridir. Ümumilikdə Dövlət Proqramının həyata keçirdiyi dövr ərzində rayonda 12 min 622 iş yeri açılmışdır ki, bunun 4306-sı daimi, 8316-sı isə müvəqqəti və mövsümi iş yerləridir.

Sənaye məhsulunun inkişafı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artaraq 3 milyon 492 min manat olmaqla əsas yeri konserv məhsulları, şirələr, xalçaçılıq məhsulları və şirniyyat məmulatları tutmuşdur.

Rayon əhalisinin elektrik enerjisi və təbii qazla təminatının yaxşılaşdırılması, istifadə olunan təbii qaz və elektrik enerjisi haqlarının toplanması sahəsində müəyyən işlər görülmüşdür. Birinci rübdə rayonun I Nügədi kəndindəki qaz xətləri təmir edilərək əraziyə qazın verilməsi bərpa edilmişdir. Kəndin 700-dən artıq abonenti qazla təmin olunmuşdur. 01 aprel 2008-ci il tarixə bütün abonentlərin mənzillərinə qaz sayğacları quraşdırılmışdır. Təbii qazın əhaliyə verilməsində yaranmış çatışmazlıqların aradan qaldırılması məqsədilə 128 qazpaylayan şkafda nizamlama işləri aparılmış, 2

ədəd daşıyıcı boru üzərində olan diametri 350 milli metrlik siyirtmələr tam sökülərək təftiş olunmuşdur. Şəhərin Dağıstan, Qarabağ, Vidadi küçələrində qazın təzyiqini yaxşılaşdırmaq məqsədilə daxili imkanlar və ərazidə yaşayan sakinlərin köməkliyi ilə 120 poqon metrdən artıq boru dəyişdirilərək iri ölçülü borularla əvəz olunmuşdur.

Rayon elektrikşəbəkə idarəsi 33 min 177 fərdi abonentə xidmət göstərir ki, bunun 7 min 49-u Quba şəhərindədir. 3 ayda rayona 1 milyon 659 min manat dəyərində 27 milyon 643 min kilovatsaat elektrik enerjisi verılmışdir. İndiyədək 31777 abonentdən 25903 abonentin mənzili sayğaclaşdırılmışdır ki, bu da 78 faiz təşkil edir.

I rüb ərzində şəhərin Heydər Əliyev prospektində, Ə.Nərimanov, Vaqif, Fətəlixan, G.Əsədəv küçələrində magistral su xətləri təmir edilərək istismara verılmışdir. Şəhərin daxilində 6 ədəd, kəndlərdə isə 4 ədəd subartezian quyularının nasosları təmir edilmişdir. Bununla bərabər əhalinin içməli suya olan tələbatının ödənilməsində çox işlər görülməlidir. Bu məqsədlə Dövlət Proqramına uyğun Dünya İnkişaf Bankının vəsaiti hesabına Quba şəhəri üçün "Qudyal çayı" hövzəsində 426 millimetr diametrində metal borularla 1000 metr kaptaj salınması, 426 millimetr diametrində metal borularla magistral su xəttinin çəkilişi, Quba şəhərinin 32-33-eü məhəlləsində 1 ədəd yeni subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur.

3 ay ərzində Qonaqkənd qəsəbəsinin Qaravulüstü və Eimi kəndlərinə 2000 metr uzunluğunda kabel çəkilərək 30 ev telefonlaşdırılmışdır. I Nügədi kəndində 250 nörnrəlik elektron tipli ATS quraşdırılmışdır.

Telefondan istifadə edən abonentlərin sayı hazırda 15930 nəfərdir. 3 ay ərzində əhaliyə 740,6 min manatlıq rabitə, 792 min manatlıq nəqliyyat xidməti göstərılmışdir.

Rayon üzrə ümumilikdə 23 min 419 nəfər pensiya və müavinət alan vətəndaş qeydiyyatdadır. I rüb ərzində pensiya və müavinətlərin ödənilməsi üçün tələb olunan vəsait 3 milyon 879 min manat olmuş və həmin vəsait pensiyaların ödənişi üçün bütünlüklə ödəniş müəssisələrinə köçürülmüşdür. Sosial müavinət alanların sayı 4813 nəfər olmaqla aylıq məbləği 121 min 645 manat olmuşdur. Rüb ərzində bu kateqoriyadan olan vətəndaşlara 365 min 100 manat müavinət ödənilmişdir.

3 ay ərzində 1282 nəfər vətəndaşa 286 min 809 manat ünvanlı sosial yardım verilmişdir. Hər ailəyə ayda 74 manat, hər bir ailə üzvlərinə 14 matıat 82 qəpik məbləğində sosial yardım düşmüşdür.

Müalicə diaqnostika mərkəzinin, 12 mərtəbəli yaşayış binasının, "Azərbaycan bayrağı" abidəsinin, Heydər Əliyev prospektində "UNİBANK"ın və "Bank Standard"ın Quba filialının binalarının tikintisi davam etdirılır.

Quba şəhərində "Azərbaycanlilaların soyqırımı" abidə kompleksi əsash surətdə

yenidən qurulmuş və 31 mart 2008-ci il tarixdə Azərbaycanlıların soyqırımı günündə abidənin açılışı olmuşdur. Rustov kəndində 1903-eii ildə inşa edilmiş məscid binası Respublika Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına təmir olunmuşdur.

2007-ci ildə şəhərin mərkəzi meydanında yenidənqurma işlərinə başlanılmış və hazırda burada işlər davam etdirilır. Şəhərdə kommunal xidməti yaxşılaşdıraraq, pərakəndəliyin qarşısını almaq və bu sahənin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamına əsasən Quba komunal müəssisələri kombinatı, Quba mənzil təsərrüfatı təmir istismar istehsalat müəssisəsi və Quba təmizlik sanitariya və yaşillaşdırma müəssisəsi birləşdirilərək Quba Şəhər Mənzil İstismarı və Kommunal Təəsərrüfatı Departamenti yaradılmışdır.

Hazırda rayonun II Nügədi və Alekseyevka kəndlərində şadlıq saraylarının tikintisi aparılır.

Dağlı, Aşağı Atue, Ağbil və Ərməkiqışlaq kəndlərində daxili imkanlar hesabına feldşermama məntəqələri üçün yeni binalar tikilmiş, 11 kənddə klub binası, 9 kənddə isə kitabxana binası təmir edilmişdir.

Kəndlərdə 9600 metr uzunluğunda içməli su xətti çəkilmiş, 20 min 350 metr uzunluğunda içməli su xətti təmir edilmiş, 14000 metr uzunluğunda suvarma arxları və 16 kilometr uzunluğunda kənd yolları təmir edilmişdir.

Zərdabi, Bağbanlı və İqriq kəndlərində subartezian quyuları qazılmış, 2 subartezian quyusu və 2 transformator təmir olunmuşdur.

Rayonda I rüb ərzində 64 hektar sahədə yeni meyvə bağları salınmış, rayon aqrar elm mərkəzinin tinglik təsərrüfatında, Timiryazev, Hacıhüseynli, Zizik və Dəlləkli kəndlərindəki özəl tinglik təsərrüfatlarında 16 hektardan çox sahədə meyvə tinglik təsərrüfatları yaradılaraq meyvə tingləri istehsal olunur. Tinglik təsərrüfatlarında 18 min 400 ədəd virussuz calaqallı yetişdirılmış, yeni məhsuldar Avropa sortlarının əldə edilməsi üçün 30 min ədəd calaqaltı əkilmişdir.

Meşə və digər təbii resurslardan səmərəli istifadə üzrə kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə əlaqədar cari ilin 3 ayında Meşə Fondu torpaqlarında 40 hektar sahədə yeni mədəni meşə əkinləri salınmış, 1 hektarda fidanlıq yaradılmış, 1 hektar böyütmə sahələri salınmışdır.

Birinci rüb ərzində Hacıhüseynli kəndində "Təravət" kiçik emal sexi fəaliyyətini qismən bərpa etmişdir. Xınalıq kəndində yaradılan süd emali sexində məşhur Xınalıq pendirinin istehsalına başlanmışdır.

Son illər rayonda təhsilin səviyyəsinin yüksəkdilməsi, yeni məktəblərin tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazalarının yaxşılaşdırılması sahəsində

xeyli işlər görülmüşdür. 2003-2008-ci illərdə rayonda 4022 şagird yeri olan 31 yeni məktəb binası tikilib istifadəyə verılmışdir ki, bu məktəb binalarının 18-i Heydər Əliyev Fondu hesabına, 13-ü isə dövlət və digər mənbələrin vəsaiti hesabına tikilmişdir.

Hazırda Ağbil kəndində 240 şagird yerlik yeni məktəb binasının tikintisi davam edir. Dağlı kəndində 140 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatmaq üzrədir. Rayonun ümumtəhsil müəssisələrinin maddi-texniki bazalarının güeləndirilməsi məqsədilə məktəblərə 350 ədəd parta, 15 ədəd laboratoriya stulu, 50 ədəd stol, 60 ədəd şkaf, 60 ədəd yazı lövhəsi, 70 ədəd oturacaq və digər avadanlıq verılmışdir.

Rayon əhalisinə göstərilən tibbi xidmətin yaxşılaşdırılması məqsədilə 1 ədəd müasir stasionar rentgen müayinə aparatı, 1 ədəd USM aparatı və müxtəlif adda inventar alınmışdır.

Ötən dövr ərzində daxili imkanlar hesabına rayon mərkəzi xəstəxanasının rentgen müayinə kabinetinin, cərrahiyyə şöbəsində 2 palatanın və dəhlizin bir hissəsinin, qadın məsləhətxanası və poliklinika şöbəsinin hər birində 1 həkim kabinetinin və I Nügədi kənd sağlamlıq mərkəzində birinci mərtəbədə yerləşən otaqların təmiri başa çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin həlli məqsədilə hər birimiz bundan sonra da var qüvvəmizlə çalışmalı, bu tapşırıqların layiqincə həyata keçirilməsi üçün öz bilik və bacarığımızı əsirgəməməliyik.

**Rauf Həbibov,**
**Quba Rayon İcra Hakimiyyətinin başçısı**

## Dəvəçi: Dağlar diyarının yeni həyatı

Dəvəçi şimal bölgəsində özünəməxsus coğrafi mövqeyi, tarixi qədimliyi, əsrarəngiz təbii mənzərələri ilə seçilən gözəl bir məkandır. Dəvəçı məşhur İpək Yolunun üstündə mühüm naviqasiya qovşağı, Karvan yolunun əsas məntəqələrindən sayılmışdır. Burada ab-hava, sağlamlıq, şəfa mühiti respublikamızın heç bir guşəsində olmadığı qədər nadirdir. Çünki ulu Qafqazın sağlam və qüdrətli iqlimi Xəzərin şəfaverici nəfəsi Dəvəçidən qeyri heç bir bölgədə saf və şəffaf təbiəti, şəfalı bulaqları ilə təkrarlanmır.

Ümummilli liderimiz Heydər Əliyev 3 oktyabr 1998-ci ildə şimal bölgəsinə səfəri zamanı seçicilərlə görüşündəki nitqində bölgənin insanlarının, bütün seçicilərinin yaddaşında təsirli iz buraxan tarixi nitqində unudulmaz sözlərini beləcə ifadə etmişdir: "Azərbaycanın paytaxtı Bakıdan Azərbaycanın şimal sərhəddinə qədər Xəzər dənizi kənarı və eyni zamanda dağlar qoynunda bizim gözəl bölgələrimiz yerləşir, gözəl rayonlarımız var və gözəl insanları var.

Mən bu gün Bakıdan şimal zonasına yola düşmüşəm. Yol boyu Siyəzəndən, Xızıdan, Dəvəçidən keçərək Qubaya, Qusara getmişəm, orada seçicilərlə görüşmüşəm. Bu bölgələrdə yaşayan insanların sevinəini, alqışlarını hiss edərək həddindən artıq sevinmişəm. Demək mən belə hiss edirəm ki, Şimal zonasında yaşayan insanların əksəriyyəti ilə görüşmüşəm, danışmışam və bir-birimizə arzularımızı bildirmişik.

Bunun yekunu olaraq görürəm ki, burada xaçmazlılar, dəvəçililər, xızılılar, dağıstanlılar hamınız bir yerdəsiniz, hamınız dostsunuz, mehribansınız. Bundan artıq mənə sevinc ola bilməz. Bakıdan sərhədə qədər Xəzər dənizı sahili gözəl meşələr, gözəl yerlər, ikinci tərəfdən qafqaz dağlarının ətəyi, dağlar, çeşmələr, bulaqlar, çaylar, bağlar, bağçalar, gül-çiçəklər".

Belə bir misal var: ağsaqqal, ölkə böyüyünün ayağı ilə ruzi, xeyir-bərəkət gəlir. Biz bunu həyatımızın yüksələn rifahında, insanlarımızın xoş əhval-ruhiyyəsində dəfələrlə hiss etmişik.

Prezidentimiz İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu nəticələri rayonda öz əksini tapmışdır. Bir zamanlar gerilik mühiti yaşayan Dəvəçi bu gün simasını dəyişir, getdikcə abadlaşır və tərəqqi edir.

2007-ci il avqust ayının 24-də, noyabr ayının 8-də Azərbaycan Rsşpublikasının Prezidenti Cənab İlham Əliyevin Dəvəçi rayonuna işgüzar səfərləri artıq əhalidə və rayonun ictimai-siyasi və iqtisadi həyatında yeni canlanmaya və yüksək əhval-ruhiyyəyə səbəb olmuşdu. Bu müsbət ovqat və canlanma yeniləşməkdə olan dağlar dıyarının hər guşəsində hiss olunur.

Prezidentimiz İlham Əliyevin elə ilk səfəri gələcək uğurların başlanğıcı oldu,

Onun gəlişi bu torpağa sanki xeyir-bərəkət gətirdi. İnsanların əhval-ruhiyyəsində xoş ovqat yarandı. Dəvəçililər bir daha əmin oldular ki, ölkəmizin rəhbəri üçün Azərbaycanın hər qarışı, hər guşəsi doğma və əzizdir. Regionların sosial-iqtisadi inkışafı Dövlət Proqramının uğurlu həlli bütün bölgələrdə olduğu kimi, Dəvəçidə də öz layiqli təcəssümünü tapır. Məhz prezidentin səfərləri rayonda böyük canlanma, sağlam və işgüzar mühit doğurduğu kimi, uğurlu fəaliyyətim üçün böyük təkan və dəstək oldu. Ulularımız demişkən, ölkə rəhbərinin qədəmləri düşərli oldu.

İlk səfərində Cənab İlham Əliyev Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil magistralının yenidən qurulması layihəsi üzrə Dəvəçi rayonu ərazisində çəkilən yolun 111-134-cü kilometrliyində aparilan tikinti işlərinin gedişi ilə yaxından tanış oldu. Ümumi uzunluğu 208 kilormetr olan bu yol əsası 2000-ci ildə qoyulmuş Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsidir. Bu yol İran-Rusiya və Qərbi Asiya ölkələri arasında iqtisadı və ticarət əlaqələrinin inkişaf edilməsi baxımından strateji qovşaqdır.

Möhtərəm Prezidentimiz eyni zamanda rayonun Pirəbədil kəndi ərazisində 12 hektar ərazidə Yazıçılar və Rəssamlar birlikləri üçün inşa ediləcək istehsalat şəhərciyinin planı ilə maraqlandı. Məni ən çox sevindirən o oldu ki, möhtərəm prezidentimiz bu yurdun, bu diyarın qədim tarixinə yaxşı bələddir. Dəvəçinin tarixi yerlərini, böyük prespektivləri olan turizm əhəmiyyətli əraziləri çox gözəl tanıyır.

Prezident 2007-ci il noyabrın 8-də Dəvəçiyə ikinci səfərində Samur-Abşeron suvarma kanalı sistemi üzrə uzunmüddətli strategiya və texniki-iqtisadi əsaslandırmada təklif olunan layihəyə əsasən Taxtakörpü su anbarının tikintisi ilə tanış olmuş və həmin anbarın bəndinin məlum layihə çərçivəsində gücü 29 meqavat olan elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

Biz əminik ki, bu tikintilər Dəvəçi rayonunun gələcək iqtisadi və sosial inkişafında mühüm rol oynayacaqdır. Ölkə başçısının Dəvəçiyə düşərli səfərləri uğurlara cığır açmışdır. Belə ki, ötən il rayonda 6,3 milyon manatlıq tikinti-quruculuq və abadlıq işləri görülmüşdür. Bunun 2,6 milyon manatı dövlət vəsaiti, qalan hissəsi isə yeni büdcə, Dövlət Neft Şirkətinin, "Azərkörpü" İstehsalat Birliyinin və yerli bələdiyyələrin vəsaiti hesabına həyata keçirilmişdir. 2007-ci ildə görülmüş işlərin həcmi əvvəlki ildəkindən 2,5 dəfə, 2005-ci ildəkindən isə 3,2 dəfə çox olmuşdur.

Dövlət əhəmiyyətli tikinti layihələri üzrə bir sıra işlərin həyata keçirilməsi ilə yanaşı rayonun ərazisində geniş miqyasda abadlıq və quruculuq tədbirləri aparılmışdır. Dəvəçi şəhərinin simasında nəzərə çarpacaq dəyişikliklər baş vermişdir. Ulu öndər Heydər Əliyevin adını daşıyan prospekt yaraşığı ilə seçilir. Burada, eləcə də M.Ə.Rəsulzadə, A.Xəlilov və digər küçələrdə də əsaslı təmir və yenidənqurma işləri aparılmış, səkilərə üzlük daş döşənmişdir. 1235 metr su arxı bərpa olunmuş, mərkəzi prospekt və yollarda

5160 kvadratmetr sahədə yaşillıqlar salınmış, yeni hasarlar hörülmüş, digər təmizlik və səliqə-sahman işləri görülmüşdür. Şəhərin küçə və meydanlarına 2723 kvadratmetr asfalt-beton döşənmiş, daxili küçələrə çınqıl və doğrama daş tökülərək abadlaşdırılmışdır. Şəhərdə aparılan tikinti-quruculuq işlərində milli-memarlıq elementlərindən istifadə edilmişdir.

Azərbaycan Prezıdentinin məlum fərmanlarının regionların, o cümlədən Quba-Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial iqtisadi inkişafına dair əlavə tədbirləri haqqında 3 avqust 2005-ci il tarixli sərəncamında Dəvəçi RİH qarşısında da mühüm vəzifələr irəli sürülmüşdür.

Son zamanlar Dəvəçidə böyük quruculuq işlərinə başlanilıb. Belə ki, rayonda müvəqqəti məskunlaşmış məcburi köçkünləri üçün 70 evdən ibarət "Qarabağlı" yaşayış massivi, Qarabağ əlilləri və şəhid ailələri üçün yaşayış evi, Seçki dairəsi və Dövlət Sosial Müdafiə Fondu üçün yeni inzibati binalar, digər idarə binaları və Baytarlıq diaqnostik kabinet, iki məktəb binasının istifadəyə verilməsi, üç məktəbin əsaslı təmır olunması və digər mədəni-maarif və səhiyyə oeaqlarında aparilan abadlaşdırma işləri diqqəti çəkən faktlardır.

Ölkədə öneül istiqamətlərdən olan sahıbkarlığın inkişafı Dəvəçidə də əlverişli mühitə yol açmışdır. Turizmin inkişafı Dəvəçi üçün xüsusilə xarakterik olduğu üçün bu məqsədlə 6213 hektar torpaq sahəsi ayrılmışdır.

Dəvəçi əsasən kənd təsərrüfatı rayonudur. Heyvandarlıq və əkinçilik, digər ənənəvi peşə məşğuliyyəti bu diyar üçün xarakterikdir. Əgər sahibkarlıqdan danışırıqsa, ötən il həmin sahə 108 milyon manatlıq məhsul istehsal etmişdir ki, bu da əvvəlki ildəkindən iki dəfə çoxdur. Belə ki, bu sahə üzrə istehsal həcmi ötən il bütövlükdə 32 milyon manat təşkil etmişdir. Bu isə 2006-ci ildəkinə nisbətən 137,5 faiz çoxdur. İstehsal olunan sənaye məhsulunun 79,6 faizi, kənd təsərrüfatı məhsulunun 99,8 faizi özəl müəssisələrin payına düşür. Dəvəçi Dəyirman, Broyler ATSE-ləri məhsul istehsalında öncül mövqədədirlər.

Sahibkarlara və fermerlərə beynəxalq inkişaf fondundan xeyli kredit verılmışdir.

Müsbət haldır ki, 2007-ci ildə meyvəçilik istiqamətində mühüm addımlar atılmış, bağlar 116 hektar, üzüm plantasiyaları isə 27 hektar artmışdır. İcra Hakimiyyəti bu ənənəvi sahələrə köməkliyini artırmaq əzmindədir.

Dağlıq ərazi heyvandarlığın inkişafı üçün xarakterikdir. Görülən tədbirlər nəticəsində 2007-ci ildə əvvəlki ilə nisbətən mal-qaranın ümumi sayı 507 baş artaraq 21414 başa çatdırılmışdır. Qoyunçuluqda da 30160 baş artım olmuşdur.

Odur ki, ərzaq təhlükəsizliyinə öz töhfəsini verən Dəvəçi təsərrüfatçıları diri çəkidə ət istehsalını (quşçuluq da daxil olmaqla) 48 faiz artırmağa nail olmuşlar.

Süd, yun, yumurta istehsalında əldə edilən nəticələr lə 2006-cı ilə nisbətən yüksəkdir.

Ümumiyyətlə ötən il əvvəlki ildəkindən 8,7 milyon manatlıq çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Kəndli təsərrüfatına yardım və qayğı dövlətimizin özündən gəlir. Belə ki, buğda istehsalçılarına 173 min manat yardım verilmiş, torpaq mülkiyyətçiləri isə güzəştli qiymətlə 46,8 ton mineral gübrə almışlar. Cənab Prezidentin əkinçiyə bu köməyi də kəndli sahibkarlar tərəfindən alqışlanır.

Doğrudan da Dəvəçiyə yeni quruculuq və abadlıq nəfəsi gəlmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində dövlət əhəmiyyətli layihələr həyata keçirilir. Azərbaycan Respublikası dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu hesabına Dəvəçi rayonunda əsaslı tikinti işlərinin davam etdirilməsi və yeni tikintilərə başlamaq üçün vəsait ayrılmış və həmin obyektlərin tikintisi davam etməklə 2008-ci ilin birinci rübündə bəzilərinin inşasına başlamaq üçün hazırlıq işləri görülmüşdür. Qarabağ əlilləri və şəhid ailələri üçün 16 mənzilli yaşayış binasının tikintisində son tamamlama işləri görülür.

Ən önəmli işlərdən biri də Heydər Əliyev adına meydanın tikintisi və burada ümummilli liderin abidəsinin qoyulmasıdır. Heydər Əliyev parkı isə yenidən qurulur. Burada iki giriş qapısı qoyulub, yollara və səkilərə üzlük daş döşənir.

1 saylı orta məktəbin girişində "Heydər Əliyev və Azərbaycan" , "Nizami Xəmsəsi", barelyeflərinin tikintisi aparılır.

Hər dəfə bu insanlarla görüşərkəin onlarda dövlətçiliyimizə, ulu öndərimizin ideyalarına, Prezidentimiz İlham Əliyevin uğurla həyata keçirdiyi düşünülmüş daxili və Xarici siyasətin ürəkdən bəyənilməsinin, Dəvəçinin iqtisadi-sosial həyatının daha da yüksələcəyinə inamın şahidi oluruq. Dəvəçi həm də mədəni irsimizin daşıyıcılarından biri kimi öz tarixi keçmişini qayğı ilə qoruyub saxlayan, dünya əhəmiyyətli "Çıraqqala" "Şabran şəhəri" memarlıq-arxeoloji abidələrini bərpa edib yaşadan bir məmləkət ocağıdır. Çıraqqala məşəli sanki bu gün də dağlar diyarının ömür-gününə, sabahına işıq saçır.

**Novruz Novruzov,**
**Dəvəçi Rayon İcra Hakimiyyətinin basçısı**

## Gələcəyə böyük inam

Tarixi təcrübə sübut edir ki, dövlət idarəetmə sistemində davamlı uğur və nailiyyətlərə yol açan vacib amillərdən biri də siyasi varislik ənənələrinin təmin olunmasıdır. Siyasi varisliyin təmini əsrlər boyu formalaşmış dövlətçilik irsinin qorunması və inkişaf etdirilməsi anlamında, əslində, hər bir ölkə üçün aktualdır. Söhbət ölkənin və xalqın sabit, dinamik inkişafının təkamül yolu ilə davam etdirilməsindən gedir. Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdıran ulu öndərimiz, dünya şöhrətli siyasi xadim Heydər Əliyev müəllifi olduğu siyasi strategiyanın davamlılığını da təmin etmiş, parlaq zəkası hesabına respublikamızın gələcək uğurlarına zəmin yaratmışdır.

Müstəqil Azərbaycanın son illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada lider mövqelərini qoruyub saxlaması da məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Ümummilli liderimizin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən Cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq olmuşdur. Konkret situasiyada Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər, şübhəsiz, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəlməsindən ibarətdir. Ulu öndərimizin müəyyənləşdirdiyi siyasi kursun varisliyinin qorunub saxlanılması zərurəti Azərbaycan cəmiyyətinin sosial sifarişi kimi ortaya çıxmaqla yanaşı, dünyanın bir çox dövlətlərinin strateji maraq dairəsində olmuşdur.

Cənab İlham Əliyevin bu siyasi kursa dair baxışlar sisteminin institutlaşmış xarakter daşıması, bu baxışların taktiki, strateji və perspektiv rakursunda Heydər Əliyev siyasətinin ehtiva etdiyi prioritetlərin dayanması, ən əsası, ulu öndərimizin siyasət məktəbində yetişmiş peşəkar diplomat kimi müasir lider imicinə malik olması onun ictimai rəydə önə çıxmasını şərtləndirən başlıca məqamlar sırasında xüsusi vurğulana bilər. Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi bütün dünyada məşhur ali təhsil müəssisəsində diplomatiya elminin incəliklərinə dərindən yiyələnmiş, bu sahədəki nəzəri biliklərini Heydər Əliyevin siyasət və idarəçilik məktəbində qazandığı təcrübənin vərdişlərlə zənginləşdirərək təcrübəli, peşəkar dövlət adamı kimi formalaşmış Cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir.

Peşəkar siyasətçi kimi Cənab İlham Əliyevin siyasi portretinin əsas ştrixlərini təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu siyasi lider olduğunu sübuta yetirir. O, öz simasında Qərb standartlarının - kübar rəftarın, rasional

düşüncə tərzinin, sarsılmaz vətənpərvərliyin, praqmatizmin milli mentalitetimizlə uğurlu sintezini yaratmış, bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs və müasirlik gətirmişdir. Bütün bu keyfiyyətlər Cənab İlham Əliyevi hələ ötən əsrin 90-ci illərinin sonuna yaxın ciddi beynəlxalq maraq obyektinə çevirmiş, onun Xarici siyasətin bütün sahələrində, o cümlədən cəmiyyət həyatı üçün mühüm əhəmiyyətə malik bir sıra sferalarda üzərinə götürdüyü missiyanı uğurla həyata keçirməsi, siyasi proseslərə realist yanaşma tərzi dünyanın on nüfuzlu politoloqları tərəfindən yüksək qiymətləndirilmışdir. Cənab İlham Əliyev ötən əsrin 90-ci illərinin ortalarından etibarən Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, daha sonra birinci vitse-prezidenti, eləcə də Milli Olimpiya Komitəsinin prezidenti kimi geniş fəaliyyəti ilə yanaşı, Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətimizin rəhbəri statusunda da Azərbaycanın milli maraqlarının təmin olunması ilə bağlı mühüm işlər görmüşdür.

Cənab İlham Əliyevin əzmkar fəaliyyəti nəticəsində Azərbaycan nümayəndə heyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurasında müzakirəsi zamanı böyük uğurlar əldə elmişdir. Peşəkar diplomat keyfiyyətlərinə malik Cənab İlham Əliyev AŞPA-nın tribunasında bu münaqişəni, ümumilikdə, Avropanı təhdid edən problem kimi gündəmə gətirmiş, nümayəndə heyətimizin üzvləri Azərbaycanlı əsir və girovların qaytarılması, nəzarətsiz zona olan Dağlıq Qarabağda narkotik maddələrin yetişdirilməsi və bundan əldə edilən gəlirlərin terrorçuluq fəaliyyətinə yönəldilməsi, işğal altında olan ərazilərdə tarixi abidələrin dağıdılmasına dair çoxsaylı sənədlər yaymışlar. Azərbaycan nümayəndə heyətinə rəhbərliyi dövründə AŞ PA-nın vitse-prezidenti kimi mühüm posta seçilmiş Cənab İlham Əliyevin ardıcil səyləri nəticəsində bu mötəbər təşkilat Ermənistanı işğalçı dövlət kimi tanıtmışdır. İstər ARDNŞ-in birinci vitse-prezidenti, istər Milli Olimpiya Komitəsinin prezidenti, istərsə də Milli Məclisin deputatı və Azərbaycanı AŞ PA-da təmsil edən nümayəndə heyətinin rəhbəri kimi Cənab İlham Əliyevin müstəqil dövlətimizə qazandırdığı uğurlar həm də onun dünya siyasətində özünü təsdiqi olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Cənab İlham Əliyev 90-ci illərin sonlarına doğru artıq geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomen kimi çıxış edir, bütün bunlarla yanaşı, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu onun siyasi portretini zənginləşdirən ştrix kimi nəzərə çarpırdı. Ulu öndərimizin müəyyənləşdirdiyi yeni neft strategiyası çərçivəsində dünyanın transmilli korporasiyaları ilə imzalanmış müqavilələrin Azərbaycanın milli maraqlrına cavab verməsi üçün Cənab İlham Əliyev bütün səylərini ortaya qoyaraq bu prosesə öz töhfəsini vermişdir. Onun Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkəmizdə idmanın inkişafını və kütləviləşməsini təmin etmək maqsədilə həyata keçirdiyi tədbirlər qısa zamanda Azərbaycanı idman ölkəsinə çevirib.

İdmançılarımızın mötəbər yarışlarda qazandıqları qələbələr mütəmadi xarakter almış, olimpiya hərəkatında ölkəmizin fəallığı artmış, respublikamızın bütün regionlarında olimpiya idman komplekslərinin tikilərək vətəndaşların ixtiyarına verilməsi prosesi geniş vüsət almışdır.

Bu gün Azərbaycan ictimaiyyəti Cənab İlham Əliyevin deputatlıq fəaliyyəti dövrünü də xoş duyğularla xatırlayırlar. Milli Məclisin hələ birinci çağırış səlahiyyət müddəti dövründə parlamentdə təmsil etdiyi Qaradağ rayonunun inkişafı və tərəqqisi üçün böyük işlər həyata keçirən Cənab İlham Əliyevin hələ o illərdə ona etimad göstərmiş insanlara böyük ərməğanı olmuşdur. Məhz bu dövrdə Qaradağ rayonu dinamik inkişaf yoluna qədəm qoymuş, rayonun sosial-iqtisadi infrastrukturunda dönüş, tərəqqi dövrü başlanmışdır. Cənab İlham Əliyevin Qaradağ rayonunun sosial-iqtisadi inkişafına kömək məqsədilə yaratdığı "Qaradağ rayonunun sosial-iqtisadi inkişafına Yardım Fondu"unun köməyi ilə rayonda bir sıra sosial problemlər həllini tapmış, sosial və mədəni-məişət obyektləri tikilərək istifadəyə verılmışdir.

2000-ci ildə - ikinci çağırış Milli Məclisə seçkilər dövründə Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik edən Cənab İlham Əliyevin qazandığı yüksək nailiyyət onun vətəndaşlar arasında ölkəmizin sabahını təmin edəcək alternativsiz lider kimi qəbul olunduğunu göstərmişdir. 2003-cü il avqustun 4-də Cənab İlham Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin yekdil razılığı ilə Baş nazir vəzifəsinə təyin edilməsi də, əslində, xalqın ona göstərdiyi böyük etimadın bariz təcəssümü olmuşdır. Bu təyinat dövlətin mənafeyini və xalqın maraqlarını əks etdirən proses olaraq, son illərdə əldə edilən nailiyyətlərin davamlılığını şərtləndirəcək vacib hadisə kimi qarşılanmışdır.

Baş nazir təyin olunduqdan dərhal sonra jurnalistlərə müsahibəsində Cənab İlham Əliyev perspektiv fəaliyyəti ilə bağlı demişdir: "Prezident Heydər Əliyevin siyasi xəttini dönmədən davam etdirəcəyəm. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatında böyük uğurlar əldə edilib, ciddi nailiyyətlərimiz var. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir və bunun nəticəsində ölkəmiz əsaslı şəkildə inkişaf edir. Hesab edirəm ki, qazandığımız təcrübəni və mövcud potensialı daha da genişləndirmək lazımdır. Hamımızın məqsədi bundan istifadə edib Azərbaycanı qüdrətli, güclü  dövlətə çevirməkdir. Biz buna nail olduq və mən də gələcək fəaliyyətimidə bu amala xidmət edəcəyəm. Mənim iqtisadi sahədə də kifayət qədər biliyim var. Məsələləri daha dərindən təhlil edib, konkret addımlar atacağıq".

Hökumət üzvləri ilə keçirdiyi ilk iclasda Cənab İlham Əliyev insan amilini önə çəkərək bildirmişdir ki, vətəndaşa həssas münasibət ölkədə həyata keçirilən siyasətin ən vacib istiqamətidir. Cənab İlham Əliyev Baş nazir kimi 3 aylıq fəaliyyəti dövründə bu prinsipə sadiq qalmış, Heydər Əliyev ənənələrini yüksək dinamizmlə davam etdirərək sadə vətəndaşlarımızdan tutmuş ziyalilarımıza, elm xadimlərindən siyasətçilərə qədər

geniş xalq kütlələrinin böyük rəğbət və etimadını qazanmışdır. 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-eü il tarixli müraciət də təkcə ulu öndərimizin deyil, bütövlükdə Azərbaycan xalqının Cənab İlham Əliyevə böyük inamının təcəssümü kimi ortaya çıxmışdır. Ümummilli liderimiz bu müraciəti ilə xalqa onun alternativsiz siyasi kursunu davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir.

Açıq demək lazımdır ki, Azərbaycan cəmiyyətini uzun illər narahat edən əsas məsələlərdən biri də hakimiyyət sükanının yenidən təsadüfi şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi qorxusu olmuşdur. Azərbaycan xalqı ölkənin və vətəndaşların taleyi üçün məsuliyyət daşımaq istəməyən, öz məqsədlərinin reallaşması üçün respublikada vəziyyətin pisləşməsini, vətəndaşlar arasında ictimai narazılığın güclənməsini arzulayan qüvvələrin hakimiyyətə gəlişindən ehtiyatlanır, belə bir perspektivi əsla arzu etmirdi. Vətəndaşların böyük əksəriyyəti, hətta müxalifət partiyalarında olan vicdanlı, obyektiv düşüncə tərzinə malik adamlar belə Heydər Əliyevin özünəməxsus qətiyyətlə qoruduğu ictimai-siyasi sabitliyin Azərbaycan üçün nə demək olduğunu yaxşı bilirdilər. Ölkədəki islahatların davamlılığı, ardıcıllığı, uğurla başa çatdırılması zərurəti Heydər Əliyev siyasi kursunun davam etdirilməsini, hakimiyyət estafetinin bu xətti dəstəkləyən və uğurla başa çatdırmağa qadir yeni liderə - Cənab İlham Əliyevə ötürülməsini diktə edirdi. Bu stereotiplər xalqın mövcud siyasi kursun davamlılığının təmin edilməsi naminə ortaya möhkəm siyasi iradə qoymasını da zərurətə çevirmişdi. Faktiki olaraq Cənab İlham Əliyevin qarşısına xalqın istəyini reallaşdıraraq tərəqqi və inkişafa xidmət edən proqressiv islahatları davam etdirmək missiyası qoyuldu.

Müstəqil Azərbaycanın ən yeni tarixinə əlamətdar hadisə kimi daxil olmuş 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən, ölkəni dinamik inkişaf magistralına çıxaran Heydər Əliyev siyasi kursunun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını tam sübuta yetirmişdir. Xalqın dəstəyilə siyasi arenadakı lider statusunu qoruyub saxlayan hakim komandanın əldə etdiyi növbəti nailiyyət də bu kontekstdən mövcud siyasi strategiyanın varisliyinin təmin olunmasında yeni bir mərhələnin başlanğıcına çevrılmışdir.

2003-cü ilin 15 oktyabr seçkiləri Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı böyük uğurları gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən iqtisadi-siyasi sabitlik, əmin-amanlıq və sülh şəraitində yaşayan hər bir Azərbaycanlının seçiminin alternativsiz və dəyişməz olduğunu təsdiqləmişdir. Ölkə vətəndaşları qarşıdakı beş ildə Azərbaycanın taleyini ulu öndərimizin layiqli davamçısı - Azərbaycan Prezidenti Cənab İlham Əliyevə etibar etmişlər. Bu yüksək etimad, ilk növbədə, onun səmərəli fəaliyyətdən, ən əsası, öz siyasətində sosial sifariş amilini incəliklə

nəzərə almasından irəli gəlmişdir.

2003-cü ilin seçkiləri fonunda müşahidə olunan kataklizmlər, hakimiyyətin zorakı yolla ələ keçirilməsinə yönəlmiş iğtişaş cəhdlərinin uğursuz nəticəsi sübut etdi ki, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik real təminatlara söykənir. Hər hansı radikallıq cəmiyyətimiz üçün təhlükə doğura, Azərbaycanın müstəqilliyinə xələl gətirə, demokratik inkişaf proseslərinin qarşısını ala bilməz. Elə bu səbəbdən də cənab İlham Əliyevin dövlətə rəhbərliyinin ilkin mərhələsi daha çox humanist çalarlarla yadda qalmışdır. Vaxtilə dövlətçiliyimizə qarşı ağır cinayətlər törədən və bir neçə illik cəza müddəti dövründə öz səhvindən səmimi peşmançılıq keçirən insanlar azadlığa buraxılmış, eləcə də 15-16 oktyabr iğtişaşlarının təşkilatçıları və fəal iştirakçıları qısa müddətdən sonra əfv olumnuşlar. Daxili siyasətdə lideralizm elementləri daha qabarıq nəzərə çarpmağa başlamış, siyasi qüvvələr arasıda dialoqa meyl güclənmişdir. Demokratik inkişaf, vətəndaş cəmiyyəti quruculuğu, milli həmrəyliyin əldə olunması istiqamətində daha ciddi nəticələr əldə olunmuşdur.

Prezident İlham Əliyevin son 4 ildə əldə etdiyi böyük nailiyyətlər onun siyasi liderlik üçün bütün zəruri keyfiyyətlərə malik olduğunu təsdiqləyir. Dövlətimizin başçısı xalqın lideri olmaq məsuliyyətini yüksək dəyərləndirir. Məsələn, hansısa problem baş qaldıranda cənab İlham Əliyev, ilk növbədə "Heydər Əliyev bu məsələni necə həll edə bilərdi?" sualı üzərində düşündüyünü də gizlətmir. Prezident İlham Əliyev dövlət idarəçiliyinə dair hər hansı mühüm qərar qəbul etməzdən öncə, bu sualı özünə ünvanladığını və cavab tapmağa çalışdığını deyir. Özündə dərin mənəvi-psixoloji çalarları ehtiva edən bu məqam Heydər Əliyev siyasi kursunun varisliyinin yüksək səviyyədə təmin olunduğa dəlalət edir.

Dövlət başçısı seçildikdən sonra hökumət üzvləri ilə keçirdiyi ilk iclasda xalqa xidməti əsas tələb, vəzifə kimi müəyyənləşdirən cənab İlham Əliyevin irəli sürdüyü bu prinsip hələ də qüvvəsindədir. "Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu, ən böyük mükafatdır" - bu sözlərin müəllifi cənab İlham Əliyevin xaricmasına olan kütləvi inam da məhz onun idarəetmə prinsiplərinə bu cür yanaşmasından, hakimiyyəti yalnız vətəndaşlara xidmət vasitəsi kimi dəyərləndirməsindən irəli gəlir. Bu baxımdan liderlik institutunun Azərbaycan üçün gerçəkdən nə qədər böyük önəm daşıdığı daha qabarıq nəzərə çarpır. Cənab İlham Əliyevin liberal baxışlar sistemi, xarakterinə xas olan humanistlik və xeyirxahlıq elementləri, bununla yanaşı, zəruri anda yüksək qətiyyət, prinsipiallıq göstərmək məharəti onun qısa müddətdə cəmiyyətdə ulu öndər Heydər Əliyevin layiqli davamçısı kimi dəstəklənməsini təmin etmişdir.

Çağdaş politoloji konsepsiyalar da birmənalı təsdiqləyir ki, demokratiya yalnız firavan və iqtisadi qüdrəti olan Ölkələrdə təşəkkül tapa bilər. Təkamülə əsaslanan demokratik keçid formulu ulu öndərimiz Heyder Əliyevin müəllifi olduğu siyasi strategiyada

da qabarıq göstərılmışdir. Azərbaycanın xarici siyasətində sivil Avropa dəyərlərinin mənimsənilməsi başlıca məqsəd kimi qəbul edilməklə yanaşı, paralel olaraq insan hüquqlarının etibarlı təminatı ön plana çəkilmişdir. Prezident İlham Əliyevin son 4 ildə yeritdiyi siyasət də məhz Heydər Əliyev ideyalarındakı demokratizmin cəmiyyətdə möhkəm inkişaf tapmasına yönəlmişdir. Dövlətimizin başçısı Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Bəşəriyyətin minilliklər boyu can atdığı demokratik dəyərlərin cəmiyyətdə yalnız elmi əsaslarla həyata keçirilən səmərəli iqtisadi islahatlar və təkamül nəticəsində özünə möhkəm dayaqlar tapa bilməsi fikri qloballaşan dünya gerçəklikləri fonunda tam təsdiqlənir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, dünya təsərrüfat sisteminə inteqrasiyası mümkün deyildir. İqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər isə uğursuzluqla nəticələnir, çünki tətbiqinə cəhd göstərilən mütərəqqi yeniliklər vətəndaşların real yaşayış səviyyəsi, həyat tərzi ilə uzlaşmır. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel şəklində davam etdirilməsi şərtilə real hesab edir: "İndi Azərbaycanda demokratik cəmiyyətin bütün elementləri mövcuddur. Amma yeni demokratik sistem quran ölkə 200 illik demokratiya təcrübəsi olan ölkələrlə müqayisə edilə bilməz. Bu, reallıqdan uzaqdır. Biz isə realist olmalıyıq. Əlbəttə, bizim özümüzü tam qane etməyən, özümüzün xoşumuza gəlməyən məqamlar var, amma bu, təbiidir. Demokratik cəmiyyət qurulması bizim hökumətin ən öncül məqsədidir. Ona görə də mən Azərbaycanı keçid dövründə olan ölkə, demokratik ölkə adlandırardım. Daha çox demokratikləşməyə doğru irəliləyən ölkə adlandırardım. O demokratiya ki, biz onu Qərbi Avropa ölkələrində müşahidə edirik. Amma Azərbaycan bu mərhələdə həmin ölkələrlə müqayisə olunmamalıdır".

Milli iqtisadiyyatda qazanılmış makroiqtisadi nəticələrin qorunub saxlanılması baxımından demokratik inkişafı olduqca vacib sayan dövlət başçısı ötən 4 ildə respublikamızda həyata keçirilən hüquqi islahatları uğurla davam etdirməklə, insan hüquq və azadlıqlarının təminatına da ciddi məsələ kimi yanaşmışdır. Cənab İlham Əliyev ilk gündən bildimişdir ki, demokratik və sivil cəmiyyət quruculuğunun fundamental şərtlərindən biri də məhz zamanla səsləşən hüquq islahatlarının həyata keçirilməsi, ədalət mühakiməsini həyata keçirilməsi, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin müstəqilliyinin təmin edilməsi, qanunun aliliyinin bütün səviyyələrdə qorunmasıdır. Yeni, müasir və möhkəm dövlətçilik modelinin yaradılması təkmil hüquqi

mexanizmlərin formalaşdırılmasından bilavasitə asılıdır. Müstəqillik yoluna yeni qədəm qoymuş Azərbaycanın demokratikləşmə sahəsində böyük nailiyyətlər qazanması da bilavasitə mülki cəmiyyət quruculuğuna hesablanmış məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf dinamikası və demokratik şüur səviyyəsi ilə üzlaşdırılması nəticəsində mümkün olmuşdur.

Prezident İlham Əliyevin son 4 ildə həyata keçirdiyi kadr islahatı, məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini vətəndaşların menafeyinin müdafiəsi, onların problemlərinin həlli istiqamətində qurmaları barədə qəti tapşırıqlar verməsi ictimai fikirdə çoxşaxəli islahatların uğurla gedəcəyinə böyük inam yaratmışdır. Dövlət başçısı idarəçiliyin təkmilləşdirilməsi prosesini daim diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanuna uyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin yaradılmasını da vacib sayır.

Dövlət başçısnın son 4 ildə yeritdiyi uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycanın bütövlükdə Avratlantika coğrafi arealında sülh, tərəqqi və əməkdaşlıq mərkəzinə, beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyi getdikcə daha qabarıq sezilir. Azərbaycan sabit, sülhsevər, dini tolerantlığın bərqərar olduğu dövlət kimi tanınır və belə bir müsbət imicin formalaşmasında cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızda keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Sosial-iqtisadi sahədə qazanılan uğurlar, inamla həyata keçirilən qlobal layihələr Azərbaycanı həm də beynəlxalq əməkdaşlıq mərkəzinə çevirməklə, onun xarici siyasətdə, diplomatiya sahəsində mühüm uğurlar qazanmasını təmin edir. Ümummilli liderimizin balanslaşdırılmış, milli maraqları özündə ehtiva edən xarici siyasət kursunu inamla davam etdirən Azərbaycan Prezidenti bu doktrinanı yeni taktiki gediş və manevrlərlə zənginləşdirmişdir. Cənab İlham Əliyev 2004-cü il iyulun 27-də və 2006-cı il avqustun 14-də xaricdəki səfirlərimizlə, diplomatlanmızla görüşərək, onların qarşısında yeni dövrün tələblərinə uyğun vəzifələr müəyyənləşdirmiş, eyni zamanda respublikamızın Avratlantik məkana inteqrasiyası prosesinə təkan verən bir sıra mühüm addımlar atmışdır.

Xarici siyasətin uğurunu təmin edən vasitələrdən biri də, şübhəsiz, diaspor və lobbi quruculuğudur. Son 4 ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə hansısa ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü də dəfələrlə vurğulamışdır. Cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor

quruculuğu işinə yeni nəfəs vermiş, ötən dövrün ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Cənubi Qafqazda sülh və təhlükəsizliyi təhdid edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına və xalqımızın milli mənafeyinə uyğun həlli istiqamətindəki son 4 illik fəaliyyəti onun milli maraqlara bağlı siyasətçi olduğunu bir daha təsdiqləmişdir. Münaqişənin həlli strategiyası ilə bağlı ulu öndərimiz Heydər Əliyevin beynəlxalq hüquq normalarına əsaslanmaqla müəyyənləşdirdiyi prinsiplərdən çıxış edən dövlətimizin başçısı İlham Əliyev yeni siyasi mexanizmlərin tətbiqi yolu ilə prosesi Azərbaycanın milli maraqlarına uyğun irəliyə aparmağa müvəffəq olmuşdur; Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin müzakirəsinə həsr olunmuş son müşavirədə Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı aparılan danışıqlara bir daha aydınlıq gətirmiş, müəyyən qərəzli qüvvələrin əsassız fərziyyələrinə birdəfəlik son qoymuşdur. Dövlət başçısının dərin məzmunlu çıxışı növbəti dəfə təsdiqləmişdir ki, danışıqlar prosesi məhz Azərbaycanın milli maraqlarına cavab verən prinsiplər çərçivəsində aparılır.

"Qarşında çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam. Əgər xalq mənim fəaliyyətimi dəstəkləyir, inanırsa, bu, ən böyük mükafatdır" - bu sözləri də cənab İlham Əliyev prezidentliyinin ilk günlərində bəyan etmişdi. Ötən dövrün təhlili dövlət başçısının verdiyi bütün vədləri uğurla əməli işə çevirdiyini əyani şəkildə üzə çıxarır

Addım-addım əldə edilən bu nailiyyətləri hər birimiz vətəndaş olaraq gündəlik həyatımızda yaşayırıq. Azərbaycan iqtisadi cəhətdən günbəgün möhkəmlənir, qüdrətlənir, respublikamızın beynəlxalq nüfuzu artır. Ölkəmizin sosial-iqtisadi yüksəlişi, ilk növbədə insanlarımızın gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam yaradır. Bu nailiyyətlər Azərbaycan xalqının gələcəyə inamını artırır, xalqımızı ulu öndər Heydər Əliyevin ölməz ideyaları ətrafında daha sıx birləşdirir.

**Tahir Qədeşov,**
**«Kənan» MTK-nın sədri**

## Ümumxalq məhəbbəti qazanmış qətiyyətli rəhbər

2003-cü ilin prezident seçkilərində Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real nüfuza və gücə malik, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycanın Heyder Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasını rəhbər tutan cənab İlham Əliyevin Prezident seçilməsi ilə tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Azərbaycanın müasir tarixində bu mərhələ real nailiyyət faktlarını, hərtərəfli və dinamik inkişaf strategiyasının bəhrələrini özündə tam cəmləyən şanlı salnamədir.

Xalqımız bu mərhələnin müstəqil dövlətçiliyin sarsılmaz və əbədi olması baxımından hələ uzun müddət davam edəcəyinə əmindir.

Prezident seçkilərindən ötən dörd il xalqımızın yaddaşında həyatımızın bütün sahə və istiqamətlərində daim müsbətə doğru köklü dəyişikliklər, verilən vədlərin əməli şəkildə dönmədən və qetiyyətlə həyata keçirilməsi, hərtərəfli və sürətli inkişaf, uğurlu daxili və xarici siyasətin yürüdülməsi, nəticə etibarilə Azərbaycanın qüdrətli dövlətə çevrilməsi dövrü kimi yadda qalıb. İndi hamı görür və gündəlik həyatında hiss edir ki, dövlətimizin başçısı İlham Əliyev öz seçkiqabağı platformasının bütün istiqamətləri üzrə xalqa verdiyi vədləri ardıcıllıqla, sonsuz enerji ilə yerinə yetirir.

Cənab İlham Əliyevin prezidentliyinin dörd ili, hər şeydən əvvəl, Azərbaycan xalqının öz tarixi seçimində yanılmadığının, siyasi şüurunun yüksək olduğunun bariz təcəssümüdür. Həyatımıza əlamətdar hadisə kimi daxil olan 2003-cü ilin prezident seçkilərindən keçən dövr ərzində xalqımız bir daha əmin oldu ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı, nəinki Azərbaycanın, həm də regionun yeni lideri kimi qəbul edilən İlham Əliyevi dövlət başçısı seçməklə, Azərbaycanın dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilməsini, firavan gələcəyini təmin edib. Cəmi dörd il ərzində onilliklərə bərabər olan bir yolun keçilməsi, görülən nəhəng işlərin miqyası, ölkənin inkişafı naminə qəbul edilən qlobal dövlət proqramları, onların real nəticələri, xalqın güzəranının, həyat səviyyəsinin günbəgün yaxşılaşması bu həqiqəti bir daha təsdiqləyir. Xatırladaq ki, prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində ümummilli liderimiz Heydər Əliyev ölkəmizin gələcək inkişafının, dövlət müstəqilliyimizin möhkəmliyinin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətin - cənab İlham Əliyevin simasında etibarlı əldə olacağına qəti inamını ifadə etmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək". Həqiqət də bu inamın, etibarın arxasında cənab İlham Əliyevin uzun illər ərzində topladığı sanballı siyasi dividentlər və onun tükənməz enerjisi dururdu. Prezident

kimi fəaliyyətə başlayandan sonra isə onun daha bir keyfiyyəti - dünyamiqyaslı dövlət başçısı və liderə məxsus təkrarsız qabiliyyəti və bacarığı özünü büruzə verib. ABŞ-ın çox nüfuzlu konqresmeni Kurt Ueldonun dövlətimizin başçısının fenomenal keyfiyyətləri barədə səmimi iradələrini xatırlayaq: "Bir çox xalqlar arzulayırlar ki, onların da cənab İlham Əliyev kimi bacarıqlı, beş dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü bir lideri olsun. Hesab edirəm ki, bu sarıdan Azərbaycan xoşbxət ölkədir, çünki bu ölkəyə İlham Əliyev kimi lider qismət olmuşdur".

Hər bir Azərbaycan vətəndaşının prezidenti olacağını söyləyən cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, "Mən öz fəaliyyətimdə xalqa güvənirəm, xalqdan güc alıram və sizin dəstəyiniz məni daha da əzmkar edir, məni daha da güclü edir. Mən bunu hiss edirəm, ona görə bütün islahatları, siyasəti çox cəsarətlə aparıram. Mənim üçün ən başlıcası Azərbaycan xalqının xoşbəxtliyidir, Azərbaycan dövlətinin maraqlarıdır. Bütün siyasətim buna yönəldilib və əminəm ki, biz bu birlikdə, xalqın dəstəyi ilə Azərbaycanı hərtərəfli inkişaf etdirəcəyik, güclü, zəngin dövlət yaradacağıq".

Müstəqil Azərbaycan dövləti bu gün dünyanın diqqət mərkəzindədir. Son dörd il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi və iqtisadi sahələrdə, cəmiyyətin demokratikləşməsi istiqamətində qazandığı möhtəşəm nailiyyətlər, eləcə də irimiqyaslı qloba enerji layihələrinin reallaşması dünyanın aparıcı dövlət başçıları, nüfuzlu politoloqlar, mötəbər beynəlxalq təşkilatların ekspertləri tərəfindən çox yüksək qiymətləndirilir.

Müstəqil Azərbaycan bu gün dünyanınm ən aparıcı dövlətləri ilə strateji müttəfiq və etibarlı tərəfdaşdır. Azərbaycanın xarici siyasətində dünyanın əksər dövlətləri, xüsusən də qonşularımızla dostluq və səmərəli əməkdaşlıq məsələləri önəmli yer tutur. Prezident İlham Əliyev ölkəmizin dünyadakı mövqelərinin son illər daha da möhkəmləndiyini, Qərb və Şərq dövlətləri ilə münasibətlərimizin qarşılıqlı faydalı şəkildə qurulduğunu vurğulayaraq deyib: "Azərbaycanın xarici siyasəti həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və bu xəttə sadiqik".

Azərbaycanın Qərbə, Avratlantik strukturlara inteqrasiyası son dörd ildə daha da sürətlənib, Avropa Birliyi və NATO ilə əməkdaşlığımız daha yüksək səviyyəyə yüksəlib. Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənib. Bu mənada 2007-ci il Azərbaycan dövləti üçün həlledici il sayılabilər. Həm daxili, həm də xarici siyasətdə çox böyük və sanballı uğurlar əldə olunub. Tam müstəqil siyasət yürüdən Azərbaycan siyasi iqtisadi cəhətdən qüdrətlənib və dünyanın geopolitik güc mərkəzlərindən birinə çevrilib.

Son dörd il ərzində Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının beş

daimi üzvü olan dövlətlərə rəsmi səfərləri, Ermənistan istisna olmaqla digər qonşularla qarşılıqlı səmərəli münasibətlərin qurulmasi Azərbaycanınm dünya və regional hadisələrə təsir gücünü artırıb. Azərbaycan bir sıra beynəlxalq təşkilatların, o cümlədən BMT, Avropa Şurası, GUAM və İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumların fəal üzvüdür. Bu mötəbər tribunalardan yetərincə yararlanan dövlətimiz diplomatik uğurlarımızın artmasına, milli maraqlarımızın daha etibarlı qorunmasına, Azərbaycanın həqiqətlərinin bütün dolğunluğu ilə dünyaya çatdırılmasına nail olur.

Son vaxtlar GUAM çərçivəsində əməkdaşlığımız daha da möhkəmlənib. Artıq bu mötəbər təşkilata daxil olan ölkələr öz birgə problemlərini BMT səviyyəsinə qaldırmış və həlli yollarının axtarılmasına dünya dövlətlərinin diqqətini cəlb etmişlər. Bütün bunlar Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndiyinin və gücləndiyinin əyani təzahürüdür.

Ümumillikdə 2007-ci il Azərbaycanın hərtərəfli və dinamik inkişafı baxımından çox uğurlu il sayıla bilər. Müstəqil dövlətimiz bütüin parametrlər üzrə möhtəşəm uğurlara imza atıb. Böyük həcmdə neft ixracı sayəsində ölkəmizə yaxın illərdə on milyardlarla dollar məbləğində gəlir gələcəkdir. Bu, həm də qeyri-neft sektorunun sürətli inkişafına güclü təkan verəcəkdir.

Göründüyü kimi, verilən vədlər həyatda öz real təsdiqini tapır. Xalqımızın dərin məhəbbətini qazanmağa nail olmuş Prezidentin bütün isliqamətlər, vacib sahələr üzrə bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış fəaliyyət proqramları vardır. Bu proqramlar mərhələ-mərhələ uğurla reallaşır və müasir Azərbaycanın siması kökündən dəyişir. Xalqımız öz lideri ətrafında sıx birləşərək, sözün həqiqi mənasında, xoşbəxt gələcəyə doğru inamla addımlayır. Ötən dörd il həqiqətən də xalqın cənab İlham Əliyevdən gözlədiyi fəaliyyətin uğurla reallaşma mərhələsi, eləcə də Prezidentin verdiyi vədlərin böyük intensivliklə həyata keçməsi mərhələsi kimi səciyyələndirilır.

Əsrimizin ilk prezident seçkilərindən sonrakı mərhələ müasir tariximizə yeni epoxanın başlanğıcı, ənənə ilə yenilikçiliyin uğurluğu sintezi və möhtəşəm nailiyyətlər dövrü kimi daxil olub. Ümumxalq dəstəyi ilə prezidentlik missiyasını uğurla həyata keçirən cənab İlham Əliyev həm vətəndaşlarının, həm də ona özü qədər inanan sələfinin etimadını tam doğrultmuş, Azərbaycanın layiqli rəhbəri olduğunu təsdiq etmişdir. Xalqımız 2008-ci il prezdent seçkilərində də cənab İlham Əliyevə, onun siyasi kursuna səs verəcəkdir. Bu siyasi kurs müstəqil Azərbaycanı daha da inkişaf etdirməyə, onu dünyanın ən qüdrətli dövlətlərindən birinə çevirməyə qadirdir.

**Nofəl Hacıyev,**
**«Kənan» MTK-nın sədr müavini**

## Azərbaycanda iqtisadiyyatın həcmi təxminən iki dəfə artmışdır ki, bu, dünyada analoqu olmayan bir göstəricidir

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirılmışdir

Yanvarın 11 - də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirılmışdir. Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Biz Nazirlər Kabinetinin bugünkü iclasında ilin yekunlarını müzakirə edəcəyik və 2008-ci ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparacağıq.

Deyə bilərəm ki, bütövlükdə, 2007-ci il Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu il olmuşdur. Bu ildə Azərbaycanda iqtisadi sahədə bütün müsbət meyillər daha da inkişaf etmiş və beləliklə, Azərbaycan öz iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıra bilmişdir. Ümumi daxili məhsul təxminən 25 faiz artmışdır. Beləliklə, son dörd il ərzində ölkədə aparılan əsaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda ıqtisadiyyatın həcmi 96 faiz, təxminən iki dəfə artmışdır ki, bu, dünyada analoqu olmayan bir göstəricidir.

Çox müsbət hal ondan ibarətdir ki, bununla yanaşı, sənaye istehsalı da təxminən eyni sürətlə artır. Bu il sənaye istehsalının artımı 24 faiz olmuşdur. Azərbaycanda sənaye potensıahnm möhkəmlənməsi sahəsində böyük işlər görülür, tədbirlər həyata keçirılır və biz növbəti illərdə də bu sahəyə böyük diqqət göstərməliyik.

İnvestisiyaların həcmi yenə də çox yüksək səviyyədədir. Azərbaycanda enerji layihələrinin böyük əksəriyyəti başa çaldırılmışdır, neft-qaz yataqlarına böyük sərmayə qoyuluşu artıq demək olar kı, başa çatmışdır və azalmağa başlamışdır. Buna baxmayaraq, 2007-ci ildə investisiyaların həcmi 6 milyard dollardan çox olmuşdur və çox sevindirici haldır ki, bunların böyük əksəriyyəti daxili investisiyalardır. Bu, onu göstərir ki, həm Azərbaycanın daxili imkanları artır, həm dövlət xətti ilə qoyulan sərmayənin həcmi xeyli dərəcədə artır, həm də özəl sektor tərəfindən qoyulan vəsait artır. Bu, həm də onu göstərir ki, Azərbaycanın iqtisadi potensialına xarici və daxili investorlar tərəfindən böyük inam var və investisiyalar üçün cəlbedici ölkə kimi Azərbaycan öz mövqelərini saxlaya bilər.

Büdcə xərcləri əhəmiyyətli dərəcədə artırılır. Deyə bilərəm ki, bu sahədə də, büdcə xərclərinin artım dinamikasına görə də Azərbaycan dünyada birinci ölkələr sırasındadır. Son dörd il ərzində büdcə xərcləri on dəfə artıb və 2008-ci ilin icmal büdcəsi 12 milyard dollara bərabərdir. Bu, bizə imkan verir ki, ölkə qarşısında duran əsas vəzifələri həll edək. İnfrastruktur məsələlərini, sosial məsələləri həll edək, böyük iqtisadi, nəqliyyat, enerji layihələrini öz gücümüz hesabına həyata keçirək. Bu, ölkəyə iqtisadi müstəqillik verir, əlavə imkanlar yaradır və beləliklə, Azərbaycan bölgədə öz mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bunda həm siyasi, həm diplomatik, həm də, əlbəttə ki, enerji və iqtisadi amillər böyük rol oynayır.

Deyə bilərəm ki, 2007-ci ildə sosial məsələlərin həllinə də böyük diqqət göstərılmışdir. Maaşlar və pensiyalar artırılmışdır və bu raeyl davam etdirılır. Bildiyimiz kimi, 2008-ci il yanvarın 1-dən minimum əməkhaqqı və minimum pensiya 20 faiz artırılmış və 60 manata çatdırılmışdır. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl bu rəqəm haradasa, 9 manat səviyyəsində idi, bu, böyük irəliləyişdır. Hazırda 60 manatdır və şübhə yoxdur kı, 2008-ci ildə minimum əməkhaqqı və minimum pensiyanın həcmi yenə də artırılmalıdır. Azərbaycan vətəndaşları öz rifah halını yaxşılaşdırırlar və Azərbaycan dövləti xüsusilə aztəminatlı təbəqəyə yardımını bundan sonra da əsirgəməməlidir.

Bununla yanaşı, ünvanlı sosial yardım proqramı uğurla icra edilir. 78 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə dövlət tərəfindən verilən yardım təxminən 100 dollar səviyyəsindədir. Beləliklə, biz öz iqtisadi imkanlarımızı səfərbər edib, ehtiyac içində yaşayan vətəndaşlarımız üçün əlavə imkanlar yaradırıq, onları dəstəkləyirik və bu proses bundan sonra da davam etdiriləcəkdir. Əlbəttə, biz istərdik ki, Azərbaycanda bütövlükdə yoxsul təbəqə olmasın və bu istiqamətdə işlər görülür.
Amma hələ ki, ağır şəraitdə yaşayanlar var və dövlət öz tərəfindən onlara yardım əlini uzadır. Baxmayaraq ki, bu, böyük məbləğ tələb edir, buna böyük vəsait ayrılır, amma biz bunu edirik və edəcəyik. Bu, bir daha onu göstərir ki, Azərbaycanın iqtisadi potensialının güclənməsi, iqtisadiyyatın həcminin artması, sənaye proqramlarının icra olunması birbaşa insanların həyat səviyyəsinə, xüsusilə aztəminatlı təbəqəyə öz müsbət təsirini göstərir.

Yoxsulluğa gəldikdə, bu sahədə də böyük uğurlarımız var və böyük qürur hissi ilə deyə bilərik ki, 2007-ci ildə də yoxsulluğun azaldılması, aradan qaldırılması sahəsində böyük tədbirlər görülmüşdür. Əgər 2003-cü ildə Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar 49 faiz idisə, 2008-ci ilin yanvarın 1-nə bu göstərici 16 faizə düşübdür. Bu, böyük nailiyyətdir, böyük göstəricidir.

Onu da deyə bilərəm ki, hətta iqtisadi baxımdan və bütün başqa cəhətlərdən inkişaf etmış ölkələrdə də yoxsulların sayı kifayət qədərdir. Əlbəttə, inkişaf etmiş ölkələrdə

minimum istehlak səbətinin meyarları başqadır. Amma hər şey müqayisədə bilinir və ölçülür. Azərbaycanın indiki iqtisadi şəraitində, iqtisadi durumunda yoxsulluğun 16 faizə düşməsi, hesab edirəm, bizim böyük uğurumuzdur və mən əminəm ki, 2008-ci ildə görüləcək tədbirlər nəticəsində bu rəqəm daha da aşağı düşəcəkdir. Beləliklə, Azərbaycanda yoxsul təbəqə olmayacaqdır. Mən buna inanıram və əlimdən gələni edəcəyəm ki, biz buna tam şəkildə nail ola bilək.

2007-ci ildə daha bir mühüm hadisə baş vemişdir - sonuncu çadır şəhərciyi ləğv edilmiş və orada yaşayan soydaşlarımız normal evlərə köçürülmüşlər. Bildiyiniz kimi, 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən belə bəyanatla çıxış elmişdim ki, əgər xalq mənə inansa və məni dəstəkləsə, növbəti beş il ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Mən çox şadam kı, biz bunu beş ildə yox, dörd ildə həll etdik və indiyədək ağır çadır şəraitində yaşayan insanlar bundan sonra yaxşı evlərdə yaşayacaqlar.

Bildiyiniz kimi, biz keçən il qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli üçün yeni proqram qəbul etdik. Bu proqramın icrası təxminən yarım milyard dollar vəsait tələb edəcəkdir. O proqramda yeni qəsəbələrin tikintisi nəzərdə tutulur. Məcburi köçkünlərin, fin qəsəbələrində, hərbi hissələrdə, məktəblərdə ağır şəraitdə yaşayan soydaşlarımızın problemləri həll olunacaqdır. Beliklə, biz ölkəmiz üçün bu ağır, çətin problemin aradan qaldırılmasına çalışırıq, öz soydaşlarımız müvəqqəti olaraq normal şəraitlə təmin edirik. Əlbəttə ki, torpaqlarımız işğalçılardan azad olunandan sonra biz işğaldan azad edilmiş torpaqlarda yeni şəhərlər tikəcəyik, qəsəbələr, məktəblər tikəcəyik.

Bütövlükdə, biz sosial məsələlərə 2008-ci ildə də diqqət göstərməliyik. Həm əməkhaqları, pensiyalar və ünvanlı sosial yardımların məbləğinin artırılması, həm bütün sosial infrastrukturun yeniləşməsi, təzələnməsi. Bildiyiniz kimi, həm təhsil, həm səhiyyə sahələrinə, həm də mədəniyyət sahəsinə böyük investisiyalar qoyulur. Bütün bu işləri sadalamaq üçün bu gün bizim vaxtımız yoxdur. Biz bu işlərlə gündəlik rejimdə məşğuluq. 2008-ci ilin dövlət büdcəsində məktəb tikintisinə, xəstəxanalara, mədəniyyət ocaqlarına kifayət qədər vəsait nəzərdə tutulubdur.

Bu ilin axırında 2004-cü ilin fevralında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının müddəti başa çatır. Beş il üçün nəzərdə tutulmuş proqramın, demək olar ki, böyük əksəriyyəti artıq dörd il ərzində öz həllini tapmışdır. Nəinki həllini tapmışdır, hətta 2004-cü ildə proqramda öz əksini tapmayan məsələlər də əlavə olunubdur. Əlbəttə ki, 2004-cü ildə biz hər şeyi nəzərdə tuta bilməzdik. Proqramda əsas istiqamətlər, əsas məsələlər öz əksini tapmışdı. Ancaq işlər getdikcə, vaxt keçdikcə və iqtisadı imkanlarımız artdığı bir zamanda, əlbəttə, biz bu proqrama böyük əlavələr etdik. Beləliklə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla başa çatması heç

kimdə şübhə doğurmur.

Bir daha 2003-cü ilə qayıtmaq istəyirəm. Prezident seçkiləri ərəfəsində verdiyim bəyanatlardan biri də ondan ibarət idi ki, biz Azərbaycanda regionların inkişafına diqqət göstərməliyik. Orada ilk növbədə, iş yerləri açmalıyıq ki, işsizlik aradan qaldırılsın və insanlar yaşadıqları rayonlarda, kəndlərdə, qəsəbələrdə qalsınlar və orada gözəl infrastruktur yaradılmalıdır. Demək olar ki, beş ilə nəzərdə tutulmuş proqramı biz dörd il ərzində yerinə yetirmişik. Bu gün verilən son məlumata görə, Azərbaycanda son dörd il ərzində 640 min iş yeri açılmışdır ki, onlardan 460 mini daimi iş yerləridir. Təkcə 2007-ci ildə 145 min yeni iş yeri açılmışdır və onlardan 105 mini daimi iş yerləridir. Biz bu nəticələri təkcə statistik rəqəmlərdə görmürük. Bunu həyatda görürük, bölgələrin inkişafında görürük, rayonların abadlaşmasında görürük, bölgələrdə yaradılan müasir iqtisadi, sənaye, nəqliyyat, səhiyyə, təhsil infrastrukturunda görürük. Biz dörd ildə 1200 məktəb tikmişik, yüzlərlə məktəb əsaslı təmir olunub, əlavə korpuslar tikilib və çox gözəl görkəm alıbdır. Bu yaxınlarda Təhsil Nazirliyi məlumat vermişdir ki, əgər 3-4 il bundan əvvəl 1000 şagirdə bir kompyuter düşürdüsə, indi 29 şagirdə bir kompyuter düşür. Yəni kompyuterləşmə proqramını da biz uğurla icra edirik. Bu proqram 2004-cü ildə qəbul olunmuşdu və biz bunu həll etmişik. Yəni görülən bütün bu işlər Azərbaycanın hərtərəfli inkişafına yönəldilir. Biz buna nail ola bilmişik. Biz iqtisadiyyatımızı şaxələndiririk və bunu etmək üçün, əlbəttə ki, böyük səylər qoyulmalıdır. Nəzərə almalıyıq ki, bizim əsas iqtisadi gücümüz, iqtisadiyyatın əsas mənbəyi energetikadır, neft-qaz sektorudur və o da sürətlə inkişaf edir. Qeyri-neft sektorunun inkişafı bizi çox sevindirir. Qeyri-neft sektorunun inkişafı yeni iş yerlərinin yaradılması deməkdir. Bölgələrin inkişafı deməkdir və ümumiyyətlə, Azərbaycanın hərtərəfli inkişafı deməkdir. Beləliklə, bir daha demək istəyirəm, regionlarda gedən proseslər göstərir ki, bu günə qədər qəbul edilmiş bütün proqramlar icra edilir və əminəm ki, bu baxımdan 2008-ci il də istisna olmayacaqdır.

2007-ci ildə Azərbaycan neft-qaz sahəsində öz maraqlarını tam şəkildə qoruya bilmişdir. Bu il bölgədə yeni vəziyyət yaranmışdır. Bizim 1990-cı illərin ortalarında, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başladığımız Azərbaycanın neft strategiyasının nəticələrini 2007-ci ildə də əyani şəkildə gördük. 2007-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri tam gücü ilə işləməyə başlamışdır. 2007-ci ildə Azərbaycanda 42 milyon ton neft hasil edilmişdir. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verılmışdir. Azərbaycanın qaz hasilatı əhəmiyyətli dərəcədə artmışdır və bu proses davam edir. Həm "Şahdəniz" yatağından, həm də ki, Dövlət Neft Şirkətinin köhnə yataqlarından çıxarılan qazın həcmi böyük dərəcədə artırılır, yeni bölgələrə, yeni qəsəbələrə qaz xətləri çəkilir.

Bu proses 2008-ci ildə də davam etdirilməlidir və biz, ilk növbədə, öz tələbatımızı tam şəkildə ödəməliyik. Əlbəttə ki, qaz ixrac edən ölkə kimi Azərbaycanın beynəlxalq

nüfuzu, mövqeləri və çəkisi artır. Bütövlükdə, bu sahədə, neft-qaz sahəsində, energetika sahəsində böyük işlər görülübdür. Biz bu barədə hələ danışacağıq. Sadəcə, demək istəyirəm ki, Azərbaycan üçün, bizim iqtisadiyyatımız üçün əsas olan sahədə də böyük uğurlar var. Əlbəttə ki, neft-qaz sektorunda əldə edilmiş nəticələr bütün başqa sektorlara da öz müsbət təsirini göstərir. Həm xidmət, həm sənaye sektorlarına və həm də bütün başqa sektorlara.

2007-ci ildə biz bütün başqa sahələrdə böyük işlər görmüşük. Biz nəqliyyat sektoruna böyük vəsait ayırırıq və ayıracağıq. Çəkilən yolları, körpüləri, magistral yolları, şəhər yollarını - bunların hamısını gündəlik şəraitdə görürük, buna böyük vəsait qoyulur və gələcəkdə də qoyulacaqdır.

Bir sözlə, iqtisadiyyatın əsas istiqamətlərində müsbət nəticələr var və biz bunu görürük. Əlbəttə, biz çalışmalıyıq ki, gələcək illərdə də bu yüksək dinamikanı saxlayaq, iqtisadi artım sürətinə görə dünya miqyasında lider dövlət kimi Azərbaycanın bu mövqelərini saxlayaq. Elə edək ki, Azərbaycan vətəndaşları, Azərbaycan xalqı ildən-ilə, aydan-aya daha da yaxşı yaşasın. Bunu etməyə bizim imkanlarımız var, siyasi iradə var, xalqla iqtidar arasında birlik var. Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir. Əks təqdirdə, onların heç biri həyata keçirilə bilməzdi. Əgər bu dəstək olmasaydı, əgər həmrəylik olmasaydı, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bunların heç birini edə bilməzdik. Azərbaycanın müasir tarixi, digər ölkələrin tarixi, bizimlə eyni taleyi yaşayan ölkələrin müasir tarixi onu göstərir ki, harada iqtidar tərəfindən irəli sürülmüş təşəbbüslər xalq tərəfindən dəstəklənirsə, orada həm həmrəylik var, həm sabitlik, həm də inkişaf var. Harada bu yoxdursa, orada heç bir iş görülə bilməz və ölkələr davamlı böhran şəraitində yaşayır və əlbəttə ki, bu böhran həm insanlara, həm də ölkənin imkanlarına yalnız və yalnız mənfi təsir göstərir. Azərbaycanda da biz 1990-cı illərin əvvəllərində böhranlar yaşamışdıq. Biz bunları yaxşı bilirik, xatırlayırıq və artıq o illərə dönüş yoxdur. Azərbaycanın yolu açıqdır. Biz yalnız qabağa gedəcəyik, ölkəmizi gücləndirəcəyik və Azərbaycanı güclü dövlətə çevirəcəyik.

Bir neçə söz xarici siyasət haqqında demək istəyirəm. Biz 2007-ci ildə bu sahədə də öz səylərimizi göstərmişik, Azərbaycan özünün beynəlxalq mövqelərini möhkəmləndirmişdir. Qonşu, dəst ölkələrlə ikitərəfli formatda münasibətlərimiz inkişaf etmişdir. Deyə bilərəm ki, 2007-çi ildə biz daha çox müttəfiq qazandıq. Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmləndi. Azərbaycan həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində öz rolunu möhkəmləndirir.

Bizim ölkəmiz dünyada çox böyük şöhrətə malikdir. Mənim bütün dövlət və hökumət başçıları ilə, beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyim görüşlərdə bu, açıq-aydın görünür. Azərbaycan, əlbəttə, öz prinsipiallığı ilə, öz mövqeyi ilə, müstəqil siyasəti ilə

və etibarlılığa ilə 2007-ci ildə böyük beynəlxalq şöhrət qazanmışdır. Bir sözlə, mən bu sahədəki vəziyyəti qənaətbəxş hesab edirəm. Bu da çox vacibdir. Həm daxili həm də xarici siyasət bir məqsədə yönəldilibdir ki, ölkəmiz daha da güclənsin.

Bizim üçün ən ağrılı, ən çətin məsələ Dağlıq Qarabağ problemidir. Bunun həll olunmaması, əlbəttə, bizi çox narahat edir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma görürük ki, buna nail olmaq hələ ki, mümkün deyildir. Səbəb nədir?! Ermənistanın qeyri-konstruktiv mövqeyi və dünya ictimaiyyətinin bu məsələyə biganə yanaşması. Biz hər şeyi açıq deməliyik. Bütün dünya etiraf edir, bəyan edir və bütün ikitərəfli va beynəlxalq görüşlərdə, rəsmi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, tanınır və müdafiə olunur. Biz hər yerdə eşidirik ki, siz haqlısınız, sizin torpağınız işğal olunubdur və ədalət sizin tərəfinizdədir. Ancaq bu, deyə bilərəm, belə şifahi, yaxud da sənədləşdirılmış beynəlxalq dəstək real nəticələrə çevrilmir. Real nəticə yoxdur. Biz, tutaq ki, hansısa diplomatik uğurlardan haqlı olaraq məmnun ola bilərik. Çünki hər bir beynəlxalq sənəd bizim mövqeyimizi gücləndirir və Azərbaycan üçün bütün yolları daha da açıq edir. Artıq bütün dünya etiraf edib ki, bizim torpaqlarımız işğalçı Ermənistan tərəfidən zəbt edilib, azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar. İşğal olunmuş torpaqlarda bütün binalar dağıdılıb və Ermənistan vandalizm siyasəti aparmışdır. Bizim bütün tarixi abidələrimizi yerlə-yeksan etmişdir. Yəni bütün bu beynəlxalq etiraf həm danışıqlar prosesində, həm də danışıqlardan kənarda məsələnin həlli üçün yolların açılmasında bizə lazımdır. Ancaq yenə də deyirəm ki, hələlik biz nəticə görmürük. Deyə bilərəm ki, 2008-ci il bu baxımdan həlledici il olmalıdır. Artıq 2008-ci ildə açıq görəcəyik ki, biz haradayıq, məsələnin həlli sülh yolu ilə mümkündür, yoxsa yox. Əlbəttə ki, ondan sonra öz qərarlarımızı verəcəyik.

Danışıqlar zamanı müzakirə olunan məsələlər ictimaiyyətə artıq bəllidir. Azərbaycan ictimaiyyəti bunu bilir. Mən çox şadam ki, bizim prinsipial mövqeyimiz xalq tərəfindən dəstəklənir. Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müzakirə etməyib və etməyəcəkdir. Dağlıq Qarabağın müstəqilliyi, ya hansısa formada gələcək müstəqilliyi, 10 ildən, 15 ildən, 100 ildən sonra müstəqilliyi müzakirə predmeti deyil və olmayıbdır. Bəzi hallarda Ermənistan rəhbərliyi tərəfindən daxili auditoriyaya ünvanlanmış qeyri-ciddi və yalan məlumatlar verılır. Onların heç bir əsası yoxdur. Danışıqların mahiyyəti Azərbaycanın bütün işğal olunmuş torpaqlarının boşaldılmasıdır, o cümlədən Dağlıq Qarabağa Azərbaycan vətəndaşlarının qayıtmasıdır. Danışıqların mahiyyəti budur. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonlarının boşaldılmasıdır.

Mən bunu, bütün rayonların adlarını xüsusilə sadaladım ki, sabah Ermənistanda öz siyasi məqsədləri üçün hesablanmış yanlış bəyanatlar verməsinlər. Bütün bu rayonlardan erməni işğalçı qüvvələrinin çıxarılması, o cümlədən Dağlıq Qarabağa,

Şuşaya azərbaycanlı köçkünlərin qayıtması danışıqların əsas mahiyyətidir. Bu, reallıqdır. Əlbəttə, bu bizə ümidlər verir; Belə formatda danışıqların aparılması bizə ümidlər verir. Ümidlər bizə hələ ki, danışıqlara sadiq olmaq üçün bir dəstək verir. Ancaq bu ümidlər bir vaxt tükənə bilər. Əgər biz bundan sonra da görəcəyiksə ki, Ermənistan tərəfi qeyri-səmimidir, - halbuki biz bunu bu vaxta qədər də dəfələrlə görmüşük, - öz sözünə əməl etmir, əvvəlcə razılaşdırılmış prinsiplərdən geri çəkilir, beynəlxalq vasitəçiləri aldatmaq istəyir, ictimai rəyi çaşdırmaq istəyir, danışıqlar masasında bir söz, rəsmi bəyanatlarda başqa söz deyir, onda qeyri-ciddi tərəflə danışıqların aparılmasına heç bır ehtiyac qalmır.

Biz reallığa və beynəlxalq hüquqa əsaslanmalıyıq. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün dünya Dağlıq Qarabağ daxil olmaq şərtilə, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Birləşmiş Millətlər Təşkilatı, Ermənistan istisna olmaq şərtilə, bütün ölkələr, Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu qəbul edir.

İqtisadi üstünlük bizim tərəfimizdədir. Bunu heç şərh etməyə də dəyməz. Sadəcə olaraq. biz gərək Azərbaycan və Ermənistan iqtisadiyyatının həcminə baxaq və müqayisə edək. Bizim iqtisadiyyatımız 2007-ci ilin nəticələrinə görə, təxminən 30 milyard dollardır. Ermənistanın iqtisadiyyatı, - mən dəqiq bilmirəm, - haradasa 6-7 milyarddır. Gələcəkdə bu böyük uçurum daha da genişlənəcəkdir.

İndi biz bilirik ki, gələn il neftin satışından, təbii qazın satışından, iqtisadi inkişafdan, sənayenin inkişafından hansı maliyyə resurslarını alacağıq. Biz bütün yolları açırıq, tranzit ölkəyə çevrılirik. Biz enerji baxımından dünya üçün, Avropa üçün əvəzolunmaz ölkəyə çevrılirik. Ermənistan dünya birliyinə nə töhfə verə bilər? Heç nə! Nə siyası baxımdan, nə iqtisadi baxımdan, nə nəqliyyat baxımından. Bütün başqa millətləri oradan qovub, qapalı bir hərbiləşdirılmiş rejim, antidemokratik rejim şəraitində yaşayan monodövlətdir. Dağlıq Qarabağda kriminal quldur dəstəsi bölgəni zəbt edib və orada hərbi kriminal rejim, qeyri-qanuni rejimi hökm sürür. Ora heç bir beynəlxalq monitörinqə məruz qalmayan bölgədir və heç kim bilmir ki, orada nə baş verir, hansı silahlar saxlanılır, hansı terrorist qüvvələr saxlanılır, narkotiklər necə yetişdirılır. Heç kim bilmir. Bu, Avropanın içində bir qara ləkədir.

İqtısadi-siyasi baxımdan bizim üstünlüyümüz göz qabağındadır. Biz bu üstünlükdən istifadə edirik və bundan sonra da edəcəyik. Ermənistanı bütün regional layihələrdən təcrid etmişik. Biz bunu etmişik. Baxmayaraq ki, kimsə bizi tənqid edir, kimsə tənqid etmir. Mən buna əhəmiyyət vermirəm.

Açıq deyirəm, biz onları bütün layihələrdən - enerji, nəqliyyat layihələrindən, bütün başqa layihələrdən bundan sonra da təcrid edəcəyik. O vaxt ki, onlar bizim torpağımızdan könüllü şəkildə çıxacaqlar, ondan sonra vəziyyət dəyışə bilər. Gələcəkdə yollar da

açıla bilər və Ermənistan Azərbaycanın imkanlarından nə vaxtsa faydalana bilər. O vaxt ki, bizim torpaqlarımız işğalçılardan azad olunacaq, Azərbaycan qaçqınları, köçkünləri öz torpaqlarına qayıdacaqlar.

Mən bu məsələyə xüsusi toxundum. Çünki bu, bizim üçün ən başlıca vəzifədir. Azərbaycanın qarşısında bütün yollar, bütün imkanlar açıqdır. Biz bilirik haraya gedirik. Biz uğurla inkişaf edirik. Ölkəmiz həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə inkişaf edir. Bu məsələ bir nömrəli məsələdir. Bizim bütün səylərimiz bu məsələyə yönəldilməlidir. Bütün qurumların - dövlət, hökumət qurumlarının, ictimai, özəl qurumların, bütün Azərbaycan vətəndaşlarının səyləri birləşməlidir, bütün dünya azərbaycanlılarının səyləri bırləşməlidir və biz işğalçı dövlətə qarşı bundan sonra da mübarizəni aparacağıq.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, 2007-ci il Azərbaycanın hərtərəfli inkişafı üçün uğurlu il olubdur. Mən ümid edirəm və şübhə etmirəm ki, 2008-ci il də bizim üçün uğurlu olacaqdır.

İndi isə keçək müzakirələrə. Söz verılır maliyyə naziri Samir Şərifova.

## Maliyyə naziri Samir Şərifovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Yola saldığımız 2007-ci il dövlətimizin siyasi və iqtisadi qüdrtətinin artması, milli maraqlarımızın beynəlxalq miqyasda təmin edilməsi, xalqın rifah halının yaxşılaşdırılması, qarşıya qoyulan vəzifələrin yerinə yetırilməsi, həyata keçirılmış işlərin, əldə edilmış nailiyyətlərin həcmi baxımından ölkəmizin müasir tarixinə olduqca uğurlu və zəngin bir il kimi daxil olacaqdır. Azərbaycan Rcspublikasının Prezidenti möhtərəm İlhama Əliyev tərəfindən 2003-cü ildə irəli sürülmüş ıqtisadiyyatın inkişaf templərinin sürətləndirilməsi strategiyasının son 4 il ərzində ardıcıl surətdə həyata keçirilməsi əvvəlki illərdə olduğu kimi, 2007-ci ildə də ökəmizin davamlı dinamik inkişafını şərtləndirmişdir.

İlkin məlumatlara əsasən 2007-ci ildə də ümumi daxili məhsulun istehsalı yüksək olmuş və 24,6 milyard manata çatmışdır. Bu isə 2006-cı illə müqayisədə 24,7 faiz səviyyəsində real artım deməkdir. Qeyri-neft sektoru üzrə artım 11 faiz təşkil etmişdir. Təhlil göstərir ki, ötən il də daxil olmaqla şon 4 ildə ölkə iqtisadiyyatı təxminən 2 dəfə, onun qeyri-neft sektoru 1,8 dəfə artmışdır.

Ölkəmizin maliyyə mövqeyi də xeyli möhkəmlənmişdir. 2007-ci ildə 2003-cü illə müqayisədə icmal və dövlət büdcələri xərclərinin dəfələrlə, dövlət investisiya qoyuluşunun

həcminin isə 20 dəfədən çox artmasına baxmayaraq, dövlətin məcmu valyuta ehtiyatlarının davamlı artımı təmin edilmiş - onların məbləği 4,5 dəfə artaraq 7,2 milyard ABŞ

dollarını üstələmişdir. Təkcə Dövlət Neft Fondunun vəsaitlərinin məbləği ötən il ərzində 1 milyard ABŞ dolları həcmində artmışdır. Bununla da ulu öndər Heydər Əliyevin Dövlət Neft Fondunu yaradarkən müəyyən etdiyi strateji vəzifənin neft gəlirlərinin nəsillərarası ədalətli bölgüsü, Azərbaycanın bugünkü və gələcək nəsillərinə xidmət etməsi vəzifəsinin əməli icrası təmin olunur.

Ölkənin artan gəlirlərinin hər bir Azərbaycan vətəndaşı tərəfindən gündəlik həyatında hiss etməsi amalı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi və həyata keçirdiyi sosial-iqtisadi kursun əsas qayəsini təşkil edir. 2007-ci il də daxil olmaqla son 4 il ərzində ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların rifahının yüksəldilməsi istiqamətində olduqca böyük işlər görülmus, əhəmiyyətli irəliləyişə nail olunmuşdur.

Əhalinin sayının 4,5 faiz artması şəraitində 2007-ci ilin sonuna yoxsulluğun səviyyəsi 2003-cü ilə nisbətən 2,5 dəfə azalmışdır. 2003-cü ildə ölkə əhalisinin təxminən 45 faizi yoxsulluq şəraitində yaşayırdısa, hazırda bu kateqoriyaya əhalinin yalnız 16 faizi aid olunur. Sözsüz ki, yoxsulluğun kəskin azaldılmasında Prezident İlham Əliyevin Azərbaycanda yeni iş yerlərinin yaradılması, regionların sosial-iqtisadi inkişafı proqramlarının uğurla həyata keçirilməsi müstəsna rol oynamışdır. 2007-ci ildə ölkəmizdə 145 min yeni, o cümlədən 105 min daimi iş yeri açılmışdır. Bütövlükdə isə 2003-cü ilin oktyabrından 2007-ci ilin sonunadək olan dövr ərzində 642 min yeni iş yerı yaradılmışdır.

2007-cı ildə əhalinin rifahının yaxşılaşdırılması, büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması üçün ölkəmizin Prezidenti tərəfindən bir sıra sərəncamlar imzalanmışdır. İmzalanmış sərəncamlarla minimum aylıq əməkhaqqının, əmək pensiyalarının baza hissəsinin məbləğləri 50 manata çatdırılmış, büdcə təşkilatlarında çalışanların və dövlət qulluqçularının aylıq əməkhaqları orta hesabla 25 faiz, Milli Elmlər Akademiyasının tabeliyində olan elmi tədqiqat müəssisələrində çalışanların əmək haqqı 50 faiz, aspirantlara, ali, orta ixtisas, peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin aylıq məbləği orta hesabla 50 faiz, məcburi köçkünlərə verilən aylıq müavinətin məbləği 50 faiz artırılmışdır.

Əhalinin rifahını səciyyələndirən göstəricilərdə də müsbət artım dinamikası müşahidə edilir. Belə ki, adambaşına düşən pul gəlirləri 2007-ci ilin sonuna əvvəlki illə müqayisədə 38 faiz artaraq 1670 manata, orta aylıq əməkhaqqı 42 faiz artaraq 214 manata, təyin olunmuş aylıq pensiyanın orta məbləği 44 faiz artaraq 59 manata çatmışdır.

Dövlət başçısının 2007-ci ilin sonunda imzaladığı sərəncamlarla 2008-ci il üçün minimum əməkhaqqının və pensiyanın minimum məbləğinin həddi 60 manata çatdırılmışdır.

2007-ci il məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də vacib mərhələ olmuşdur. İl ərzində məcburi köçkünlərin yeni, hər cür sosial

infrastruktura malik qəsəbələrə köçürülməsi məqsədlərinə 154 milyon manat vəsait sərf olunmuş son çadır düşərgəsi ləğv edilməklə Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmamasına dair ölkəmizin Prezidentinin tapşırığı tam icra edilmişdir.

2007-ci ilin iqtisadi və geosiyasi nöqteyi-nəzərindən önəmli hadisələri sırasına Azərbaycanın enerji təminatının tam həcmdə öz daxili imkanları hesabına ödənilməsi barədə Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş qərar da daxil olunmalıdır.

Bəzi xarici maraq dairələrinin ədalətdən uzaq mövqelərinə baxmayaraq, 2007-ci ilin ilk günlərindən Azərbaycana Rusiyadan qaz idxalı nəinki dayandırılmış, eyni zamanda ölkəmizdən qonşu Gürcüstana və Türkiyəyə qaz ixracına başlanılmışdır.

Ötən ilin digər vacib hadisəsi kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyinin yeni mexanizminin tətbiq olunmasıdır.

Ölkəmizin Prezidentinin Sərəncamına əsasən 2007-ci ilin dövlət büdcəsindən 80 milyon manat vəsaitin ayrılması hesabına ötən il 598 min 806 nəfər fiziki və 12 hüquqi şəxsə əkin sahəsinin becərilməsində istifadə edilmiş yanacaq və motor yağlarına, mineral gübrələrin güzəştlə satılmasına, buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə yardımın (40 manat) verilməsi təmin edilmiş, bu məqsədə 68,9 milyon manat vəsait sərf olunmuşdur. İlkin məlumatlara əsasən kənd əməkçilərinə edilmiş bu yardımların təzahürü olaraq əvvəlkiı ilə nisbətən kənd təsərrüfatı məhsulları üzrə bütövlükdə əkilən sahə (əkin dövriyyəsi) 2 min hektar, payızlıq taxıl və buğda sahələri isə 261 min hektar artmışdır.

Sahıbkarlığın, o cümlədən aqrar sektorda sahibkarlığın inkişafına dövlət qayğısı daha da artırılmış, fermer təsərrüfatlarına mikrokreditlərin verilməsi, lizinq xidmətinin göstərilməsi istiqamətində mühüm addımlar atılmış, 2007-ci il icmal büdcəsində Sahibkarlığa Kömək Milli Fonduna nəzərdə tululmuş 80 milyon manat, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə nəzərdə tutulmuş 40 milyon manat, Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə nəzərdə tutulmuş 5 milyon manat vəsaitlərin təyinatı üzrə istifadəsi təmin edilmişdir.

Dövlətimizin başçısının ölkə əhalisinin sağlamlığının qorunması, tibb xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, səhiyyənin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslar üzərində qurulması, Azərbaycanda müasir beynəlxalq təcrübəyə uyğun icbari tibbi sığorta sisteminin və onu idarə edən mexanizinin yaradılmasını əhatə edən, səhiyyə sahəsində köklü islahatların həyata keçirilməsinin əsas istiqamətlərini müəyyən edən sərəncamları yola saldığımız ilin mühüm nəticələrindən biridir.

İqtisadiyyatda müşahidə olunan sıçrayışlı artım 2007-ci ilin dövlət və icmal büdcələrinin göstəricilərində də özünü aydın şəkildə büruzə vermişdir.

2003-cü illə müqayisədə 2007-ci ildə dövlət büdcəsinin cari xərcləri üzrə müdafiə

xərcləri 6 dəfə, səhiyyə xərcləri 4,7 dəfə, kənd təsərrüfatı xərcləri 4,6 dəfə, mədəniyyət, incəsənət, bədən tərbiyəsi və idman xərcləri 3,1 dəfə, təhsil xərcləri 3,1 dəfə, sosial müdafiə və sosial təminat xərcləri 2,8 dəfə, mənzil-kommunal təsərrüfatı xərcləri 3,1 dəfə artmışdır.

2007-ci ildə dövlət büdcəsinin mədaxil proqnozu 5 milyard 771 milyon manata qarşı 6 milyard 7 milyon manat və ya 104,1 faiz icra olunmuşdur. Bu da 2006-cı ilə nisbətən 2,2 milyard manat və ya 55,3 faiz çoxdur.

Vergilər Nazirliyi tərəfindən 4 milyard 240 milyon manat proqnoza qarşı icra 4 milyard 511 milyon manat və ya 106,4 faiz olmuşdur ki, bu da proqnoza nisbətən 271 milyon manat, 2006-cı illə müqayisədə isə 1,8 milyard manat və ya 69,3 faiz çoxdur.

Dövlət Gömrük Komitəsi tərəfindən proqnoza 100,3 faiz əməl edilməklə dövlət büdcəsinə 772 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2006-cı illə müqayisədə 256 milyon manat və ya 49,6 faiz çox deməkdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulmuş məbləğdə, yəni 585 milyon manat vəsait daxil olmuşdur.

2007-ci il dövlət büdcəsinin xərcləri 6 milyard 59 milyon manat və ya 95,9 faiz icra edilsə də, 2006-cı illə müqayisədə 2,3 milyard manat və ya 59,9 faiz çox olmuşdur. İl ərzində dövlət büdcəsinin artımının məbləği isə 2003-cü ilin dövlət büdcəsini 2 dəfəyədək üstələmişdir.

2006-cı ilə nisbətən 2007-ci ildə dövlət büdcəsi gəlirlərinin ümumi daxili məhsulda xüsusi çəkisi 3 faiz artaraq 24,1 faiz, xərcləri isə 3,6 faiz artaraq 24,6 faiz təşkil etmişdir.

2007-ci ildə də sosial yönümlü tədbirlər üzrə xərclərin maliyyələşdirilməsi diqqətdə olmuş, bu məqsəd üçün 1 milyard 669 milyon manat vəsait sərf edilmişdir ki, bu da 2006-cı illə müqayisədə 620 milyon manat və ya 59 faiz çoxdur.

Bu qəbildən olan dövlət investisiya qoyuluşu xərcləri isə 382 milyon manat təşkil etmişdir ki, bu da 2006-cı illə müqayisədə 286,0 milyon manat və ya 4,0 dəfə çoxdur.

2007-ci ildə 2006-cı illə müqayisədə dövlət büdcəsinin cari xərclərində sosial yönümlü tədbirlər üzrə xərclərin tərkib hissəsi olan sosial müdafiə və sosial təminat xərcləri 1,7 dəfə, səhiyyə xərcləri 1,6 dəfə, təhsil xərcləri 1,5 dəfə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərcləri 1,4 dəfə artmışdır.

Dövlət büdcəsi xərclərinin strukturu üzrə 2007-ci ildə 2006-cı ilə nisbətəon sənaye və tikinti xərcləri 2,2 dəfə, aqrar və ətraf mühitin mühafizəsi xərcləri 1,9 dəfə, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri 1,5 dəfə, mənzil və kommunal təsərrüfatı xərcləri 1,5 dəfə, müdafiə xərcləri 1,3 dəfə, ümumi dövlət xidməti xərcləri 1,2 dəfə çox olmuşdur.

Ölkəmizin beynəlxalq münasibətlərdə mövqelərinin möhkəmlənməsi, Prezident

İlham Əliyevin beynəlxalq aləmdə sürətlə artan nüfüzunun məntiqi nəticəsi kimi respublikamızda bir sıra mötəbər beynəlxalq tədbirlərin keçirilməsi, İsveç və Niderland krallıqlarında, Çexiya və Litva respublikalarında, Qətər Dövlətində, Qırğızıstanda və Tacikistanda yeni səfirliklərimizin təsis edilməsi xərcləri, bir sıra dövlətlərdə baş vermiş təbii və humanitar fəlakətlərin aradan qaldırılması ilə bağlı dövlət büdcəsindən maliyyə yardımları ayrılmışdır.

2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan həlli vacib hesab olunan tədbirlərin maliyyələşdirilməsinə 96,7 milyon manat vəsait sərf edilmişdir.

Bu mənbədən Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidməti üçün yeni təcili yardım avtomaşınlarının alınmasına (12 milyon manat), Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik müavinətin ödənilməsinə (3,5 milyon manat), Bakı şəhər Bilgəh-Şüvəlan zonası və Pirallahı adasının sahilboyu zolağında, Kür və Araz çaylarının sularından istifadə edən 100 yaşayış məntəqəsində modul tiplı sutəmizləyici qurğuların quraşdırılmasına (6,5 milyon manat), qəza vəziyyətində olan bir sıra ümumtəhsil məktəblərinin yeni binalarının tikilməsinə, mövcud binalarda bərpa və əsaslı təmir işlərinin aparılmasına (14 milyon manat), Neftçala, Hacıqabul, Yevlax və Qobustan rayon və şəhərlərinin sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlərin həyata keçirilməsinə (5 milyon manat), mərkəzləşdirilmiş qaydada xüsusi təyinatlı kommunal texnikasının alınmasına (25 milyon manat) və digər tədbirlərə vəsait ayrılmışdır.

2007-ci ildə dövlət büdcəsinin ehtiyat fondundan dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra tədbirlərin maliyyələşdirilməsinə 42,6 milyon manat vəsait ayrılmışdır.

Möhtərəm cənab Prezident!

Son illər dövlət büdcə xərclərinin bir neçə dəfə artması hesabına iqtisadiyyata sərmayələrin qoyulmasına üstünlük verilməsi ilə səciyyələnmişdir.

Belə ki, 2003-cü ilə nisbətən 2007-ci ildə dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşuna 22 dəfə çox və ya 1 milyard 904 milyon manat vəsait yönəldilmişdir. Bu artım hesabına ölkəmizin prioritet sosial yönümlü infrastrukturunun yaradılması və yenidən qurulması ilə bərabər, fiziki infrastruktur, mədəniyyət, idman təyinatlı layihələrin maliyyələşdirilməsi mümkün olmuşdur.

Ötən il investisiya xərclərindən sosial təyinatlı layihələrə 382 milyon manat, o cümlədən təhsil obyektlərinin tikintisinə və təmirinə 93 milyon manat, səhiyyə obyektlərinin tikintisi və yenidən qurulmasına 59,4 milyon manat vəsait sərf edilmişdir.

Mədəniyyət obyektlərinin tikintisi və əsaslı təmirinə 67,5 milyon manat, gənclər və idman obyektlərinin tikintisinə 57,3 milyon manat vəsait xərclənmişdir.

2006-cı ildə infrastruktur təyinatlı layihələrə 863,4 milyon manat, o cümlədən ölkədə yol-nəqliyyat infrastrukturunun yenidən qurulmasına 328,1 milyon manat, Bakı şəhərində nəqliyyat problemlərinin həlli istiqamətində görülən tədbirlərin davamı kimi yol ötürücülərinin və yeraltı keçidlərin tikintisinə 162,8 milyon manat, metronun Şimal hissəsinin tikintisinə və buraxılış kompleksinin istifadəyə verilməsinə 42,5 milyon manat, Bakı Metropoliteni üçün vaqonların alınmasına 14,2 milyon manat, metronun "28 May" və "Bakı Sovetı" stansiyalarının əsaslı təmirinə və yenidən qurulmasına 9,9 milyon manat sərf olunmuşdur.

Ölkəmizin enerji təhlükəsizliyini və ölkə regionlarının elektrik enerjisinə və qaza olan tələbatını təmin etmək məqsədi ilə modul tipli 2 elektrik stansiyasının tikintisinə 79,8 milyon manat, paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına 10 milyon manat, Lerik, Yardımlı və Ağcabədi rayonlarının qazlaşdırılmasına 21 milyon manat vəsait yönəldilmışdir.

2007-ci ildə meliorativ işlərin yerinə yetirilməsinə, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisi və təmirinə 134,6 milyon manat vəsait yönəldilmişdir.

2007-ci ilin sonuna xarici valyutada ifadə edilmiş dövlət borcumuz ümumi daxili məhsulun 8,3 faizinə bərabər olmuş, adambaşına xarici dövlət borcumuz isə 262 ABŞ dolları təşkil etmişdir.

Dövlət zəmanəti ilə alınmış xarici kreditlərin istifadə istiqamətləri üzrə bölgüsündə iqtisadi islahatlar üçün cəlb edilən kreditlər 11,7 faiz, layihə kreditləri 88,3 faiz, o cümlədən elektrik enerjisi sektoru üzrə 30,7 faiz, yol tikintisi və nəqliyyat sektoru üzrə 26,6 faiz, kənd təsərrfüatı və meliorasiya üzrə 6,4 faiz, sosial sahələr üzrə 13,1 faiz, neft və qaz sektorları, kimya sənayesi üzrə 4,6 faiz, digər sahələr üzrə 6,8 faiz təşkil etmişdir.

2007-ci ildə qəbul edilmış 2008-ci il və sonrakı üç il üçün dövlət və icmal büdcələri Azərbaycan Respublıkasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son dörd il ərzində ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nailiyyətlərin davam etdirilməsini nəzərdə tutan, dövlət büdcəsinin müəyyən etdiyi əsas prioritetləri və hədəfləri özündə əks etdirən sosial-iqtisadi kursun həyata keçirilməsi üçün müvafiq kəmiyyət və keyfiyyət təminatını yaradır.

Son dörd ildə görülən işlər, əldə edilən nailiyyətlər bu sosial-iqtisadi kursa alternativin olmaması, onun Prezident İlham Əliyevin rəhbərliyi ilə 2008-cı ildə və sonrakı dövrdə də davam etdirilməsinin, Azərbaycan xalqının maraqlarına tam cavab verməsinin zəruriliyini şərtləndirmişdir.

Cənab Prezident!

Çıxışımın sonunda icazə verin, Sizi əmin edim ki, bugünkü müşavirədə verəcəyiniz

tapşırıqlar da nəzərə almmaqla ölkə iqtisadiyyatı üçün müəyyən etdiyiniz strateji inkişaf xotli, sosial-iqtisadi kursunuzu Maliyyə Nazirliymm kollektivı 2008-ci büdcə ilində xü-susi ozra və peşəkarlıqla həyata keçırəcəkdir. Diqqətinizə görə təşəkkiir edirom!

## Vergilər naziri Fazil Məmmədovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi islahatların Sizin rəhbərliyinizlə müasir dövrün reallıqlarına uyğun, qətiyyətlə davam etdirilməsi nəticəsində ölkəmiz iqtisadi artım tempinə görə son üç ildə olduğu kimi, 2007-ci ildə də lider mövqeyini saxlamışdır.

Möhtərəm cənab Prezident!

İcazənizlə, 2007-ci il ərzində vergi daxilolmalarının təmin edilməsi, vergi nəzarətinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və 2008-ci ildə qarşıda duran vəzifələr barəsində Sizə məruzə edərdim.

Ötən ilin dövlət büdcəsi təsdiq edilərkən ölkənin sürətli iqtisadi inkişafı nəzərə alınaraq, vergilər üzrə daxilolmalar 61,7 faiz artımla proqnozlaşdırılmış, iqtisadiyyatın bütün sahələrində inkişaf tempinin və sahibkarliğa dövlət qayğısının nəticəsi olaraq büdcəyə 4 milyard 548 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2006-cı illə müqayisədə 1 milyard 834,1 milyon manat və ya 67,6 faiz çoxdur. Qeyd olunan dövrdə Vergilər Nazirliyinin xətti ilə toplanan vəsait ümumi daxili məhsulun 18,5 faizini, ümumi büdcə gəlirlərinin 75,2 faizini təşkil etmişdir.

Büdcəyə dövlət sektoru üzrə 1 milyard 290 milyon manat, qeyri-dövlət sektoru üzrə 3 milyard 258,7 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2006-cı ilin göstəricisindən müvafiq olaraq 450,4 milyon manat (53,6 faiz) və 1 milyard 383,7 milyon manat (73,8 faiz) çox olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının reallaşması nəticəsində ötən il də uğurlu nəticələr əldə edilmiş, həm xarici neft şirkətləri, həm də Dövlət Neft Şirkəti tərəfindən hesablanmış vergilərin vaxtında və tam şəkildə büdcəyə ödənilməsi ləmin edilmişdir. Belə ki, neft sektoru üzrə 2 milyard 650 milyon manat proqnoza 109,9 faiz əməl edilmişdir ki, bu da 2006-cı illə müqayisədə 1 milyard 239,4 milyon manat və ya 74,1 faiz çoxdur.

Ölkə iqtisadiyyatında neft sektorunun aparıcı rolunun azaldılması və neft gəlirlərinin qeyri-neft sektorunun inkışafına yönəldilməsi istiqamətində qəbul etdiyiniz qərarlar və verdiyiniz tapşırıqlar bu sahədə iqtisadi fəallığı daha da sürətləndirmiş, təkcə əlavə

dəyər vergisi ödəyicilərinin dövriyyələri 2006-cı ildəki 16 milyard manatdan 2007-ci ildə 25 milyard manata çatmışdır. Qeyri-neft scktorunun ümumi inkişafı bu sahədən vergi daxilolmalarını da əhəmiyyətli dərəcədə artırmışdır.

Belə ki, 2007-ci il ərzində qeyri-neft sektoru üzrə büdcəyə 1 milyard 603,4 milyon manat proqnoza qarşı, 1 milyard 635,9 milyon manat vəsait daxil olmaqla, proqnoza 102 faiz əməl edilmişdir. Qeyd etmək istərdim ki, qeyri-neft sektoru üzrə vergi daxilolmaları 2006-cı illə müqayisədə 594,7 milyon manat və ya 57,1 faiz, qeyri-neft sektorunda neft konsorsiumları ilə işləyən şirkətlərin daxilolmaları nəzərə alınmasa, bu sektordan daxilolmalar 75,9 faiz artmışdır.

İqtisadiyyatın qeyd olunan uğurlu nəticələrinin və əhalinin artmaqda olan pul gəlirlərinin inflyasiya təsirinə məruz qalmaması üçün qeyri-neft sektoruna, xüsusilə də mənzil tikintisi sahəsinə vergi nəzarətinin artırılması barədə verdiyiniz tapşırıqların icrası olaraq, müvafiq tədbirlər görülmüş və mənzil tikintisi sahəsində vergi daxilolmalarının 2006-cı illə müqayisədə artımı 100 faiz təşkil etmişdir. Eyni zamanda, bütün sahələr üzrə aparılmış yoxlamalarla 789,1 milyon ınanat əlavə vergi hesablanmışdır ki, bu da büdcə daxilolmalarının 17,3 faizini təşkil edir.

Əsas istehlak vergiləri olan əlavə dəyər vergisinin və aksiz vergisinin inzibatçılığı antiinflyasiya tədbirləri çərçivəsində sərtləşdirilmiş və bu sahədən vergi daxilolmaları ötən illə müqayisədə müvafiq olaraq 67,7 faiz və 101,1 faiz artmışdır.

2007-ci ildə vergi orqanları tərəfindən bilərəkdən, qəsdən vergidən yayınma, qanunsuz sahıbkarlıq və digər qanunazidd hərəkətlərə qarşı ciddi mübarizə aparılmış, bu xüsusatdan olan materiallar üzrə 185 cinayət işi qaldırılmış, istintaqı başa çatdırılmış cinayət işlərindən 117 şəxs barəsində 96 cinayət işı baxılması üçün məhkəməyə göndərılmış, dövlətə dəyən ziyandan 7,7 milyon manat ödənilmişdir.

Möhtərəm cənab Prezident!

2007-ci il ərzində vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də müvafiq işlər həyata keçirilmişdir. Belə ki, ilin sonunda vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, 14 faiz dərəcəsi ilə gəlir vergisinə cəlb edilən əməkhaqqının məbləği 2 min manatadək artırılmış, mənzil tikintisi üzrə satış dövriyyəsinin minimum həddi müəyyən edilmiş, nəzarət-kassa aparatlarının tətbiqi sferasında qanunvericilikdə olan çatışmazlıqlar aradan qaldırılmış və 2008-ci il yanvarın 1-dən bütün ticarət obyekilərində POS-terminalların mütləq qaydada quraşdırılması işlərinə başlanılmışdır.

2007-ci ilin ən uğurlu hadisələrindən biri də biznes mühitində bəzi mövcud problemlərin aradan qaldırılması möqsədilə sahibkarlıq fəalıyyəti subyektlərinin 2008-ci il yanvarın 1-dən "bir pəncərə" prinsipi üzrə qeydıyyatının həyata keçirilməsi barədə Sizin müvafiq fərmanınız olmuşdur.

Möhtərəm cənab Prezident!

Sizin nəzarətiniz və bilavasitə iştirakınızla fəaliyyətə başlamış yeni qeydiyyat sisteminə görə sahibkarlıq subyektləri müvafiq sənədləri təqdim etməklə, 3 gün ərzində dövlət qeydiyyatına alınır ki, bu da müddətin 20 dəfə, prosedur qaydalarının 3-5 dəfə, təqdim edilən kağız formatlı sənədlərin isə dəfələrlə azalması deməkdir. Qeyd etmək istərdim ki, bu prinsipin tətbiq edilməsindən ötən 4 gün ərzində artıq 250-dən çox sahibkar qeydiyyata alınmışdır.

Sahibkarlıq subyektlərinin qeydiyyat prosedurlarının sadələşdirilməsi onların vergi bəyannamələrinin təqdim edilməsi prosesinin də sadələşdirilməsi ilə müşayiət olunmaqdadır. Belə ki, 2007-ci ilin avqust ayından etibarən Vergilər Nazirliıyində "elektron-bəyannamə" sisteminin tətbiqinə başlanılmışdır ki, bu da vergi ödəyicisinə bəyannaməni internet vasitəsilə təqdim etmək, tərtibini və düzgünlüyünü proqram təminatı vasitəsilə yoxlamaq, öz şəxsi hesab vərəqəsinə "real vaxt" rejimində baxa bilmək imkanı verir.

Məlumat üçün qeyd etmək istərdim ki, "elektron-bəyannamə" sisteminin tətbiq edildiyi qısa müddət ərzində 25 mindən çox vergi ödəyicisi tərəfindən 37 mindən çox "elektron bəyannamə" təqdim edilmişdir. Hazırda əlavə dəyər vergisi qeydiyyatında olan vergi ödəyicilərinin 95 faizindən çoxu öz vergi bəyannamələrini internet vasitəsilə təqdim edir.

Möhtərəm cənab Prezident!

2008-ci ilin dövlət büdcəsinin mədaxil proqnozunun 5 milyard 19 milyon manatının və ya 67,7 faizinin Vergiılər Nazirliyi tərəfindən icrası nəzərdə tululmuşdur. Qeyd etmək lazımdır ki, 2008-ci il üçün nəzərdə tutulmuş proqnoz 2007-ci ilin proqnoz məbləğindən 765,6 milyon manat və ya 18 faiz çoxdur. Bu artımın 80 milyon manatı neft sektorunun, 685,6 milyon manatı qeyri-neft sektorunun payına düşür ki, bu da 2007-ci ilin proqnoz göstəricisindən 42,8 faiz çoxdur.

Möhtərəm cənab Prezident!

Fəaliyyətimizdə olan nöqsan və çatışmayan cəhətləri, 2008-ci ildə qarşıda duran vəzifələrimizi aydın dərk edir və Sizi əmin etmək istəyirəm ki, vergi orqanları üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi sahəsində Sizin ali tapşırıqlarımzın icrası üçün bütün imkanlarını səfərbər edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm!

## Əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hesabat dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Sizin siyasi

kursunuza uyğun olaraq qarşımıza qoyduğunuz vəzifələrin icrası üzrə müvafiq tədbirləri həyata keçirmişdir. MDB-də ilk dəfə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı fəal ünvanlı məşğulluq tədbirlərinin yerinə yetirilməsində, işsizliyin və nəticə etibarilə yoxsulluğun səviyyəsinin aşağı salınması üçün yeni imkanlar yaratmışdır.

Həyata keçirdiyiniz uğurlu siyasət nəticəsində ölkəmizdə işsizlik səviyyəsi 2003-cü ilə nisbətən 4,1 faiz azalaraq, 2007-ci ilin noyabr ayına 6,6 faiz təşkil etmişdir. Məlumat üçün bildirirəm ki, Avropa İttifaqı ölkələrində bu göstərici 8,1 faizdir. 2007-ci ildə məşğulluq xidməti orqanları tərəfindən 30 min 700 nəfər münasib işlə təmin olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çoxdur. Bununla belə, yeni iş yerlərinin yaradılmasının sürətli artımı fonunda ixtisaslı işçi qüvvəsinə tələbat çoxalmış, məşğulluq xidmətinə fəhlə peşələri üzrə təqdim olunan vakansiyalar son dörd ildə dəfələrlə artmışdır.

İş axtaran və işsiz vətəndaşların peşə hazırlığı işini əmək bazarının real tələblərinə uyğun təşkil etmək məqsədi ilə ilk dəfə keçən il Bakı şəhərində regional tədris mərkəzi yaradılmışdır. Qısa müddət ərzində 650 vətəndaş burada əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmiş və onların 95 faizi işlə təmin edilmişdir. Tezliklə bu tipli tədris mərkəzləri Naxçıvanda və Göyçayda fəaliyyətə başlayacaqdır. Beynəlxalq təcrübə göstərir ki, burada təhsilin model sisteminin tətbiqi nəticəsində təlim müddəti 2, təlim xərcləri isə 2,5 dəfə azdır. Məşğulluq problemlərinin həllində başlıca istiqamətlərdən biri də vakant iş yerlərinə Azərbaycan vətəndaşlarının üstün hüququnun təmin olunması və bu məqsədlə daxili əmək bazarının qeyri-leqal əməkçi miqrantlardan səmərəli qorunasından ibarətdir.

Nazirlər Kabinetinin 2007-ci il yanvar ayının 22-də keçirilən geniş iclasındakı nitqinizdən irəli gələn vəzifələrin icrası olaraq ölkəmiz əcnəbilər üçün cəlbedici ölkəyə çevrildiyindən gözlənilən əməkçi miqrant axınının tənzimlənməsinə nail olmaq məqsədi ilə nazirlik tərəfindən bir sıra müvafiq işlər həyata keçirilmişdir. Belə ki, əmək miqrasiyası proseslərinin tənzimlənməsi işinin respublikamızın qoşulduğu beynəlxalq konvensiyalara və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq bu sahədəki milli qanunvericiliyin təkmilləşdirilməsi üzrə zəruri təkliflər hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.

Məlumat üçün bildirmək istərdim ki, əcnəbilərə fərdi icazənin alınmasına görə işə götürənlər tərəfindən ödənilən dövlət rüsumunun məbləği cəmi 44 manat təşkil edir. Bu isə sahibkarları milli əmək bazarına keyfiyyətsiz və ucuz əcnəbi işçi qüvvəsini cəlb etməyə stimullaşdırır. Problemin aradan qaldırılması məqsədi ilə yeni müvafiq təkliflər hazırlanır. Əmək qanunvericiliyinin pozulmasına görə məsuliyyətin gücləndirilməsi ilə bağlı

ötən ilin sonunda qəbul edilmiş qanun əcnəbilərin işə qəbulu sahəsində də işəgötürənlərin məsuliyyətini artırmışdır.

2007-ci ilin sonunda müvafiq fərdi icazə əsasında respublikamızda işləyən əcnəbilərin sayı 1783 nəfər olmuşdur ki, bu da ötən ildəkindən 35 faiz çoxdur. Bununla belə, bu rəqəm daxili əmək bazarında iştirak edən əcnəbilərin real sayından dəfələrlə azdır. Sizi əmin edirəm ki, bu sahədə görülən tədbirlər öz müsbət nəticələrini verəcəkdir.

Möhtərəm cənab Prezident!

"Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" Sizin fərmanınızdan irəli gələn vəzifələr uğurla yerinə yetirilir, Əmək qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün müəssisə rəhbərlərinə icrası məcburi olan 159 göstəriş verılmış, 10 min 917 nəfərlə əmək müqaviləsi bağlanması təmin edilmiş, əməkhaqqı səviyyəsi reallığa uyğun olmayan 5 min 754 nəfər işçinin əmək müqavilələrində müvafiq qaydada dəyişikliklər edilərək əməkhaqları artırılmışdır. Bununla yanaşı, aparılan maarifləndirmə işləri nəticəsində bir çox işəgötürənlər öz təşəbbüsləri ilə işçilərlə əmək münasibətlərini qanunvericiliyin tələblərinə uyğunlaşdırmışlar. Bu isə özəl sektorda sosial məsuliyyətin artmasına təkan vermişdir.

Möhtərəm cənab Prezident!

Hazırda 78 min 92 ailəyə və.ya 364 min 59 nəfərə ünvanlı dövlət sosial yardımı verılır. Bütövlükdə ölkəmizi əhatə edən korporativ kompyuter şəbəkəsində müraciət edən ailələr haqqında geniş məlumat bankı yaradılmışdır. Məqsəd bu məlumatlar əsasında hazırlanacaq layihələrlə vətəndaşları yoxsulluq həddindən çıxarmaqdır. Ailələrin yoxsulluq şəraitində yaşamalarına təsir edən amillərin aradan qaldırılması üçün "Aztəminatlı ailələrin sosial reabilitasiyası" adlı proqram hazırlanmış və dörd rayonda pilot layihə kimi sınaqdan keçirılır.

Hesabat dövründə əlillərin sosial müdafiəsinin gücləndirilməsi, bərpa vasitələri ilə təchizatı, onlara avtomaşın və mənzillərin verilməsi istiqamətində işlər davara etdirılmışdir. Sizin tapşırığınıza əsasən əlillərə paylamaq üçün respublikaya 404 ədəd "Oka" markalı avtomobil gətirilmişdir. Əlil və şəhid ailələri üçün 2006-cı ildə 434 mənzil, 2007-ci ildə 943 mənzil tikilib istifadəyə verılmışdir. 2008-ci ildə daha 1103 əlil və şəhid ailəsinin mənzillə təmin olunacağı proqnozlaşdırılır.

Möhtərəm cənab Prezident!

Sizin siyasi kursunuza uyğun olaraq, beynəlxalq əməkdaşlıq çərçivəsində fəaliyyətimizi daha da genişləndiririk. İstər beynəlxalq təşkilatlar, istərsə də xarici ölkələrin aidiyyəti dövlət qurumları ilə inkişaf etdirdiyimiz əlaqələr qarşımızda yeni-yeni imkanlar açır. İl ərzində İtaliya, Almaniya, Türkiyə, Rusiya, İsveç, Macarıstan və Filippinin aidiyyəti

orqanları ilə müxtəlif sahələrdə əməkdaşlığa dair müvafiq prosedur sənədləri imzalanmışdır.

Nazirliyin institusional potensialının gücləndirilməsi məqsədi ilə sosial sahədə yeni layihələrin hazırlanması üçün Dünya Bankı ilə razılıq əldə edilmişdir. Bu layihə nazirliyin bütün struktur bölmələrində müasir dövrün tələblərinə uyğun islahatların aparılmasını nəzərdə tutur.

Möhtərəm Prezident, çıxışımın sonunda Sizi əmin edirəm ki, əhalinin sosial rifahının və həyat səviyyəsinin durmadan yüksəlməsi üzrə müəyyən etdiyiniz vəzifələrin layiqincə icra olunması üçün bütün potensialımızı səfərbər edəcəyik.

Diqqətinizə görə sağ olun.

## Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevin çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

2007-ci ili əhatə edən dövr Azərbaycan Respublikasının sosial-iqtisadi həyatı üçün son dərəcə uğurlu olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu və cənab Prezident, məhz Sizin bilavasitə rəhbərliyiniz sayəsində həyata keçirilən məqsədyönlü və çevik sosial-iqtisadi islahatlar respublikamızda əsaslı dəyişikliklərə səbəb olmuşdur. Həyatın bütün sahələrini əhatə edən quruculuq, abadlıq işləri, əlverişli investisiya mühiti və regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı Azərbaycan Respublikasının güclü inkişafını reallaşdırmışdır.

Ölkənin iqtisadi cəhətdən qüdrətlənməsi və sosial iqtisadi islahatların həyata keçirilməsində gömrük siyasətinin də rolu vardır. Gömrük orqanları illik büdcə gəlirlərinin formalaşmasında yaxından iştirak etməklə ötən hesabat ilində fəallıq göstərərək "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə gömrük vergi və rüsumları üzrə müəyyən edilmiş proqnozun artıqlaması ilə yerinə yetirilməsini təmin etmişdir. Belə ki, rəsmiləşdirilməsi bitmiş yük gömrük bəyannamələri əsasında xarici ticarətin ümumi dövriyyəsi 10 milyard 957,9 milyon ABŞ dolları, o cümlədən ixracın 5 milyard 265,1 milyon ABŞ dolları, idxalın isə 5 milyard 692,8 milyon ABŞ dolları təşkil etdiyi 2007-ci ildə Dövlət Gömrük Komitəsi tərəfindən 771,9 milyon manat məbləğində gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə keçirilmiş, illik proqnoza 100,3 faiz əməl olunmuşdur. Bu da ötən illə müqayisədə 255,9 milyon manat və yaxud 49,6 faiz çoxdur.

Qeyd etmək lazımdır ki, gömrük vergi və rüsumlarının həcminin artımı təkcə ölkə üzrə xarici ticarət dövriyyəsinin artımı hesabına deyil, eyni zamanda, gömrük nəzarətinin, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizənin gücləndirilməsi, maliyyə intizamının daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən

məqsədyönlü tədbirlər nəticəsində əldə olunmuşdur.

Möhtərəm cənab Prezident!

Hesabat dövründə ölkəmizdə gömrük sisteminin inkişafını sürətləndirmək, onun normativ hüquqi və maddi-texniki təminatını yaxşılaşdırmaq və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli Sərancamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Dünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə tədbirlər planının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli Fərmanının tələblərinə uyğun olaraq, hazırda qüvvədə olan gömrük qanunvericilik aktlarının, o cümlədən gömrük məcəlləsinin müvafiq maddələrinin Dünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması ilə əlaqədar tərəfimizdən müvafiq tədbirlər həyata keçirilmişdir.

2007-ci il ərzində gömrük orqanları dövlət büdcəsinin mühüm hissəsinin formalaşmasını təmin etməklə yanaşı, hüquq-mühafizə orqanı kimi respublikanın iqtisadi mənafeyinin və təhlükəsizliyin qorunması, qaçaqmalçılığa və gömrük işi sayəsində hüquqpozmalara qarşı mübarizə aparılması, bu cür halların aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması istiqamətində də məqsədyönlü işlər aparmışdır.

2007-ci ildə gömrük orqanları tərəfindən gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizə istiqamətində görülən tədbirlər nəticəsində 4689 hüquqpozma faktı aşkar edilmişdir. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi yə narkomanlığın yayılması ilə mübarizə üzrə proqramın icrasını təmin etmək məqsədi ilə gömrük orqanlarının digər hüquq-mühafizə orqanları ilə əməkdaşlığı şəraitində ötən dövr ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 47 fakt aşkar edilmiş, həmin faktlar üzrə 124 kiloqram narkotik maddə tutulmuşdur.

Bir çox bədii, tarixi və incəsənət əhəmiyyəti kəsb edən əşyalar və eyni zamanda, 13 min 469 ədəd dini kitab saxlanılmışdır. Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında milli ödəniş sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulduğu kimi, iri gömrük idarələrində rüsum və vergilərin kartlardan istifadə olunmaqla POS-terminallar vasitəsilə dövlət büdcəsinə ödənişi təmin olunmuş, digər gömrük orqanlarında isə POS-terminalların quraşdırılmasına başlanmışdır.

Hesabat ilində Gömrük Komitəsinin və onun yerli gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülmüş, komitənin mərkəzi aparatında və bir sıra gömrük idarələrində tikinti-quraşdırma və abadlıq işləri aparılmışdır.

Komitənin tibbi-xidimət idarəsində mühəndis şəbəkə və tamamlama işləri, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin və Əli Bayramlı Gömrük İdarəsinin inzibati binalarında kompleks tikinti işləri başa çatmış, Yevlax Gömrük İdarəsinin inzibati binasında, Xaçmaz Gömrük İdarəsinin Samur, Tovuz Gömrük İdarəsinin Sınıq Körpü, Balakən Gömrük İdarəsinin Mazımçay, eyni zamanda, Astara və Biləsuvar gömrük idarələrinin sərhəd keçid buraxılış məntəqələrində isə kompleks tikinti işləri də davam etdirılmışdir.

Cənab Prezident, Azərbaycan Respublikasının 2008-ci il büdcəsi haqqında qanuna əsasən Dövlət Gömrük Komitəsi üçün cari ilə büdcə gəlirləri üzrə 1 milyard 100 milyon manat məbləğində proqnoz müəyyən edilmişdir ki, bu da ötən ilin göstariciləri ilə müqayisədə 330 milyon manat və yaxud 42,9 faiz çoxdur. 2008-ci il üzrə müəyyən olunmuş büdcə proqnozunun yerinə yetirilməsi üçün artıq müvafiq tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Azərbaycan Respublikası ərazisinə gətirilən əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında hökumətin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarına dəyişikliklər edilməsi barədə 2007-ci il 30 dekabr tarixli 220 nömrəli qərarı qəbul edilmişdir. Bu qərara əsasən bəzi lüzumsuz azadolmalar aradan qaldırılmışdır.

Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edərək, Sizi və bugünkü müşavirə iştirakçılarını əmin etmək istərdim ki, Dövlət Gömrük Komitəsi və onun yerli orqanları öz işini Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun qurmaqla, ölkəmizin müstəqilliyinin, iqtisadi təhlükəsizliyinin qorunması, xarici iqtisadi fəaliyyət iştirakçılarının gömrük xidmətinin dünya standartlarına uyğunlaşdırılması ilə yanaşı, cari ildə müəyyən edilmiş proqnozun əvvəllər olduğu kimi artıqlaması ilə yerinə yetirilməsi üçün bütün imkanlarını səfərbər edəcəklər.

Diqqətinizə görə sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi**

- Bütövlükdə, burada səslənən bütün rəqəmlər bir daha onu göstərir ki, 2007-ci ildə bizim iqtisadiyyatımız çox sürətlə inkişaf edib və şübhəsiz, 2008-ci ildə bu müsbət dinamika davam etdiriləcəkdir.

2008-ci ildə nəzərdə tutulmuş vəzifələrə keçməzdən əvvəl, mən kəskinləşən hava şəraiti ilə bağlı, yaranmış vəziyyətlə bağlı məlumatları dinləmək istəyirəm. Mən bu günlərdə həm Bakı Şəhər İcra Hakimiyyətinə, həm də Nəqliyyat Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə göstərişlər vermişəm ki, yaranmış qeyri-adi vəziyyətlə bağlı tədbirlərini

gücləndirsinlər. Çüki Bakı şəhəri üçün və bütövlükdə, ölkəmiz üçün çox qeyri-adi bir vəziyyətdir. Uzun müddətdir ki, heç vaxt bu qədər qar yağmamışdı və əlbəttə, bu, əlavə problemlər yaradır.

Enerji və qaz təchizatında böyük problemlər yoxdur, yəni bu sahədə işlər tənzimlənir, ancaq yol hərəkəti, əlbəttə ki, çox çətinləşibdir. Yolları, səkiləri, avtomobil yollarını buz bağlayıb, nəqliyyatın hərəkəti çətinləşib, insanlar müxtəlif zədələr alırlar. Tibb məntəqələrinə müraciət edənlərin sayı artır. Bir daha demək istəyirəm ki, Bakı kimi cənub şəhəri üçün bu, çox qeyri-adi bir vəziyyətdir. Yaxşı ki, biz keçən il yeni texnikanın alınmasına kifayət qədər vəsait ayırmışıq. 25 milyon manat vəsait ayrılmış və texnika alınmışdır. Amma indi bu texnikanın mövcudluğu, ondan istifadə, əslində vəziyyəti nə dərəcədə yüngülləşdirir, nə dərəcədə bizə imkan verir ki, tezliklə bu vəziyyətə son qoyaq və yol hərəkəti sistemini tənzimləyək. Bu barədə sonuncu məlumatı eşitmək istəyirəm.

Hacıbala ABUTALIBOV (Bakı Şəhər İcra Hakimiyyətinin başçısı): Möhtərəm Prezident, Sizin hər gün bizə verdiyiinz göstəriş əsasında, Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal İstismar idarəsində olan bütün yeni texnika, Nəqliyyat Nazirliyinin bütün texnikası, habelə Fövqəladə Hallar Nazirliyinin işçiləri, demək olar ki, gecə saat 10-dan səhər saat 6-ya kimi şəhərdə işləyir. Əlimizdən gələni edirik ki, şəhərdə nəqliyyatın hərəkəti çətinləşməsin. Mərkəzi küçələrin hamısında şəhər nəqliyyatı işləyir. Ara küçələrdə vəziyyət, demək olar ki, normallaşmaq üzrədir. Amma hələlik normaya uyğun deyildir. Ona görə də biz bu gecə də, dünən gecə də səfərbərliyi tamamilə yüksək səviyyəyə qaldırmışıq, buzlaşmanın qarşısını alırıq, səkilərin təmizlənməsi üçün işlər gedir. Alınmış yeni 37 texnika - qumsəpən maşınlarımız gündəlik işləyir və əlimizdən gələni edəcəyik ki, Sizin göstərişləriniz ən yüksək səviyyədə, qısa müddətdə yerinə yetirilsin.

İlham ƏLİYEV: Alınan texnika kifayət qədərdir ki, bu məsələlərin hamısı həll olunsun, yoxsa, əlavə texnika alınmalıdır?

Hacıbala ABUTALIBOV: Qum səpilməsi üçün texnika bəs edir, amma buzun təmizlənməsi, qarın yığılıb daşınmasından ötrü əlavə texnikaya ehtiyac var.

İlham ƏLİYEV: Buzun üstünə qum səpiləndə heç bir əhəmiyyəti olmayacaqdır. Buzlar təmizlənməlidir. İndi mərkəzi küçələrdə iş gedir, arama Bakı təkcə mərkəzi küçələrdən ibarət deyil. Hər tərəfdə yaşayan insanlar bərabər hüquqa malikdirlər. Ona görə çalışmaq lazımdır ki, şəhərin bütün yerlərində bu işlər daha da fəal getsin. Mən baxıram, görürəm ki, mərkəzi küçələrdə işlər gedir və yəqin daha çox o yerlərdə işlər gedir, haradan ki, mən keçirəm. Bu da həqiqətdir. Keçmişdən qalan, sovet sistemindən qalan gözdən pərdə asmaq praktikasını yığışdırın. Mənə bu, lazım deyil. Mən istənilən küçədən gedə bilərəm, gedirəm və baxıram da. Bəzi hallarda sizin bundan xəbəriniz də yoxdur. Ona görə hər yerdə iş getməlidir, yollar hamı üçün açıq olmalıdır.

Nəqliyyat Nazirliyində işlər necədir?

Ziya MƏMMƏDOV (nəqliyyat naziri): Möhtərəm cənab Prezident, həqiqətən də, qeyd etdiyiniz kimi, baş verən bu təbii hadisə ilə bağlı Sizin tapşırıqlarınıza uyğun olaraq, demək olar ki, respublikanın bütün ərazisində müvafiq tədbirlər görülür. Qərargah yaradılıb, bütün sutka ərzində fəaliyyət göstərir. Qərargaha birbaşa "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov rəhbərlik edir. Demək olar ki, hava haqqında məlumatı aldıqdan dərhal sonra, qışa hazırlıq planına uyğun olaraq, biz texnikaların və müvafiq avadanlığın səfərbər edilməsi barədə lazımi işlərin görülməsinə başladıq.

Həqiqətən də, respublikada son bir neçə onilliklər ərzində görünməyən bu qar nəqliyyatın hərəkətində müəyyən problemler və çətinliklər yaratmışdır. Amma bütün bunlara baxmayaraq, 755 ədəd texnika və avadanlıq səfərbər edilmiş və respublikanın, demək olar, bütün ərazilərində və xüsusilə, baş magistral yolların və şəhər daxilində mövcud olan əsas yolların təmizlənməsinə cəlb edilmişdir. Texnikanın idarə edilməsi, eyni zamanda, yardımçı işlərin həyata keçirilməsi üçün 5 minə qədər işçi qüvvəsi səfərbər olunmuşdur. Cənab Prezident, diqqətinizə məruzə etmək istəyirəm ki, 157 avtoqreyderdən 32-si, 437 yükünü özüboşaldan avtomobildən 137-si, 90 ədəd yükləyici ekskavatordan 30-u Bakı şəhərində işləyir; Bakı şəhərində 31 ədəd qumsəpən maşın və təxminən 2500-dən artıq işçi qüvvəsi cəlb edilmişdir.

Görülən tədbirlər nəticəsində, qeyd etdiyiniz kimi, həqiqətən də, həyat üçün zəruri olan əsas baş magistral yollar təmizlənmişdir. Amma şübhəsiz ki, istənilən nəticəyə nail olunmayıbdır. Çünki şaxta olduğundan hər yer buz bağlayıbdır. Qar yağan zaman biz həm qarı təmizləyir, həm də yollara qumqarışıq duz səpirdik. Bəzən bu, istənilən nəticəni vermirdi. Ona görə ki, qum, duz səpiləndən sonra onun üstünü yenidən qar örtürdü və yenidən yolları təmizləmək məcburiyyətində qalırdıq.

Demək istəyirəm ki, Bakı şəhərində, həqiqətən, əsas küçələr təmizlənibdir. Bu işlərin görülməsində biz uzun illərdir ilk dəfə olaraq, əlaqədar qurumlarla - Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə birgə işləyirik. Eyni zamanda, özəl sektordan da imkanlarını səfərbər etməyi xahiş etdik. Deyərdim ki, hamı böyük məmnuniyyətlə bu işə qoşuldu və təbiətin yaratdığı bu problemlərlə mübarizə aparırıq.

Buz yolların bəzi hissələrini bağlayıb və texnika vasitəsilə yolları təmizləyərkən həm də ehtiyatla hərəkət edirik. Çünki qreyderlər buzu təmizləyən zaman yolları sıradan çıxara bilər. Ona görə də biz ehliyatla işləyirik. Amma Sizi tam əmin etmək istəyirəm ki, biz eyni zamanda yardımçı yollarda da işlər görmüşük. Bakı şəhərində insanlar bunları görürlər. Təkcə magistral yollarda deyil, eyni zamanda, yardımçı yollarda çox böyük tədbirlər həyata keçirilibdir. Əlbəttə, Bakı şəhərində müəyyən problemlər yaransa da,

amma nəqliyyatın tam dayanması olmayıbdır. Bəzi mətbuat orqanlarında yazıldiği kimi, heç də Bakıda, respublikada nəqliyyat iflic olmayıbdır. Əlbəttə ki, məhdudiyyətlər olub, amma biz tədbirlərimizi bu gün də davam etdiririk. Cənab Prezident, Sizi əmin edirik ki, mövcud olan bütün texnika və işçi qüvvələri bu işə səfərbər olunub və bütün bu proses nəzarətimiz altındadır.

İlham ƏLİYEV: Fövqəladə hallar naziri.

Kəmaləddin HEYDƏROV (fövqəladə hallar naziri): Möhtərəm cənab Prezident, biz xüsusən yollara çox texnika çıxara bilmədik. Çünki bizim cəmi 4 qartəmizləyən texnikamız var, onlardan biri hazırda Naxçıvan Muxtar Respublikasındadır. Bakı Şəhər İcra Hakimiyyətinin və Nəqliyyat Nazirliyinin texniki imkanlarından istifadə etməklə yanaşı, biz canlı qüvvənin də köməyi ilə Bakı şəhərində olan səkilərin təmizlənməsində iştirak etmişik. İlk gündən başlayaraq xəstəxanaların, doğum evlərinin, çörəkbişirən sexlərin və çörək mağazalarının ətrafında xüsusi iş aparmışıq ki, əhaliyə ərzağın çatdırılmasında ləngimələr olmasın. Möhtərəm cənab Prezident, dünəndən başlayaraq, biz yeni ayırdığımız yanğınsöndürmə texnikası vasitəsilə bəzi binaların damlarından sallanan buzları təmizləməyə başlamışıq. Çünki bu buzlar böyük təhlükə törədə bilər. Biz yanvarın 6-dan Nəqliyyat Nazirliyinin, Daxili İşlər Nazirliyinin qüvvələri ilə birgə döngələrdə qartəmizləmə işlərinə başlamışıq. Siz qeyd etdiyniiz kimi, uzun illərdir hava bu qədər soyuq keçməmişdir. Ona görə də hər gün qrafik üzrə bizim canlı qüvvəmiz və mövcud texnikamız yollarda işləyir.

İlham ƏLİYEV: Keçən illərlə müqayisədə, əlbəttə ki, bu il bu sahədə daha böyük işlər görülübdür. Amma o da həqiqətdir ki, bu il qış daha da sərt keçir. Əvvəllər iki-üç gündən sonra buz əriyir və vəziyyət normallaşırdı. Amma baxmayaraq ki, bu qədər texnika alınıb və bütün qüvvələr - şəhər icra hakimiyyəti, Nəqliyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi səfərbər olunub, yenə də bu problem var. Yəni bu, təbii bir vəziyyətdir. Nəzərə alsaq, hava proqnozu hələ 1-2 gün eyni olacaqdır. Proqnoz təxminən bu səviyyədə olacaq?

Hüseynqulu BAGIROV (ekologiya və təbii sərvətlər naziri): Möhtərəm cənab Prezident, hələ bu günun ikinci yarısında havanın yenidən tutulması, axşam saatlarında arabir bəzi yerlərdə az qar yağması ehtimalı var. Bu gün səhər saat 4-dən 8-dək olan məlumata görə, Bakıda bəzi yerlərdə 1-2 millimetrə qədər qar yağmışdır. Biləcəridə və Pirallahı adasında sulu qar müşahidə olunur. Günün ikinci yarısında havanın temperaturunun 3 dərəcə həddində olacağı gözlənilir, buz bağlamaq ehtimalı da var. Yanvarın 12-13-də gözlənilir ki, hava buludlu olacaq, arabir açılacaqdır. Yağıntının kəsilməsi gözlənilir. Düzdür, bəzi yerlərdə az qar yağması ehtimalı yenə də qalır. Amma ayın 14-dən tədricən temperatur yüksəlməyə başlayacaq və gündüz 1-3 dərəcə təşkil edəcəkdir. Sonrakı

günlərdə isə 5 dərəcəyə qədər istilik gözlənilir.

İlham ƏLİYEV: Hər halda, iki-üç gün belə hava şəraiti davam edəcəkdir. Ona görə siz bütün gücləri səfərbər edin, gücləndirılmış iş rejimində işləyin və çalışın ki, bu vəziyyəti maksimum dərəcədə aradan qaldıraq.

O ki qaldı, 2008-ci ilə olan vəzifələrə, mən hesab edirəm, bu vaxta qədər görülmüş işlər, aparılmış və başlanmış islahatlar imkan verəcək ki, bu il də Azərbaycan iqtisadiyyatı öz inkişafını uğurla davam etdirsin.

İqtisadi sahədə ən çox fikir, diqqət yetirdiyimiz sahə bahalaşma və inflyasiyadır. Burada səsləndi ki, 2007-ci ildə Azərbaycanda inflyasiya 16 faizdən çox olmuşdur. Bu, çox böyük rəqəmdir. Düzdür, əhalinin pul gəlirləri 38 faiz artmışdır və beləliklə, real gəlirlər 22 faiz səviyyəsindədir və bu, çox böyük rəqəmdir, göstəricidir. Amma bununla bərabər, onu da bilməliyik ki, əhalinin pul gəlirləri bərabər şəkildə bölünmür. Yəni kasıb təbəqə var - 16 faiz. Düzdür, biz bunu böyük dərəcədə aşağı salmışıq. Amma yenə də vətəndaşlarımızın 16 faizi yoxsulluq şəraitində yaşayır və onlar üçün bu məhsulların, xüsusilə ərzaq məhsullarının bahalaşması çox böyük problemlər yaradır. Biz 2008-ci ildə makroiqtisadi vəziyyəti sabit saxlamalıyıq. Burada çıxışlarda səsləndi, əlbəttə ki, həm obyektiv, həm də subyektiv amillər mövcuddur. Dünyada neftin qiymətinin kəskin şəkildə bahalaşması bütün idxal edilən malların bahalaşmasına gətirib çıxarıbdır. Bizim hələ ki, istehlak bazarımız böyük dərəcədə idxaldan asılıdır və Azərbaycanda həyata keçirilən həm regional inkişaf proqramı, həm sənayeləşmə proqramı, həm də sahibkarlığın inkişafı proqramı o məqsədi güdür ki, Azərbaycan idxaldan öz asılılığını maksimum dərəcədə azalda bilsin. Biz buna tədricən nail oluruq. Amma hələ ki, ərzaq mallarının bir hissəsi xaricdən gətirilir. Xaricdə də qiymətlər Azərbaycanda olan səviyyədə qalxır.

2007-ci ildə dünyada taxılın qiyməti 50 faiz qalxmışdır və bu, istər-istəməz bütün başqa sahələrə də öz mənfi təsirini göstərir. Əlbəttə, inflyasiyanı yaradan obyektiv səbəblərdən biri də Azərbaycanda əhalinin pul gəlirlərinin artmasıdır, maaşların, pensiyaların qaldırılmasıdır. Yəni ümumiyyətlə, iqtisadi inkişafın əlamətidir. Ancaq subyektiv səbəblər də var. Məhz subyektiv səbəblərin aradan qaldırılmasına biz gərək böyük səy göstərək. Sağlam rəqabət prinsipi tam bərqərar olunmalıdır, inhisarçılıq meyilləri aradan qaldırılmalıdır. Bizim bazarımız tam liberallaşmalıdır, rəqabət getməlidir. İmkan verməməliyik ki, nə idxalda, nə də daxili istehsalda inhisarçılıq yaransın. Ona görə mən ümid edirəm ki, həm makroiqtisadi, həm də inzibati tədbirlər nəticəsində 2008-ci ildə inflyasiya normal çərçivədə olacaqdır.

Deyə bilərəm ki, bundan başqa bizim iqtisadi və makroiqtisadi sahədə böyük ciddi problemlərimiz yoxdur. Əksinə, biz 2007-ci ili çox yaxşı nəticələrlə başa vurduq. Bizim valyuta ehtiyatlarımız 7 milyard ABŞ dollarını ötüb keçmişdir. 2008-ci ildə xəzinəmizə çox böyük həcmdə valyuta ehtiyatları daxil olacaqdır. Beləliklə, Azərbaycanın dayanıqlı

inkişafı bundan sonra da uzun illər təmin ediləcəkdir. Nəzərə alsaq ki, dünyada neftin qiyməti qalxıb və bildiyiniz kimi, Dünya Bankının verdiyi bəyanatlara görə, Azərbaycan neftin satışından 2020-ci ilə qədər 200 milyard dollar vəsait toplayacaqdır. Əlbəttə ki, neftin qiyməti artdıqca, bu rəqəm də artacaqdır. Biz buna hazır olmalıyıq və elə etməliyik ki, bunun makroiqtisadi vəziyyətə mənfi təsiri minimum səviyyədə olsun.

Eyni zamanda, biz artıq bundan sonra, gələcəkdə heç bir maliyyə sıxıntısı keçirməyəcəyik. Biz, sadəcə olaraq, öz maliyyə imkanlarımızdan ağıllı istifadə etməliyik, onları lazım olan yerlərə yönəltməliyik. Elə etməliyik ki, qısa müddət ərzində bu məbləğlər, ölkəmizə gələn maliyyə resursları ölkəmizin hərtərəfli inkişafına xidmət göstərsin. Ölkəmiz müasirləşsin, modernləşsin, ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilsin. Bütün sahələrdə - istər tikinti, istərsə də səhiyyə, təhsil, infrastruktur - bütün sahələrdə ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilməlidir. Biz bunu görürük. Azərbaycanda son illər ərzində, xüsusilə dövlət xətti ilə yaradılan müəssislələr, həyata keçirilən infrastruktur layihələri, tikilən obyektlər dünyanın ən yüksək standartlarına cavab verir.

Qeyri-neft sektoruna yenə diqqət göstərməliyik. 2008-ci ildə qeyri-neft sektorunun inkişafı bizim üçün çox vacibdir. Beləliklə, bizim iqtisadiyyatımız neft amilindən asılı olmayacaqdır. Məqsəd ondan ibarətdir ki, bir neçə ildən sonra iqtisadi imkanlarımızın neft amilindən asılılığını tamamilə aradan qaldıraq. Belə imkanlar var və əminəm ki, qeyri-neft sektorunun inkişafi həm dövlət tərəfindən verilən dəstək hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində daha da genişlənəcəkdir.

Bildiyiniz kimi, biz bir neçə il ərzində sahibkarlara güzəştli kreditlər veririk, bu kreditlər də yaxşı işləyir. Bu kreditlərin hesabına yeni müəssisələr - fabriklər, emal müəssisələri yaradılır, özəl biznes inkişaf edir. İqtisadiyyatımızın üraumı çəkisində özəl biznesin kifayət qədər böyük yeri var. Azərbaycan iqtisadiyyatı 80 faizdən yuxarı özəl sektorun əsasında qurulubdur.

Mən artıq qeyd etdim, regional inkişaf proqramının başa çatması gözlənilir və artıq hökumətə tapşırıqlar verilibdir, ondan sonra 2009-2013-cü illər üçün yeni regional inkişaf proqramı hazırlanmalıdır. O proqramda bu vaxta qədər həll olunmamış bütün məsələlər öz əksini tapmalıdır. Beləliklə, 2013-cü ilə qədər, əminəm ki, bundan da tez, biz ölkədə bütün infrastruktur layihələrini başa çatdırmalıyıq, bütün sosial məsələləri həll etməliyik və hər bir kəndin problemi öz həllini tapmalıdır. Bir sözlə, biz-bu imkanlardan, artan maliyyə imkanlarımızdan səmərəli istifadə etməliyik və edəcəyik.

Azərbaycan Dövlət İnvestisiya Şirkətinin fəaliyyətinin güclənməsi də, əminəm ki, müsbət nəticələrə gətirib çıxaracaqdır. Bir müddət bundan əvvəl Dövlət-İnvestisiya Şirkəti yaradılmışdır. Müəyyən danışıqlar aparılır, Amma hələlik heç bir nəticə yoxdur. Baxmayaraq ki, iki ildən artıqdır hər il büdcədə bu məqsədlər üçün l00 milyon dollar vəsait nəzərdə tutulur. Biz Dövlət İnvestisiya Şirkətini məhz bu məqsədlə yaratdıq ki,

Azərbaycan üçün lazım olan sahələrə xaricdən investisiyaları cəlb etsin, özü investor kimi orada iştirak etsin və müəssisələr yaradıldıqdan, işə başlayandan sonra Dövlət İnvestisiya Şirkəti öz payını açıq hərraca çıxarsın və beləliklə, özəl sektora dəstək versin. Çünki Azərbaycana qoyulan investisiyalar, xüsusilə özəl sektor tərəfindən qoyulan investisiyalar özəl sektorun marağında olan sahələrə yönəldilir. Bəzi hallarda dövlət üçün əhəmiyyətli olan sahələr investisiya almır. Çünki özəl sektor buna maraqlı deyil. Dövlət İnvestisiya Şirkətinin əsas məqsədi ondan ibarətdir ki, bizim üçün, dövlət üçün lazım olan sahələrə vəsait cəlb edək. Mən gözləyirəm ki, 2008-ci ildə bu şirkətin fəaliyyəti daha da uğurlu olacaqdır.

2007-ci ildə biz, eyni zamanda, gördük ki, öz ərzaq təhlükəsizliyimizi də təmin etməliyik. Azərbaycan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir. Ərzaq təhlükəsizliyi də ondan az əhəmiyyət daşımayan sahədir. Xüsusilə biz görəndə ki, dünyada ərzaq məhsullarının qiymətləri qalxır və bu, istər-istəməz bizim istehlak bazarımıza mənfi təsir göstərir. Bildiymiz kimi, qəbul edilmiş bütün qərarlar, tədbirlər ona xidmət edir ki, Azərbaycanda kənd təsərrüfatı daha da inkişaf etsin. Hər bir kəndliyə dotasiya verilir. Biz 2007-ci ildə bu məqsədlərə 80 milyon manat vəsait nəzərdə tutmuşduq və bu vəsait paylanılıbdır. Elədirmi?

İsmət ABASOV (kənd təsərrüfatı naziri): Bəli, keçən il üçün ayrılan vəsait paylanılmışdır. Növbəti il üçün yenidən 80 milyon manat nəzərdə tutulmuşdur. 40 milyon manat "Aqrolizinq" Səhmdar Cəmiyyətinə nəzərdə tutulmuşdur, 5 milyon manat isə "Aqrokredit" Agentliyi vasitəsilə kredit şəklində veriləcəkdir.

İlham ƏLİYEV: Bundan başqa, taxıl əkən hər bir fermerə hər hektar üçün 40 manat dotasiya verılır.

İsmət ABASOV: Bəli, cənab Prezident, Sizin göstərişinizlə buğda istehsalçılarına əlavə olaraq 40 manat vəsait verildi. Hazırda keçən ilin müvafiq dövrünə nisbətən təxminən 127 min hektar əlavə buğda əkini aparılmışdır. Bu da təxminən 300 min ton əlavə buğdanın olacağını göstərir.

İlham ƏLİYEV: Beləliklə, 2008-ci ildə bu sahəyə daha da böyük diqqət göstərməliyik. Bizim gözəl imkanlarımız, təbii şəraitimiz, iqlimimiz var. Azərbaycanda, demək olar ki, bütün kənd təsərrüfatı məhsulları yetişdirılır. Buraya dövlət xətti ilə daha da böyük vəsait qoymalıyıq.

Eyni zamanda, biz meliorasiya sahəsinə əlavə vəsaitlərin qoyulmasını təmin etməliyik. İndi bu proses gedir və Samur-Abşeron kanalı tikilir. Taxtakörpü su anbarının tikintisinə başlanmışdır və başqa layihələr icra olunmalıdır. Biz növbəti illərdə bu sahəyə böyük diqqət göstərməliyik. Bu, həm kənd təsərrüfatının inkişafına xidmət göstərəcək, həm məşğulluğu artıracaq və həm də bütövlükdə, ölkəmizin inkişafı üçün çox vacib olan sahədir. İndi bizim maliyyə imkanlarımız var, sadəcə olaraq, yaxşı proqramlar, layihələr

hazırlanmalıdır və biz onlara vəsait ayırmalıyıq.

Energetika sahəsində nəzərdə tutulmuş əsas layihələr, demək olar ki, ya başa çatıb, yaxud da yaxın 2-3 il ərzində başa çatacaqdır. Biz son üç il ərzində təxminən 700 meqavat əlavə enerji gücü yaratdıq. Bu, bizə imkan verir ki,artıq ölkəmizi elektrik enerjisi ilə tam şəkildə təmin edək. Növbəti üç il ərzində Azərbaycanda bir neçə elektrik stansiyasının tikintisi və yenidən qurulması nəzərdə tutulur və bu işlərin nəticəsində 3 min meqavat enerji gücü yaranacaqdır.

Bu, Azərbaycanı bundan sonra uzun illər ərzində elektrik enerjisi ilə təminatını təmin edəcək və gələcəkdə biz elektrik enerjisini xarici ölkələrə də ixrac edə bilərik.

Bizim iqtisadiyyatımız artır, əhali artır, yeni müəssisələr, fabriklər, zavodlar tikilir, elektrik enerjisinə olan tələbat artır. Biz buna hazır olmalıyıq və bütün tədbirləri əvvəldən görməliyik. Yəni mən hesab edirəm ki, bu sahədə qəbul olunmuş proqramlar energetika sektorunu artıq tam şəkildə təmin edəcəkdir. Vəsait də var, maliyyə mənbələri də var və elektrik stansiyaları tikilir, elektrik xətləri çəkilir və bu sahədə artıq tam qayda-qanun yaradılacaqdır.

Əhalini qazla təmin etmək üçün 2008-ci ildə əlavə tədbirlər görülməlidir. Bizim hələ iki rayonumuz - Ağcabədi və Beyləqan rayonları obyektiv səbəblərə görə təbii qaz alınır. Bu ilin əvvəlində Ağcabədi rayonuna qaz veriləcək və ilin birinci yarısına qədər Beyləqan rayonuna da təbii qazın verilməsi bərpa olunacaqdır.Beləliklə, Azərbaycanın bütün rayonları qazla təmin ediləcəkdir. Hələ deyə bilmiərik ki, bütün kəndlər qazla təmin olunubdur. Bəzi yerlərdə heç qaz xətləri olmayıb,bəzi yerlərdə bu, böyük çətinliklərlə bağlıdır.

Ancaq deyə bilərəm ki, indi Azərbaycan əhalisinin təxminən 80 faizə yaxını təbii qaz alır və bu, dünya miqyasında, bizim bölgədə, MDB məkanında kifayət qədər böyük göstəricidir. Bizdən daha böyük həcmdə qaz hasil və ixrac edən ölkölərdə bu rəqəm 50-60 faiz səviyyəsindədir. Bizdə 75-80 faizdir. Nəzərə alsaq ki, bizim böyük qaz ehtiyatlarımız var, qaz hasilatı artır, çalışmalıyıq ki, Azərbaycan vətəndaşlarını təbii-qazla maksimum dərəcədə təmin edək. Həm “Şahdəniz” yatağından hasilat həm də Dövlət Neft Şirkəti tərəfindən görülən tədbirlər və qoyulan investisiyalar nəticəsində, demək olar ki, qaz təhvili iki dəfə artıbdır. Biz, ilk növbədə, maksimum dərəcədə özümüzü  təmin etməliyik və əlbəttə, bununla bərabər, qaz ixrac edən ölkəyə çevrilşik.Bundan da böyük həm iqtisadi, həm də siyasi dividendlər götürəcəyik.

Mən elektrik enerjisi ilə bağlı bir məsələyə də toxunmaq istəyirəm. Bildiyiniz kimi, 13 il ərzində blokadada yaşayan və qazdan məhrum olan Naxçıvanı biz bu yaxınlarda təbii qazla təmin etdik. İran İslam Respublikası ilə bağlanmış müqaviləyə əsasən, mübadilə yolu ilə biz buna nail ola bilmişik. Biz Astaradan İrana qaz veririk, İrandan isə Naxçıvana qaz alırıq. Naxçıvanda təxminən 90 meqavat gücündə modul tipli elektrik stansiyası

tikilibdir. Son günlərə qədər Naxçıvanın təbii qazla və elektrik enerjisi ilə təminatında heç bir problem olmamışdır. Demək olar ki, bütün muxtar respublika elektrik enerjisi ilə tam şəkildə təmin olunur və qaz xətlərinin çəkilişi nəticəsində əhalinin təxminən 90 faizə yaxını təbii qaz alır. Elədirmi?

Əlixan MƏLİKOV ("Azəriqaz" Səhmdar Cəmiyyətinin sədri): Bəli, cənab Prezident, hazirda əhalinin 90 faizi təbii qaz alır.

İlham ƏLİYEV: Alırlar.

Əlixan MƏLİKOV: Bəli.

İlham ƏLİYEV: Amma bildiyiniz ki, havanın pisləşməsi ilə əlaqədar qonşu İranda da müəyyən problem yarandı və İrandan Naxçivana qazın verilməsi dayandırıldı. Ondan sonra bərpa olundu, amma lazım olan səviyyədə verilmir. Biz bunu araşdırdıq və görürük ki, bunun texniki səbəbləri var. Ancaq bununla bərabər, biz görürük ki, Naxçıvan əhalisi bu vəziyyətdən əziyyət çəkir. Ona görə mən artıq tapşırıqlar verdim, bir daha bunu demək istəyirəm. Hesab edirəm, Naxçıvanda əlavə qaz-mazut elektrık stansıyası tikilməlidir ki, biz qazdan tam asililığı azaldaq. Biz mazut ehtiyatlarını yığa bilərik ki, əgər qışda xaricdən qazın verilməsı ilə bağlı yenə problem yaranarsa, onda muxtar respublikada enerji böhranı yaranmasın.

Bununla bərabər, Neft Şirkətinə tapşırıq verirəm ki, Naxçıvanda yeraltı qaz anbarlarının yaradılması imkanlarını araşdırsınlar. Əgər belə imkanlar varsa, orada təxminən 300 milyon kubmetr həcmində qaz anbarları tikilməlidir. Yay aylarında İrandan alınan qazı biz ora dolduracağıq. Əgər İranda böhran yaranarsa, onda biz yeraltı anbardan o qazı götürəcəyik. Beləliklə, bu məsələ də özhəllini tapmalıdır. Bunun texnikı imkanları araşdırilmalıdır və biz bunu etməliyik.

Mənə verilən məlumatlara görə, bəzi yerlərdə, rayonlarda gecələr, axşamlar qazın, elektrik enerjisinin verilməsi dayandırılır. Bunun səbəbləri ondan ibarətdır ki, borclar var, pulu əhalidən tam yığa bilmirlər. Əlbəttə, biz hər sahədə qayda-qanun yaratmalıyıq, hər sahədə şəffaflıq olmalıdır, hər bir məhsulun öz qiyməti var və o qiymət ödənilməlidir. Nəzərə alsaq ki, keçən il Azərbaycanda əhalinin pul gəlirləri 38 faiz artıb və indi yoxsulların sayı böyük dərəcədə azalıb, Azərbaycan əhalisinin əksər hissəsi ödənişləri çox rahatlıqla edə bilər. Ancaq bununla yanaşı, 16 faiz yoxsulumuz var. Xüsusilə qış mövsümündə, qışın belə sərt günlərində mən həm "Azərenerji"yə, "Bakıelektrikşəbəkə"yə, "Azəriqaz"a, həm də bütün müvafiq qurumlara tapşırıq verirəm ki, bu sərt günlərdə əhaliyə daha da böyük diqqətlə yanaşsınlar. İşığı kəsməsinlər, qazın verilməsini kəsməsinlər, insanlar üçün əlavə problemlər yaratmasınlar. Qış qurtarar, yaz başlayar, hava yaxşılaşar, ondan sonra yenə də o ciddi tədbirləri bərpa edin, tələb edin və hamı qaz və işıq pulunu ödəməlidir. Ancaq hesab edirəm kı, indiki şəraitdə daha diqqətli olmalısınız. Xüsusilə o insanlara ki, onların, doğrudan da, imkanları yoxdur. Elələri var ki, hər

şeyi var, ev-eşiyi, maşınları, bağları, amma qazın pulunu vermir. Onlara qarşı ən ciddi sanksiyalar tətbiq olunmalıdır, onlar cəzalandırımalıdır, qazı kəsilməlidir və tədbir görülməlidir. Amma görürsünüz kı, kimin imkam yoxdur, kasıbdır, mən tələb edirəm, onlara qarşı diqqətli olasınız və o insanları incitməyəsiniz.

Bütövlükdə, indi həm elektrik, həm də qaz sayğacları quraşdırılır. Biz ölkəmizı qazla təchiz edirık. Bakı kəndlərinın qazla təminatını yaxşılaşdırmalıyıq, bilirsiniz ki, xüsusi proqram qəbul edilmişdir. Amma mənə verilən məlumata görə, hələ ki, bütün kəndlərə qaz verilmir. Əlixan, elədir?

Əlixan MƏLİKOV: Bəli, Cənab Prezident, kəndlər tam 100 faiz qaz almır. Ancaq keçən illə bu ili müqayisə edəndə, əgər keçən il kəndlərdə 50 faiz qaz alırdılarsa, indi təxmiənən 80 faiz təmin olunublar. 15-20 faiz qalıbdır. Biz işlərimizi davam etdiririk. Yəqin kı, 2008-ci ilin birinci yarısına qədər başa çatdırilacaqdır.

İlham ƏLİYEV: Çalışın, bunu tezliklə edin. Çünki biz indi qazı ən ucqar kəndlərə aparırıq. Amma burada, Bakıda kəndlərin bəzi yerlərinə qaz verilmir. Bu, dözülməz bir vəziyyətdir. Xüsusilə onu nəzərə almalıyıq ki, mənim tərəfımdən qəbul edilmiş qərar - Bakıətrafı qəsəbələrin inkişafı ilə bağlı qəbul edilmiş proqramda bütün bu məsələlər nəzərdə tutulubdıır. İlk növbədə, kəndlərin qazla təmin olunması üçün lazımi tədbirlər görülüb, vəsait ayrilıbdır. Siz işləri tezləşdirin və bütün kəndlərin hər bir hissəsi qazla təmin olunmalıdır.

2008-ci ildə biz sənaye potensialının inkişafına diqqət göstərəcəyik. Bu sahədə işlər gedir. Azərbaycanda sənayeləşmə prosesi daha da sürətlə getməlidir; Mən bir daha demək istəyirəm ki, bizim maliyyə çətinliklərimız artıq yoxdur. Bizim 7 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Gələn il neftin qiymətindən asilı olaraq, minimum bu qədər də əlavə gələcəkdır. Biz bu imkanlardan istifadə etməliyik. Güclü sənaye potensialı yaratmalıyıq ki, bizim sənayemiz çoxşaxəli olsun. Həm məşğulluq artsın, həm də yeni iş yerləri açılsın və Azərbaycanda güclü sənaye potensialı yaradılsın. Ona görə həm İqtisadi İnkişaf Nazirliyi, həm Maliyyə Nazirliyi, həm də bütövlükdə hökumət, sənaye və energetika nazirlıyi birlikdə bu işlərə bir daha baxın və mənə konkret təkliflər verin. Əgər Dövlət İnvestisiya Şirkətinin fəaliyyətində çətinlıklər varsa, xaricdən investısiyalar cəlb edə bilmiriksə, lazım deyil, özümüz vəsait qoyaq. Bizim vəsaitimız var. Dövlət biznesi təşviq etmək üçün güzəştli kreditlər verə bilər. Bu, bütün dünyada var. Ölkə üçün lazım olan sahələri inkişaf etdirmək üçün dotasiyalar, subsidiyalar, yumşaq kreditlər verılır. Biz bu gün başlasaq, iki-üç ildən sonra sanballı sənaye müəssısəsi yarada bilərik.

Mən bilrəm ki, Sənaye və Energetika Nazirliyində belə planlar var, proqram da hazırlamısınız. Hesab edirəm ki, 2008-ci ildə biz artıq bu işlərə konkret başlamalıyıq. Bu vaxta qədər müəyyən işlər görülübdür. Müxtəlif yerlərdə yeni sənaye kompleksləri tikilir. Bu, məni çox sevindirir. Çünki bu, sənaye potensialının inkişafı deməkdir. Ancaq mən

istəyirəm ki, biz bunu daha da böyük həemdə edək.

İndi Azərbaycan Dövlət Neft Şirkəti Türkiyədə ən böyük neft kimyası kompleksini tender nəticəsində udub və "Petkim" şirkəti artıq Azərbaycan Dövlət Neft Şirkətinin mülkiyyətidir. Oraya böyük investisiyalar qoyulur, 2 milyard dollar vəsait xərclənir. Ondan sonra da investisiya qoyulacaqdır. Bundan başqa, Dövlət Neft Şirkətinin başqa ölkələrdə investisiya layihələrı var. Həm Eeyhanda neft emalı zavodunun tikintisi,- sən orada idin, oradan gəlmisən - həm də başqa ölkələrdə, Avropa ölkələrində.

Rövnəq ABDULLAYEV (Dövlət Neft Şirkətinin prezidenti): Bəli, Cənab Prezident, Ceyhanda neft emalı zavodunun tikintisi və "Petkim"də ikinci neft emalı zavodunun tikintisı bizim proqramımızda var. Ümumiyyətlə, Türkiyədə ildə 20-30 milyon ton güeə malik emal müəssisəsi yaradaeağıq.

İlham ƏLİYEV: Bu, çox yaxşıdır. Amma eyni zamanda, mən tapşırıq vermişdim, Azərbaycanda da yeni güclü  emal kompleksinin tikintisinə böyük ehtiyae var. Neft kirayası kompleksinin tikintisinə böyük ehtiyae var. Bizim neftayırma zavodlarımız işləyir. Sən də direktor olmusan, yaxşı bilirsən. Amma onlar hələ ki, tam, yəni dünya səviyyəsində məhsul buraxmır. Baxmayaraq ki, yenidənqurma işləri aparilıb, bəzi məhsullar dünya səviyyəsinə çatdırılıbdır. Amma onlar çoxdan tikilib, ekolojı cəhətdən havanı korlayır.

Azərbaycanda yeni, müasir neft kımyası kompleksi tıkilməlidir. Beləliklə, biz həm neftimizi, həm də qazımızı daha səmərəli şəkildə emal edib dünya bazarlarına çatdıracağıq. Bu, həm məşğulluqdur, iş yerləridir, həm sənaye potensialıdır, həm də yenilikdir, müasirlikdir. Bilirsiniz ki, Avropada indi meyarlar çox güelənib, çox sərtləşibdir. Bizdə istehsal olunan dizel yanaeağı, yaxud da gerosin ilə gələcəkdə dünya bazarına çıxmaq mümkün olmayacaqdır. Belə olsa, biz yalnız xam nefti sataeağıq. O da bır yoldur, amma mən hesab etmirəm ki, bu, bizim üçün əsas yoldur. Xam nelt öz yerındə, amma biz neft məhsulları bazarını da itirməməliyik. Nəzərə alsaq ki, indi biz müxtəlif ölkələrdə, həm qonşu ölkələrdə - həm də Avropada neft məhsullarının satışı ilə də məşğul olmaq istəyirik. Ona görə 2008-ci ildə bu sahədə konkret tədbırləri hazırlayın və məruzə edərsiniz.

Bir sözlə, sənaye potensialının artımı bizim prioritet məsələmiz olmalıdır. 2008-ci ildə başqa sahələrdə də işlər qəbul edilmiş proqramlar əsasında gedəcəkdir. Nəqliyyat sektorunda həm magistral yollar, həm Bakının yolları, həm də körpülər, yol qovşaqları - bütün bunlar proqramda var. Biz-onu Dövlət İnvestisiya Proqramına da salacağıq. Elə etməliyik ki, bütün yol infrastrukturu ən ytiksək səviyyədə olsun, dünya standartlarına cavab versin. Həm mövcud yolları yenidən qurmalı, həm də mövcud olmayan, yeni şəhərlərarası yolları açmalıyıq ki, yol hərəkəti daha da rahat olsun.

2008-ci ildə də ekologiya məsələlərinə diqqət göstəriləcək, vəsait ayrılacaqdır. Biz böyük ekoloji proqram qəbul etdik. O, artıq icra olunmağa başlamışdır. Mən görürəm,

artıq Bibiheybətdə birinci işlərə başlanmışdır. Mən o məsələni Dövlət Neft Şirkətinin qarşısında qoydum ki, Bibiheybət buxtasını və orada olan çirklənmiş bütün əraziləri siz təmizləməlisiniz. Onlar da mənə söz vermişdilər ki, oranı gözəl bir parka çevirəcəklər. Elədir?

Rövnəq ABDULLAYEV: Bəli, Cənab Prezident. May ayınadək bu məsələ həll ediləcək.

İlham ƏLİYEV: Ora Bakının neftlə çirklənmiş əsas yerlərindəndir. Həm görüntü baxımından, həm də ekologiya baxımından çox mənfi təsiri olan bir yerdir. Amma tarixi bir yerdir. Azərbaycanın neft tarixi həm də oradan başlanmışdır. Ona görə biz o yeri abadlaşdırmalıyıq, orada gözəl parklar salınacaqdır. İndi belə bərbad vəziyyətdə olan yerləri biz gözəl səviyyəyə çatdıraeağıq.

Əlbəttə, ekologiya proqramı bunlarla bitmır. Neft Şirkəti vaxtilə neft sənayesinin fəaliyyəti nəticəsində çirklənmiş yerləri təmizləməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də öz vəzifələrini bilir. Bu yaxınlarda içməli su baxmından ən pis vəziyyətdə olan kəndlərə suyun verilməsinə başlanmışdır. 50 kəndə su verılır.

Hüseynqulu BAGİROV: Bəli, havaların soyuması Salyanda, Neftçalada və başqa rayonlarda buna mane olur. Amma 50 kənddə işlər başa çatdırılmışdır.

İlham ƏLİYEV: Sonraki mərhələdə əlavə kəndlər nəzərdə tutulmalıdır.

Hüseynqulu BAGIROV: Bəli, əlavə kəndlər üçün proqram hazırdır. Ümumiyyətlə, Azərbaycanda 450 min əhalinin su problemi var. Yəni su var, sadəcə, onurt keyfiyyət problemi var. Sizin tapşırığınızla həmin suların keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı proqram hazırlanıb başa çaldırılmışdir və qısa müddətdə Sizə təqdim ediləcəkdir. Bununla da Azərbaycanda keyfiyyətsiz su içən insan olmayaeaqdır.

İlham ƏLİYEV: Qox yaxşı, biz buna nail olmalıyıq. Çünki su həyatdır, sağlamlıqdır. Su insanların fiziki gücüdür, insan orqanizmi üçün əsasdır. Biz elə etməliyik ki, Azərbaycan vətəndaşları təmiz su içsinlər. İndi Oğuz-Qəbələ-Bakı su kəməri tikilir. Hesab edirəm ki, bu da tarixi bır layihədir. O da uzun illər ərzində müzakirə olunmuşdu, hətta Sovet İttifaqı zamanı müzakirə edilmişdi. Müxtəlif fərziyələr var idi: su ehtiyatları var, yoxdur, bunun qiyməti nə qədər olaeaq, neeə olaeaq, maliyyə haradan olacaq. Biz özümüz etdik. Kredit istədik, alınmadı, heç kim kredit verməди. Ondan sonra hansısa müştərək investisiya proqramını işləmək istədik, o da nəticəsiz qaldı. Nə etdik? Özümüz pul ayırdıq və artıq kəmər tikilir. Bu il istismara veriləeək və Bakı əhalisi təmiz içməli su ilə təmin olunaeaqdır. Yenə də deyirəm, bu, mənim üçün Bakı-Tbilisi-Eeyhan neft kəməri kimi dəyərli bir kəmərdir və o, böyük rəmzi xarakter daşıyır. Biz neft kəmərini tikdik və neftdən, o kəmərin fəaliyyətindən əldə olunan gəlirlə su kəməri də çəkdik. Azərbaycan nefti Azərbaycan xalqına xidmət edir. İnsanların sağlamlığına xidmət edır. Ölkəmizin inkişafına xidmət edir.

Bütün bunları bir daha təhlil edəndə görürük ki, 1990-cı illərin o ağır şəraitində "Əsrin müqaviləsi"nin imzalanması, ulu öndər Heydər Əliyevin nə qədər cəsarətli və müdrik addımı olmuşdur. Əgər o vaxt bu müqavilə imzalanmasaydı, mən açıq deyirəm, bunların heç biri bu gün olmazdı və ümumiyyətlə, təsəvvür etmək çətindir ki, Azərbaycanın indiki vəziyyəti necə ola bilərdi. Bu, bizə imkan verdi, bizim qollarımızı açdı. Biz sərbəst inkişaf edirik, müstəqil ölkə kimi inkişaf edirik. Heç kimdən asılı deyilik. Öz taleyimizi özümüz həll edirik və uğurla həll edirik. Müstəqil ölkə kimi və uğurlu ölkə kimi biz sübut etdik ki, Azərbaycan xalqı müstəqil xalq kimi yaşaya bilər, Azərbaycan xalqı müstəqil dövlət qura bilər, bu dövləti qoruya, möhkəmləndirə bilər. Bu dövlət möhkəm dövlətdir və bu yerləşdiyi bölgədə öz təsir imkanlarını genişləndirir. Bu, hər bir vətənpərvər insanda qürur hissi oyadır. Mən çox şadam ki, biz, Azərbaycan xalqı qısa bir tarixi müddət ərzində güclü  dövlət qurmuşuq.

Mən burada səslənən bir məsələ barədə də öz fikrimi bildirmək istəyirəm. Füzuli Ələkbərovun çıxışında xaricdən gələn miqrantlarla bağlı məsələlər səsləndi. Yadınızdadırsa, bu barədə mən hələ bir il bundan əvvəl öz fikirlərimi demişdim. Görürdüm, vəziyyət elə istiqamətə gedir ki, biz gələcəkdə bu problemlə üzləşə bilərik. Biz başqa ölkələrin bu sahədəki təcrübəsini öyrənməliyik. Miqrantların gəlməsi bütövlükdə inkişafın göstəricisidir. Əgər inkişaf olmasaydı, heç kim buraya iş üçün gəlməzdi. Amma digər tərəfdən, biz indidən tədbirlər görməliyik ki, sabah bu, bizim üçün problemə çevrilməsin. Miqrant gəlir, iş yerini tutur və yerli vətəndaş o iş yerindən məhrum olur. Düzdür, o da həqiqətdir ki, bəzi hallarda bizim vətəndaşlarımızın işləmək istəmədiyi yerlərdə miqrantlar gəlib işləyirlər. Bu da onu göstərirki, Azərbaycanda  faktik olaraq, işsizlık barədə söhbət açmaq yersizdir. İş var, bəzi hallarda işləmək  itəməyənlər və dövlətdən böyük imkanlar gözləyənlər var.

Dövlət, doğrudan da, Ancaq kasıb şəraitdə yaşayanlara, yoxsullara kömək əlini uzadır. 78 min ailə, 300 mindən çox insan dövlət tərəfindən pul alır. Özü də bu, az pul deyil, dediyim kimi, hər bir ailə 100 dollara yaxın pul alır. Amma işləmək istəməyənlər özləri bilməlidirlər ki, iş hamı üçün var. Bunu hamı bilməlidir.Ancaq istisna deyil ki, gələcəkdə miqrantların sayı arta bilər. Yəni Azəbaycanda gedən inkişaf, tikinti... Miqrantlar xüsusilə xidmət və tikinti sektorunda işləyirlər. Füzuli, elədirmi?

Füzuli ƏLƏKBƏROV: Cənab president, tamamilə düz deyirsiniz. Mən çıxışımda dedim, il ərzində dövlət rüsumu kimi 44 manat pul ödəyirlər. Bu da nə deməkdir? Miqrantlar ayda 100-150 manata işləyirlər. Bizimkilər bu məvacibə işləmirlər. Amma biz dövlət rüsumunu artırsaq, yerlı sahibkarlar üçün daha əlverişli olar ki, yerli işçi qüvvəsini öyrətsin, təhsil, təlim versinlər. Onda maraq olar. Yüksək peşəkarlığa malik, hansilar ki, ayda 2000-3000-4000 manat maaş alır, onlar gəlsinlər, bizim əmək bazarının keyfiyyətcə yüksəlməsinə təsir etsinlər. Amma, Siz dediyiniz kimi, gələn miqrantlar, əsasən,

ən aşağı səviyyəli işlərdə çalışırlar.

İlham ƏLİYEV: Əslində, miqrant deyəndə, əlbəttə, aşağı səviyyəli işçiləri nəzərdə tuturııq. Azərbaycanda indi həm neft sənayesində, həm də xidmət sahəsində minlərlə Xarici vətəndaş işləyir. Onlar, əlbəttə, yüksək peşəkarlığa malik olan adamlardır. Amma az keyfiyyətli işçi qüvvəsinin Azərbaycana kütləvi şəkildə gəlməsinə gərək biz hazır olaq. Bütün normativ qaydaları elə tənzimləyək ki, birinci növbədə, yerli əhali üçün imkanlar yaransın. Çünki biz elə etməliyik ki, Azərbaycan vətəndaşları maksimum dərəcədə işlə təmin olunsunlar. Biz yəqin ki, gələcəkdə xaricdən gələn miqrantların sayını müəyyənləşdirməliyik, normalaşdırmalıyıq. Hər bir ölkə üçün norma olmalıdır, bundan çox olmamalıdır. Bunun həm də başqa, iqtisadi tərəfləri var.

Biz 2008-ci ildə sosıal sahəyə də investisiyalar qoymaqda davam edəcəyik. Məktəb, xəstəxana tikintisi - bütün bunlar uğurla gedir və elə etməliyik ki, yaxşı vəziyyətdə olmayan bir dənə məktəb olmasın, bütün səhiyyə ocaqları təmir edılsın, yeniləri tikilsin. Bu sahəyə vəsail ayıracağıq. Muzeylər, teatrlar təmir olunur. Bu yaxınlarda Tarix Mıızeyi təmirdən sonra fəaliyyətə başlamışdır. Kukla Teatrı, ondan əvvəl Yaşil Teatr təmir edilmişdır. Çox gözəl teatr olmuşdur. Yəni bu proses 2008-ci ildə də gedəcək, büdcədə vəsait ayrılıbdır və elə edəcəyik ki, bütün tarixi binalarımız təmir ediləcəkdir. Teatrlar, muzeylər - həm Bakıda, həm də rayonlarda bütün mədəniyyət ocaqları ən yaxşı səviyyədə təmır olunmalıdır və yeniləri tikilməlidir.

Eyni zamanda, idman komplekslərinin tikintisi nəzərdə tutulur. İndi 20-yə yaxın olimpiya idman kompleksi ya inşa edilir, yaxud da yaxın zamanlarda inşasına başlayacağıq. Rayonlarda ondan çox olimpiya idman kompleksi istismara verilibdir. Mən hesab edirəm ki, 2008-ci ildə bu sahədə çox böyük nailiyyətlər olaeaqdır. Azərbaycan 2016-ci ildə Olimpiya oyunlarını keçirmək əzmindədir və biz artıq Beynəlxalq Olimpiya Komitəsinə öz təkliflərimizi göndəririk. Bu təşəbbüs onu göstərir ki, Azərbaycan dövləti öz gücünə arxayındır, öz gücünə istinad edir və biz Olimpiya oyunları kimi mötəbər dünya yarışını keçirə bilərik.

Əlbəttə, bugünkü iclasda bülün sahələr üzrə tapşırıqların verilməsi mümkün deyil, biz bunu sonra işgüzar qaydada davam etdirəcəyik. Sadəcə olaraq, çıxışımın sonunda ordu quruculuğu haqqında bir neçə söz demək istəyirəm.

Bildiyiniz kimi, biz bu sahəyə də böyük vəsait ayırırıq. 2008-ci ildə hərbi xərclər, ən azı, 1 milyard 200 milyon dollar səviyyəsində olacaqdır. Bu, dövlət büdcəsində nəzərdə tutulmuş rəqəmdir. İstisna deyil ki, il ərzində buna dəyişiklik edılsın. Ordumuzun peşəkarlığı artır. Ordumuz hər an öz doğma torpaqlarımızı işğalçilardan azad etməyə hazır olmalıdır və əslində, hazırdır.

Bununla yanaşı, biz 2008-ci ildə müdafiə sənayesinə daha da böyük sərmayə qoymalıyıq. Biz bu sənayeni yaratdıq. Bu sahədə çox qısa müddətdə çox böyük uğurlar əldə

edilibdir. Yeni il ərəfəsində mən özüm həm Bakıda, həm də Əli Bayramlıda onların qısa müddət ərzində gördüyü işlərlə tanış oldum. Sözün əsl mənasında, çox şad oldum ki, artıq qısa müddətdə bu sənayenin ilkin elementləri var, yaratmışıq, işləyir. İnsanlar işləyir, yaxşı məhsul istehsal edirlər və sənayenin inkişafı üçün yaxşı imkanlar, perspektivlər var. Biz əsas investisiyanı qoymalıyıq, onlar isə texnologiyanı gətirirlər və artıq bir sıra ölkələrlə çox işgüzar münasibətlər qurulubdur. Bu ölkələr həm qonşu ölkələrdir, hərn də ıızaqda yerləşən ölkələrdir. Bu, bir daha göstərir ki, Azərbaycan dünya çapında çox böyük dostlar qazanmışdır. Çünki hərbi texnologiyalar elə sahədir ki, hər bir ölkə onu başqa ölkəyə asanlıqla verməz. Məhdudiyyətlər var, qaydalar var. Biz o yerlərdən texnologiyalar alırıq ki, vaxtilə bunu təsəvvür etmək mümkün deyildi. Ona görə burada heç bir məhdudiyyət yoxdur.

Ümuraiyyətlə, bizə ənənəvi dost olan ölkələrin və yeni ölkələrin, hansı ki, bizim münasibətlərimiz çox səmimi olubdur, onların rəsmi mövqeyi belədir ki, hərbi sahədə Azərbaycanla əməkdaşlıqda heç bir məhdudiyyət yoxdur. Yəm bizim üçün bütün imkanlar açıqdır, vəsaitimiz də var. Gərək 2008-ci ildə bu sahədə daha da böyük işlər görülsün. Ümid edirəm ki, biz buna nail olaeağıq. Azərbaycanda çox güclü müdafiə sənayesi, hərbi sənaye yaradılacaqdır.

Bir daha demək istəyirəm ki, bugünkü iclasda 2008-ci ildə görüləeək bütün işlər haqqında danışmaq mümkün deyil, bir neçə saat vaxt aparar. Bizim hökumətimiz yaxşı işləyir, nazirlər öz vəzifələrini bilirlər. Azərbaycanda çox gözəl idarəetmə mexanizmi, idarəetmə sistemi yaranıbdır. Hesab edirəm ki, 2008-ci ildə bütün bu müsbət nailiyyətlər artırilmalıdır. Bütün nazirlər həm öz yerində işini davam etdirəeəklər. Mən yaxşı nəticələri görəndə sevmirəm, qüsurlar olanda onları deyirəm, töhmət edirəm. Mən istəyirəm ki, Azərbaycanda hər şey yaxşı olsun. İstəyirəm ki, ölkəmiz daha da güclü olsun, xalqımız rahat yaşasın, xalqı narahat edən problemlər aradan qaldırilsın, məmurlar öz vəzifə boreuna məsuliyyətlə yanaşsınlar. Hər bir məmur, ilk növbədə, elə etməlidir kı, onun sahəsində irəliləyiş, tərəqqi olsun, yaxşı nəticələr olsun. Birbaşa xalqla ünsiyyətdə olan məmurlar elə etməlidirlər ki, insanlar oıiların fəaliyyətindən razı olsunlar. Diqqətli olmalıdırlar, yaddan çıxarmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət etməkdir. Məni xalq Prezident seçıbdir ki, xalqa öz xidmətimi göstərim. Mən icra strukturlarını formalaşdırım ki, biz hamımız xalqa xidmət göstərək, ölkəmizi güeləndirək və güclü Azərbaycan dövlətini yaradaq.

2008-ci il yaxşı başlayır. Əminəm ki, biz 2008-eı ili yaxşı nəticələrlə başa vuracağıq. Bu işlərdə sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

**Adambaşına düşən büdcə xərclərinə görə Azərbaycan nəinki MDB məkanında, bütövlükdə dünya miqyasında çox yüksək yer tutur**

**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirılmışdir**

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**

- Bu gün biz Nazirlər Kabinetinin iclasında 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarını müzakirə edəcəyik. 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlanmışdır. Bildiyiniz kimi, son dörd il ərzində, 2004-2007-ci illərdə ölkə iqtisadiyyatı 96 faiz artmışdır. Deməк olar ki, biz iqtisadi potensialımızı ikı dəfə artıra bilmişik və bu güclü iqtisadi zəmində əlbəttə ki, yüksək sürəti saxlamaq, bu iqtisadi inkişafi davam etdirmək asan məsələ deyildir. Bütün bu amilləri nəzərə alaraq, böyük məmnunluq hissi ilə deyə bilərəm ki, bu ilin birinci rübündə iqtisadi inkişaf çox güclü olmuşdur, ümumi daxili məhsul təxminən 14 faiz artmışdır. Bununla bərabər, sənaye istehsalı da təxminən eyni sürətlə artmışdır. Ölkədə bütün sosial-iqtisadi proqramlar uğurla icra olunur və beləliklə, Azərbaycan daha da ciddi inkişafa nail ola bilmişdir.

Bu müddət ərzində dövlət büdcəsində nəzərdə tutulmuş bütün layihələr, proqramlar, inirastruktur layihələri, sosial xarakterli proqramlar icra olıınmuşdur. Bütün bu amilləri nəzərə alaraq, deyə bilərik ki, şübhəsiz, 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün, ümumi inkişafımız üçün uğurlu il olaeaq və Azərbaycan 2008-ci ildə qarşıda qoyduğu bütün vəzifələri uğurla yerinə yetirəcəkdir.

Biz bu il həm əsaslı vəsait qoyuluşu, həm də sosial proqramların icrasi baxımından keyfiyyətcə yeni səviyyəyə qalxırıq. Azərbaycanın büdcəsi ildən-ilə artır, 2008-ci ilin iemal büdcəsi 12 milyard dollar səviyyəsindədir. Bu, 2003-cü illə müqayisədə on dəfə çoxdur. Ancaq onu da bilirik ki, iqtisadı imkanlarımız artdıqea, əlbəttə, biz istəyirık ölkənin qarşısında duran və insanları narahat edən məsələləri daha da sürətlə həll edək. Bu məqsədlə bir müddət bundan əvvəl hökumətə göstəriş verilmişdır ki, büdcəyə əlavələr edilsin, dürüstləşmə aparilsın. Artıq dürüstləşmənin ilkin layihəsi hazırdır, müzakirə olunub və yaxın zamanlarda müzakirə üçün Milli Məclisə göndəriləcəkdir.

Biz istəyirik ki, bu əlavələr, əlavə vəsait Azərbaycanın qarşısında duran əsas vəziflərin yerinə yetirilməsinə yönəldılsın. Büdcə artımı, əlbəttə, ölkənin gücünü, ölkənin potensialını göstərir. Adambaşına düşən büdcə xərclərinə görə Azərbaycan bütün MDB

məkanında qabaqcıl yerlərdədir və bütövlükdə dünya miqyasında çox yüksək yer tutur. Biz öz valyuta ehtiyatlarımızı artırırıq. Bu günə olan məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 9 milyard dollar həcmindədir. Ölkəmizdə uğurlu neft strategiyasının icrası nəticəsində bu il böyük artım gözlənilir. Bu, bizə əlavə güe verir, əlavə əminlik verir. Bu, bizə imkan verir ki, ölkəmizin müstəqil siyasətini daha da inamla irəliyə aparaq və Azərbaycan xalqının milli maraqlarını müdafiə edək.

Sosial proqramların həlli, bütün dövrlərdə olduğu kimi bu gün də diqqət mərkəzindədir. Əlbəttə. sosial məsələlərin həlli, ilk növbədə, ölkənin iqtisadi imkanlarına bağlıdır. Bizim 5-10 il bundan əvvəlki iqtisadi imkanlarımız geniş sosial proqramların həlli üçün yetərli deyildi. Bu gün isə iqtisadi artım nəticəsində, ölkədə gedən əsaslı iqtisadi və siyasi islahatlar nəticəsində, liberal siyasət nəticəsmdə bizim sosial proqramlarımızın icrası üçün də yaxşı imkanlar var. İldən-ilə maaşlar, pensiyalar artırılır. Bu il yanvarın 1 - dən minimum əməkhaqqı və minimum pensiya növbəti dəfə artırılmış, 50 manatdan 60 manata çatdırılmışdır. Biz planlaşdırırıq ki, bu il ərzində həm minimum əmək-haqqının, həm də minimum pensiyanın məbləğini bir dəfə də artıraq. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların sosial müdafiəsi daha da güeləndirilməlidir və bunu etmək üçün konkret təkliflər, proqramlar var və ən əsası maddi imkanlarımız da buna şərait yaradır.

Ünvanlı sosial yardım layihəsi uğurla icra edilir, 400 minə qədər insan bu proqramla əhatə olunubdur. Deyə bilərəm ki, bu, ölkəmiz üçün nisbətən yenilikdir. Bu onu göstərir ki, dövlətin, hökumətin ən başlıca vəzifəsi, ən ümdə prioriteti insanların yaşayış səviyyəsinin yüksəldilməsidir. Əgər belə olmasaydı, əlbəttə, sosial proqramlara böyük diqqət göstərilməzdi. Sosial proqramların icrası nəticəsində Azərbaycan xalqı daha da yaxşı yaşayacaqdır. Biz bunu ilbəil artan iqtisadi göstərieilərdə, eyni zamanda, əhalinin pul gəlirlərində də görürük. Bu ilin ilk üç ayında əhalinin pul gəlirləri 33 faiz artmışdır. Eyni zamanda, inflyasiya 16 faiz artmışdır. İnfilyasiyanın artımı bizi çox düşündürür, narahat edir və biz əməli-praktik tədbirlər nəticəsində inflyasiyanı məqbul sayila biləcək çərçivələrdə saxlamağa çalışmalıyıq.

Ancaq onu da bilirik ki, bütün dünyada çox sürətlə bahalaşma gedir. Avropada, MDB məkanında, bütün ölkələrdə, Asiyada, başqa qitələrdə xüsusilə ərzaq materiallarının bahalaşması bu il və keçən ilin əvvəlində özünü daha da qabarıq şəkildə büruzə vermişdir. Bunun müxtəlif obyektiv səbəbləri var və əlbəttə, bu bahalaşma meyilləri Azərbaycandan da yan keçməmişdir.

Biz çalışmalıyıq ki, həm iqtisadi, həm də inzibati tədbirlər nəticəsində bahalaşmanın qarşısını maksimum dərəcədə alaq. Eyni zamanda, ildən-ilə və ildə iki dəfə qaldırilan maaşlar və pensiyalar sosial müdafiə üçün çox vacib bir vasitədır. Biz bunu etməklə insanların sosial müdafiəsini güeləndiririk, onların yaşayış səviyyəsini qaldırırıq.

Əgər əhalinin pul gəlirlərini və inflyasiya səviyyəsini götürsək görərik ki, real gəlirlər birinci rübdə 17 faiz artmışdır. Əminəm ki, bu da dünyada çox nadir hallarda rast gəlinən bir göstərieidir. Bir sözlə, həm iqtisadi islahatlar, həm də sosial proqramların icrası davam etdiriləeəkdir. Əslində, biz Nazirlər Kabinetinin ənənəvi toplantilarında məhz ölkənin sosial-iqtisadi yekunlarını müzakirə edirik. Çünki bunlar ölkənin iqtisadiyyatı və ümumiyyətlə, inkişafı üçün başlıea məsələlərdir.

Bildiyiniz kimi, bizim diqqət mərkəzimizdə olan başqa ciddi məsələ iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafıdır. Bu məsələ ilə biz çox ciddi məşğuluq və uğurlar göz qabağındadır. Məsələn, yaradilan yüz minlərlə yeni iş yerləri. Deyə bilərəm ki, mənə verilən son məlumata görə, Azərbaycanda son beş ilə yaxın müddətdə 668 min yeni iş yerləri açilmışdır ki, onlardan da 478 mini daimi iş yerləridir və bu proses davam edir. İşsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması, həmişə olduğu kimi, prioritet məsələlər olaraq qalır və deyə bilərəm ki, biz bu sahədə böyük irəliləyişə nail ola bilmişik. Ancaq gələcək fəaliyyətimizdə elə etməliyik ki, qarşıda duran vəzifələri tam şəkildə icra edək.

Beləliklə, qeyri-neft sektoru həm ölkə iqtisadiyyatının şaxələndirilməsi, həm sosial məsələlərin həlli, həm də regionların inkişafı üçün ən başlıea rol oynayan sahədir. Çünkı yeni iş yerlərinin tam əksəriyyəti bölgələrdə yaradilıbdır. Bu, bölgələrin inkişafına çox böyük dəstəkdir, köməkdir. Eyni zamanda, bölgələrdə dövlət investisiya proqramı çərçivəsində həyata keçirilən nəhəng infrastruktur layihələri də qeyri-neft sektorunun və bütövlükdə sahibkarlığın inkişafına çox böyük dəstəkdir. Əgər bu böyük infrastruktur layihələri olmasaydı, əminəm ki, regional inkişaf proqramının icrasında biz çətinliklərlə üzləşə bilərdik. Həm yeni yollar, elektrik stansiyaları, qaz xətləri və həm də sosial infrastrukturun yaradılması, xəstəxanaların, məktəblərin tikilməsi, rayonlarımızın, şəhərlərimizin abadlaşması - bütün bunlar sahibkarlığa da böyük dəstək verir. Nəzərə alsaq ki, sahibkarlıqla məşğul olan təbəqəyə dövlət tərəfindən çox böyük dəstək var, -həm mənəvi, həm də maddi, - bütün bu amillər birlikdə imkan verib ki, biz qısa müddət ərzində, demək olar, işsizliyin böyük hissəsini artıq aradan qaldırmışıq. İndi sirr deyil ki, Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən tikintidə işləmək üçün xaricdən işçi qüvvəsi daxil olur.

Yəqin xatırlayırsınız, mən təxminən bir il, bəlkə, bundan da əvvəl bu məsələyə toxunaraq demişdim ki, biz gələcəkdə miqrasiya məsələlərinə ciddi fikir verməliyik. Çünki mən görürdüm ki, bu vaxt gələcək. Azərbaycanda aparilan islahatlar, icra olunan layihələr, bütövlükdə bizim iqtisadi inkişafımız, neft satışından əldə ediləeək gəlirlərimiz artıq göstərirdi ki, bu vaxt gələcək və vaxtında biz Dövlət Miqrasiya Xidmətini yaratdıq. İndi elə etməliyik ki, Azərbaycana işləməyə gələn Xarici işçi qüvvəsi yerli vətəndaşların iş yerlərinin almasınlar, onlara rəqabət yaratmasınlar. Eyni zamanda,

Azərbaycanda özlərini bizim adət-ənənələrimizə uyğun şəkildə aparsınlar, qanunlara ııyğun şəkildə aparsınlar. Dövlət bu sahədə siyasətini çox ciddi tənzimləməlidir.

Biz görürük ki, gələcəkdə bizi nələr gözləyir. Azərbaycan zəngin ölkəyə, inkişaf etmiş ölkəyə çevrilməlidir. Biz bu vəzifəni qarşımıza qoymuşuq və belə olan halda, gələcəkdə Azərbaycana miqrantların gəlişi daha da böyük, kütləvi xarakter ala bilər. Biz buna hazır olmalıyıq və elə etməliyik ki, Azərbaycan xalqının maraqları tam şəkildə təmin olunsun. Yəni onu demək istəyirəm kı, indi işləmək istəyən insanlar, onların böyük əksəriyyəti iş tapa bilərlər. Vaxtilə Azərbaycanın bölgələrindən başqa ölkələrə gedən insanlar artıq ya öz yaşadıqları rayonlarda işləyirlər, yaxud da Bakıya gəlirlər. Bu da miisbət göstəricidır.

Yəni bizım inkişafımız, ölkəmizin uğurlu inkişafı təkcə iqtisadi göstərieilərlə ölçülmür. Biz bunu gündəlik həyatda görürük, abadlaşan şəhərlərdə görürük, inkişaf edən ölkəmizdə görürük. Biz bu yüksək templəri saxlamalıyıq. Halbuki, bu, asan məsələ deyil. Mən qeyd etdiyim kimi, iqtisadiyyatımız dörd il ərzində iki dəfə böyüyüb və bu yüksək tempi də saxlamaq həm çətindir, həm də gələcəkdə, bəlkə də, buna ehtıyae olmayaeaqdır. Biz əsas məsələləri operativ şəkildə, çox məhdud bir zaman çərçivəsində həll etməliyik: inirastruktur, iqtisadi potensialın möhkəmləndirilməsi, işsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması, sosial inirastrukturun yeniləşməsi və yaradılması. Beləliklə, bundan sonra Azərbaycanın inkişafı ildə 20-30 faiz artan iqtisadıyyatla ölçülməyəeəkdir. Biz inkişaf etmiş ölkələr kimi, öz iqtisadiyyatımızı təvazökar rəqəmlərlə inkişaf etdirəeəyik. Amma o faizlərin həm keyfiyyəti, həm də təsir qüvvəsi daha da güclü olaeaqdır.

Yəni biz inkişaf etmiş ölkələrin təcrübəsini daha da ciddi öyrənməliyik və bunu edirik. O cümlədən, bu məqsədlə biz beynəlxalq təşkilatlarla əməkdaşlığımızı güeləndiririk - həm siyasi, həm iqtisadi sahələrdə ki, Azərbaycan dünyada mövcud olan müsbət və bizim üçün uyğun olan təcrübəni tətbiq etsin, ən qabaqeil və uğurlu təcrübə Azərbaycanda taın şəkildə bərqərar olsun. Belə olan halda, ölkəmızin uğurlu gələeəyi enerjı resurslarından asılı olmayacaqdır. Əslində, bizim indiki rnəqsədlərimizdən biri də odur. Halbuki, hələ uzun illər ərzində Azərbaycan iqtısadiyyatının aparıc hissəsini enerji sektoru təşkil edəcəkdir.

Biz elə etməliyik ki, Azərbaycanın iqtisadiyyatı daha çox qeyri-neft sahəsindən asılı olsun. Ona görə növbəti illərdə qeyri-neft sektorunun inkişafına diqqət göstərilməlidir və Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranmalıdır. Artıq biz bunu görürük. İqtisadiyyatımızın böyük əksəriyyəti, 80 faizdən çoxu özəl sektorda formalaşır. Biz, əlbəttə, neft-qaz sahəsində əldə edilmiş uğurlarla öyünə bilərik. Çünkü bu sahədə aparılan işlər həm ölkəmizin inkışafı üçün, həm beynəlxalq nüfuzun artması, həm də bülövlükdə Azərbaycanın bu səviyyəyə çatması üçün başlıca rol oynamışdır. Düzdür, əsas neft-qaz layihələri

icra olunmuşdur. Biz ulu öndər Ileydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyasını uğurla davam etdiririk və qarşıya qoyduğumuz bütün vəzifələri, bütün layihələri vaxtı-vaxtında uğurla icra etmişik. Elə təəssürat yarana bilər ki, biz bu sahədə artıq hər şeyi etmişik. Ancaq, birincisi, həyat yerində durmur, ikincisi, yeni çağırışlar, yeni layihələr, yeni dünyamiqyaslı təşəbbüslər artıq müzakirə mövzusudur. Azərbaycan bu işlərdə həm iştirakçıdır, həm də təşəbbüskardır. Bizə aid olan layihələrdə biz təşəbbüskarıq. Azərbaycanın neft-qaz resurslarına aid layihələrdə, əlbəttə, təşəbbüs bizim tərəfımizdən olmuşdur. Biz digər, enerji mənbəyimizə əsaslanmayan, amma bölgə üçün vacib olan layihələrə ıştirakçı kimi qoşulmağa hazırıq. Yəni deyə bilərəm ki, bu sahə 1990-cı illərin əvvəllərindəki vəziyyətlə müqayisədə bu gün dünyanın gündəliyində daha da ciddi yer tutur. Biz 1990-cı illərin ortalarında neft strategiyamızı icra etməyə başlayanda, vəziyyət bir cür idi, indi isə tam başqadır. Deyə bilərəm kı, hansı dövr daha məsuliyyətlidir, yaxıid da daha çətindir.

Şübhə yoxdur ki, 1990-cı illərin əvvəllərində və ortalarında Heydər Əliyev tərəfindən atılan cəsarətli və uzaqgörən addımlar Azərbaycanın inkişaf yoluna qədəm qoyması demək idi. Azərbaycanın dünya iqtisadiyyatına, dünya birliyinə inteqrasiyası demək idi. Äzərbaycanın bugünkü uğurlarının başlanması demək idi. O çətin, ağır şəraitdə, - bütün yerlərdən, xaricdən təzyiqlər vardı, həm də daxili vəziyyət tam sabit deyildi, - xalqımızın və ölkəmizin yaşaması üçün bu layihələr vacib idi, həyatı əhəmiyyət kəsb edirdi.

Bu gün isə Azərbaycan böyük dərəcədə güclənibdir. Azərbaycan tam şəkildə müstəqil siyasət aparır və bölgədə öz güclü mövqelərini möhkəmləndirir. Biz dünya birlıyində özümüzə layiq yerimizi tuta bilmişik. İndi müttəfiqlərimizin sayı, əlbəttə ki, 1990-cı illərin əvvəlləri ilə müqayisədə daha da çoxdur. Bu illər ərzmdə biz özümüzü etibarlı tərəfdaş kimi təqdim edə bilmişik. Ancaq neft-qaz sahəsində gedən proseslər - bəzi hallarda rəqabət, bəzi hallarda qarşıdurma və müxtəlif güc mərkəzlərinin toqquşması, - bizim bölgəmizdə də baş verir.

Bəlkə də, ilk növbədə, bizim bölgəmizdə, çünki Xəzər dənizi dünya enerji bazarı üçün yeni mənbədir. Bu mənbə çox zəngindir və burada olan karbohidrogen ehtiyatları gələcəkdə; Avropanın və demək olar ki, dünyanın enerji təhlükəsizliyi üçün çox vacib rol oynayacaqdır. Artıq bunu hamı etiraf edir. Buna görə bölgənin önəmi və bölgədə yerləşən ölkələrin neft siyasəti dünya üçün çox əhəmiyyətlidir.

Biz, bu imkanlardan istifadə etməliyik. İlk növbədə, öz milli maraqlarımızı maksimum dərəcədə müdafiə etməli və qorumalıyıq. Bizə sərf edən, Azərbaycan xalqının milli maraqlarına cavab verən layihələrdə ıştirak etməliyik. Nəzərə alsaq ki, artıq bizim həm hasilat, həm ixrac, həm də tranzit baxımından çox gözəl imkanlarımız var. Əslində, bu imkanları özümüz yaratmışıq, bunu bizim əvəzimizdən heç kim etməyibdir. Biz

bu sahədə düşünülmüş və düzgün siyasətimizi davam etdirəcəyik.

Mən. isə bununla bərabər, onu da deməliyəm, bizə elə gəlməməlidir ki, bu sahədə bütün işlər başa çatıb və artıq bununla kifayətlənə bilərik. Həm bölgədə gedən geosiyasi proseslər, enerji amilinin xarici siyasətdə daha da qabarıq şəkildə müzakirə olunması, həm də bizim öz layihələrimiz, Azərbaycanın neft-qaz sahəsinin inkişafı üçün lazım olan layihələr bunun əksini göstərır. Bizim indi gözəl təcrübəmiz var. Xarici şirkətlərlə çox işgüzar şəraitdə, qarşılıqlı maraqlar əsasında uzun illərdir çalışırıq. Eyni zamanda, artıq bizim maliyyə imkanlarımız var. Bu maliyyə imkanlarından istifadə etməliyik və Azərbaycanda bütün neft-qaz səııayesini müasirləşdirməliyik. Mən bu barədə müvafiq göstərişlər vermişəm. Bu gün bu barədə bir daha deyəcəyəm. Amma onu da demək istəyirəm ki, neft-qaz sahəsində geniş yeni proqram hazırlanmalıdır. Uzun illər bundan sonra da bu sahə Azərbaycan iqtisadiyyatı üçün böyük uğurlar gətirəcəkdir.

Bizim toplantilarımız, bayaq qeyd etdiyim kimi, sosial-iqtisadi yekunlara həsr olunur. Ancaq bununla bərabər, ölkənin daxili siyasəti, iqtisadi uğurlar ayrı kontekstdə, yəni xarici siyasətlə uzlaşmadan həm müzakirə oluna bilməz, həm də biz istədiyimizə nail ola bilməyəcəyik. Xarici siyasət daxili siyasətin nəticəsidir. Biz nə qədər güclü olsaq, mövqelərimiz nə qədər möhkəm olsa, Xarici siyasətimiz də bir o qədər uğurlu olacaqdır. Bu sahədə aparılan işlər qənaətbəxşdır. Biz yeni müttəfiqlər qazanmışıq. Azərbaycanın xarici əlaqələri böyük dərəcədə genişlənibdir. 50-dən çox ölkədə səfirliklər açılıbdır. Bu, əlbəttə, ikitərəfli əlaqələrin inkişafına böyük təkan verir. Beynəlxalq təşkilatlarla qarşılıqlı, şüurlu münasibətlər var. Bir sözlə, bu sahədə əldə etdiyimiz nailıyyəllər ölkəmizi daha da gücləndirir və Azərbaycan haqqında həqiqətlər dünya birliyinə olduğu kimi çatdırılır. Bu, bizim üçün çox lazımdır və vacibdir. Çünki dünya erməni lobbi təşkilatları bizə qarşı mütəmadi qaydada mübarizə aparırlar. Azərbaycan ləkələmək üçün, Azərbaycan qeyri-deraokratik ölkə kimi təqdim etmək üçün və Azərbaycanın beynəlxalq mövqelərini zəiflətmək üçün. Biz bunu bilirık.

Bizim haqqımızda Xarici mətbuatda gedən yazıların böyük əksəriyyəti erməni müəllilləri tərəfindən bəzi hallarda başqa adlarla yazılır. Yaxud da erməni lobbi təşkilatları tərəfindən maliyyələşdirılır. Biz bunu bilirik kı, lobbi fəaliyyəti inkişaf etmiş ölkələrdə çox genış yayılıbdır. Erməni lobbisinin də böyük iqtisadi imkanları var. Onlar bu iqtisadi imkanlardan istifadə edib həm siyasətçiləri öz tərəfinə çəkirlər, həm də mətbuat orqanlarında özlərinə sərf edən yazıları dərc etdirirlər. Bir sözlə, başqa, əksər ölkələrdən fərqli olaraq, dünyada bizə, Azərbaycana qarşı mütəmadi qaydada çox böyük və diişmənçilik mövqeyində dayanan strukturlar fəaliyyət göstərir.

Bunun qabağına biz öz gücümüzü qoymalıyıq. Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq. Azərbaycanın uğurlu inkışafını təmin etməliyik. Ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə çalışmalıyıq və biz bunu edirik. Deyə bilərəm

ki, Xarici siyasətdə bu məsələdən başqa bizim ciddi problemlərimiz yoxdur.

Əsas məsələ, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bu sahədə diplomatik və siyasi addımlar çox uğurlu olubdur. Bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı aparılan müzakirələr bir daha onu göstəribdır. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri, dünyanın aparıcı ölkələri, üç ölkə - nüvə ölkələrı, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü bu qətnamənin əleyhinə səs veribdır. Buna baxmayaraq, Azərbaycan böyük üstünlüklə bu qətnamənin qəbul olunmasına nail ola bilibdir. Bu, nəyi göstərir? Bu, bizim gücümüzü göstərir. Bu, ilk növbədə, dünyada haqq ədalətin olmasını göstərir. Halbuki, bəzi hallarda bu sahədə şübhələr də var.

Digər tərəfdən onu göstərir ki, dünya ictimaiyyəti Azərbaycanın haqlı olduğunu bir daha sənədləşdirib, bir daha təsdiq edibdir. Bir də onu göstərir ki, Azərbaycanın müttəfiqləri artır. Əgər bizim xeyrimizə qətnaməyə səs verən ölkələrin coğrafiyasına baxsaq görərik ki, bütün bölgələrdən, qitələrdən ölkələr var. Əlbəttə ki, biz siyasi və diplomatik səylərimızi davam etdirəcəyik.

Bu yaxınlarda NATO-nun zirvə görüşündə bütün NATO üzvləri tərəfindən qəbul edilmiş qətnamə Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq edir, dəstəkləyir və göstərir ki, dondurulmuş bütün münaqişələr ərazi bütövlüyü prinsipini nəzərə almaq şərtilə həll olunmalıdır.

BMT, NATO, Avropa Şurası, Avropa Bırliyı, İslam Konfransı Təşkilatı, GUAM - bütün beynəlxalq aləm bizim tərəfimizdədir. Belə olan halda, danışıqlarda bizdən hansısa güzəştlərin gözlənilməsi qeyrı-ciddi yanaşmanın təzahürüdür. Mən bunu bir dəfə demişdim, bir də demək istəyirəm ki, baxmayaraq, heç bir nəticə yoxdur, danışıqlarda uzun illər iştirakimiz, artıq bizim tərəfımizdən verilən böyük güzəştdir. Azərbaycan öz ərazi bütövlüyünü heç kimə güzəştə getməyəcəkdir. Bunu hamı bilir. Beynəlxalq ictimaiyyət də bilir və bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik missiyasını icra etməyə çalışan Minsk qrupu və onların həmsədrləri də bilır.

Biz bu mövqedən geri çəkilməyəcəyık. Biz öz diplomatik, siyasi fəaliyyətimizi davam etdirəcəyik. Ermənistana qarşı öz əsaslı təbliğatımızı davam etdirəcək, onların işğalçı siyasətinin mahiyyətini ifşa edəcəyik. Mən bir daha bizim nümayəndələrə göstəriş verirəm ki, bütün beynəlxalq təşkilatlarda öz fəallığını davam etdirsinlər. Ermənistan dövlətinin işğalçı mahiyyətini fəaliyyət göstərdikləri təşkilatlarda həmişə vurğulasınlar. Bu işğalçı siyasət Ermənistanın özünü ağır vəziyyətə qoymuşdur. Ölkənin inkişaf perspektivləri qeyri-müəyyəndir. Ölkədə gedən qarşıdurma səngimək bilmir.Bu da təbiidır. Çtinkı işğalçı siyasət, ədalətsiz yanaşma və orta əsrlərə xas olan siyasət heç vaxt uğur gətirə bilməz. Azərbaycan ısə atəşkəs müddəti ərzində böyük yol keçıbdir. Həm demokratik yol, - Azərbaycanda demokratiya sürətlə inkişaf edir, - həm iqtisadi

inkişaf yolu, həm müasirlik yolu, həm də intibah yolu. Budur, bizim yolumuz və ölkə qarşısında bütün yollar açıqdır. Sadəcə, bundan sonra da ölkəmiz üçün lazım olan bütün sahələrdə daha da fəal olmalıyıq, iqtisadiyyatı gücləndirməliyık, Xarici siyasətdə fəal olmalıyıq, sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşması üçün daha da cıddi addımlar atmalıyıq. Beləliklə, Azərbaycan qarşıya qoyduğu bütün məqsədlərə nail olacaqdır, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bizim xeyrimizə həllinə nail olacaqdır.

Bir də demək istəyirəm ki, biz bu gün sosial-iqtısadi inkişafın yekunlarını müzakirə edəcəyik.

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun çıxışı**

- Möhtərəm Cənab Prezident, Cənab Ali Baş Komandan!

Hörmətli iclas iştirakçıları!

Azərbaycanın müasir tarixinin böyük, həm də şərəfli bir dövrü müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu, ölkəmizin müstəqilliyini, xalqımızın tərəqqisini və xoşbəxtliyini özünün başlıca fəaliyyət istiqaməti kimi müəyyənləşdirən, dünya siyasətçiləri arasında nüfuzu və uzaqgörənliyi ilə seçilən, Azərbaycanı dağılmaq təhlükəsindən qoruyan və dünya dövlətləri arasında tanıdan ulu öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Fəxrlə deyə bilərik ki, ümuımmilli liderimizin qurucusu olduğu müstəqil Azərbaycanın dövlətçilik ənənələri və bütövlükdə Heydər Əliyev ideyaları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında yaşayır, uğurla davam etdirilir və möhkəmləndirılır.

Son illər dünyanın üzləşdiyi qlobal iqlim dəyişiklikləri ilə bağlı yaranmış kataklizmlər, geniş-miqyaslı meşə yanğınları və digər təbii fəlakətlər, eyni zamanda, zəngin karbohidrogen ehtiyatlarına malik olan ölkəmizdə bu ehtiyatlardan istifadə edildikcə, neft-qaz hasilatı və emalı obyektlərində, magistral boru kəmərlərində, irimiqyaslı tikinti işlərində və transmilli layihələrin həyata keçirilməsi zamanı texnogen mənşeli qəzaların baş vermə ehtimalını minimuma endirmək, o cümlədən əhalinin, ərazilərin və infrastruklıır obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məsələsi dövlətin prioritet vəzifələrindən birinə çevrılır.

Möhtərəm cənab Prezident!

Məhz elə bu səbəblərdən də ölkədə təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların xəbərdar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını təmin etmək məqsədi ilə 2005-ci ilin dekabrında Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında Zati-aliniz tərəfindən müdrik qərar qəbul edilməsi respublika ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. Nazirliyin fəaliyyətinin təşkil edilməsi və strukturunun formalaşdırılması məqsədi ilə imzaladığınız fərman və sərəncamlar, habelə göstərişinizlə lazımi maliyyə vəsaitinin ayrılması qısa müddət ərzində ciddi struktur islahatları

aparılmasına, tabeliyimizə verilən qurumların maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsinə, işçilərin sosial təminatının yaxşılaşdırılmasına şərait yaratdı.

İcazə verin, nazirliyin yaradılmasından keçən qısa dövr ərzində gördüyümüz işlər barədə məlumat verim.

Bu müddət ərzində nazirliyin normativ hüquqi bazasının təkmilləşdirilməsi üçün onlaca normativ hüquqi akt hazırlanmış, qüvvədə olan qanunvericilik aktlarına əlavələr və dəyişıkliklər edilmiş, dövlət agentlikləri və xidmətlərinin əsasnamələri, nazirliyin və onun müvafiq qurumlarının rəmzləri, eləcə də hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının geyim forması və fərqləndirmə nişanları Zati-alilərinizin tərəfindən təsdiq edilmişdir.

Nazirlik yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı avtomobillərin və digər nəqliyyat vasitələrinin 80 faizə qədərinin mənəvi və fıziki köhnəlməyə məruz qaldığını, habelə qəza-xilasetmə işlərində istifadə olunan xüsusi təyinatlı texnikanın, hündürlük nərdivanlarının, xilasedicilər üçün xüsusi geyimlərin və avadanlıqların ümumiyyətlə olmadığını, eləcə də yeni yaradılan qurumların xüsusi texnika və avadanlıqla təmin edilməsi zərurətini nəzərə alaraq, tapşırığınıza uyğun olaraq, ötən dövr ərzində ayrılan büdcə vəsaiti hesabına qurumların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır. Belə ki, əsasən Almaniya və Fransa istehsalı olan 232 ədəd müxtəlif təyinatlı yanğınsöndürmə avtomobili, 14 ədəd hündürlük nərdivanı, xilasetmə işlərinin aparılmasında istifadə olunan 147 ədəd xüsusi texnika, 30 ədəd VVM markalı motosiklet, 2 ədəd mobil hospital, 2 ədəd təcili tibbi yardım və 10 ədəd sanitar maşını, Hammer markalı 2 ədəd radiosistemli xüsusi təyinatlı avtomobil, 6 ədəd qəza-xilasetmə avtomobili, xilasetmə məntəqələri üçün 40 ədəd səyyar vaqon, dənizdə xilasetmə əməliyyatları üçün 4 ədəd yüksəksürətli və çoxfunksiyalı kater, sularda xilasetmə işlərini həyata keçirmək üçün 52 ədəd müxtəlif ölçülü kater, aviasiya xidmətinin təşkili üçün 4 ədəd "Mi-17-IV" tipli vertolyot, tikintilərin mövcud texniki təhlükəsizlik normaları və qaydalarına uyğun aparılmasına nəzarəti həyata keçirmək üçün səyyar laboratoriyalar, yanğınsöndürənlər üçün 6800 xüsusı geyim dəsti, sularda xilasedicilər üçün 600 geyim dəsti və müxtəlif adda digər xüsusi texniki vasitələr alınaraq istifadə olunur.

Möhtərəm cənab Prezident, nazirliyin yaradılmasının ikinci ildönümünə həsr olunmuş texnika və şəxsi heyətin sıra baxışında bilavasitə iştirakınız nazirliyin fəaliyyətinə yüksək səviyyədə diqqət və qayğınızın təzahürü olmaqla, orada verdiyiniz konkret göstəriş və tövsiyələr kollektivimizin hər bir üzvünün fəaliyyət istiqaməti kimi qəbul edildi. Tapşırıqlarınıza uyğun olaraq, 2008-ci ildə də bu sahədə gördüyümüz işləri davam etdiririk. Belə ki, yanğınsöndürmə və digər xilasetmə funksiyalarını həyata keçirən 1 ədəd BE-200 amfibiya tipli xüsusi təymatlı təyyarənin, yanğınsöndürmə, təcili və qəza-xilasetmə işlərində istifadə olunmaq üçün 12 ədəd qəza-xilasetmə avtomobilinin, 14 ədəd ağır texnikanın, 100-dən çox müxtəlif təyinatlı xüsusi nəqliyyat vasitələrinin alınması üçün müvafıq prosedurlar başa çatdırılmışdır. Əsaslı vəsait qoyuluşu hesabına nazirliyin mərkəzi aparatının yenı inzibati binasının və

digər 12 obyektin tikintisi başa çatdırılmışdır.

Dənizdə qəza-xilasetmə işləri üzrə regionda yeganə ixtisaslaşdırılmış qurum olan Xəzər Hövzə Qəza-Xilasetmə Xidmətinin maddi-texniki bazasının genişləndirilməsi və işinin müasir tələblərə uyğun qurulması üçün Xidmətin istifadəsində olan köhnə gəmilərin təmiri və yeni gəmilərin alınması üzrə danışıqlar aparılır.

Cənab Prezident, son hadisələr, yəni vertolyot və bu yaxınlarda təyyarə qəzasının nəticələrinin aradan qaldırılmasında Xidmətin iştirakı göstərdi ki, onun imkanlarından sularda axtarış-xilasetmə işlərinin həyata keçirilməsində istifadə etməklə yanaşı, neft dağılmalarının nəticələrinin aradan qaldırılmasında və hidrotexniki qurğuların texniki təhlükəsizliyinin təmin edilməsində də geniş istifadə edilə bilər. Lakin bu Xidməti təkcə büdcə vəsaiti hesabına saxlamaq mümkün olmadığından, Zati-alinizin müvatiq fərmanına uyğun olaraq, qurum özünümaliyyələşdirmə prinsipi ilə işləməyə keçirilmişdir. Belə hesab edirik ki, dənizdə karbohidrogen ehtiyatlarının hasilatı və nəqli, habelə hidrotexniki qurğuların istismarı ilə məşğul olan tesərrüfat subyektlərinin bu qurumun xidmətlərindən ödənişli əsaslarla istifadə etməsi məqsədəuyğun olardı.

Radioaktiv çirklənmələrin qiymətləndirilməsi, onu yaradan səbəblərin aşkar edilməsi və radioaktiv tullantıların zərərsizləşdirilməsi istiqamətində konkret işlər görülür. Xarici mütəxəssislər və yüksək vəzifəli qonaqlar tərəfindən də bu sahədə regionda analoqu olmayan qurum kimi qiymətləndirilən "İzotop" Xüsusi Kombinatının radioaktiv mənbələrin saxlanılma məntəqəsinin yenidən qurulması işləri başa çatdırılmış, Avropa Birliyinin və ABŞ Enerji Departamentinin qrantı, elecə də Azərbaycan dövlətinin ayırdığı vəsait hesabına radioloji laboratoriya, radioaktiv tullantıların emalı bloku və yüksək aktivli mənbələrin saxlanılması bloku istifadəyə verılmışdir. Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzində qısa müddət ərzində "112 zəng mərkəzi" ("qaynar xətt") yaradılaraq fəaliyyətə başlamış, Sumqayıt şəhər və Abşeron rayonu ərazilərindəki şəhərdaxili telefonlardan da bu xidmətə zənglərin daxil olması imkam yaradılmışdır. Hazırda bu xidmət Naxçıvan Muxtar Respublikasında da fəaliyyətə başlamış, bu istiqamətdə digər regionlarda da işlər aparılır. Qeyd etmək istərdim ki, müxtəlif xilasedici avadanlıq və motosikletlərlə təmin olunmuş xilasedicilər məişət və avtomobil qəzaları zamanı xilasetmə əməliyyatlarının və zərərçəkmişlərə ilkin yardım göstərilməsini daxil olan zənglər üzrə çağırışlar əsasında təmin edirlər.

Bununla yanaşı, bu sahədə kifayət qədər təcrübəsi olan Rusiya, Fransa, Belarus və Koreya Respublikası kimi dövlətlərin təcrübəsi öyrənilir və qısa zamanda müasir tələblərə cavab verən mərkəzin tikintisinə və yaradılmasına başlanılacaqdır.

Yeri gəlmişkən qeyd edim ki, fövqəladə hallarda aviasiya-xilasetmə işlərini və nazirliyə məxsus hava daşımalarını həyata keçirmək məqsədi ilə yaradılmış aviasiya dəstəsi üçün alınmış vertolyotların və yaxın vaxtlarda ölkəyə gətiriləcək təyyarənin, habelə nazirliyin digər qurumlarının imkanlarından da istifadə etməklə müvafiq avadanlıq, yanğınsöndürmə texnikası, mobil hospital və digər zəruri texniki vasitələrlə təchiz olunmuş 300 nəfər xilasedicinin Xarici ölkələrdə xilasetmə işlərinə cəlb edilməsi təmin edilə bilər.

Cənab Prezident!

Tikintidə təhlükəsizliyə nəzarəti həyata keçirmək məqsədi ilə əsasnaməsi tərəfınizdən təsdiq edilməklə yaradılan Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin fəaliyyəti təmin olunmuş, Sizin "Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" məlum fərmanınızı rəhbər tutaraq, tikinti-layihə sənədlərinin dövlət ekspertizasının həyata keçirilməsi, obyektlərin istismara qəbul edilməsi və tikinti işlərinin dayandırılması ilə bağlı müvafiq qaydaların layihələri hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bakı şəhərində inşa olunan 200-ə yaxın çoxmərtəbəli binada Agentlik tərəfindən texniki müayinə tədbirləri həyata keçirılmış, 14 binada ciddi pozuntular aşkar olunmuş, layihə sənədlərinə ekspertiza rəyi olmayan 82.obyektdə tikinti işləri nöqsanlar aradan qaldırılana kimi dayandırılmışdır.

Yeri gəlmişkən qeyd edim ki, hazırda bu kimi müayinələri aparmaq üçün istifadə olunan ən müasir texniki vasitələr alınaraq, əməkdaşlarımız müvafıq təcrübə keçdikdən sonra tətbiq edilir.

Yüksəkmərtəbəli binalar üzrə aparılan müayinələr nəticəsində tikilməkdə olan 239 binanın layihəsinə ekspert rəyinin olmadığı, 23 binanın layihəsinə mənfi ekspert rəyi verildiyi, habelə Dövlət Qəbul Komissiyası tərəfindən istismara qəbul edilməmiş 108 binanın faktik olaraq istifadəyə verildiyi aşkar edilmişdir.

Tıkilməkdə və istismarda olan bütün çoxmərtəbəli binaların tikinti normaları və qaydalarına uyğunluğu, habelə istifadə edilən tikinti materialları və konstruksiyaların keyfiyyəti yoxlanılmaqla 400-ə yaxın bina üzrə müayinə işləri artıq başa çatmış, 31 binada ciddi pozuntular aşkar olunmuşdur.

Nazirliyin sənayedə və dağ-mədən işlərində təhlükəsizliyə nəzarəti həyata keçirən qurumu tərəfindən təkcə 2007-ci ildə 2500-ə yaxın hüquqi və fiziki şəxsə məxsus 52000-dən çox qurğu və avadanlıq dövlət reyestrində qeydiyyatdan keçirılmış, 3733 müəssisədə 29 mmdən çox qurğu və avadanlıq texniki müayinə olunmuş, 13791 halda texniki təhlükəsizlik qaydaları və normalarının pozulması faktı aşkar edilmiş, görülmüş əməli tədbirlər nəticəsində bu pozuntulardan 10570-ı qısa vaxtda aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi 22 ədəd xüsusi texnika, sularda xilasetmə işlərini həyata keçirmək üçün 2 ədəd kater, 10 ədəd yanğınsöndürmə maşını, şəxsi heyət üçün yeni geyim formaları ilə təmin edilmişdir. Nazirliyin Dövlət Yanğından Mühalizə Hissəsinin və Kəngərli rayon bölməsinin inzibati binalarının tıkintisi davam etdirılır.

Cənab Prezident!

Nazirliyin təsdiq etdiyiniz strukturuna uyğun olaraq, əhalinin və ərazilərin fovqəladə hallardan qorunmasının operativ surətdə təmin edilməsi məqsədi ilə 9 regional mərkəzin fəaliyyətinin təşkili üçün tədbirlər görülür. Nazirliyin 4 regional mərkəzinin inzibati binalarında təmir-tikinti işləri başa çatmaq üzrədir, 4 regional mərkəzinin isə inzibati binalarında tikinti-quraşdırma işləri davam etdirılır.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan "Şahinlər" və

"Cəsurlar" hərbi idman oyunlarının keçirilməsinə böyük əhəmiyyət verir və müvafiq dövlət qurumları ilə birlikdə iştirak edirik.

Ali təhsilli mütəxəssislər hazırlamaq məqsədi ilə 70-ə yaxın əməkdaşımız Rusiya, Ukrayna və Belarusun müvafiq tədris müəssisələrinə təhsil almağa göndərilmişdır.

Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, 2008-ci ildə "Azərbaycan Respublikasının Tikinti Məcəlləsi"nin, "Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə" Azərbaycan Respublikasının Milli Konsepsiyasının, "Əhalinin və ərazilərin fövqəladə hallardan mühafizəsi haqqında", "Fövqəladə hallar orqanlarında qulluq keçmə haqqında", "Qəza-xilasetmə xidmətləri və xilasedicilərin statusu haqqında", "Fövqəladə hallar haqqında" və "Material ehtiyatları haqqında" qanun layihələrinin hazırlanması başa çatdırılacaqdır.

Yeri gəlmişkən qeyd edim ki, dövlət və səfərbərlik ehtıyatlarının idarə olunmasını həyata keçirən Dövlət Material Ehtiyatları Agentliyinin normal fəaliyyət göstərməsi və bununla bağlı məsələlərin həll edilməsı üçün hökumətin dəstəyi ilə müvafiq dövlət komissiyası yaradıldıqdan, saxlanılan mövcud maddi dəyərlərin inventarizasiyası aparılmaqla vaxtı keçmiş və istifadəyə tam yararsız mal və materialların çıxdaş edilməsi, ehtıyatların nomenklaturası və normalarına yenidən baxılması məsələsi həll edildikdən sonra ehtiyatların formalaşdırılması istiqamətində iş aparılacaqdır.

Möhtərəm Cənab Prezident!

İcazə verin, əməkdaşlarımıza ali rütbələrin verilməsində və işçilərimizın maddi vəziyyətinin yaxşılaşdırılrmasında və bütövlükdə kollektivimizə göstərdıyiniz yüksək diqqət və qayğıya görə Zati-alilərinizə bir daha dərin minnətdarlığımızı çatdırım. Böyük əminliklə bildirirəm ki, taleyüklü proqramların həyata keçirilməsi üçün əsas olan sabitliyin və onun dönməzliyinin qorunub saxlanılması, vətəndaşlarımızın əmin-amanlığı, ölkəmizin tərəqqisi və iqtisadi inkışafı, onun regionda lider dövlətə çevrilməsi istiqamətindəki yorulmaz və qətiyyətli siyasətinizin həyata keçirilməsində rəhbərliyiniz altında iştirak edəcək, respublikamızın yeraltı və yerüstü sərvətlərinin, eləcə də əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması üçün bundan sonra da bütün qüvvə və səylərimizi əsirgəməyəcəyik!

Diqqətinizə görə sağ olun!

**Müdafiə sənayesi naziri Yavər Camalovun çıxışı**

- Möhtərəm Cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bildiyiniz kimi, Azərbaycanın hərbi sənaye kompleksinin əsası ulu öndərimiz Heydər Əlıyev tərəfindən ötən əsrin 70-ci illərində qoyulmuşdur. Ulu öndərin xalqın tələbi və təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra 1993-cü ildə Azərbaycanda bütün sahələrdə dirçəliş dövrü başladı və həmin ildə də hərbi sənaye kompleksinin inkişafi məqsədilə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi yaradıldı.

Heydər Əliyevin siyasi kursunun davamçısı olaraq dünyada gedən prosesləri və ölkəmizin müharibə şəraitində olması, eləcə də respublikanın müdafiə qüdrətinin möhkəmləndırilməsi və

kənardan asılılığının azaldılması məqsədi ilə, Cənab Prezident, Sizin tərəfinizdən regionda ilk dəfə olaraq Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Qeyd edim ki, nazirliyin fəaliyyəti ilə əlaqədar xarici dövlətlərin nümayəndələri ilə keçirilən görüşlərdə bu addımı dərindən düşünülmüş və müdrük addım kimi yüksək qiymətləndirirlər. Bu, bizdə qürur hissi doğurur.

Nazirliyin fəaliyyətə başlaması üçün onun Əsasnaməsi, strukturu və işçilərin say həddi tərəfinizdən təsdiq edilmiş və bu sahə ilə bağlı olan bir sıra müəssisələr Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verılmışdir.

Hazırda nazirliyin strukturunda 5 istehsalat birliyi, 3 idarə, elmi tədqiqat institutu və Milli Aerokosmik Agentliyi fəaliyyət göstərir.

Vəziyyəti aydınlaşdırmaq üçün Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyində olan mütəxəssislərin son illərdəki fəaliyyəti təhlil olunmuş və müəyyən edilmişdir kı, müəssisələrin istehsalat sahələrinin balansında olan texnoloji avadanlığın, nəqliyyat vasitələrinin və digər zəruri kommunikasiyaların yarıdan çox hissəsi istismara yararsızdır və mənəvi cəhətdən köhnəlmişdir.

Ümumi istehsal sahələrinin 85 faizi uzun müddət ərzində adı təmir işləri aparılmadığından tam yararsız vəziyyətə düşmüşdür.

Nazirlik yaranana qədər bu sahədə əsas texniki-iqtisadi göstəricilər respublika göstəricilərindən xeyli aşağı səviyyədə olmuşdur.

Respublika üzrə 2005-ci ildə ümumi daxili məhsulun artım tempi 41,8 faiz, işçilərin orta aylıq əməkhaqqı 118 manat olduğu halda, bu göstəricilər komitə üzrə müvafiq olaraq 4,0 faiz və 69,6 manat olmuşdur.

Hörmətli cənab Prezident!

Sizin tapşırıq və tövsiyələriniz əsasında Müdafıə Sənayesi Nazirliyinin strukturu formalaşdırılmış, müəssisələrin fəaliyyətini bərpa etmək üçün proqramlar hazırlanmış, nazirlik üzrə prioritet sahələr müəyyən edilmişdir. Müdafıə Nazirliyinin və digər güc strukturlarının müdafiə təyinatlı məmulatlara, o cümlədən atıcı silah və xüsusi təyinatlı məmulatlara, hərbi texnikanın ehtiyat hissələrinə və təmirinə olan tələbatı öyrənilmiş, keçmiş SSRİ dövründə olan əlaqələrin bərpa edilməsi və dünyanın müxtəlif dövlətləri ilə işgüzar əlaqələrin yaradılması üçün tədbirlər görülmüşdür.

Nazirliyin fəaliyyətində maliyyə sabitliyini bərpa etmək üçün sağlamlaşdırma tədbirləri və qanunvericilik bazasının yaradılması məqsədi ilə normativ-hüquqi sənədlər hazırlanmışdır. Eyni zamanda, nazirliyin müəssisələrinin 2008-2011- ci illər üzrə hazırlanmış bərpa proqramlarında 53 obyektin yenidən qurulması nəzərdə tıtulmuşdur. Bununla bərabər, Dövlət Müdafiə Sifarişi Proqramının icrasını təmin etmək üçün müvafiq Əsasnamə layihəsi hazırlanmış və onun əsasında 10 illik Dövlət proqramı tərtib edilmişdir.

Dövlət Müdafiə Sifarişi Proqramı çərçivəsində müdafiə təyinatlı məmulatın yaradılması və istehsalı üzrə cari və perspektiv proqramlar tərtib edilmişdir.

Cənab Prezident!

Sizin tapşırığınıza əsasən sahədə sağlamlaşdırma tədbirləri çərçivəsində Baş nazir Cənab Artur Rasizadənin yanında aidiyyəti Nazirliklərin rəhbərlən ilə bu proqram müzakirə edilmiş, razılaşdırılmış və fərman layihəsi, eləcə də Dövlət Müdafiə Sifarişi haqqında Əsasnamə təsdiq üçün Sizə təqdim edilmişdir.

Bu sənədlərin təsdiqi nazirliyin qarşısında qoyulmuş vəzifələrin icrası üçün mühüm əhəmiyyət kəsb edir.

Nazirlik fəaliyyətə başladığı dövrdən 212 adda müdafıə təyinatlı məmulatın istehsalı, 32 adda müdafiə təyinatlı məmulatın yaradılması üçün təcrübi-konstruktor işlərinin aparılması, 175 adda isə mülki təyinatlı məmulatın istehsalı həyata keçirılmışdir.

Azərbaycanın tarixində ilk dəfə olaraq 2007-ci ildə respublikanın Nazirliklərinin sifarişi ilə nazirliyin müəssisələrində 29 adda silahın, onların ehtiyat hissələrinin və döyüş sursatlarının seriya ilə istehsalına başlanılmışdır. Nazirliyin yarandığı dövrlə müqayisədə müdafiə təyinatlı məmulatın istehsal həcmi 4 dəfə artmışdır. Ümumilikdə həmin dövr ərzində dünyanın ən qabaqcıl ölkələrindən 7 texnologiya və elmin son nailiyyətlərini özündə əks etdirən proqram təminatlı 62 avadanlıq alınmışdır. Həmin texnologiya və avadanlığın quraşdırılması, istismarı və yeni kadrların öyrədilməsi üçün inkişaf etmiş dövlətlərdən mütəxəssislər dəvət edilmişdir.

Cənab Prezident!

Heç kimə sirr deyil kı, heç bir ölkə yaratdığı texnologiyaları hərbi maraqlarına zidd olduğundan digər dövlətlərə satmır. Bu texnologiyaların alınması şəxsən Sizin nüfuzunuz, həmin dövlətlərin başçıları ilə aranızda olan dostluq münasibətlərinin və Sizə olan dıqqət və hörmət sayəsində baş tutmuşdur. Ona görə də kollektivimiz adından Sizə öz minnətdarlığımı bildirirəm.

2007-ci ildə müdafıə, xüsusi və mülki təyinatlı məmulatın istehsal həcmində 54,8 faiz artım əldə edilmişdir. Məhsulların çeşidi 280-nə çatmışdır. 52,7 min kvadratmetr sahədə tikinti və yenidənqurma işləri aparılmışdır.

Cənab Prezident!

Bu sahənin müəssisələrində iş həcminin və əməkhaqqının səviyyəsinin aşağı olması səbəbindən iş yerlərini tərk etmiş mütəxəssislər Müdafıə Sənayesi Nazirliyi yarandıqdan sonra yenidən geri qayıtmış və bunun nəticəsində işçilərin sayı 381 nəfər artmışdır. Orta aylıq əməkhaqqı isə 188,6 manat olmuşdur,

Sizin 2007-ci il iyinun 22-də Ali Hərbi Məktəbin növbəti buraxılışına həsr edilmiş təntənəli mərasimdə Müdafiə Sənayesi Nazirliyinə verdiyiniz tapşırığınıza əsasən 2007-ci ilin sonunda "İqlim", "Peyk" və Telemexanika zavodlarında yenidənqurma və bərpa işləri başa çatdırılmış və istehsal olunan müdafiə təyinatlı ilk məhsulun nümunələri Sizə təqdim edilmişdir.

2008-ci ilin Dövlət Müdafiə Sifarişi Proqramında 80 adda müdafıə təyinatlı məmulatın yaradılması, 444 adda məmulatın isə istehsalı nəzərdə tutulmuşdur.

Cari ildə müdafıə, xüsusi və mülki təyinatlı məmulatın istehsalı 42 faiz artımla nəzərdə tutulmuşdur. Cari ilin I rübündə məhsul istehsalının həcmi keçən ilin müvafıq dövrü ilə müqayisədə

35,4 faiz artmışdır. Yanvar-mart aylarında istehsal olunmuş məhsulların çeşidi ötən ilin müvafıq dövrü ilə müqayisədə 51 növ artaraq 213-ə çatdırılmışdır.

İşçilərin sayı 533 nəfər artmış və orta aylıq əməkhaqqı isə 204,8 manat təşkil etmişdir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27,1 faiz, nazirlik yaranan dövrdən isə orta hesabla 3 dəfə artım deməkdir.

2008-ci ildə dövlət büdcəsində Müdafiə Sənayesi Nazirliyi üçün 66 milyon 70 min manat vəsait nəzərdə tutulmuşdur. Bu vəsait hesabına 128 adda emal mərkəzi və dəzgahların alınması, habelə müdafıə təyinatlı məmulatın yaradılması planlaşdırılır. Eyni zamanda Proqrama uyğun olaraq müdafıə təyinatlı məmulatın seriya ilə istehsalına başlamaq üçün dünyanın inkişaf etmiş ölkələrindən müasır standartlara cavab verən 18 növ texnologiyanın alınması, onlar üçün istehsal sahəsinin yaradılmasına İnvestisiya Proqramı üzrə 159,0 mln manat vəsait tələb olunur. Müəssisələrdə yaradılacaq yeni istehsal sahələrinin hesabına 610 yeni iş yeri açılacaqdır. Bımunla əlaqədar lazımi sənədlər hazırlanıb müvafiq nazirliklərə təqdim edilmişdir.

Bütün bunlar deməyə əsas verir ki, 2008-ci ilin Proqramında nəzərdə tutulan işlər I rübdə olduğu kimi il ərzində də müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

Cənab Prezident!

Çıxışımın sonunda bildirmək istəyirəm ki, Müdafiə Sənayesi Nazirliyində qısa müddətdə əldə edilən uğurlar Sizin diqqət, qayğı və köməkliyiniz sayəsində olmuşdur.

Müdafıə Sənayesi Nazirliyinin kollektivi Sizin diqqət və qayğınızı daim hiss edir və Sizi əmin edir ki, Azərbaycanın müdafıə qüdrətinin möhkəmləndirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələr uğurla həyata keçiriləcəkdir.

Diqqətinizə görə sağ olun.

## Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun çıxışı

- Zati-aliləri, Cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Cənab Prezident, Sizin ölkəyə rəhbərlik etdiyiniz dövr qlobal miqyasda həddən artıq mürəkkəb, ziddiyyətli və çətin siyası, iqtisadi, mənəvi və ekoloji proseslərin tüğyan etdiyi bir zamanla üst-üstə düşür. Lakin fəaliyyətinizdə nümayiş etdirdiyiniz dəmir iradə, qətiyyət, müasirlik, Sizə xas olan yüksək intellekt, zeka, ulu öndərimizin zəngin və nadir həyat və ıdarəçilik təcrübəsini tam şəkildə davam etdirməyiniz sayəsində dünyada gedən proseslerin fonunda ölkəmiz fenomenal nə-tieələri i\ə seçilir. Bu dövr bir çox istiqamətlərdə rekordlar və ya Azərbaycan tarixində ilk dəfə başlanmış işlər dövrünə çevrılmışdir.

İqtisadi inkişaf sürəti, iş yerlərinin yaradılması, müstəqilliyin möhkəmləndirilməsi, ölkənin özünü təsdiqi, ordu quruculuğu kimi sahələrlə bərabər, ətraf mühitin sağlamlaşdırılması, təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi məsələləri daim Sizin

diqqət mərkəzinizdə olmuşdur.

Məhz bunun sayəsində, digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması sahəsində də əvvəlki illərdə başlanmış işlər 2008-ci ilin birinci rübündə uğurla davam etmiş, yeni layihələrin icrasına başlanmış, konkret işlər görülmüşdür.

Cənab Prezident, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəni təmin etmək, bu sahədə nəzarət sistemini təkmilləşdirmək məqsədi ilə cərimələr Sizin dəstəyiniz, Nazirlər Kabinetinin qərarı ilə 40-60 dəfə artırılmış, Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fonduna daxil olmalar artaraq 2008-ci ilin birinci rübündə 2007-ci ilin müvafiq dövrünə nisbətdə 230 faiz təşkil etmişdir. Ətraf mühitin, bioloji resursların və meşələrin mühafizə olunması sahəsində nəzarətin gücləndirilməsi hesabına hüquq-mühafizə orqanlarına və məhkəmələrə 166 iş göndərılmışdir. Hazırda bu sahədə problem belə işlərin çoxalması nəticəsində baxıldıqdan sonra onların icraatı ilə bağlıdır.

Tərəfinizdən təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası üçün ayırdığınız 18,5 milyon manat vəsaitdən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 700 min manat vəsaitin 100 min manatı hesabına Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ətrafının ekoloji sağlamlaşdırılması məqsədi ilə 21 layihə-smeta sənədi hazırlanmış və ekspertizadan keçirilməsi üçün Nazirlər Kabinetinə təqdim olunmuşdır. Ayrılan vəsaitin 600 min manatı hesabına isə Sumqayıtda toplanılmış 170 min ton civə tullantilarının 19,4 min tonu Təhlükəli Tullantılar Poliqonuna daşınaraq qanuna-müvafıq zərərsizləşdirilmişdir.

Növbəti mərhələ üzrə 2008-ci il üçün ayrılmış 3,5 milyon manat vəsaitin hesabın bu tullantıların zərərsizləşdirilməsi məqsədi ilə tender elan olunmuşdur.

Eyni zamanda, Sumqayıt Alüminium zavodunun ərazisindən 3130 ton tullantı Təhlükəli Tullantılar Poliqonuna daşınaraq zərərsizləşdirılmışdir. Bu tədbirlərin həyata keçirilməsi Sumqayıtın ekoloji durumuna öz müsbət təsirini göstərməkdədir.

Təəssüf hissi ilə qeyd etmək istərdim ki, ölkəmizin iqtisadi, siyasi inkişafındakı uğurları bəzi dairələri rahat buraxmır və arqument olmayanda hər cür vasitələrə əl atılır. Bu baxımdan Amerikada yerləşən Blaeksmitli İnstitutu və İngiltərənin "Mercer Human Resource Consultin" təşkilatları - hansı ki, bunlar ictimai təşkilatlardır və hərəsi 3-4 nümayəndədən ibarətdirlər-bir-biri ilə ziddiyyət təşkil edən qondarma reytinq cədvəlləri düzəldərək yaymağa çalışmaları və bu cəhdlərin ölkəmizlə bağlı ayrı-ayrı vacib hadisələrin ərəfəsində baş vermesi çox simptomatikdır. Biz problemlərimizi gizlətmirik və sağlam tənqidi yüksək qiymətləndiririk. Lakin qeyd etmək istərdik ki, problemlərin həllinə təşviq etməyən, yalan, çaşdırıcı və sifarişli məlumatların yayılması həmin təşkilatların özü üçün rüsvayçılıqdan başqa bir şey deyildir.

Cənab Prezident, sərəncamınızla təsdiq olunmuş "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli Proqramın yerinə yetirilməsi ilə bağlı xeyli iş görülmüşdür. Hazırda 49,4 min hektar ərazidə meşəsalma və meşəbərpa işləri aparılmışdır ki, 2008-ci ilin birinci

rübündə bunun 1150 hektarı yeni meşələrin salınması ilə bağlıdır.

Meşələrin artırılması sahəsində görülmüş işlərlə yanaşı, mövcud meşələrin qırılmasına şərait yaradan təqsirkar şəxslər barəsində lazımi tədbirlər görülür. Təkcə 2008-ci ilin birinci rübündə 300-dən çox iddia qaldırılmışdır.

Həmin dövrdə 27 meşə işçisi vəzifəsindən azad olunmuş və 67 nəfər barədə inzibati tənbeh tədbirləri görülmüşdür. Əfsuslar olsun ki, rayonlarda meşələrin qorunmasına bilavasitə şərait yaradan səbəblərdən biri də meşə işçilərinin müəyyən problemlərlə üzləşməsidir. Bu istiqamətdə cərimələrin artırılması və cavabdeh şəxslərin cəzalandırılaraq işdən azad olunması belə lazımi səmərə vermir. Meşə fonduna aid olmayan torpaqlarda cavabdeh strukturların mövcud olmasına baxmayaraq, bir çox hallarda yaşıllıqların qırılması faktlarına rast gəlinir.

Zati-aliləri, cenab Prezident, ölkəmizin siyasi gücü artdıqca, iqtisadiyyatı inkişaf etdikcə, insanlar daha yaxşı yaşadıqca, vətənimizin daha gözəl, göz oxşayan olması üçün işlərin görülməsi də Sizin diqqət mərkəzinizdədir. Tapşırığınızla Bakı Dağüstü Parkının landşaft dizaynının tərtib edilməsi üçün tenderdə qalib gəlmiş Almaniya və Avstriya şirkətlərinin iştirak etdıyi qrup tərəfindən həmin ərazilərin bir hissəsinin dizayn maketləri hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilmişdir. Hazırda növbəti layihə təklifləri nəzərdən keçirilmək üçün Nazirlər Kabinetinə təqdim olunmuş, həmin ərazilərin yaşıllaşdırma işlərinin planı tərtib edilmişdir.

Cənab Prezident!

"Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" sərəncamınıza əsasən 3,5 milyon manat vəsait ayrılmışdır. Həmin vəsaitə toxunmadan daxili imkanlar hesabına 28 kilometr məsafədə yolun hər iki tərəfində torpaq hamarlama və gübrələnmə işləri aparılmış, 100 min ağac əkilərək onların maşınlarla suvarılması təmin olunmuşdur. Eyni zamanda, tender elan olunmuş və qalib gəlmiş Bolqarıstan şirkəti ilə bağlanmış müqavilə üzrə sifariş olunmuş 22 min 638 ədəd müxtəlif çeşiddə dekorativ ağac və kol bitkilərinin bir hissəsi artıq respublikaya gətirilərək əkilmiş və bu iş yəqin ki, yaxın 10-15 gündə başa çatacaqdır. Həmin işləri nümayiş etdirən materialları icazənizlə Sizə təqdim edirəm.

Sizin tapşırığınızla müasir texnologiya üzrə damcı suvarma sisteminin quraşdırılması məqsədi ilə ayrılmış vəsaitin yerdə qalan 2,7 milyon manatı hesabına görüləcək işlərlə bağlı tenderdə bu sahədə on qabaqcıl texnologiyaya malik İsrail şirkəti qalib gəlmiş və Azərbaycanda ilk dəfə həmin sistemin quraşdırılmasına başlanmışdır.

Bu işlər də sürətlə aparılır və qısa müddətdə başa çatdırılacaqdır. Damcı suvarma sisteminin tətbiq olunması su itkisinə yol verməməklə bərabər, torpaqların şoranlaşmasının da qarşısını alacaqdır. Bu sistemin tətbiqi suvarmaya qat-qat az vəsaitin sərf edilməsi və ağacların bitmə faizinin yüksək olması hesabına qoyulmuş vəsaitin qısa müddətə qaytarılmasını təram edəcəkdir. Görülən işlər nəticələrin uğurlu olacağına əminlik yaradır. Müvafıq sərəncamınıza əsasən çoxillik ağacların onlara ziyan vurulmadan başqa yerlərə köçürülməsində istıfadə olunan xüsusi təyinatlı texnikanın

3 ədədi Almaniyanın MAN şirkəti tərəfindən artıq respublikamıza gətirılmış, qısa müddətdə daha 4-nün gətirilməsi gözlənilir.

Müasir dünyada təbiətə qayğının əsas göstəricisi biomüxtəlifliyin mühafizəsi sayılır.

Cənab Prezident, şəxsən Sizin diqqətiniz sayəsində Azərbaycan bu sahədə beynəlxalq liderlık mövqeyini qoruyub saxlamışdır. Qısa müddətdə respublikamızda 8 milli park, 4 qoruq, 3 yasaqlıq yaradılmış, 5 mövcud qoruğun ərazisi genişləndirılmış, 3 təbiət abidəsi təşkil edilmişdir. Yeni Milli Park və qoruqlarda, o cümlədən bu günlərdə imzaladığınız sərəncamla yaradılmış Göygöl milli parkı və Korçay qoruğunun zəruri infrastrukturunun yaradılması istiqamətində də işlər sürətlə aparılır. Təkcə 2008-ci ilin birinci rübündə xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində həmin ərazilərin ümumi sahəsi 730 min hektardan artıqdır ki, bu da ölkə ərazisinin 8,5 faizini təşkil edır.

Respublikada biomüxtəlifliyin və təbii landşaftların daha da inkişaf etdirilməsi üçün potonsial imkanlar mövcuddur. Belə ərazilərdən biri, İslam dinindən də əvvəl qədim məbəd və pirlərin olması hesabına özünəməxsus qeyri-adi aurası ilə fərqlənən və vaxtilə son dərəcə ecazkar landşafta malik, Azərbaycanın ən yüksək və bənzərsiz gözəlliyi ilə gözoxşayan dağlarla əhatə olunmuş 3 min metr yüksəklikdə yerləşən "Şahyaylaq" dağ vadisi intensiv otarma nəticəsində tam yararsız vəziyyətə düşmüşdür. Vəziyyətdən çıxış yolu kimi torpaq qatının və bitki örtüyünün bərpasını təmin etmək və beynəlxalq əhəmiyyətli müasir initastraktura malik ekoturizm mərkəzi təşkil olunmaqla həmin ərazilərdə dağ landşaft qoruğunun yaradılması məqsədəmüvafiq olardı."

Cənab Prezident, Sizin səyləriniz sayəsində ölkənin sürətli iqtisadi inkişafi mineral xammal bazasına olan tələbatı daha da artırmışdır. Nazirlik yarandığı dövrdən ötən müddət ərzində həyata keçirılmış tədbirlər nəticəsində Çovdar, Kürəkçay və digər ərazilərdə aşkarlanmış və bir çoxlarının mövcudluğuna və zənginliyinə şübhə ilə yanaşdığı yataqların işlələnilməsi ilə bağlı artıq aparıcı beynəlxalq konsorsiumlarla müqavilələr bağlanaraq praktiki işlərə başlanmışdır. Bunun sayəsində yeni istehsal müəssisələri yaradılır, əsasən gənclər yeni iş yerləri ilə təmin edilirlər. Son dövrdə isə Xanlar, Daşkəsən, Qəbələ, Oğuz, Quba və Qusar rayonlarının ərazilərində əlvan və nadir metallarla zəngin yeni zonalar aşkarlanmışdır. Hazırda geoloji kəşfiyyat işlərində istifadə olunan texnika və avadanlıq nisbətən köhnəlmişdir. Bu sahənin maddi texniki bazasının yeniləşdirilməsinin vaxtı çatmışdır. Əgər bu işlərə indi başlamasaq, sonra bunu yenidən sıfırdan başlamaq ehtıyacı yarana bilər.

Hörmətli Cənab Prezident, icazə verin, Sizi əmin edim ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin on minlik kollektivi Sizin əzm və iradə ilə həyata keçirtdiyiniz müasir dövlət quruculuğu istiqamətində fəaliyyətinizə bundan sonra da tam dəstək olacaqdır və bu istiqamətdə Sizin bütün tapşırıqlarınızı layiqincə yerinə yetirəcəkdir.

Diqqətinizə görə çox sağ olun.

## Prezident İlham Əliyevin yekun nitqi

- Beləliklə, birinci rübün yekunları deməyə əsas verir ki, bütövlükdə 2008-ci il Azərbaycan iqtisadiyyatı üçün uğurlu il olacaqdır. Əlbəttə, bizi düşündürən əsas məsələlərdən biri, - artıq bu gün bu barədə qeyd olundu, - inflyasiyanın artmasıdır. Onun təbii səbəbləri vardır, bunu hamı bilir. Dünyada gedən bahalaşma, əsasən, neftin qiymətinin artması ilə əlaqələndirılır, eyni zamanda, dolların məzənnəsinin aşağı düşməsi də buna öz təsirini göstərir.

Azərbaycana gəldikdə isə, bununla bərabər, bizım çox sürətli iqtısadi inkişafımız, artan maliyyə imkanlarımız, dövlət xərclərimiz, şübhəsiz ki, qiymətlərin bahalaşmasına öz təsirini göstərir. Makroiqtısadi vəziyyət hər bir iqtisadiyyat üçün, hər bir ölkə üçün başlıca əhəmiyyət daşıyır. Biz çalışmalıyıq ki, makroiqtisadi vəziyyət sabit olaraq qalsın, inflyasiyanın çərçivələri imkan versin ki, ölkə sürətlə inkişaf etsin və əhalinin sosial rifahına təsiri olmasın. Bunun müxtəlif yolları var. İlk növbədə, bu, sosial məsələlərin və sosial proqramların davam etdirilməsidir.

Mən qeyd etmişəm və bir daha demək istəyirəm ki, bu il yenə də minimum əməkhaqqı və minimum pensiyanın məbləği artırılacaqdır. Ünvanlı sosial yardım proqramı davam etdiriləcəkdir. Bununla bərabər bahalaşmanı şərtləndirən subyektiv amillər də aradan qaldırılmalıdır. Biz bu barədə dəfələrlə danışmışıq. Süni bahalaşmaya təkan verən qeyri-sağlam rəqabət elementləri tamamilə aradan qaldırılmalıdır. Amma biz onu da görürük ki, həm idxal edilən mallar bahalaşıb, həm də Azərbaycanın daxilində istehsal olunan mallar, xüsusilə ərzaq məhsulları bahalaşıbdır. Burada çox ciddi işlər aparılmalıdır və əminəm ki, kompleks, eyni zamanda, inzibati tədbirlər nəticəsində biz bu sahədə tənzimləmə mexanizmlərini tam şəkildə tətbiq edə biləcəyik.

Eyni zamanda, bütün dünya üçün xas olan inflyasiya bizi öz layihələrimizdən çəkindirməməlidir. Biz dövlət xərclərimizi artıracağıq, ölkə iqtisadiyyatı üçün lazım olan bütün infrastruktur layihələrini davam etdirəcəyik. İnfrastruktur layihələrinin icra olunması özəl sektorun inkişafına öz müsbət töhfəsini verəcəkdir.

Bildiyiniz kimi, dövlət investisiya xərcləri son illər ərzində bir neçə dəfə artmışdır. Bu yaxınlarda büdcəye olunacaq əlavələr nəticəsində, mən hesab edirəm ki, dövlət investisiya xərcləri daha da artmalıdır. Bizim neft satışından əldə etdiyimiz gəlirlər artır. Əlbəttə, bu gəlirlər çox şəffaf şəkildə Neft Fondunda cəmləşir. Bu, həm bizim maliyyə sabitliyimiz üçün lazımdır, həm də bu vəsaiti gələcək nəsillərə əmanət kimi saxlamalıyıq. Ancaq bununla bərabər, ölkə qarşısında duran təcili, təxirə salınmaz tədbirlərin görülməsi üçün, əlbəttə ki, bu imkanlardan istifadə etməliyik.

Hesab edirəm ki, əsas istiqamətlər sosial sahəyə aid olmalıdır. Biz, ilk növbədə, sosial müdafiəni gücləndirməliyik və büdcəyə ediləcək əlavələr ən əvvəl sosial məsələlərin həllinə yönəldilməlidir. Digər tərəfdən, infrastruktur layihələrinin icrası üçün əlavə vəsaitlər ayrılmalıdır. Bu yaxınlarda təqdim olunan müxtəlif layihələr, infrastrukturla bağlı olan layihələr bunu tələb edir. Biz bunu etməyə də, gələn ilə saxlaya da bilərik. Amma biz, sadəcə olaraq, vaxt itirəcəyik. Mən hesab edirəm ki, indi dürüstləşmə aparmaqla, büdcəyə əlavə vəsait daxil olmaqla biz vacib olan infrasturuklur layihələrini daha da qısa müddət ərzində icra edə bilərik.

Biz qısa müddət ərzində Azerbaycanda infrastruktur sahəsində çox böyük işlər görmüşük:

çəkilən yollar, tikilən elektrik stansiyaları. Elektrik enerjisi sahəsində əvvəllər yaşanan böhranları demək olar ki, tamamilə aradan qaldırmışıq. Baxmayaraq ki, bu qış çox sərt keçibdir və bütün bölgə ölkələrində bu sərt hava şəraiti energetika sahəsinə mənfi təsir göstərmişdir. Biz bilirik ki, bəzi hallarda ölkələr başqa ölkələr qarşısında öz müqavilə öhdəliklərini icra edə bilməmişlər. Bizdən daha çox həcmdə qaz hasil və ixrac edən ölkələr qaz ixracatını dayandırmışdır. Çünki daxili tələbat artmışdır. Ancaq biz nəinki bunu etməmişik, eyni zamanda, daxili tələbatımızı da ödəmişik. Eyni zamanda, Xarici öhdəliklərimizi də icra etmişik. Bu, nəyin hesabına mümkün olubdur? Onun hesabına ki, biz qısa müddət ərzində infrastruktur layihələrinə çox böyük vəsait qoymuşuq.

Azərbaycanda bir neçə elektrik stansiyası tikilmişdir. Yardımçı stansiyalar tikilib, elektrik xətləri çəkilib, transfomatorlar quraşdırılıb və demək olar ki, energetika sahəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıbdır. Növbəti layihələr icra olunandan sonra Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevriləcəkdir. Biz artıq bunu görürük.

Yeraltı qaz anbarının genişlənməsi bizə əlavə imkanlar yaratdı. İndi Azərbaycanda qaz hasilatı artır. Hələ ki, biz öz ixrac imkanlarımızı tam şəkildə işə salmamışıq. Bunun müxtəlif səbəbləri var, onlar bizdən asılı deyil. İstehlakçı ölkələr öz təkliflərini daha da aydın şəkildə verməli, öz istədiklərini ifadə etməlidirlər. Amma biz gərək əlavə qazdan istifadə edək. İlk növbədə, qazlaşdırma prosesi gedir və gedəcəkdir. Digər tərəfdən, qaz anbarının genişlənməsi imkan verir ki, orada daha da çox qaz saxlansın.

Bu məsələlər bir-biri ilə bağlıdır. Bir də demək istəyirəm ki, biz vaxt itirməməliyik. Ona görə 2008-ci ilin büdcəsinə əlavələr sosial məsələlərin həlli ilə bərabər, infrastruktur layihələrinə də yönəldilməlidir. Yəqin ki, ən böyük hissə məhz o sahəyə yönəldiləcəkdir.

Bununla bərabər, mən hesab edirəm ki, biz müdafiə potensialımızı daha da gücləndirməliyik. Düzdür, bu sahədə son illər ərzində böyük uğurlara nail ola bilmişik. Son dörd-beş il ərzində bizim hərbi və müdafiə xərclərimiz 150 milyon dollardan 1 milyard 300 milyon dollara qalxmışdır. Əlbəttə ki, bu, ümumi büdcə artımının təzahürüdür.

Bəzi hallarda vəziyyətlə yaxından tanış olmayan, yaxud da qərəzli mövqedə dayanan beynəlxalq qurumlar buna görə bizi tənqid etməyə çalışırlar ki, Azərbaycanda silahlanma prosesi gedir və hərbi xərclər artır. Onlar bilməlidirlər ki, Azərbaycanın dövlət büdcəsi son dörd il ərzində 10 dəfə artıbdır. Əlavə artımlar nəticəsində daha da çox artacaqdır və hərbi xərclərin çoxalması ümumi kontekstdən çıxarılmamalıdır. Nəzərə alaq ki, biz müharibə şəraitindəyik. Ona görə, baxmayaraq, 1 milyard 300 milyon dollar çox böyük məbləğdir, mən hesab edirəm və əminəm ki, biz bunu daha da artırmalıyıq. İndi hesablamalar gedir. Hesab edirəm ki, bu ilki müdafiə xərcləri 2 milyard dollara yaxın olmalıdır. Biz bu sahəyə diqqətimizi bundan sonra da yönəldəcəyik və Azərbaycanın artıq çox güclü müdafıə potensialı var. Bu, bölgədə ən böyük potensialdır və biz bunu artırmalıyıq. Beləliklə, əsasən, üç istiqamət üzrə artımlar edilməlidir. İnfrastruktur deyəndə, burada, əlbəttə ki, müxtəlif sahələr nəzərdə tutulur - nəqliyyat, energetika, neft-qaz sahəsi, turizm sahəsi, ekologiya layihələri. Yəni müxtəlif infrastruktur layihələri.

Bu gün fövqəladə hallar və müdafiə sənayesi nazirləri gördükləri işləf haqqında məlumat verdilər. Bu iki nazirlik iki il əvvəl yaradildı və iki il ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, bizdə artıq müdafiə sənayesi yaranıbdır. Biz bu sahəyə əlavə vəsaitin ayrılması ilə çox güclü müdafiə sənayesi yaradacağıq və o, Azərbaycan ordusunun güclənməsinə öz təkanını verir. Çünki burada qeyd olundu ki, bəzi hallarda hərbi sahədə yeni texnologiyaların əldə olunması problemlərlə üzləşir. Biz elə etməliyik ki, ən qabaqcıl texnologiyaları Azərbaycana gətirək və müdafiə məqsədləri üçün lazım olan texnikanı, sursatları və bütün avadanlığı özümüz istehsal etməliyik.

Eyni zamanda, Fövqəladə Hallar Nazirliyinin yaranması və iki il ərzində fəaliyyəti artıq bu sahədə də çox güclü maddi-texniki potensialın yaranmasına gətirib çıxarıbdır. Bu sahə artıq maddi-texniki cəhətdən təmin olunur, əlavə vəsait ayrılır və yeni texnika, yeni avadanlıq alınacaqdır.

Bütövlükdə infrastrukturun və maddi-texniki bazanın möhkəmlənməsi sahəsində son illər ərzində çox böyük işlərimiz olubdur. Bunlar davam etdirilməlidir və əminəm ki, ölkəmizin hərtərəfli inkişafında bunun çox böyük rolu olacaqdır.

Bu gün biz enerji təhlükəsizliyi haqqında danışmışıq və deyə bilərəm ki, Azərbaycan bu sahədə başqa ölkələrdən böyük dərəcədə fərqlənir. Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin etmişik və başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edirik. Bizim enerji layihələrimiz, neft-qaz layihələrimiz yalnız əməkdaşlığın, regional inkişafın dərinləşməsinə yönəldilibdir. Biz neft-qaz amilindən başqa məqsədlər üçün istifadə etmirik. Bundan siyasi dividendlər almaq üçün istifadə etmirik. Həm Avropa ölkələri ilə, həm qonşu ölkələrlə bu sahədə əməkdaşlığımız çox səmimidir, qarşılıqlı maraqlar əsasında qurulubdur. Eyni zamanda, lazım gələndə, Azərbaycan öz kömək əlini uzadır və bu, düzgün siyasətdir. Bir daha demək istəyirəm ki, biz enerji imkanlarımızdan dostluğun, əməkdaşlığın möhkəmlənməsi üçün istifadə edirik. Əlbəttə ki, öz iqtisadi maraqlarımız birinci yerdədir və bu maraqları da lazımi səviyyədə müdafiə edirik və qoruyuruq.

Bununla bərabər, biz bu gün bu barədə danışmadıq, amma bütövlükdə bu, diqqət mərkəzindədir. Xüsusilə indiki şəraitdə, biz ərzaq təhlükəsizliyi məsələlərinə də böyük diqqət göstərməliyik.

Bu məsələ dünyada çox ciddiləşir. Biz bunu görürük, bilirik və bütün hazırlıq işlərimizi görməliyik. Dünyada ərzaq məhsullarının qiyməti kəskin şəkildə artır. Bəzi yerlərdə - Afrikada, Asiyada bu, artıq çox ciddi xarakter alır və aclıq təhlükəsi yaranır. Azərbaycan, bu, həmişə belə olub, - Sovet İttifaqı zamanında vahid xalq təsərrüfatı kompleksinin olduğu vaxtda da özünü qida məhsulları ilə təmin etmirdi və bunlar kənardan gətirilirdi. Bu gün də deyə bilmərəm ki, biz tam şəkildə özümüzü təmin edirik. Bunun tarixi səbəbləri var və obyektiv səbəblər də mövcuddur. Amma çalışmalıyıq ki, bizim üçün strateji olan ərzaq məhsullarını maksimum dərəcədə Azərbaycanda yetişdirək. Bildiyiniz kimi, bu məqsədlə əməli-praktik işlər görülür. Fermerlərə əlavə vəsait ayrılır və bu vəsaitin hesabına əkin sahələri böyük dərəcədə genişləndirilmişdir, taxıl istehsalı artır. Ancaq hələ ki, bizi tam şəkildə qane edə bilmir. Bu barədə biz dəfələrlə müzakirə aparmışıq və hökumət praktik addımların atılması üçün indi əməli işlər görür. Əminəm, -indi nəzərdə tutduğumuz bütün proqramlar imkan verəcək ki, biz ərzaq təhlükəsizliyi baxımından da özümüzü tam şəkildə sığortalayaq.

Yenə də qeyri-neft sektorunun inkişafına, sahibkarlığın inkişafına qayıdıram. Biz indi görürük ki, Azərbaycanda müxtəlif rayonlarda emal müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələr, hazır məhsul istehsal edən müəssisələr yaradılır. Düzdür, bu, hələ bizim bazarı tam təmin edə bilmir. Baxmayaraq ki, bəzi və bir sıra yeni yaradılmış müəssisələr öz məhsullarını artıq ixrac edirlər. Amma biz əgər o proqrama başlamasaydıq, əgər dörd il bundan əvvəl regional inkişaf proqramına başlamasaydıq, əminəm ki, bunların heç biri mümkün olmazdı. Biz proqramın icrası ilə, kreditlərin verilməsi ilə, sahibkarlara dövlət dəstəyi ilə bu sahədə böyük canlanma yarada bilmişik. Amma bütün bu tədbirlərə baxmayaraq, hələ ki, bu, bizi qane edə bilməz. Baxmayaraq ki, hər il biz 100 milyon dollar həcmində güzəştli kreditlər veririk. Yeddi faizlə kreditlər veririk, indi yeddi faizlə kredit götürmək heç bir yerdə mümkün deyildir. Veririk ki, yeni istehsallar yaransın. Ancaq hələ ki, bunu təmin edə bilməmişik. Ona görə növbəti illərdə ərzaq təhlükəsizliyi bizim üçün prioritet əhəmiyyət daşıyır. Biz vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında əsaslı islahatlar aparmışıq. Demək olar ki, ən cəsarətli və radikal islahatlar aparmışıq və əslində, kənd təsərrüfatı istehsalı tam şəkildə özəl sektorun sahəsində formalaşıbdır. Bu sahədə həm istehsalda, həm də satışda bütün mexanizmlər bazar iqtisadiyyatı əsasında qurulubdur. Azərbaycanın istehlak bazarı bütövlükdə bazar iqtisadiyyatı prinsipləri ilə işləyir və artıq nə dövlət, nə hökumət bu işlərə müdaxilə etmir. Sadəcə olaraq, dəstək vermək üçün əməli-praktik işlər görür. Amma biz görürük bu, indiki şəraitdə kifayət deyildir. Bazar iqtisadiyyatı prinsipləri ölkələri ərzaq çatışmazlığından qoruya bilmir. Ona görə biz əlavə tədbirlər görməliyik ki, özümüzü qoruyaq, daxildə kənd təsərrüfatı istehsalını artıraq, tam şəkildə əsas ərzaq məhsulları ilə təmin edək. Hələ ki, biz bunu görmürük. Baxmayaraq ki, həm "Aqrolizinq" Səhmdar Cəmiyyəti yaradılıb və böyük həcmdə texnika gətirılır, kreditlər verılır, islahatlar aparılır, Ancaq kənd təsərrüfatı istehsalı sahəsində artım bizi qane edə bilməz. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Əgər lazım olarsa, əlavə güzəştlər verilməlidir, əlavə vəsait ayrılmalıdır. Həm yanacaq almaq üçün, həm də gübrə ilə təmin etmək üçün. Biz bu barədə danışmışıq - Azərbaycanda gübrə istehsalı zavodları tikilməlidir. Əgər özəl sektor bunu edə bilmirsə və etmək istəmirsə, bəlkə, dövlət tərəfindən hansısa tədbirlər görülməlidir.

Bizim indi maddi imkanlarımız var ki, bu sahəyə diqqət daha da güclü olmalıdır. Dotasiyalar verilməlidir. İndi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatına dotasiya verılır. Biz də bunu edirik - yanacaq almaq üçün ayrılan vəsait, ucuz enerji daşıyıcıları. Azərbaycanda satilan qaz dünya qiymətindən 8-10 dəfə ucuzdur. Dizel yanacağı, benzin böyük dərəcədə ucuzdur. Elektrik enerjisinin qiymeti dünya qiymətindən bir neçə dəfe ucuzdur. Bütün bunlar dotasiyalardır. Bütün bunların qiymətlərini biz ona görə aşağı səviyyədə saxlayırıq ki, həm ölkə əhalisi, həm də sənaye və kənd təsərrüfatı bundan bəhrələnsin. Biz 17 ildir ki, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Amma bazaar iqtisadiyyatının bütün prinsiplərini Azərbaycanda tətbiq etməmişik və düz də etmişik. Onları biz etsək,Azərbaycanda çox ciddi və xoşagəlməz proseslər başlaya bilərdi. Ümumiyyətlə, bunun ölkə

iqtisadiyyatına, sənayenin inkişafına çox mənfi təsiri ola bilər. Ona görə biz ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün güzəştlər edirik. Xüsusilə enerji daşıyıcılarının qiymətini tənzimləyirik və bundan sonra da tənzimləyəcəyik. Bir sözlə, ərzaq təhlükəsizliyi məsələlərinə diqqət daha da böyük olmalıdır və konkret tədbirlər planı hazırlanmalıdır.

Yenə qayıdıram enerji sahəsinə, mən giriş çıxışınıda qeyd etdim ki, biz bu sahədə də müxtəlif proqramlar hazırlayıb icra etməliyik. Bu barədə artıq danışılıbdır. Azərbaycanda böyük neft kimyası kompleksinin tikintisinə ehtiyac var. Eyni zamanda, neft-qaz sahəsində yeni layihələrin həyata keçirilməsinə böyük ehtiyac var. Biz bu sahəni tam şəkildə yeniləşdirməli, müasirləşdirməliyik ki, bundan sonra uzun illər, onilliklər ərzində Azərbaycanın iqtisadiyyatına dəstək olsun.

Qazlaşdırma prosesi daha da sürətlə getməlidir. Biz, demək olar, ölkədə 80 faiz qazlaşdırmanı təmin edə bilmişik. Amma bunu artırmalı, 90 faizə qaldırmalıyıq. Maksimum dərəcədə qazlaşdırma prosesi getməlidir. Çünki bu, həm sosial məsələdir, Həm də iqtisadi məsələdir. Bu yaxınlarda Beyləqan rayonuna təbii qazın verilməsi bərpa olunacaqdır. Uzun illər Beyləqan rayonu qazdan məhrum idi. İndi biz əvvəllər qazlaşdırılmayan bütün rayonlara qaz xətləri çəkirik və demək olar ki, son rayonlardan biri də Beyləqandır. Ondan sonra Füzuli rayonuna və Ağdam rayonuna qaz çəkilişi təmin olunmalıdır.

Qeyri-neft sektorunun inkişafı üçün birinci rübdə çox mühüm hadisələr olmuşdur. İki böyük sənaye müəssisəsinin - Gəncədə alüminium və polad komplekslerinin təməli qoyulubdur. Bir milyard dollar həcmində investisiya qoyulacaq və özəl sektor tərəfindən icra olunacaq bu layihələrin başa çatması ilə Azərbaycanda yeni sənaye sahələri yaradilacaqdır. Biz bütövlükdə iqtisadiyyatın sənayeləşməsinə ciddi fikir veririk. Bu sahədə həm özəl sektor tərəfindən, həm dövlət dəstəyi ilə - Dövlət İnvestisiya Şirkəti tərəfindən nəzərdə tutulan layihələr öz müsbət rolunu oynayacaqdır. Qeyri-neft sektorunun inkişafı üçün gələcəkdə nə lazımdırsa, biz onu edəcəyik. Güzəştli kreditlər davam etdiriləcəkdir. Bu vaxta qədər verilən güzəştli kreditlər artıq bir neçə ildən sonra qaytarılmağa başlayacaq və bunun nəticəsində bizdə, təxminən 300-500 milyon dollar həcmində daimi vəsait olacaqdır. Biz bir neçə ildir ki, güzəştli kreditləri veririk, amma onları hələ ki, geri götürmürük. Çünki onlar 5, yaxud da ki, 7 il müddətinə verilir və bu kreditlərin verilməsi maliyyə məqsədləri daşımır. Biz bunu ona görə vermirik ki, dövlət pul qazansın. Ona görə veririk ki, iş görülsün. Ancaq bir neçə ildən sonta, - indi bunu yəqin ki, hesablayacaqlar, - bu kreditlər tam şəkildə qayıdandan sonra hər il dövlət büdcəsindən əlavə vəsaitin ayrılmasına ehtiyac qalmayacaqdır. Bu böyük məbləğ, 300-500 milyon dollar hər il yeni sənaye sahələrinin yaradılmasına, biznes şəraitinin yaxşilaşmasına kömək göstərəcəkdir.

Bununla bərabər, iqtisadiyyatda və əlbəttə ki, qeyri-neft sektorunda liberallaşma siyasəti davam etdirilməlidir. Biz bizneslə məşğul olmaq üçün şəraiti yaxşılaşdırmalıyıq. Bunu edirik, bu barədə deyilibdir. Həm "bir pəncərə" sistemi tətbiq olunub, həm başqa tədbirlər görülür ki, Azərbaycanda bu sahədə işlər yaxşı getsin. Bəzi hallarda belə fikir var ki, böyük neft-qaz yataqlarımız var, artıq

bütün kəmərlər də işə düşüb və biz böyük valyuta axını gözləyirik, ölkəmizə milyardlarla dollar vəsait daxil olacaq və biz rahat yaşaya bilərik. Mən bu fikirləri bölüşmürəm. Əminəm ki, ölkənin uğurlu inkişafı iqtisadiyyatın şaxələndirilməsi ilə bağlıdır. Ölkəmızdə liberal iqtisadiyyatın bütün prinsiplərinin möhkəmlənməsi ilə bağlıdır, siyasi islahatlarla, demokratikləşmə prosesləri ilə bağlıdır. Çünki bunlar olmasa, bizim uğurlarımız yarımçıq olar. Əgər ciddi ictimai nəzarət olmasa, əgər Azərbaycanda ciddi siyasi demokratik təsisatlar yaranmasa bizim uğurlarımız yarımçıq ola bilər və uzunmüddətli olmayacaqdır. Ona görə biz ölkəmizi hərtərəfli inkişaf etdiririk, müasirləşdiririk. Kiminsə xoşuna gəlmək üçün yox, özümüz üçün. Biz öz dövlətçiliyimizi özümüz yaradırıq. Özümüz müstəqil Azərbaycanımızı gücləndiririk və bu sahədə görülən işlərə və xüsusilə başqa. Bizimlə eyni vəziyyətdə olan, 1991-ci ildə müstəqillik qazanmış ölkələrin təcrübəsinə baxaraq, müqayisə edərək görürük ki, biz düz yoldayıq. Azərbaycanda sabitlik var, inkişaf var, sosial məsələlər öz həllini tapır, ölkə dünya miqyasında çox müsbət imicə malikdir. Bizim bütün sahələrdəki layihələrimiz icra olunur və elə etməliyik ki, bu müsbət meyillər güclənsin və davam etdirilsin.

Növbəti aylarda dövlət investisiya xərcləri nəticəsində bir neçə sahədə çox böyük işlər görüləcəkdir. Yollar tikilir, bütün istiqamətlərdə bu proses çox sürətlə gedir və daha da sürətlə getməlidir. Su xətləri, qaz şəbəkələri, meliorasiya, ekologiya ilə bağlı məsələlər öz həllini tapmalıdır. Bu gün ekologiya və təbii sərvətlər naziri bu sahədə görülən işlər haqqında danışdı. Əlbəttə, böyük problemlər var. Xüsusilə Bakıda, Abşeron yarımadasında biz çox böyük işlər görməliyik - həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də bu çirklənmənin əsas səbəbkarı neft sənayesi tərəfindən. Yəni biz bu vəziyyətdən çıxmalıyıq. Çünki Sovet İttifaqı zamanında, ümumiyyətlə, ekoloji məsələlərə diqqət göstərilmirdi. Ancaq plan var idi, tələbat var idi - nəyin bahasına olursa-olsun, neft-qaz hasil edilməliydi. Ekoloji vəziyyətə isə fikir verilmirdi. Bu, həqiqətdir. Müstəqilliyimizin ilk illərində pulumuz yox idi ki, bu məsələlərə vəsait qoyaq. Xarici təşkilatlar da bu məsələdə çox passiv idilər və beynəlxalq maliyyə qurumlarına dəfələrlə etdiyimiz müraciətlər cavabsız qalmışdı. O vaxt xarici firmalar, yaxud da qurumlar vəsaiti ya gəlir gətirən sahələrə qoyurdular, ya da ki, onu banklardan götürürdülər. Neft-qaz - bu idi onları maraqlandıran. Bu da təbiidir. Ekoloji vəziyyət isə bizim dərdimizdir, bizim problemimizdir. Amma indi ki, maliyyə imkanlarımız var, ilk növbədə, bu sahəyə böyük investisiyalar qoymalıyıq. Bilirsiniz ki, bir müddət bundan əvvəl xüsusi proqram qəbul edilmişdir. Mən hesab edirəm ki, qısa müddət ərzində Abşeron yarımadasında ekoloji vəziyyət sağlamlaşdırılmalıdır. Hüseynqulu Bağırov dedi ki, bəzi reytinq təşkilatları Azərbaycanı, Bakını bu məsələdə ədalətsiz tənqid etməyə çalışırlar, Bu, həqiqətdir, bununla biz başqa sahələrdə də üzləşirik. Reytinq təşkilatları sifarişlərlə işləyirlər. Onlar kimi tərifləmək, kimi tənqid etmək barədə bir, yaxud da ki, bir neçə mərkəzdən sifariş alırlar. Onlar da verilən sifarişlər əsasında da fəaliyyət göstərirlər. Ona görə təəccüblü deyil ki, Azərbaycan bir çox hallarda bu cür "beynəlxalq reytinq tərtib edən" təşkilatlar tərəfindən tənqid olunur. Bu, təzyiq mexanizmidir, bizə təzyiq etmək cəhdləridir.

Halbuki, artıq hamı başa düşməlidir ki, bu dövr keçibdir. Bizə təzyiq etmək mümkün deyil.

İradəmizdən kənarda bizi hansısa məsələyə məcbur etmək, bizi nəyəsə sövq etmək mümkün deyil. Biz müstəqil dövlətik, güclü dövlətik. Azərbaycan dövləti xalqın iradəsinə əsaslanır. Xalqın iradəsi ilə fəaliyyət göstərir və heç kim bizi heç nəyə məcbur edə bilməz. Artıq görürəm ki, bir çoxları bunu başa düşüblər. O qüvvələr ki, başa düşməyiblər, ümid edirəm, onlar da başa düşəcəklər.

Ancaq ekoloji məsələlərlə bağlı biz, əlbəttə ki, böyük proqramlar icra etməliyik. Dövlət Neft Şirkətinə də göstəriş verilib və onlar indi işə başlayıblar və proqram hazırlayırlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və bütün aidiyyəti strukturlara da göstəriş verirəm ki, ekoloji məsələlərə çox böyük diqqətlə yanaşsınlar. Biz indi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə içməli su probleminin həlli ilə də məşğuluq. Bu görülən işlər, təmizləyici qurğuların quraşdırılması nəticəsində təxminən yarım milyon insan keyfiyyətli su ilə təmin olunacaqdır. Bu insanlar kanaldan, arxdan su içirlər, keyfiyyətsiz su içirlər. Ekologiya həm ölkə üçün, həm də insanların sağlamlığı üçün lazımdır.

Mən bir də demək istəyirəm ki, bu məsələyə çox böyük diqqət göstərirəm. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi ilə bərabər, bu, bizim üçün prioritet sahədir və buna diqqət artmalıdır. Ümumiyyətlə, bütün sahələr prioritetdir. Məgər təhsil prioritet deyil, səhiyyə prioritet deyil, müdafiə potensialı prioritet deyil, kənd təsərrüfatı prioritet deyil? Bütün sahələr prioritetdir. Çox sevindirici haldır ki, bütün sahələr üzrə bizim proqramlarımız, icra mexanizmlərimiz, maliyyə resurslarımız var və biz fəaliyyətimizi sistemli şəkildə aparırıq. Azərbaycanın qısamüddətli, uzunmüddətli inkişaf perspektivləri və layihələri əsasında. Qısamüddətli proqramlar da uzunmüddətli proqramların tərkib hissəsidir.

Biz gələn ildən regional inkişaf proqramının ikinci mərhələsinə başlayacağıq. Bu, strateji bir layihədir. Ölkə qarşısında duran bütün problemlərin aradan qaldırılması üçün vasitədir. Sosial məsələlər, iqtisadi islahatlar, siyasi islahatlar və bütün başqa sahələrdə görülən işlər bizi ruhlandırır. Əlbəttə ki, problemlər də var. Mən o fikirdən uzağam ki, bütün qəbul edilmiş proqramlar lazımi səviyyədə icra olunur. Yox, belə deyil. Qüsurlar da var, çatışmayan cəhətlər, yubanmalar da var, bəzi hallarda işlər keyfiyyətsiz görülür və bir müddətdən sonra biz o işləri yenidən görməliyik. Bu var və bu da təbiidir. Biz böyük quruculuq işləri ilə məşğuluq. Ölkəmizi faktik olaraq yenidən yaradırıq. Bu vaxta qədər, sovet dövründə onilliklər ərzində yaradılmış infrastrukturu yeniləşdirink, əvəzləyirik, yenisini yaradırıq. Görürük ki, o dövrdən qalan sənaye, yaxud da ki, infrastruktur layihələri artıq bizi qane etmir. Biz qısa tarixi dövr ərzində faktik olaraq yeni sənaye, yeni infrastruktur, yeni sosial infrastruktur yaradırıq. Bu, asan məsələ deyil. Ancaq biz bunu uğurla edirik. Bütün çatışmazlıqlara və qüsurlara baxmayaraq, gördüyümüz işlər təqdirəlayiqdir. Ancaq bu, bizi arxayın etməməlidir. Biz əldə edilmiş nəticələrlə kifayətlənməməliyik. Qabağa baxmalıyıq, irəliyə baxmalıyıq, elə etməliyik ki, ölkəmiz inkişaf etsin, insanlarımız daha da yaxşı yaşasınlar. Bax bu, növbəti aylar və illər üçün mənim hökumətə göstərişimdir. Mən əminəm ki, ikinci rübdə, ondan sonrakı rüblər də bizim üçün uğurlu olacaq, qarşıda duran bütün vəzifələr icra ediləcəkdir. Bu işlərdə sizə uğurlar arzulayıram, sağ olun.






















BAKU


Bakı-Tbilisi-Qars










BAZAR»
TİCARƏ


2006
YOL ÖTÜRÜCÜSÜ
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB İLHAM ƏLİYEVİN SƏRƏNCAMI ƏSASINDA İNŞA EDİLMİŞDİR
2007








2006
YOL ÖTÜRÜCÜSÜ
AZƏRBAYCAN
RESPUBLİKASININ
PREZİDENTİ CƏNAB
İLHAM
ƏLİYEVİN
SƏRƏNCAMI
ƏSASINDA
İNŞA EDİLMİŞDİR
2007










XOŞ GƏLMİŞSİNİZ


XOŞ GƏLMİŞSİNİZ









## MÜNDƏRİCAT

**Z.Məmmədəv,**
Nəqliyyat sektoru dinamik sürətlə inkişaf edir………………………………………………………...səh.5

**E.Qurbanov,**
Ölkə iqtisadiyyatının dinamik inkişafi…………………………………………………..…...səh.14

Bakıda müasir tipli iki körpü və iki piyada keçidi istifadəyə verılmışdir……………...............…səh.20

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərində olmuşdur……………………..…..səh.24

Bakıda növbəti yol qovşağı istifadəyə verılmışdir………………………………………………..səh.25

Bakıda Zabrat-Balaxanı-Binəqədi dairəvi avtomobil yolu və
yeraltı piyada keçidi istifadəyə verılmışdir…………………………………………………….…….səh.29

Bakıda müasir tipli bir körpü və iki yeraltı piyada
keçidi ıstıfadəyə verılmışdir…………………………………………………………………….…səh.39

Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan
hissəsinin təməli qoyulmuşdur…………………………………………………………………..…səh.46

Azərbaycan Prezidenti İlham Əliyev Nərimanov rayonu
ərazisində yeni salınan yolla tanış olmuşdur……………………………………………………....səh.53

Bakıda müasir tipli daha bir körpü və
yeni yol istifadəyə verılmışdir……………………………………………………………………..….səh.55

Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul-Kürdəmir
magistral yolunun açılışında iştirak etmişdir…………………………………………………...səh.59

Azərbaycan Prezidenti İlham Əlıyev Azadlıq meydanı,-
Zığ dairəsi - Heydər Əliyev adına Beynəlxalq Hava Limanı avtomobil
yolunun tikintisinin gedişi ilə tanış olmuşdur ………………………………………………….…səh.63

Azərbaycan dünyanın iakişaf etmiş
ölkələri sırasına daxil olacaqdır……………………………………………………..…..səh.64

**M.Məmmədəv,**

Nəqliyyat sahəsi dinamik inkişaf edir ……………………………………………….…səh.82

İqtisadi tərəqqi və islahatlar strategiyası…………………………………………..…..səh.85

Xalqın seçdıyi lider……………………………………………………………………....səh.100

İmişli: İqtisadi və sosial inkişafın yeni mərhələsində…………………………….…səh.109

Yeniləşən Beyləqan.........................................................................................................səh.115

Quba: Dağlar diyarının yeni həyatı…………………………………………………....səh.124

Gələcəyə böyük inam…………………………………………………………………….səh.128

Ümumxalq məhəbbəti qazanmış qətiyyətli rəhbər………………………………………səh.136

Azərbaycanda iqtisadiyyatın həcmi təxminən ikı dəfə
artmışdır ki, bu, dünyada analoqu olmayan bir göstəricidir……………………………...səh.139

Adambaşına düşən büdcə xərclərinə görə
Azərbaycan nəinki MDB məkanında, bütövlükdə
dünya miqyasında çox yüksək yer tutur………………………………………………….səh.174

***Kitabın hazırlanmasında rəsmi dövlət agentliyi AzərTac-ın və "Respublika" qəzetinin materiallarından istifadə olunmuşdur.***

*Kompüter dizayneri:* ***Tural Əhmədov***
*Texniki redaktor:* ***Rövşanə Nizamiqızı***
*Montajçı:* ***Rasim Hacıyev***
*Operator çapçı:* ***Elşad Hacıyev***
*Korrektor:* ***Şəkər Məmmədova***

*Şərti çap vərəqi 27.5. Sifariş № 82.*
*Kağız formatı 60x84 1/8. Tiraj 350.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan 1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*